# Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

VII cild



Rafiq Yusifoğlu



# SEÇİLMİŞ ƏSƏRLƏRİ

VII cild

Bakı-2023

Redaktor:

**Məhərrəm Qasımlı**

Rafiq Yusifoğlu. Seçilmiş əsərləri, VII cild. Bakı, ADPU nəşriyyatı, 2023. – 512 səh.

Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, görkəmli şair, ədəbiyyatşünas, "Qızıl kəlmə", "Qızıl qələm", "Vətən", "Araz", "İlin ən yaxşı kitabı" və s. mükafatların laureatı, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlunun "Seçilmiş əsərləri"nin yeddinci cildinə onun "Sevdalı ömür yaşadım" (2019) kitabındakı poetik nümunələrin bir qismi, "Zəfər dastanı" (2021) kitabındakı şeirlər, eləcə də 2021-2022-ci illərdə qələmə alınmış təzə əsərləri daxil edilmişdir.

$©\frac{19478975}{1957(H)2023}$ - Qrifli nəşr

**© Rafiq Yusifoğlu**

# “Sevdalı ömür yaşadım” kitabından

## Amerika dəftərindən (ardı)

***

Gözlərim dikilibdir
Üzü vətənə sarı.
Ondan doğma
kimin var,
Şair, Vətənə sarıl!

**01.09.2017**

***

Qürbətdə
çox darıxmışam,
çox şükür,
indi vətəndəyəm…
Gərək indən belə
“Sənsiz bir günüm
olmasın,
Vətən!” – deyəm**…**

**01.09.2017**

***

Təyyarənin qanadı,
Günə dəyib qanadı...

## BU BOYDA DÜNYADA ÖZÜNƏ YER TAPMAYAN ADAM

Darıxırsan bu yer üzündə
Təyyarəyə minib
göy üzündə süzürsən,
Gəmiyə minib dənizlərdə,
okeanlarda üzürsən...
Yerdə darıxırsan,
Göydə darıxırsan,
Okeanda, dənizdə darıxırsan, –
nəyin çatmır ki,
özünü bu qədər üzürsən?!
Özgələri isidən ocağından,
közündən narazısan,
özündən narazısan,
sözündən narazısan...
Sərsəri küləklər kimi əsirsən,
Dünyanın bu başından
o başına tələsirsən...
Ürəyin dağdan dağa,
dərədən dərəyə səsləyir səni.
Heç özün də bilmirsən
qarşıda nələr gözləyir səni!
Elə bil dünyanın üstünə
hirsini, acığını tökməyə
bəhanə gəzirsən,
Bu da Amerika,
Hollivud, Sakit okean –
Daha nə gəzirsən?!

**02-07.08.2018**
**Los Anceles, Venis**

## DÜNYA ELƏ HƏMİN DÜNYADI

İstəyir quru üzü olsun,
istəyir su üzü...
Dünya elə həmin dünyadı, –
İstəyir o üzü olsun,
İstəyir bu üzü...
Bu balaca dünyanı
nə qədər gücümüz yetir
zaman-zaman yaralamışıq.
Onu ölkə-ölkə,
diyar-diyar,
vilayət-vilayət,
şəhər-şəhər,
kənd kənd,
məhlə-məhlə paralamışıq.
Unutmuşuq ki,
bizim yaratdıqlarımızdan
daha mükəmməldi,
dəyişməzdi
həyatın qanunu...
Unutmuşuq ki,
dünya bizim deyil,
biz dünyanınıq!

**08.08.2018**
**Los Anceles, Venis**

## QÜRBƏT

Mən qürbətdə
vətənin bir parçasıyam,
Vətəndən əsən yellərə qoşulub,
quş kimi qanad açasıyam –
Okeanların,

dənizlərin üstündən
Vətənə uçasıyam!
Qəlbimdə Vətən eşqi
olduğu üçün
Ucaların ucasıyam...

**08.08.2018**
**Los Anceles, Venis.**

## TƏKRAR

Eyni yerdə hər il
gəzə bilərsən,
Eyni güldən hər il
üzə bilərsən,
Eyni dənizdə, çayda
hər il üzə bilərsən...
Ancaq əslində nə sən
ötən ilki adamsan,
nə o yer həmin yerdi,
nə o gül həmin güldü,
nə də o dəniz, çay eynidir...
Ömrün ömrümüzdən
qopan illəri, ayları, həftələri
adamı göyüm-göyüm ğöynədir...
Ancaq necə deyə bilərik ki,
bu hisslər təzə deyil, köhnədir?!
Özümə əminəm,
fikrim qətidir:
ömürdə hər şey, hər şey
müvəqqətidir:
sevgilər də,
əzablar da,
həyat da...

Eyni işi dönə-dönə
təkrarlasaq da,
əslində təkrar heç nə
yoxdu həyatda...

**09.08.2018**
**Los Anceles, Venis.**

## XATİRƏ AĞACININ KÖLGƏSİ

Xatirələr –
ömrün yaddaşa hopan
izləridi,
Xatirələr –
arxamızca baxan
mehriban ana gözləridi,
Xatirələr –
sönən ocağın arabir
kül alta işaran közləridi...
Doğmalarını, əzizlərini
itirən insan
bəzən azır
həsrət dumanında,
əzab çəkir
xiffət tənhalığında.
Xatirələr –
yalnız öz gözümüzə görünən
sehrli bir ağacdı elə bil, –
kölgəsinə sığınırıq
bu günün iztirab günəşi
bizi yandırıb yaxanda...

**09.08.2018**
**Los Anceles, Venis**

***

Mənə “həmişə istirahətdə”
deyənlər,
Sözləriniz bir azca
qəlbimə toxunur!
Mən uça-uça,
gəzə-gəzə,
üzə-üzə,
sevgi iztirablarına
dözə-dözə
güclə rahatlayıram ruhumu!
Bütün dünyanı
gəzib dolaşandan sonra
doğulduğum kəndə dönmək
ən böyük arzumdu...
Həmişə istirahət
axı mənim nəyimə lazımdı?!
Duyuram ki,
hələ məni sevənlərə və
mənim sevdiyim insanlara
gərəyəm!
İstirahət yaraşmır axı,
əzizlərim,
sevgi dolu bir ürəyə?!

**10.08.2018**
**Los Anceles**

***

Sakit okeanın
“sakitliyi”ni görəndə
Adam öz sakitliyini
tərk eləyir.
Sakit okeanın
nəhəngliyini görəndə

İnsan öz kiçikliyini,
Allahın böyüklüyünü
dərk eləyir...

**10.08.2018**
**Los Anceles**

***

Ayrılıq əzablarına
bu qədər sinə gərmək,
yurd xiffətinə könül vermək
özü də bir hünərmiş!
Vətəndə qədri bilinməyənlər
Qürbətdə vətənin
bir parçasına dönərmiş!

**11.08.2018**
**Los Anceles**

***

Qarışqa üçün bir qaşıq su ilə
bir vedrə su arasında
fərq olmadığı kimi,
adi insan da okeanla dənizin
fərqini görmür...
Nə Xəzər Sakit okeanın,
Nə Sakit okean Xəzərin
yerini vermir! –
Belə olmasa,
okeanı yaradan dənizi,
Dənizi yaradan gölü,
Gölü yaradan
bulağı yaradardımı?

**10.08.2018**
**Los Anceles**

## YURDA BƏNZƏR YURD GƏZİRİK

Məsafə belə yaxınkən,
Yurd niyə uzağa düşüb?
Dədə-baba ocağına
Gedən yol sazağa düşüb...

Tab etmirik qəm yükünə,
Bir-bir torpağa çökürük...
Dərd hamımızın dərdidi,
Ağrını tək-tək çəkirik!

İçimizdəki nisgili
Parçalayan qurd gəzirik.
Düşmüşük diyarbədiyar,
Yurda bənzər yurd gəzirik...

Yaramızdakı zoqqultu,
Göynərti, heç ara vermir...
Doguldugumuz torpağın
Yerini heç hara vermir...

**11.08.2018**
**Los Anceles, Venis**

## SALAM, MARK TVEN

Salam, Mark Tven!
Sənin sözün mənim ölkəmdədi,
mənim özüm sənin ölkəndəyəm!
Gərək indən belə
sənin ölkənə də
ölkəm deyəm!
Ona görə ki,

bütün yaradıcı insanlar
bir-birlərinə oxşayırlar!
Ona görə ki,
mənim övladlarım da
sənin ölkəndə yaşayırlar!
Hərdən şirin xəyallara dalıb,
yumuram gözümü…
Sənin özün mənim ölkəmə
gedə bilməzsən,
mənim sözüm
sənin ölkənə gələ bilsə,
xoşbəxt sanardım özümü!

**15.08.2018**
**Los Anceles, Venis**

## SƏN HARDAN ÇIXDIN QARŞIMA

Kim uyudu, kim oyandı?
Sazımdakı sim oyandı.
Sən hardan çıxdın qarşıma,
Mürgülü bəxtim oyandı...

Qəlbimdə həvəs oyatdın,
Sanki sehrli damlasan,
Sən bir sevgi dənizisən,
Qoynunda məni damla san!

Buludların kirpiyində
Elə bil yaşsan bir gilə.
Əvvəl-axır o bir damla
Həyat verəcək bir gülə!

**15.08.2018**
**Los Anceles, Venis**

## BULUDDAN AYRILAN YAĞIŞ

Duygusuzun başına kül!
Ya gəl, ya yolumdan çəkil!
Mənə göndərdiyin şəkil
Dönübdür sevgi büstünə!

Donunu əsdirir külək,
Neyləyək, ağlayaq, gülək?
Göylərdən enən bir mələk
Durub şairin qəsdinə!

Min bir gözəl olsa da cəm,
Qəlbimi üşüdür əcəm.
Ya istinə isinəcəm,
Ya kor olacam tüstünə!

Yaradana alqış, alqış! –
Bu nə işvə, bu nə baxış?
Buluddan ayrılan yağış,
En gəl sinəmin üstünə!

**15.08.2018**
**Los Anceles, Venis**

## ÇADIRDAN BOYLANAN NİSGİLLİ GÖZLƏR

Bu gün gözümdən qaçmadı
Qəribə bir mənzərə...
Baxdım çadırdan boylanan
nisgilli gözlərə...
O baxışların önündə elə bil
boşa çıxan arzular,
ümidlər yanırdı...

Küçənin ortasindakı
zibilxanaya bənzər
səfil çadırının üstündə
güvəndiyi ölkənin
bayrağı dalgalanırdı...

**16.08.2018**
**Los Anceles**

## ÖZGƏ ADIYLA DOSTLUĞUMA DAXİL OLAN "DOST"LARA

Hamı hamının gözünə
kül üfürmək istəyir;
bu internet cəngəlliyində
dolaşıq düşüb dünyanın
işi deyəsən...
Kişi libası geyinib
döyüşə gedən o qədər
qızlarımız olub ki! –
Ancaq başına qadın ləçəyi
örtən kişiyə
necə kişi deyəsən?!
Bu internet dünyasında
hərənin bir cürə təmənnası var;
naşı balıqlar tez ilişir qarmağa...
Kim neyləyə bilər axı
dəryalar qoynunda
əsrlərcə duruş gətirən
"qocaman dağ"a?
Ancaq öz aramızdı,
bu "fb" çox qəribə yerdi,
"qadın"ları kişi,

“kişi”ləri qadın adı altında
gizləmək olar...
Elə buna görə də
kimliyini bilmədiyin
“dost”dan
nə desən
gözləmək olar...

**16.08.2018**
**Los Anceles, Venis**

***

Əsrlər boyu
qaranlıqda qalan
əcdadlarımızı
düşünməyə vadar elədi
işıq ehtiyacı, işıq dərdi...
Babalarımız kimi
biz də düşünürük,
xəyala dalırıq...
Yel dəyirmanı,
Su dəyirmanı yerini
Elektrik dəyirmanlarına verdi,
Fəqət enerjini yenə də
yeldən, sudan alırıq...

**16.08.2018**
**Los Anceles**

*******

Macalımız da yoxdu
Ağrımızı udmağa...
Tanrı möhlət verəydi
Arzumuza çatmağa.

Ulu yurd olub talan,
Nə qədər olar yalan!
Haqqım yox, bizsiz qalan
Torpagı unutmağa!

Gözəl meyvələr çoxdu,
Demə gözümüz toxdu,
Taqətimiz də yoxdu
Hər nemətdən dadmağa.

Yol çəkən gözlər doldu,
Ümid gülləri soldu,
Hara baxırsan yoldu, –
Yer yoxdu üz tutmaga...

**19.08.2018**
**Los Anceles, Venis**

## QISA QAPANMA

İşimizə laqeyd yanaşmasaq,
Zəhmətimiz də puç olmazdı...
Naqillər möhkəm bağlanmasa,
Qısa qapanma qaçılmazdı.
İçindəki məhəbbətin
saflığından asılıdı
könül xoşluğu...
Sevgi də cərəyan kimi
bir şeydi,
sevmir boşluğu...

**20.08.2018**
**Los Anceles**

***

Adam bu kişiyə baxanda,
bu kişini dinləyəndə
gülməyi tutur,
barmağını dişləyir...
Bədbəxtin papağı
qoyun dərisindəndi,
başı da qoyun başı kimi
işləyir...

**20.08.2018**
**Los Anceles, Venis**

***

Ömrüm boyu
Xəyanət eləməmişəm
nə özümə, nə özgəyə! –
Riya, iftira məndən uzaqdı...
Hamının qarşısında
alnım açıq,
hamının yanında
üzüm ağdı...
Məni tanıyan
yaxşı bilir ki, indiyəcən
"kiş" deməmişəm
kimsənin toyuğuna!
Mətanətlə sinə gərmişəm
bu dünyanın istisinə,
soyuğuna!
Hamıya, hamıya
kömək əli uzatmışam! –
Heç nə ummamışam əvəzində!
Ürəyim həmişə
olub sevmək,
sevilmək həvəsində...

Məni tanıyanlar yaxşı bilir ki,
sakit adam olsam da,
haqsızlıq görəndə
aləmi bir-birinə qatanam!
Elə bir iş görməmişəm ki,
Kimisə görəndə
xəcalət çəkəm,
utanam!
Mən gül olub
dost bağında açılan,
Tikan olub
düşmən gözünə batanam!

**20.08.2018**
**Los Anceles, Venis**

## TUTUQUŞULAR

Burda tutuquşuları
saxlamırlar qəfəsdə.
Onlar parklarda,
xiyabanlarda
uçuşurlar dəstə-dəstə...
Burda tutuquşular
kimsəni yamsılamır,
öz səsləri, öz nəğmələri
başqa quşların səsinə qarışır! –
Qəfəsdə olmayanda
hamı öz dilində danışır...

**24.08.2018**
**Los Anceles, Venis**

*******

Sizi sevənlərin
qədrini bilin,
sizi sevməyənlərdən
bir şey umunca...
Alim kimi qazandıqları nüfuzu
"şair" kimi xərcləyənlərə
yazıgım gəlir yamanca!
Elmdən şeirə qayıtmaq
cavanlıqda qədrini bilməyib
boşadığın xanımın yanına
qocalanda qayıtmaq kimi
bir şeydi...
Şeir isə xəyanəti bağışlamağı
bacarmayan bir mələk,
sinəsi dağlanan yanıqlı neydi...
Şeir mələyi gözəllərin
ən şıltağı,
ən həssası,
ən safıdı...
Bir də ki,
elmdən şeirə qayıtmaq istəyi
bu sahədə uğur qazana
bilməməyin etirafıdı...

**22.08.2018**
**Los Anceles**

## HEYVANXANADA

Heyvanxanada məni
fikir götürüb...
Şir şirliyini, pələng
pələngliyini itirib...

O nə pələngdi, şirdi ki,
mürgüləyir meşənin,
cəngəlliyin həsrəti ilə
sarala-sarala!
Pəncəsi, dişi çatmır
Qonşu qəfəsdəki
ceyrana, marala...

**26.08.2018**
**Los Anceles, Venis**

## YAXŞILIQ VƏ PİSLİK

İnsanı içindən qurd kimi
yeyir xəbislik!
Yaxşı adam həmişə
yaxşılıq eləyir,
Pis adam pislik! –
Məncə, elə bu yaxşıdı
ikiüzlünün ikibaşlı sözündən,
yalanından!
Kimin nəyi var onu xərcləyir! –
Kasıbın olanından!

**27.08.2018**
**Los Anceles**

## ÜZÜMƏ BAĞLI YOLLAR

Yol var, küçə var adam
Ayağına həsrətdi.
Mən ömrümü sənətə,
Məhəbbətə həsr etdim...

Gəzdim diyarbədiyar,
Döndüm əsl səyyaha.
Bəyaz elə bəyazdı,
Çarə varmı siyaha?

Xiffət, nisgi qəlbimdə
Dönüb qara kölgəyə! –
Doğma yurdumdan başqa
Yolum var hər ölkəyə...

Yuxumu ərşə çəkib,
Sinəsi dağlı yollar...
Mənə rahatlıq vermir
Üzümə bağlı yollar...

**30.08.2018**
**Venis, Los Anceles**

## BOMBOŞ KÜÇƏLƏR

Yaraşıqlı villalar
Hərəsi bir əsərdi.
Burda yaşayanların
Nə qayğısı, nə dərdi?

Ancaq küçələr boşdu,
Axşam olsun, ya səhər!
Adam da işə, gücə
Bağlı olar, bu qədər?!

Baş açmıram doğrusu,
Bu nə ölçü-biçimdi.
Elə bil evlər təkcə
Gecələmək üçündü!

İşıqlar, zəif, solğun
Sanki şam işığıdı.
Elə bil mağaradı,
Tavanlar aşağıdı...

Yol gedirəm piyada,
Mənə nə gərək maşın?
Çıxıb gəzim ki, tənha
Küçələr darıxmasın!

**30.08.2018**
**Venis, Los Anceles**

# BABA VƏ NƏVƏ

## Fatehə

Adını Fateh qoydum ki,
dünyalar fəth eləyəsən!
Xırda-xuruş qayğılarla
sənin nə işin?!
Birlikdə çox güclüyük,
qadirik! –
Sən mənim gələcəyimsən,
Mən sənin keçmişin!

**31.08.2018**
**Los Anceles, Venis**

***

İstini paylaş,
Közünü əsla!
Sözünü paylaş,
Özünü əsla!

**30.08.2018**
**Venis, Los Anceles**

***

Ötən günlərə
Çevirmə arxa! -
Bir də gələcək
Su gələn arxa!

***

Neçə ki ordasan,
Məni də orda san!

***

Oxumaq istəyirəm
mən zildə,
Hənirə həsrət olan
mənzildə!

***

Gedəndə
yad elə,
Vətəni
yad elə…

# BODRUMDA DÜŞÜNCƏLƏR

***

Səhra da çəmənzara
çevrilə bilər,
İnsan quru çölləri
suvarsa…
O yerlərdə
həyat da var,
harda su varsa …
Bu dünyada heç nə
deyil boşlu-boşuna!
İnsanlar havayı yerə
sığınmırlar
çay kənarına,
göl sahilinə
bulaq başına…

**21.07.2019**
**Bodrum, Torba.**

## İZTİRAB ZƏLZƏLƏLƏRİ

Deyirlər ki,
Bodrumda
tez-tez deprem –
zəlzələ olur…
Bəzən dağlar çökür,
bəzən dərələr dolur…

Bu gözəl mənzərlərin yaranmasına
zəlzələlərin səbəb olmasına
inanar kim indi?
Sevdalı ürəklərdə də
tez-tez həyəcan,
iztirab zəlzələləri baş qaldırır, –
Gözəl ürəklər də
gözəl yerlər kimidi…

**21.07.2019**
**Bodrum, Torba**

## XƏYANƏT QAYIQLARI

Sən demə müqəddəs
sədaqət dənizində
sualtı xəyanət qayıqları
üzürmüş...
İndi fırtınalar qoynunda
tənha qalmısan, –
Daha güvəndiyin adadan da
ayaqların üzülmüş…
Bir damcı
ümid nişanəsi belə
üzündə qalmayıb...
Daha güvəndiyin
adaya qayıtmağa
üzün də qalmayıb...
Onu bataqlıqdan
dartıb çıxaranın
qədrini bilməyən əlin
əvvəl-axır dünyadan
üzülməyi var imiş...

Gizlicə-gizlicə üzən
xəyanət qayıqlarının
həqiqətin sərt qayalarına
çırpılıb,
xıncım-xıncım
əzilməyi var imiş...

**21.07.2019**
**Bodrum, Torba**

## ÜZÜ DƏNİZƏ SARI

Biz təknəylə üzürük
Üzü dənizə sarı...
Yol boyu sıralanmış
Qamışlar yaşıl, sarı...

Sağım, solum gözəllik,
Sular qərq olub zərə.
Ovsunlayıb hamını
Könül açan mənzərə...

Dağa yaraşıq verir
Sıralanmış ağaclar.
Adama gəl-gəl deyir
Sıldırımlı yamaclar...

Dərinliklə ucalıq
Verən zaman baş-başa,
Möcüzələr yaranır,
Ürək çevrilir quşa!

Elə bil ki, sevinir
Cilvələnir bax, dəniz!
Dağlarla qol-boyundu
Bu məkanda Ağdəniz...

**22.07.2019**
**Ortaca, Dalyan, Türkiyə**

## SILDIRIMDA QƏBİRLƏR

Tarixə çevrilərmiş
Adicə sıldırım da!
Min ildi qəbir-evlər
Qalıb bu sıldırımda...

Heyrət dolu gözlərim
Hörgülərə dikilib.
Ay aman, burda necə
Qəbir-evlər tikilib?

Sərt daşların köksünü
Paralayıb, oyublar.
Guya ölü baxacaq,
Pəncərə də qoyublar.

Qəribə sərdabələr
Aynabəndə oxşayır.
İnsanlar ölüb gedib,
Qəbirlərsə yaşayır...

**22.07.2019**
**Dalyan, Türkiyə**

*******

Elə bil bizim kimi
düşünməyənlərdən,
bizim kimi yaşamayanlardan
qisas almaq istəmişik.
Gül-çiçəyi dibçəyə,
quşu, canlını
Qəfəsə salmaq istəmişik...
Özgə kimi düşünmək,
özgə kimi yaşamaq asanmı?
Niyə insan hər şeyi özü kimi
tərbiyə eləmək cəhdindən
usanmır?
Vəhşi təbiət deyirik!
Təbiətmi vəhşidi,
onun bakirəliyini,
ahəngini pozanmı?

**22.07.2019**
**Bodrum, Türkiyə**

## QUM ZANBAQLARI

Necə gözəldi
Qum zanbaqları.
Soldura bilmir
Qum, zanbaqları...

Bu güllər qaynar
Quma öyrəşib.
Salamlayırlar
İsti günəşi!

Belə sevgiylə
Baxmazdım mən də –
Onlar bitsəydi,
Bəlkə çəməndə?!

Qum zanbaqları
Gözdən düşərdi...
Güllər içində
Adiləşərdi.

Şüa qılıncdan
Sanma qorxandı,
Ağ ləçəkləri
Bəyaz qalxandı...

Həyat rəmzidi,
Zərif çiçəkdi...
Qumlu səhraya
Bu gül bəzəkdi...

Yer altdan gələn
Sədadı onlar...
Qum dənizində
Bəmbəyaz, zərif
Adadı onlar...

**22.07.2019**
**Ortaca, Dalyan, Türkiyə**

***

Mən dağlar oğluyam,
Dağlara baxıb
çox köks ötürmüşəm...

Dağlardan əlim çıxıb,
ona görə dənizlərə
pənah gətirmişəm...

**23.07.2019**
**Bodrum, Torba**

*******

Bu it özgəyə yox,
özümüzə hürür,
Bu it hürə-hürə
yuxular görür...
Bu it
nə həyət-bacanı qoruya,
nə də sahibinə
quyruq bulaya bilir...
Bu it oğrudan çox
doğruya mırıldayır,
çaqqal kimi ulaya bilir...
Bu it o karvanın,
bu karvanın dalınca
baxa-baxa qalıb...
Bu itin işi
Allaha qalıb...

**23.07.2019**
**Bodrum, Torba**

## ŞƏKİL ÇƏKDİRƏNDƏ

İnsan gözəl bir mənzərə
görən kimi,
ürəyində şəkil çəkdirmək
istəyi oyanır...

Ya əzəmətli dağın,
ya dalğalı dənizin
önündə dayanır...
O, bənzəmək istəyir,
çiçəkli yamaca,
dənizdən boylanan günəşə...
İnsan gözəlliyə arxalansa da,
Özü də bilmədən
Ona arxa çevirir həmişə!

**25.07.2019**
**Bodrum, Torba**

## ADİ HƏQİQƏT

Sözü anlayanda,
sözü duyanda
elə bil qəlb nurlanır.
Ən böyük kəşf
ikicə sözlə ifadə olunub:
“Yer fırlanır”!
Böyük həqiqəti
sadə bir libasda görəndə
ürək rahatlıq tapar,
göz gülər.
Biz isə
ən adi həqiqəti belə
o qədər dolaşdırırıq ki,
nə özümüz bir şey
başa düşürük,
nə də özgələr...

**29.07.2019**
**Bodrum, Torba**

***

Mənimki mənə dəyir
İnsan "ələyənəcən"...
Qaranlıq könülləri
Nura bələyənəcən...

Öndə xəbis duzağı,
Gözün görmür uzağı,
Xəyanətin sazağı
Keçib iliyinəcən...

Həsrət yüklü qatarsan,
Yad səmtə üz tutarsan,
Mustafa de, qurtarsın
Mus-mus eləyənəcən...

**30.07.2019**
**Bodrum, Torba**

## ZAMANIN ƏLƏYİ

İnsana düşüncəsi
Daim eləyib kömək, –
Taxılı zir-zibildən
Arıdıb xəlbir, ələk...

Hamı üzü ağ çıxmır
Həyatın sınağından, –
Adamları seçməyə
Zaman xəlbiri gərək...

Ən zərif, gözəl çiçək
Bəzən qalır kölgədə,
Boynu əyri bənövşəm,
Nə keçir ürəyindən?

Şadaradan, xəlbirdən
Keçə bildik bəlkə də,
Keçə biləcəyikmi
Zamanın ələyindən?

**31.07.2019**
**Bodrum, Torba**

## SƏN MƏNİ ÖZÜNÇÜN SEV, SEVƏ BİLSƏN

Üşüyən könlümdə sonuncu köz tək
Nə vaxtsa, işarıb, söndün, əzizim.
Sən mənim ömrümün qürub çağında
Sevgi günəşinə döndün, əzizim...

Yaxşı bilirəm ki, qəlbin buz deyil,
İllər könlümüzü daşa döndərib.
Sevgidən danışan yaşımız deyil,
Küllə oynayırıq odu söndürüb...

Azalıb qəlbimin odu, atəşi,
İçimdə yurd salıb həzin bir kədər.
Adamı isitmir qürub günəşi,
Bəs sən harda idin bu vaxta qədər?

Sevdalı başımda şimşəklər çaxır,
Küsərəm sözümü "səfsəfə" bilsən...
Mən səni səninçün sevmədim axı,
Sən məni özünçün sev sevə bilsən...

**29.07.2019**
**Bodrum, Torba.**

## SEVGİ QƏFİL GƏLƏN SELƏ BƏNZƏYİR

### GÖYDƏ TANRI KƏSIB NİKAHIMIZI

Eşqinə şahid tut sən ayı, günü,
Bənzəri yox imiş bu məhəbbətin…
Qəlbinə nur saçan böyük sevgini
Dilə gətirməyə yoxdu taqətin…

Güc al məhəbbətin qadir səsindən,
Onsuz da bilirəm ürəyin safdı.
Qorxub böyük eşqin vahiməsindən,
Susmağın özü də bir etirafdı…

Sevgi sağaldarmış ruhu əlili,
Ağlıma gəlməyən başıma gəldi…
Gizli bir sevginin aşkar dəlili
Bilirsən heç necə xoşuma gəldi?

Ürək işindəymiş gözdən xəbərsiz,
Tanrı eşidirmiş gileyimizi…
Əzizim, sən demə bizdən xəbərsiz
O özü yazıbmış taleyimizi!

Heyranam sevginin qadir gücünə!
Qoy eşq nurlandırsın sabahımızı…
Yerdə nə deyirlər, alma vecinə,
Göydə Tanrı kəsib nikahımızı…

**18.03.2017**

## YARALI DURNA TƏK

Batıb şair könlüm dərdə, äləmə,
Sanma ki, o, qəflət yuxusundadır.
Sən əl uzatsan da mənim əlimə,
Bir əlin keçmişin yaxasındadır…

Ağrı var qəlbinin hər parasında,
Süzülür könlünə yaş gilə-gilə…
Qalsan da sən iki od arasında,
Sevdalı ürəyin üşüyür hələ…

Dadmısan hicranın acı barından,
Neçə yol yanımdan ötüb keçmisən…
Daşa dəyən eşqin ağrılarından
Xilas olmaq üçün məni seçmisən?!

Sevdalar kəsilib qənim qəlbimə,
Dirənib boynuma həsrət ülgücün…
Pənah gətirmisən mənim qəlbimə
Hicran sazağından qorunmaq üçün…

Durna tək tərk etdin öz qatarını,
Qəlbim tir-tir əsir həyəcanımdan.
Öpüb sağaldacam qanadlarını,
Uçub gedəcəksən mənim yanımdan…

Eşqin göylərində şimşəklər çaxır,
Mürgülü keçmişi oyadacaqsan…
Ancaq hara uçsan, sən əvvəl-axır
Yenidən yanıma qayıdacaqsan…

**25.05.2017**

## SEVGİ QATARINA GECİKSƏN ƏGƏR

Yazırsan ki, məndən sevgi istəmə,
Ürəyim köksümdə fəğan qoparır…
Həsrətin sel kimi axır üstümə,
Ötən sevdaları yuyub aparır…

Geymisən əyninə qısqanclıq donu,
Nələr düşünürsən baxıb güzgüyə?
Məbədlər boş qalmır, bilirsən bunu
Öz tale payını vermə özgəyə….

Çətin ki, kiməsə əyiləm, ay qız,
Niyə həvəslisən könül qırmağa?
Mən yuva dağıdan deyiləm, ay qız,
Vaxtım var heç təzə yuva qurmağa?!

Sevginin önünü kəsmək çətindi,
Yığılıb, yığılıb, gölə dönəcək.
Nə vaxtsa uçurub bərəni, bəndi
Bir qorxunc, amansız selə dönəcək…

Göz açıb yumunca ömür qurtarır,
Günlərin ah-vayla ötüşüb sənin.
Min il gözlədiyin qismət qatarı,
Axır ki, yanına yetişib sənin…

Zamanın hökmünü bilmirsən məgər?
Onsuz da bu dünya deyil özündə.
Sevgi qatarına geciksən əgər,
Tənha qalacaqsan bu yer üzündə…

**31.05.2017**

***

Bacarsan sev məni, oxşa, əzizlə,
Saçlarına düşən təzə dən kimi…
Elə hopmusan ki, mənim ruhuma
Sevə biləcəyəm təzədən kimi?!

**11.06.2017**

## SEVGİNİN ƏLİNDƏN ÇƏTİN QAÇASAN

Başın açılanda axtar, ara bir,
Göyü olmayandan quş soruşarlar?
Sən qoca deyirsən mənə arabir, –
Əzizim, şairdən yaş soruşarlar?!

Qəlbinə toxunma qəlbi dolanın,
Yaşlı olmağımı dərd eləyirsən?
Doğma vətənində qərib olanı
Qürbətə getməklə hədələyirsən?!...

Sevgisiz sən necə uça bilərsən? –
Gərək göy ola ki, qanad açasan…
Bizim məmləkətdən qaça bilərsən,
Sevginin əlindən çətin qaçasan…

**06.06.2017**

## SEVGİNİ ÜRƏKDƏ GİZLƏMƏK OLMUR

Dəli bir şairə könül verən qız,
Məndən qaçmaq cəhdin hədərmiş, hədər.
Qara gözlərimdə sevgi görən qız,
Bəs niyə susurdun bu vaxta qədər?

Bürüdün dumana, çənə sevgini,
Dolandı həftələr, sənələr ötdü.
Neçə yol dəfn etdin mənə sevgini,
Neçə yol toxum tək cücərdi, bitdi…

Kim aşa bilib ki, həsrət dağını?
Sevgisiz bir könül qara zülmətdi.
Daş basdın ağzına eşq bulağının,
Qəlbinə bu qədər niyə zülm etdin?

Önünü kəsəndə eşq çeşməsinin,
Bilmirdin yığılıb selə dönəcək?
Bilmirdin nə vaxtsa qaynar nəfəsin
Dənizi coşduran yelə dönəcək?

Üstündən ayrılıq yelləri əsib,
Tale üzüyümə  cilamısan sən?
Nə üçün vüsalın ömründən kəsib,
Hicranın ömrünə calamısan sən?

Necə tənha qoyum məni duyanı?
Həsrətin od salıb canıma mənim.
Gəzib dolansan da düzü, dünyanı
Yenə qayıtmısan yanıma mənim…

Ümid şöləsi var işaran közdə,
Bəzən bircə an da gözləmək olmur.
Günəşi buludda, həsrəti gözdə,
Sevgini ürəkdə gizləmək olmur…

**04.12.2017**

## SEVGİ SELİ VƏ BƏNDƏ HASARI

Bəndə nə karədi Tanrı yanında? –
Bizi qovuşduran qədərdir, qədər.
Söylə, qəlbindəki təmiz sevgini
Niyə gizləmisən bu vaxta qədər?!

Niyə dağ çapmağa qadir bir eşqin
Üzə çıxmağını dərd eləmisən?
Niyə içindəki nuru, işığı
Sən öz sükutunla pərdələmisən?

Ancaq duymusan ki, bu yer üzündə
Təkcə ürəyinin mənəm simsarı…
Tanrı yaratdığı sevgi selinin
Önündə neyləyər bəndə hasarı?!

**01.01.2018**

***

Dənizsən, tənhayam sahilində mən,
Dənizəm, tənhasan sahilimdə sən!
Səni axtarmışam ömrüm uzunu,
Dənizim də sənsən,
sahilim də sən!

**2018**

## ƏGƏR SƏN İSTƏSƏN…

Elə istəyir ki, səni ürəyim,
Hazıram həsrətə qan uddurmağa.
Gücü yetəcəkmi mənim sevgimin
Ötən sevgiləri unutdurmağa?

Yandırmaq olarmı yananı bir də?
Qəlbin göynəməzmi sevgi közündə?
Ola biləcəmmi sevgi şimşəyi
Sənin bulud kimi dolan gözündə?

Titrək öpüşlərim ürəyindəki
Ağrını, acını götürəcəkmi?
Üstünə ələnən sevgi yağışı
Qəlbində təzə gül bitirəcəkmi?

Bilirsən: qəlbimdə sığınacaq var
Həsrət sazağında üşüyən gülə…
Əgər mən istəsəm xəzan ömrümə
Bahar gətirərsən nəfəsin ilə?

Əgər mən istəsəm, atıb hər şeyi
Su pərim olarsan coşqun dənizdə?
Əgər sən istəsən, nələr etməzdim?
Əgər sən istəsən…
Təki sən istə!!!

**14.12.2017**

## NİYƏ BELƏ GEC GƏLMİSƏN DÜNYAYA?

– Qəm buludu yuva salıb üzündə,
Qovrulursan sən intizar közündə,
Arzuların qala bilər gözündə, –
Niyə belə gec gəlmisən dünyaya?!

– Oynayırsan kül altdakı közlə sən,
Sözlərini söyləyirsən gözlə sən,
Nə olardı məni bir az gözləsən? –
Niyə belə tez gəlmisən dünyaya?

– Qismətinə düşən paya dönmüşəm,
Sevgin ilə daşan çaya dönmüşəm,
Sən günəşsən, mənsə aya dönmüşəm, –
Niyə belə gec gəlmisən dünyaya?!

– Qərq etsə də, bizi sevda dənizi,
Bu taledi, günahımız yox bizim,
Tutaq ki, mən gecikmişəm, əzizim,
Bəs sən niyə tez gəlmisən dünyaya?

– Neyləyəcəm indən belə bağ salıb?
İntizarın gözlərimə ağ salıb,
Aramıza illər dərə, dağ salıb, -
Niyə belə gec gəlmisən dünyaya?!

– Elə bil ki, köksümdəki ürəksən,
Heç bilirsən mənə necə gərəksən?!
Bir az məni gözləyəydin gərək sən,
Niyə belə tez gəlmisən dünyaya?

– Ayağının altındakı yol çöküb,
Ömür boyu mənim gözüm yol çəkib,
Bu qismətə tale özü qol çəkib, –
Niyə belə gec gəlmisən dünyaya?!

– Həsrətinlə yoğrulmazdı bu dünya,
Gözümüzə dağ olmazdı bu dünya,
Ləngisəydin, dağılmazdı bu dünya,
Niyə belə tez gəlmisən dünyaya?

– Göynəsək də, bu sağalmaz yaradan,
Şükür, bizi görüşdürüb Yaradan!
Harda idin, ömür ötüb yarıdan, –
Niyə belə gec gəlmisən dünyaya?!

– Ömür köçüm minib əcəl atına,
Əlac varmı ürəyimin çatına?
Ayrılığı al gözünün altına, –
Niyə belə tez gəlmisən dünyaya?!

– Gözlərindən ürəyimi oxusan,
Görəcəksən köksümdəki dağı sən.
Bu vaxtacan harda idin axı sən? –
Niyə belə gec gəlmisən dünyaya?!

– Dilə düşüb dastan oldu eşqimiz,
Könül verdik bir ilahi eşqə biz,
Yana-yana deməyəydik keşkə biz
Niyə belə gec gəlmisən dünyaya?!
Niyə belə tez gəlmisən dünyaya?!

**2004-2018**

## QIŞ YAĞIŞI

Dözəmmirsən ayrılığa, bilirəm
Gözlərinin giləsinə qəm çöküb…
Diqqətlə bax, adi deyil bu yağış,
Həsrətimin buludundan nəm çəkib…

Bircə dəfə baxışımız tuş gəlsə,
Bəbəyində eşq şimşəyi çaxacaq.
Nə zamansa selə dönüb bu yağış,
Düz sinənin arasından axacaq…

Səhərəcən yağan sevgi yağışı
Sümüyünə, iliyinə hopacaq.
Qulaq assan ürəyimin səsinə,
Ürəyində fırtınalar qopacaq…

Qızınmağa isti soba gəzirsən,
Sən ac quşsan, sevgi dənmi, bilmirəm?!
Uçunursan, tir-tir əsir bədənin,
Yağışdanmı, sevgidənmi, bilmirəm?!

Eşq taleyin bəxşişidi, bilirsən
Ürək olmur hər nazənin sənəmdə…
Soba nədi, qızınarsan baş qoyub,
Eşq odundan saca dönən sinəmdə…

Yağış yağır, islanmışıq yamanca,
Heç bilmirəm qaçaq hara, əzizim?
Görən bizi nə gözləyir qarşıda
Qış yağışı dönsə qara, əzizim?!

**01.01.2018**

## BU YAZ SABAHINDA

Sirli bir aləmdi insan fitrəti,
Bir təmiz məhəbbət dərdə əlacdı.
Bu yaz sabahında qəlbim titrədi,
Axır ki, sən mənə könlünü açdın…

Həsrətin əlinə keçibdir yaxan,
Köksündə  nə qədər ağrı, acı var!
Sənin ürəyinin gizlicə çaxan
Sevgi şimşəyinə ehtiyacı var…

Sanma xəbərsizəm umacağından,
Baxışın qəlbimə olubdur açar.
Bircə köz götürsəm eşq ocağından
Sevdalı gözlərin qığılcım saçar…

Mizraba həsrətdi qəlbinin simi,
Məlhəmsən köksümə çəkilən dağa…
Elə utancaqsan, bənövşə kimi
Kol dibi gəzirsən daldalanmağa…

Qoymaram kimsəni dəyə xətrinə,
Sönməsin sevilmək, sevmək həvəsin!
Ciyərim həsrətdi çiçək ətrinə,
İsti yaz yelidi sənin nəfəsin…

Gül qoxusu gəlir aylı qoynundan,
Sənə bir kimsəni yaxın qoymaram.
Bənövşəyə bənzər zərif boynundan
Gecə səhərəcən öpsəm, doymaram…

Xəyal dünyasında salmışıq binə,
Sevənə neyləyər qoruq-qadağa?!
Sənin məhəbbətlə dolu qəlbinə
Sevdalı ürəyim olsun sadağa!

**06.03.2018**

## İLK BAHAR YAĞMURU, SEVGİ GÜNƏŞİ

Sənə əmanətdir könlümün barı,
İlk bahar yağmuru ürək oxşayır.
Yağışda yuyunan lüt ağacların
Tumurcuq gözündə nisgil yaşayır…

Meşə öz başının hayında qalıb,
Duman bürüyübdür dərəni, düzü…
Bəs sevgi günəşi hayanda qalıb?
Niyə təbiətin tutqundur üzü?!

Təzə çiçəkləyib bağda ağaclar,
Buludlar göz yaşı tökür elə bil.
Hava çiskinlidir, dağlar, yamaclar
Sevgi iztirabı çəkir elə bil…

Çiçəyi çırtlayan budağa göz dik,
O da səni sevsin,
sev ki, günəşi!
Hava qan ağlayır, bizsə xoşbəxtik
Yanır köksümüzdə
sevgi günəşi…

**04.04.2018**

## SEVGİ GÖYLƏRİMİN AYI SƏN OLDUN

Qəlbim titrək yarpaq, sən bir sazaqsan,
Könül məbədimdə dönmüsən bütə...
Sən elə uzaqsan, elə uzaqsan,
Əllərim çətin ki, əlinə yetə!

Məlhəm et qəlbimə saldıgın çata,
Baxıb həsrət çəkir ay yanağına!
Təşnə dodaqlarım çətin ki çata
Sənin ay üzünə, ay yanağına!

Bilmirəm heç hardan qarşıma çıxdın? –
Belə sevməmişdim hələ heç kimi!
Sevgi göylərimdə ay kimi doğdun,
Özümə qaytardın həyat eşqimi...

Qalıb uzaqlarda sübh şəfəqləri,
Könül tənhalığı mənə zülm edib.
Sənin ay üzünü görəndən bəri
Əriyib qəlbimin qara zülməti...

Duyumsuz kəslərlə mənim nə işim? –
Ömrün bu çağında payım sən oldun.
Qüruba enəndə sevgi günəşim,
Zülməti əridən ayım sən oldun!...

**19.06.2018**

## BU DÜNYA GÖZÜNDƏN DÜŞƏCƏK SƏNİN

Mən bir eşq dağıyam, şimşək olsan da,
Çətin ki, baş əyəm, əyiləm sənə!
Mənə hava kimi gərək olsan da,
Yalvaran, yaxaran deyiləm sənə!

Qəmli baxışınla yolları öpsən,
Görərsən sərgərdan qalan sevgimi.
Ürəyim çat-çatdı, göz yaşı səpsən,
Bəlkə dirçəldərsən solan sevgimi!

Mənim məhəbbətim təmiz olsa da,
Zövqünə tən gələn biçimdə deyil...
Mənim məhəbbətim dəniz olsa da,
Səni ram eləmək gücündə deyil...

Apara bildinmi gətirdiyini? –
Qəlbin eşq odunda bişəcək sənin.
Dərk etsən nələri itirdiyini,
Bu dünya gözündən düşəcək sənin...

**08.10.2018**

## HƏSRƏT SAZAĞINDA ÜŞÜYƏN ÇİÇƏK

Olsan da göylərdə bir dəli şimşək,
Ruhu kar səsini çətin eşidə.
Həsrət sazağında üşüyən çiçək,
Səni qızdırammır yay günəşi də…

Elə bil dünyanı sən unutmusan,
İllərin şaxtası hopub canına.
Sıldırım üstündə qərar tutmusan,
Kimin  hünəri var gəlsin yanına?

Sənə çata bilmir hər əsən külək,
Sevgi dənizində ada olmusan.
Həsrət sazağında üşüyən çiçək,
Mənim ürəyimi oda salmısan…

**10.07.2017**

## KÖKSÜMDƏ BİTƏN ÇİÇƏK

Sən mənim baharımın ən ətirli gülüsən,
Sevda zəmimin təzə dən tutan sünbülüsən…
Basam səni bağrıma qucağımda itəsən,
Bir zərif çiçək olub sinəm üstdə bitəsən…

**16.04.2017**

## HƏRDƏMXƏYALLARI SEVƏ BİLMƏDİM

Yol hamar olanda qaçar at asan,
Qızımdan kiçiksən, məni ata san,
Yazırsan: "Adını qəlbimdən atdım" –
Sahib olmuşdun ki, məni atasan?

Sevgi əzabını şükür ki, daddın,
Dəli bir sevdayla atlanır döşün…
Asandı  söyləmək "qoparıb atdım" –
Ürəksiz yaşamaq olarmı, düşün?

Hamının yanında uzundur dilim,
Heç vaxt qarışqanı dəvə bilmədim.
Hər dəm xəyallara dalsam da, gülüm,
Hərdəmxəyalları sevə bilmədim…

**12.07.2017**

***

Sözlərinə vurulub uydun bir  sərsəriyə,
Ancaq elə bilmə ki, ruhum səndən uzaqdı…
Şair könül verərmi hər huriyə, pəriyə? –
Kimə könül verirsə, yanında üzü ağdı…

**27.01.2017**

## SƏN ELƏ UCASAN

“Gülüşü üzümdən qoparan adam,
Mənim gözlərimə kədər yaraşır…”

**Bir qızın sözlərindən**

Cülüşü üzündən qoparan adam
Həsrət qalacaqdır həmdəm üzünə…
Sənin sevincini aparan adam
Mütləq qərq olacaq qəm dənizinə…

Gec-tez tanıyırıq xalisi, qəlpi,
Əyilmə kimsəyə, özünü topla!
Kövrək bir ürəyi, həssas bir qəlbi
Fəth etmək mümkünmü tüfənglə, topla?

Yandırır sinəmi həsrət közləri,
Vuruldum mən bircə anın içində…
Elə gözəldi ki, sənin gözlərin
Kədər də xoşbəxtdi onun içində…

Əlçatmaz zirvəyə necə uçasan?
Həsrətdən olubdur ürəklər cadar…
Sən elə ucasan, elə ucasan
Yanına sevdalı küləklər çatar…

Sevməsə, qəlbimə qaranlıq çökər,
Onun əyləşdiyi daşa dönərəm.
O gözlər yoluma dikilsə əgər,
Sevgidən alıcı quşa dönərəm…

**14.07.2017**

## SÖZ ADİ OLSAYDI

Neçə ayrılığa ürəyim dözdü,
Həsrəti söz edib kağıza düzdüm.
Hərdən tənə ilə deyirsən mənə,
Bu sevgi deyil ki, quruca sözdü…

Bir ocaq çatmışıq həsrət közündən,
Bir tük də yayınmaz elin gözündən.
Söz adi olsaydı, qorxardıqmı biz
Elin tənəsindən, elin sözündən?

**30.06.2017**

***

Qəlbim nurla dolur baxsan da gendən,
Heyranam hüsnünün yaraşığına…
Mənim həyatıma gəldiyin gündən
Ürəyim bələnib ay işığına…

Qəlbindən keçəni bilirəm axı! –
Sənin tək gözələ hədiyyə süsən…
Bəlkə də ömrümün ixtiyar çağı
Sən mənə Tanrının hədiyyəsisən…

**19.06.2017**

## SEVGİ YAĞIŞI ALTINDA

“Qəlbinizin ən ağır yükü sevgi olsun,
sevgi yağışı altında çətirsiz qalasınız!”

**Bir sms-dən**

– Qızların ürəyində qıymayın sevgi solsun!
Elə düşünməyin ki, alınmaz qalasınız!
Qəlbinizin ən ağır yükü qoy sevgi olsun,
Sevgi yağışı altda çətirsiz qalasınız!

– Ağ saçlarım bənzəyir  ağ sevgi çiçəyimə,
Yaraşığa mindirir soyuq, bəyaz qar qışı.
Lap kərə yağı kimi yayıldı ürəyimə, –
Oy, necə şirin imiş bu gözəlin qarğışı!

Könlüm hər an olaydı kaş ki, sevmək gücündə…
Qəlbim yarpaq tək əsir, dərdimə varmı əlac?
Yağsın sevgi yağışı qalım sel-su içində,
Təşnə olanlar üçün çətirə nə ehtiyac?!

**06.02.2018**

***

Zərif gülün üstünə payız yelləri əsib,
Bilmirəm niyə səni sevdim çox həyatımdan?
Sən ömrümə gələndən ilham pərisi küsüb,
Ya ilham pərisi ol, ya da çıx həyatımdan!

**2017**

## ETİRAF

Məhəbbətsiz qərib sayar bu yer özünü,
Dağ bürünüb inildəyər dumana, çənə…
Bəlkə gəzib gəlməsəydin bu yer üzünü,
Heç gözünün ucuyla da baxmazdın mənə?!

Arı güldən çəkməyirmi ən şirin balı? –
Şair təşnə olsa belə, gözü tox imiş.
Hiss etdin ki, bu dünyada ondan sevdalı,
Səni duyan, dəyərini bilən yox imiş…

Ona görə saçımdakı dəni də sevdin,
Ona görə bahar bildin payızımı da…
Sözlərimə könül verib, məni də sevdin,
Sənin sevgi dənizində payızım – ada…

Qəlbin əsdi, könül verdin ulduza, aya,
İllər boyu axtardığın çıxdı qarşına…
Sən sevginin gözləriylə baxıb dünyaya,
Saf eşqinlə hasar çəkdin ömrün qışına…

Tənha qalan ürək bir gün haray qopardı,
Qəm şehindən pas bağlayan qəlbi saf etdin…
Dəli sevda qürurunu yuyub apardı,
Məni necə sevdiyini etiraf etdin…

**20.05.2017**

## DÜZÜNÜ DE

Düzünü de, necə gördün məni yuxunda?
Gözəlliyin qarşısında ağladımmı heç?
Düzünü de, necə öpdüm sənin sinəndən?
Bir süt zərif bənövşəni qoxladımmı heç?

Düzünü de necə olduq gecə qol-boyun?
Düzünü de, necə gəzdi əlim köksündə?
Ömrün payız dönəmində qismətim oldun,
İcazə ver, gizli gəlib ölüm köksündə…

Düzünü de, üşütdümü odlu sinəmi
Bəyaz sinən, bəyaz köksün quzey qarı tək?
Düzünü de, dodaqlarım dodaqlarının
Şirəsini necə çəkdi bir ac arı tək?

Düzünü de, bəxtəvərə  dönə bildinmi?
Sevinc yaşı çağladımı sənin gözündə?
Düzünü de, nə oyunlar açdın başıma? –
Dinc durana oxşamırsan heç sən özün də…

**21.05.2017**

***

Nə qədər durub gendən baxım sənin xalına?
Bilmirsən neyləyəsən üzgünəm bu halına…
Sən mənim sualıma cavab vermə, eybi yox,
Bir cavabın yoxdumu könlünün sualına?

**12.05.2017**

## SƏN BİR SEVGİ ÇİÇƏYİSƏN

Yaşamısan gözündə yaş, içində ağrı,
Sevgin yoxsa, eşq məbədi yapa bilməzsən.
Min il idi yol gəlirdin sən mənə doğru,
Min il gəzsən, bir də məni tapa bilməzsən…

Kövrək şair ürəyini ləçəyə sarı!
Çox şükür ki, məni tapıb, murada yetdin…
Sən bir sevgi çiçəyisən, ləçəyi sarı,
Heç bilmirəm necə oldu köksümdə bitdin?

Heç bilmirəm nə söyləyim daha sənə mən?
İstəmirəm öz yolundan saxlayım səni…
Taleyinə şükür elə, sığın sinəmə!
Taleyimə şükür edib qoxlayım səni…

Eşqim sınıq bir ürəkdə aşiyan qurur,
Bilmirdim ki, o yuvada heç kim yaşayır…
Gözün aydın, gözlərimdə sevgi bərq vurur,
Gözüm aydın, ürəyində eşqim yaşayır…

**19.05.2017**

***

Unutmaq, unudulmaq söylə, kimə xoş gələr?
Yaza arxa çevirsən, əvəzində qış gələr…
Günahı özgələrdə axtarma, özündə gör,
Yuvanı boş qoyanda ora özgə quş gələr…

**04.02.2017**

# DƏNİZ, DƏNİZ SEVDALI ŞAİR VƏ DƏNİZ GÖZLÜ QISQANC QIZ

"Sən ey dəniz sevdalı, mən gözələm dənizdən"…

**Bir sms-dən**

Baxanda ağlım çaşır, o ilahi gözlərə,
Əbəsdi bu qısqanclıq, əbəsdi bu gileylər.
Dəniz gözlüm, qısqanma məni mavi Xəzərə,
Sənin tək sevgilisi olan dənizi neylər?

Sən ömrümə gələndən dəniz o dəniz deyil,
Sevgidən qəlbim əsir yaşımın bu çağında.
Qoxunu, hənirini dəniz duyub elə bil,
Qərq eləmək istəyir məni öz qucağında.

Qəlbimdən keçənləri kim deyir duymur dəniz? –
Ən sadiq bir dostunu itirməkdən qorxur o.
Bircə istəyimi də cavabsız qoymur dəniz,
Mənə xoş olsun deyə min oyundan çıxır o…

Nə vaxt həsrətli qollar sarılacaq boynuma?
Sən uzaqdan-uzağa ömrümə nur saçırsan.
Dəniz hər axşam - səhər alır məni qoynuna,
Sən dərdimdən ölsən də, məndən uzaq qaçırsan...

Qoyma ki, həsrətimdən bircə çiçək də solsun,
Sevgi marafonunda cinayətdi fasilə!
Əgər istəmirsənsə sevgi şərikin olsun,
Al məni öz qoynuna, dənizdən xilas elə!

**03.08.2018**

## ALTILIQLAR

Sevgi sərhəd tanımır ki, əziz insan!
Ciyərimdə hiss edirəm nəfəsini.
Nə  zamansa qismət olsa görüş bizə,
Çıxacağıq ayrılığın əvəzini…
Daha gizli saxlamaq da mümkün deyil,
Mənim olmaq, sənin olmaq həvəsini!

Eşqin dönüb həyatımın mənasına,
Sözlərinə, gözlərinə oldum əsir…
Okeanın o tayından işıq gəlir,
Yenə səni düşünürəm, qəlbim əsir…
İndi necə sevdiyimi el biləcək,
Dözəmmirəm, darlıq edir qəlbimə sirr…

**30.12.2017**

## SAHİBS1Z ADA

Mənim ürəyim – sahibsiz ada,
Niyə sən bunu salmırsan yada?!
Tez  gəlib ona sahib ol, ya da
Qorxuram qismət ola o yada!
Özgə qəlbində sevgi oyada!
Sonuc deyildir boran, qar hələ,
Ürəyimizdə sevgi var hələ…

**27.01.2017**

***

Sevə bilməz kimsəni,
Kimin ki, qəlbi əsmir,
Sevgi çəmənzarından
Hər an gül dərmək olmur.
Sevgiyə güllə batmır,
Sevgini qılınc kəsmir, –
Sevgi ilahi nurdu,
Onu öldürmək olmur!

**19.06.2018**

## DÖRDLÜKLƏR

***

Nə çoxdu həsrətlilər, eşqin acı olanlar! –
Üşüyənlər, sevgimin oduna qızınacaq.
Tənhalığa məhkumdu dili acı olanlar!
Görək kim itirəcək, görək kim qazanacaq?!

**12.10.2018**

***

Baxışın altında su tək duruldum,
Saldın ürəyimə  həsrət közünü…
Dəniz gözlərini görüb vuruldum,
Nə vaxt görəcəyəm bəs ay üzünü?

**28.06.2017**

***

Həsrətin çəkibdir dağ çiçəklərə,
Təsəllimi verir dağ çiçəklərə?
Əllərin sevgiylə tutsa əlimdən,
Lüzum qalmayacaq ağ çiçəklərə…

**2017**

## SEVGİ DÜNYAMIN LALƏSİ

İntizar bəbəklərim hər zaman səni gözlər,
Yolunu gözləməkdən laləyə dönüb gözlər…

Yenə başım üstündə çaxır hicran şimşəyi,
İşardır içimdəki közü həsrət küləyi…

Yeri-göyü titrədər ürəyimin naləsi,
Mənim sevgi dünyamın hanı qızıl laləsi?

**16.04.2017**

## DƏNIZ GÖZLÜM

Niyə vurulduğumu anlayıram indi mən,
Gözlərin dəniz kimi mavi imiş sən demə…

Sevgi əzablarından yer tapmırsan özünə,
Çox baxmısan Xəzərə, dəniz köçüb gözünə…

Ürəkdə təmiz sevgi elə-belə yaranmır…
Dəniz rəngli gözlərin içində mən varammı?

Gözəlbaz olsam belə meyl etmədim hər gülə,
Sən məni dəniz kimi gözlərində qərq elə…

**07.07.2017**

## SƏN SEVGİ BAĞIMDA TƏZƏ FİDANSAN

Elə düşünmə ki, uşaqsan indi,
Mənim gözlərimdə işıqsan indi..

Nəfəsə dönmüsən, cana dönmüsən,
Damarımda axan qana dönmüsən.

Tanrı qəzəblənər bu eşqi dansan,
Sən sevgi bağımda təzə fidansan…

Sevgi ocağımda közə dönmüsən,
Dilimdə ən şirin sözə dönmüsən.

Tale birləşdirib yollarımızı,
Kim bağlaya bilər qollarmızı?

**10.03.2017**

## BƏLKƏ İLHAM PƏRİMSƏN

Sən elə ilk baxışdan məni yaxın bilmisən,
Bəlkə də bunun üçün taleyimə gəlmisən!

Sağ ol, ürək qızdırıb rəsmini göndərmisən,
Sevdalı ürəyimi gülzara döndərmisən…

Hər şəklin canlı əsər,
Baxanda ürək əsər!

Sənin nur saçan üzün bənzəyir bir günəşə,
Köynəyinin altından boylanır cüt bənövşə…

Mənim sevdalı qəlbim görüşünə tələsər,
Səni oxşamaq üçün köksümdə tir-tir əsər…

Ancaq  təşnə şairi şəkil çətin doyura,
Daha hicran yelləri bizi çətin ayıra!

Mənə yaman doğmasan bilməsəm də heç kimsən,
Qırıq sevgi sazımda yoxsa bir təzə simsən?!

Sevgi çəmənzarımda təzə çiçəklər açıb,
Bir qaynar nəfəs üçün təşnə ürəyim acıb…

Məni yaza səsləyir saçlarının qoxusu,
Sən gələndən, qaçıbdır gözlərimin yuxusu…

İlham pərisisənmi, göylərdənmi enmisən?
Sevgi kəhkəşanımda ulduzamı dönmüsən?

Bəlkə qərib durnasan, qatarından azmısan?
Mənim sevgi bağıma gələn təzə yazmısan?

Tir-tir əsdi sevincdən sanki bəndmiş qəlb himə…
Pənahmı gətirmisən mənim sevən qəlbimə?

Yollarıma dikilib hər an oyaq gözlərin,
Azan sevgi gəmimə olub mayak gözlərin…

Axır ki, ürəyimi gülüstana döndərdin,
Axır ki, mənim üçün ürəyini göndərdin!

Ləçək dodaqlarından necə doysun ac arı?
Kaş ki, məndə olaydı ürəyinin açarı…

Çaxdın sevgi dünyamda qəfil bir şimşək kimi,
Yaz gətirdin ömrümə bir zərif çiçək kimi.

Gözəlliyindir səbəb mənim həyəcanıma,
İstəsən sac sinəmdə əriyib hop canıma.

Gəlişinlə ömrümdə yaza döndərdin qışı,
Zər qədrin zərgər bilər, səni duymaz hər naşı…

Köksündəki o işıq gözlərimə dolaydı,
Özün dediyin kimi kaş halalım olaydın…

**2017**

***

Qürbət alıb əldən mənim Əfsanəmi yoxsa?
Bu sevgi deyil, bir yeni əfsanəmi yoxsa?

Ətri məni bihuş eləyən  nanəni sevdim,
Gerçək olanı sevmədim, əfsanəni sevdim!

Eşqin  günəşi min bulud olsa, yenə itməz,
Allah yaradan sevginin əfsanəsi  bitməz…

**19.05.2017**

***

Eşq bağında yetişən meyvələri – barı sevim!
Ayrı iş gəlmir əlimdən, nə olar, barı sevim!

Onun ağ əllərini əllərimə qismət elə,
Göydəki ağ buludu, zirvədəki qarı sevim!

Nə olar, konlümü köklə təzədən sən qəzələ,
Oxuyum, ləzzət alım, tək o gözəl yarı sevim...

Mən konül qırmağa qadir deyiləm, ey Yaradan,
Könlümə eşq nuru sal, sevdalı lilparı sevim!

**01.07.2018**

***

Sevgilim, mən nə qədər səndən əgər olsam uzaq,
Qəlbinə eşq odu düşsə, itəcək qüssə-sazaq.

Eşqimin güllərini soldura bilməz şaxta,
Gecə qəlbim kimi köz-köz alışan göylərə bax!

Zülməti qoymayacaq bir daha gəlsin yaxına,
Dəli sevda həmişə qəlbimizə nur saçacaq.

Bilirəm, qorxudur hərdən səni həsrət sazağı,
Saçımın rənginə baxma, – ürəyim qaynar ocaq...

Külün altında qalan söz közə dönmüş elə bil,
Bilmirəm sevdalı könlüm nə zaman dil açacaq?

Sevgidən qönçə tutub, bir himə bənddir baxışın,
Yusifoğlu səni sevsə, ürəyin gül açacaq...

**29.10.2018**

***

Qısqanclıq atəşi yandırır, yamandır,
İçini göynədən şübhədir, gümandır...

Təmizsən, duymursan qurulan duzağı,
Üşüdür qəlbini ayrılıq sazağı,
Gözlərin görməyir beş addım uzağı,
Eşqinin yolları dumandır, dumandır.

Xəyanət köksünə saplanan bıçaqdır,
Dünyada sevinc az, dərd qucaq-qucaqdır,
Sevdalı ürəyin bir qaynar ocaqdır,
Qəlbinin telləri inləyən kamandır...

Qoxladın reyhanı, nərgizi, süsəni,
Bu sevda yolunda tanımır kim səni?
Geriyə boylanıb qınama kimsəni,
Yaxanı kədərə tanıtma, amandır...

Sən yerə salmadın qəlbinin əmrini,
Şeirə, sənətə sərf etdin ömrünü,
Sevgiylə yoğurub Yaradan xəmrimi,
Ürəyin daşdan da məhəbbət umandır....

Şax baxa bilirsən hamının üzünə,
Çoxları qızınıb qəlbinin közünə,
Ay şair, hər şeyi dərd etmə özünə,
Hər dərdin məlhəmi zamandır, zamandır...

**01.11.2018**

## SEVGİM HƏQİQƏT OLDU

Gözlərimi görəndə
ürəyindən nə keçdi?
Milyonların içindən
sən niyə məni seçdin?

Mən bir sevgi dənizi,
sən bir dəli dağ çayı,
Geri dönmək istəyin
havayıdır, havayı…

Göynərtidən zövq alıb,
eşqin oduna yandın,
Saçın bəyaz qarını
bahar çiçəyi sandın!

Qəlbindəki bir təmiz
məhəbbətdən güc aldın,
Öz ilahi eşqinlə
zirvələrə ucaldın…

Hər gecə aya baxıb
halımı soruşursan,
Sən elə ucasan ki,
zirvəyə yaraşırsan!

Bizi bu günə salan
sevgi, məhəbbət oldu…
Əfsanənin köksündə
sevgim həqiqət oldu…

**20.05.2017**

## SEVGİ ÇİÇƏYİ

Məhəbbət qurban
tələb eləyir,
Dəlicəsinə
sev ki, çiçəyi,
Solmasın onun
bircə ləçəyi,
Qismətin olsun
sevgi çiçəyi!

Dərib qəlbimdə
bəslərəm onu,
Gülşəndə qalmaz
sevgi çiçəyi.
Gül-çiçək ömrü
az olur, ancaq
Heç zaman solmaz
sevgi çiçəyi…

**27.01.2017**

## SEVGİ ARXIMIZ

– Arxın suyu kəsilsə,
İçi çör-çöplə dolar…
Suya həsrət şitillər,
Güllər saralıb solar…

– Arxı təmizləməsən,
Bostana su axarmı?
Körpə-körpə fidanlar
Boy atarmı, qalxarmı?

– Yalnız saf məhəbbətdi
Pənahımız, arxamız!
Çalışaq, lillənməsin
Bizim sevgi arxımız…

– Göz yaşımdan su içir
Mənim sevgi ağacım.
Bulağı olan kəsin
Arxa nə ehtiyacı?

**2017**

## UNUTMAQ OLMUR

Ay kimi şəfəq saçan
Üzü unutmaq olmur.
Qulağıma dediyin
Sözü unutmaq olmur…

Nə yaxşı ki, sən varsan
Sanırdım buzsan, qarsan,
Dodaqlarmı qarsan
Közü unutmaq olmur…

Ürəyim olub şan-şan,
Yox dərdimi soruşan,
İçində eşq sayrışan
Gözü unutmaq olmur.

Ürəyimi üzür qəm,
Bəbəklərim daim nəm,
Bu nə işdi, bilmirəm
Sizi unutmaq olmur…

**21.03.2017**

***

Dəniz, sevgilini aldım,
Ayrı yar tap sən özünə…
Biz birlikdə baş vurmuşuq
Dünən sevgi dənizinə…

## SEVGİ MƏNİ TƏK BURAXMAZ

"Saçındakı ağ tel qədər
Şair, razısan özündən.
Nə olsun ki, yaşım azdı,
Ölək, bu səbəb üzündən?

"El nə deyər" məsəlinə,
De, nə qədər dözəcəyik?
Bir vurursa ürəyimiz,
Biz ayrımı gəzəcəyik?

Qoca şair, əvvəl-axır
Mənsizliyə alışarsan.
Gedərəm gəldiyim kimi,
Qədərinlə barışarsan…"
Ə.S.

Eşqindən divanə olan
O qoca şair kim idi?
Giley-güzar eşq bağını
Bürüyən çayır kimidi…

Müqəddəs eşq çəmənzarı
Hər yoldan ötən yeridi?!
Unutma ki, giley-güzar
Sevginin bitən yeridi…

“Nə olar, məni sev”, – deyə
Küncə qısmadım kimsəni.
Özün məni sevib-seçdin,
Məcbur elədi kim səni?

“Aşiqlik istedadım var”,
Hamıdan ucayam, – buyam!
Varını verən utanmaz, –
Cavanam, qocayam? – buyam…

Nə vaxtsa özü  tapacaq,
Ölüm, –
məni hədələmə…
Taleyimdən getməyinlə
Gülüm, məni, hədələmə!

Heç vaxt  sevdalı arını
Yanından çiçək buraxmaz…
Vəfasızlar çıxıb gedər,
Sevgi məni tək buraxmaz!...

**20.05.2017**

*******

Yenəmi üstümüzə
Hicran qanad gəribdi?
Sevgilisi olmayan
Vətəndə də qəribdi…

## MƏN SƏNİ ÇİÇƏK SANIRDIM

Mən səni gül ləçəyinə
Bürünən çiçək sanırdım…
Sözlərinə vurulmuşdum,
Təmiz eşqinlə yanırdım.

Bunu yaxşı bilirmişsən
Qəlbim sevgiyə hərisdi.
Ancaq üşüyən könlümü
İsidə bilməz hər isti…

Yaxşı ki, tez duyuq düşdüm,
Çölündən qaraymış için!
Qəlbi saf, ancaq divanə
Şairə çatmadı gücün…

Özgəni yoldan çıxaran
Sirdaş olar dərd-ələmə…
Qara çadranın altında
Günahları pərdələmə…

Hicaba bürünən şeytan,
Məni axtarma, arama!
Çəkmə qəlbimi sınağa,
Girmə Allahla arama!

**28.05.2017**

## SARI ÇİÇƏK VƏ ARI

Kol dibindən boylanır
Mənə sarı çiçəyim.
Həsrətdənmi saralıb
Mənim sarı çiçəyim?

Bilmirəm nə demişəm
Dəyib onun xətrinə.
Ciyərim tamarzıdı
Ləçəyinin ətrinə…

Ürəyi gedir onun
Bir ac arıdan ötrü…
Gəl-gəl deyir, çağırır
Rəngi, şirəsi, ətri…

Ürəyini göynədir
Həsrətin sızıltısı…
Nə gözəl nəğmə imiş
Arının vızıltısı?!

Sarı çiçək baş açmır
Qəlbinin işlərindən…
Bəlkə qorxur, çəkinir
Arının neştərindən?

Arı öpüşlərinə
Öyrəşsə, bala-bala
Sarı çiçək şirəsi
Dönəcək sarı bala…

Sən də mənsiz qalanda
Göz yaşları tökürsən…
Arı öpüşlərimin
Həsrətini çəkirsən…

**01.06.2017**

***

Solan sevgi gülünü
Gözündən yaş tök, suvar!
Baş qoyub ağlamağa
Sevin ki, yar köksü var!

**18.05.2017**

***

Ötən sevgi əzabıyla
Hələ də göynəyir için.
Mənim təmənnasız eşqim
Məlhəmdimi sənin üçün?

## MƏNİM SEVGİ GÜNƏŞİM

Mənim sevgi günəşim,
Həsrət sənə güc gəldi.
Mənim sevgi dünyama
Niyə belə gec gəldin?

Mənim sevgi günəşim,
Dol həsrətin qəsdinə!
Şəfəqli tellərini
Səp sinəmin üstünə!

Ürəyimin səsinə
Ürəyin qulaq assın.
Alovlu yanaqların
Dodaqlarımı qarssın!

Özün hiss elədinmi
Kim isti, kim soyuqdu?
Duydunmu məndən başqa
Sevdalı ürəyinə
Layiq bir kimsə yoxdu?!

**02.12.2017**

***

Yazırsan ki, əvvəl-axır
Məni peşman edəcəksən…
Ürəyimə alov salıb,
Həyatımdan gedəcəksən.

Bu söz-söhbətin günahı
Nə məndədi, nə də səndə…
Sən heç mənim həyatıma
Gəlmişdin ki, gedəsən də?

**06.06.2017**

***

Günəşə don geydirsən,
Yanar, əynində qalmaz.
Mənim sevgi günəşim,
Üzünü göstər bir az…

Qoy baxım, ürəyimdə
Arzular çiçək açsın.
Biz dayanaq üz-üzə
Hicran buludu qaçsın…

**10.06.2017**

## ŞƏBİ-YELDA

İlin ən uzun gecəsi,
Başımda yar sevdası…
Əgər bir az şaxta olsa,
Donacaqdır yolda su…
Həsrətimi azaltmağa
Hər gecə bəs eləməz,
Kaş ilk gecəmiz olaydı
İlin şəbi-yeldası…

**21.12.2017**

## NƏ YAXŞI Kİ…

Nə olsun ki, külək əsir,
Havada qar qoxusu var,
Sevgi günəşi olanın
Soyuqdan nə qorxusu var?

Nə yaxşı ki, mən özüm də
Sənin sevgi günəşinəm!
Gizli sevgi qatarında
Bir əbədi sərnişinəm…

## İLHAM PƏRİSİNİN GİLEYİ

Mən ilham pərisiyəm,
Şərikəm hər işinə!
Yazdığınla öyünüb,
Şair, döymə döşünə!

Neçə qəlbi kövrəyi
Yolundan azdıranam.
Sən şeir yazansansa,
Mən şeir yazdıranam…

Sənə Məcnun deyirlər,
Mənə Leyli deyirlər…
Yazdığından əskikmi
Yazdırdığım şeirlər?!

**06.02.2018**

***

Gözüm qara xaldadı,
Dilim qızıl baldadı.
Çiçək ləçəklərindən
o qədər öpmüşən ki,
dodaqların bal dadır…
Mən çatsam da vüsala,
Həsrət hələ yoldadı.
Sən getmisən özündən,
Gör şair nə haldadı?!

**08.02.2018**

## SARI ÇİÇƏK, ARI VƏ SEVGİ RÜZGARI

Ay sarı çiçək, sarı çiçək!
Bir dön bizə sarı, çiçək!
Təzə ildə təzələn,
Sevdiyinə sarıl, çiçək!
Qoynunda gecələsin
Səni sevən arı, çiçək!
Qoy nəfəsin əritsin
Saçımdakı qarı, çiçək...

***

Niyə səsin kəsildi,
Üstünü qar aldımı?
Şairin həsrətindən
Ləçəyin saraldımı?!

Əsir sevgi rüzgarı,
Ömür yarı, gün yarı…
Sevgin əridəcəkmi
Saçıma yağan qarı?!

**31.12.2017**

***

Sən günəşsən, mən dəniz,
Çevirmə ha, məndən üz!...

**19.06.2017**

***

Necə onu fəth eləyim? –
Ürəyin alınmaz qala.
Şirin bir sevgi nağılı
Qoyma ki, yarımçıq qala,
Qıyma ki, yarımçıq qala…

**2017**

## QOCALAN SEVGİ

Aynayla durub üz-üzə
Mən özümü yığışdırdım.
Gizli sevgi gülşənimə,
Qar ələndi,
yağış durdu…

Sanırdım sevgi məlhəmdi,
Dərdin  yox ayrı əlacı….
Sevgimin əyildi qəddi,
Sevgimin ağardı saçı…

İki addım atan kimi,
Sən mənzil başına çatdın.
Qoca şair deyə-deyə
Körpə sevgimi qocaltdın…

**11.03.2018**

## QARAYA BÜRÜNƏN QADIN

Közə bənzər qamətini
Gizləyib
kömür içində,
Neçə-neçə arzuları
Dəfn edir,
gömür içində!

Nə Məcnunam, nə Kərəməm,
Nə Şeyx Sənan gücündəyəm.
O, qara paltar içində,
Mən qara xof içindəyəm…

**22.02.2018**

***

Yurdumun düzlərində
Lalə beş yüz, lalə min…
Sevgi çəmənzarımda
Əvəzi yox laləmin!

**10.06.2017**

***

Danışma ayrılıq haqda,
Görüşdük ki, ayrılaq da?!

**2017**

## QÜRBƏT BULUDU

Bir az da məndədi günah
Qürbətə saldınsa meyil.
Sevgim səni bu vətəndə
Saxlamaq gücündə deyil!

Ürəyim əsir, havada
Sanki var qürbət qoxusu…
Qəlbimdə minaya dönüb,
Səni itirmək qorxusu…

İçimdə zülmət yurd salar,
Güvə düşər umuduma…
Sevgi günəşim bələnsə,
Əgər qürbət buluduna…

**26.03.2018**

***

Bu dünyada taparsan
kefin istəyən kədər!
Könül verib sevərsən
kefin istəyən qədər!...

**30.06.2018**

***

Kimin oğlu-qızı yoxdu,
Həyatının duzu yoxdu...

## BƏNÖVŞƏ ÖMRÜ

Hava tutqundu bir az,
Tənhasan, üşüyürsən.
Boynunu yana əyib
Söylə, nə düşünürsən?

Mənim küskün bənövşəm,
Zəhmətim oldu hədər…
Sevgimiz də qısaymış
Bənövşə ömrü qədər…

**03.04.2018**

## "SİZ"DƏN "BİZ"Ə

Yollarını gözləirəm,
Gəlib keçsənə!
Uçurub "Siz" hasarını,
Gülüm, keç "Sən"ə!

İstəməyən bəbəkləri
Dələn biz olaq!
"Sən"lə "Mən"i birləşdirək,
Dönüb "Biz" olaq!

**03.04.2018**

## NƏ QALIB Kİ...

Ağrılar qəlbimi didib,
Yurdsuz qalan ömür bitib,
Hasarlar içində itib,
Bu vətəndən nə qalıb ki?!

Dilim dönmür deyim tez gəl,
Qəlbimdəki gülü üz gəl!
Şirin əzablardan özgə
Məndə "sən"dən nə qalıb ki?!

Qəfil fırtına qopardın,
Dəryalar kimi qabardın,
Mənim "mən"imi apardın,
Məndə "mən"dən nə qalıb ki?!

**06.06.2018**

***

Eşqin zülmət gecəsini
Nurlandıran ayımsanmı?
Ömrün ixtiyar çağında
Mənim sevgi payımsanmı?

***

Arzum da, diləyim də sən,
Arzumda, diləyimdəsən!

## NƏ DEYİRLƏR, DESİNLƏR

Arzu çox, ömür qısa,
Sevən qəlb çətin susa!
Könül ver  güllü yaza,
Nə deyirlər, desinlər!

Bədxahların gücü nə?
Sığın eşqin gücünə!
Heç nə alma vecinə,
Nə deyirlər, desinlər!

Həsrət acı zəqqumdu,
Haqsız səndən haqq umdu,
Sev, bu halal haqqındı,
Nə deyirlər, desinlər!

Nə  sözə, nə yaşa bax!
Çox gözəldi yaşamaq,
Qorxaqlığı daşa çax,
Nə deyirlər, desinlər!

Saçın olsa da bəyaz,
Ürəyində gülür yaz,
Öz qəlbinə qulaq as,
Nə deyirlər, desinlər!

Səni salıb yar oda,
Eşqin dəniz, yar – ada!
Üzüb qovuş  murada!
Nə deyirlər, desinlər! –

**07.03.2018**

## ÇƏKİRƏM

Getsəm də üzü yetmişə,
Yüz il dərdini çəkirəm!
Öz elim əlimdən çıxıb,
Yüz el dərdini çəkirəm!

Gileyli gözlər süzülüb,
Tellərə qırov düzülüb,
Qoşmadan əlim üzülüb,
Qəzəl dərdini çəkirəm.

Qollar həsrətdi belinə,
Vaxtsız dən düşüb telinə,
Sevgi dünyama ələnən
Xəzəl dərdini çəkirəm...

Küsürəm hamıdan bəzən!
Bir gün mənim üçün bəzən!
Gözləri gözümü gəzən
Gözəl dərdini çəkirəm...

**13.10.2018**

## XALLI GÖZƏL

Qəm bələkli təbəssümün
Həssas ürəyi qanadır.
Sonsuz zülmətin qoynundan
Qəlbin işığa can atır...

Bu, illərin yanğısıdı,
Həsrət odu çətin sönə!
Saçın sığala həsrətdi,
Başın kişi sinəsinə...

Gecələr aya baxırsan,
Yuxu da getmir gözünə...
Bu etibarsız dünyada
Simsar gəzirsən özünə...

Sənin hönkürən ürəyin
Nə vaxtsa kiridi bəlkə?
İllərin ağrı-nisgili
Bu eşqlə əridi bəlkə?

Baxışlarımız öpüşdü,
Gözüm sataşdı xalına...
Bir cüt göz gərək ağlasın
Şair qəlbinin halına!

Məni gizlicə izləyən
Həsrətli gözlər dolacaq...
Bəlkə bu eşqin sonunda
O xallar nöqtə olacaq?!

**13.10.2018**

## ÖZÜNÜ QORU

Sən bir çiçəksən,
Mən bir ac arı.
Hər qəlbə düşmür
Könül açarı…

Bəbəklərində
Sevgi nuru var.
Kövrək qəlbini
Mən tək kim duyar?!

Qıymaram düşsün
Adına ləkə…
Ay tək üzünə
Buludlar çökə...

Alova dönsün
Qəlbinin qoru!
Gözümün nuru,
Özünü qoru!

**22.05.2018**

## SEVGİ MƏLHƏMDİ

Hələ çox küsüb
Barışasıyıq…
Eşq göylərində
Sayrışasıyıq…

Bir döyünürsə
Sevən ürəklər,
Neyləyər bizə
Quduz küləklər?!

Qəlbimdə daşan
Həvəs sevgidi.
Aldığım hava,
Nəfəs sevgidi…

Mən necə açım
Paslı kilidi?
Ağlayan qəlbi
Necə kiridim?!

Əzab çəkənin
Gözləri nəmdi…
Bütün dərdlərə
Sevgi məlhəmdi…

**2018**

***

Ən gözəl çiçək də
quraqlıq olanda
saralır, solur…
Ən ülvi sevgi də
laqeydlik cəngəlliyində
azır.
Arx ilə daim
su axmayanda
içi xəzəllə,
zir-zibillə dolur.
Cığırla getməyəndə
içini ot, çayır basır…

**27.01.2017**

***

Qadın – qəlbimizdə işıq,
başımızda tacdı.
Qadın həmişə
sevgiyə möhtacdı…
Təmiz sevgi
bütün dərdlərə dərman,
çarəsiz ağrılara əlacdı…

**06.02.2017**

***

Sevginin önündə qürur,
Sıldırımlı dağ tək durur...

**30.06.2018**

***

“Rüsvay gərək həmişə aşiq” -
deyib Füzuli babam,
İndi rüsvaylığı sən də al
gözünün altına…
Qabaqlar hisslərimin fövqündə
durmağı bacarırdım,
İndi onlar məni alıb
dizinin altına…

**25.03.2017**

## DƏNİZ SAHİLİNDƏ GÜNƏŞİ SEYR EDƏN QIZ

Dayanıb  dənizin sahilində
Seyr edirsən doğan günəşi…
Üşüyür  əllərin,
kirpiklərində şehə dönür
qəlbinin atəşi…

Dilini dinc tutsan da nə qədər,
düşüncən  üsyan eləyir,
lal dura bilmir…
Ürəyindəki dərin boşluğu
o boyda dəniz də,
o boyda günəş də
doldura bilmir…

**29.03.2017**

## QƏLBİNİ SEVGİ İLƏ DOLDURA BİLSƏN

Kimsə xətrinə dəyib deyə,
nifrətlə yoğrulub
çölün də, için də…
Elə hey danışırsan
bu dünyanın qarasına, –
Giley-güzar
yuva qurub içində …
Ancaq mənim üçün
yaşamaq çox gözəldi,
köksümə meydan oxuyur
arzum, istəyim…
Sevdiklərimlə mənim
görüş yerimə
dönən bu dünyaya
mən necə pis deyim?!
Sənə təbəssüm payı
göndərəcək
kimin üzünə gülsən,
gözəllikdən zövq
almağı bacarsan,
ürəyin çevriləcək gülzara…

Qəlbini sevgi ilə,
məhəbbətlə doldura bilsən,
orda yer qalmayacaq
nifrətə, giley güzara…

**23.04.2017**

## GERİYƏ YOL VARMI?

Sən mənim
qəlbimi sındırdın,
Mən sənə
şeir yazdığım qələmi…
Xəyanət xərçənginə
heç nə, heç nə
kömək eləmir…
Ağıllı adam
tutduğu əməlin
cəzasını sakitcə çəkir,
kiminsə önündə
diz çöküb yalvarmır!
Özünü havayıdan
didib-tökmə,
geriyə yol varmı?!

**03.05.2017**

***

Qoyma qalxım mən zilə,
Tələsmə son mənzilə…

***

–Bu da təzə siyahı…
–Bəyazı, ya siyahı?

# QARATİKAN, DAŞ, MƏN VƏ SƏN

Sənin üçün tökdüyüm
göz yaşları ilə
qaratikanı sulasam,
qızılgülə dönər,
ömrü boyu nə saralar,
nə solardı…
Sənə elədiyim yaxşılığı
daşa eləsəydim,
ağaca dönüb bitər,
üstümə kölgə salardı…
Qızıl sevgi közlərimi
kömürə döndərdin,
su elədin oda sən!
O qaratikan,
o daş,
bu mən,
o da sən….

**06.05.2017**

***

Qiymət vermə gözəyarı,
Sevən qəlbdi göz əyarı…

***

Mənə könlünü ver, gül,
Nidaya dönsün vergül!

***

Saçlarım
bəmbəyazdı indi, –
Qara da çevrilib
ağ olarmış?!...
Sən demə
zəlzələ qopanda
dağ çöküb dərə,
dərə  ucalıb dağ olarmış…
Sən demə
üzünü görmədiyin
adamdan ötrü də
darıxmaq olarmış…

**18.05.2017**

## ÇALIŞ Kİ…

Çalış ki, çiçəkli yamacım,
Ulduzlu göyüm olasan!
Sən mənim əlimdən
hər şeyi almağa çalışma,
Çalış ki, hər şeyim olasan…
İnsanı ram eləmək olar, –
Ancaq vurulan qəfil
zərbə ilə yox!
İnsanı sevgi ilə yanında
saxlamaq olar,
Nəzarətlə,
hədə-hərbə ilə  yox!

**21.06.2017**

## DƏLİ BİR SEVDA

Gözlərin darıxmayıbmı
bir dəli sevdalı
şair baxışı üçün?
Çat-çat ürəyin  təşnə deyilmi
sevgi yağışı üçün?
Ürəyin düşməyibmi
sevib-sevilmək həvəsinə?
Ciyərlərin həsrət deyilmi
kişi nəfəsinə?
Çiçək dodaqların bir ac arıya,
həsrətli ürəyin bir şirin ağrıya
möhtac deyilmi?
Havalanmısan,
yerdə yer də
tapa bilmirsən özünə,
gecələr yuxu da
getmir gözünə, –
dəli bir sevda
bütün dərdlərinə
əlac deyilmi?

**21.05.2017**

## SİNƏÜSTÜ KİTABLAR

Bir qızın sözlərindən

Sizi sevdiyim üçün
bəzən özümü
xoşbəxt sandım,
bəzən taleyimdən
küsdüm də…

Kitablarınız bəxtəvərdi
neçə-neçə qızın
sinəsinin üstündə…
Neçə illərdi ki,
mən də onlarla yatıb,
mən də onlarla dururam…
Neçə illərdi ki,
pərvanə kimi
özümü oda,
közə vururam.
Neçə illərdi ki,
eşq qoxuyur
yerim, göyüm…
Göynəyirəm için-için,
göynəyirəm
göyüm-göyüm…
Neçə illərdi ki,
həsrət odu
mənə zülm edir. –
Şeirlərinizin işığı
əritsə də içimdəki zülməti…
Bəzən köksümdə
bu sevgi alovu
öləziyə,
sönə istədim…
Ancaq yenə oxudum,
yenə doymadım,
yenə istədim…
Stolüstü  kitablarım çoxdu,
Sizin kitablarınız isə
sinəüstüdü…

**28.05.2017**

***

Çox şükür,
Mənim gülşənimdə
ətirli çiçəklər boldu…
Çox şükür,
sevgi çəmənzarımda
çayırlar boy ata bilmir…
Mənim şeirlərim
mənə sarı gələn yoldu, –
ora düşən, bir də
geri qayıda bilmir…

**2017**

***

Gör bizi haralara  çəkib apardı
Qəlbimizin  sonsuz harayı?!
Uçuq bir daxmada ucaltdıq
Möhtəşəm bir sevgi sarayı!

**31.05.2017**

## YƏQİN BİLİRSƏN Kİ

Yəqin bilirsən ki,
Mən ən gizli hissləri belə
çəkinmədən
böləcə biləcəyin
bir adamam…
Yəqin bilirsən ki,
mən köksünə baş qoyub
ağlaya biləcəyin
bir adamam…

Könül verəndə də
könül ver
birlikdə ağlayıb,
birlikdə gülə biləcəyin
bir adama…
Sevgisi yolunda
ölə biləcəyin bir adama…

**02.12.2017**

***

Ona sarı can atır,
onu arzulayır
kimin kimə,
kimin nəyə ehtiyacı var.
“Kaş cavan olaydım”, – deyə
düşünən qocanın
Əfsanəyə ehtiyacı var…

**11.03.2018**

## MƏN BİR SEVGİ AĞACIYAM

Şükürlər olsun ki,
riya, yalan məndən uzaqdı…
Sevdalı ürəyimin
hamının yanında
alnı açıq, üzü ağdı…
Mənə balaca bir köz verənə,
qaynar ocaq vermişəm…
Ürəyimdə  həmişə
həsrət sazağında üşüyənlərə
sığınacaq vermişəm…

Hava tutqun olsa da,
sevdalı qəlbim həmişə
nur içindədi…
Sonsuz sevgim
məni sevənləri
isitmək gücündədi…
Mən bir sevgi seliyəm,
kükrəyəndə hər adam
önümdə dura bilməyib…
Mən bir sevgi ağacıyam –
çox quşlar qonub budağıma,
ancaq hər quş orda
yuva qura bilməyib…

**07.12.2017**

## UTANCAQ MƏHƏBBƏT

Üstümüzə həsrət dumanı
elə çöküb ki,
mən yanında olanda belə
uzaqlara baxırsan…
Utancaqlığın aramızda
elə bir çəpər çəkib ki,
onu aşıb keçməyə
qorxursan…
Səni bu hala salan
utancaq məhəbbətindi…
Səndən bir kəlmə
söz çəkmək
ocaqdan köz çəkmək
kimi çətindi…

**07.03.2018**

## QAR KÖYNƏYİN ALTINDA ÜŞÜYƏN BƏNÖVŞƏ

Birdən mənim də
günəşim doğar deyə
göz dikmişəm qızaran
sevgi üfüqlərinə…
Qar köynəyin altında üşüyən
bir cüt utancaq bənövşə
müntəzir deyilmi
intizar gözlərimin
sevgi şəfəqlərinə?!

**11.03.2018**

## BÜTÜN HƏSRƏTLƏRƏ SON QOYULSA

Sevgi şeirlərimi
kövrələ-kövrələ oxuyub,
Göynəyə-göynəyə
içini yeyirsən!
"Allah bütün həsrətlərə
son qoysun!" – deyirsən!
Mən ola bilmədim
həyatının kişisi,
Sən ola bilmədin
həyatımın qadını!
Bütün həsrətlərə
son qoyulsa,
Sevgilər itirməzdimi
duzunu, dadını?!

**11.03.2018**

***

Sevməli o qədər qəşəng,
gözəl qız var ki,
Ürək isə hər adamı
yaxına buraxmır.
Yazmalı, ürək boşaltmalı
o qədər ağ kağız var ki,
Qələm isə tərsin biridi,
həmişə sözə baxmır…

**14.03.2018**

## SEVDALI BƏBƏKLƏR

Unutdum içimdəki
ağrıları, göynərtini,
elə ki, mənə sevgi ilə baxan
gözlərini gördüm.
Mən sənin yaşla silələnən
sevdalı bəbəklərində
alışan ürəyimin
közlərini gördüm…

**18.03.2018**

## BƏYAZ NAĞIL

Üstümüzə sevginin
ilk qarı yağdı…
Üzün də
könlün kimi
daim dümağdı…
Heç vaxt, heç vaxt
görünməz
Ağ qara.

Sən bəyazlıq verirsən
Ağ qara!
Bir ağ çiçək bərq vurur
yaxanda!
Ağ libasdan seçilmir
Ağ əndam.
Bəyaz qarın üstündə
Dümağ iz.
Dönsün bəyaz nağıla
sevgimiz…

**19.03.2018**

## EŞQ ŞİMŞƏYİ

Eşq şimşəyi
ürək tarlasını
gözə görünməz
odlu kotanla
əkir, xışlayır…
Eşq şimşəyindən sonra
sevgi leysanı başlayır…
Xoşbəxtlikdən
bəxtəvərə dönmüşük,
gözlərimizdən
sellər-sular axır…
Eşq şimşəyi
qu quşunun
nəğməsi kimi bir şeydi, –
o şimşək ömürdə
bircə yol çaxır…

**19.03.2018**

# MUZEYDƏ İŞLƏYƏN QIZ

Həftənin yeddi gününü də
işdə keçirən qız,
xəbərin varmı
bu muzeyi sən öz gözəlliyinlə
bəzəməyindən?!
Xəbərin varmı
özün də bu muzeydə
qiymətli bir inciyə
bənzəməyindən? –
Bura gələn istər-istəməz
sənə də sevgi ilə baxır,
adam qorunan
qiymətli əşyalar kimi
sənə də toxunmağa qorxur…
Hər eksponatın üstündə
yarpaq kimi əsirsən…
Elə bil özün də qoruduğun
bu sehrli dünyada əsirsən!
Həftənin yeddi gününü də
muzeydə keçirən qız,
çox doğmasan mənə sən.
Ancaq qorxuram ki, bir gün
özün də bir muzey
eksponatına dönəsən…
Başın işə elə qarışıb ki,
həsrət qalmısan meşənin,
dağın, dənizin üzünə!
Bəsdi bizi tarixə apardığın,
Bir az da vaxt ayır özünə!
Ömrün üzü keçmişə deyil,
gələcəyədi…

Ürək sözlərini
keçmişə deyil,
gələcəyə de!
Sevgini
əvəz eləyə bilməz
ən qiymətli inci də,
altun da!
Qoşul mənə
birlikdə islanaq
yaz yağmurunun
altında…

**04.04.2018**

***

Mən xatirələr dünyasının
Qaçaq Nəbisiyəm,
Sənin vüsalın isə
yüyənınə belə
əlim çatmayan
Boz atdı...
Onsuz da məndən
uzaq idin,
Sükutunla
aramazdakı o məsafəni
bir az da uzatdın!

**28.07.2018**

## SƏN MƏNDƏN ŞEİR İSTƏMİŞDİN

Səsin ovsunlayıb qəlbimi,
nəfəsin ətir qoxuyur.
Gözlərinə baxanda
Ürəyim elə bil
nəğmə oxuyur…

Bu vaxtacan harda idin,
Niyə çıxmamışdın qarşıma?
Sən bir şahlıq quşu kimi
hardan üçub gəldin,
qondun mənim başıma?! –
Küskün ürəyimi
sevdalı baxışlarınla dindirdin.
Məni sevgi dünyasının
sultanına döndərdin!
Göz yaşıyla yoğrulan
səsin, nəfəsin
içimdə sevgi göyərtdi…
Həsrətin ürəyimi
göyüm-göyüm göynətdi…
Sevdalı gözlərini görəndə
düşündüm ki,
daha mənim nə  dərdim?
Həsrətli baxışlarımla
üzündən təbəssüm çiçəkləri dərdim…
…Sən məndən şeir istəmişdin,
mən isə sənə qəlbimi verdim…

**13.05.2018**

## İLHAM VƏ İLHAM PƏRİLƏRİ

Gözlərin gözlərimə dikilib,
Nazlı-nazlı kirpiklərini döyürsən.
“İlhamınız gələndə
məndən də yazarsınız”, – deyirsən!
Gülə-gülə baxıb deyirəm
gözəlliyini bir az da
artıran xalına:

– İlham pərisinin
libasına bürünüb
özün gəlməsən,
çətin ki, bir şey alına!
Unutma ki,
hər ürək sevə,
hər torpaq
çiçək bitirə bilmir!
İlhamım həmişə mənimlədi,
ancaq
ilham pəriləri  çoxdu deyə
onların bütün sifarişlərini
yerinə yetirə bilmir!

**07.06.2018**

## DƏLİ  VƏ DƏLİ SEVDA

Ən zülmətli gecələrdə belə
İnsanın qəlbinə nur ələyən var…
Heç kəs  anadan dəli doğulmur,
Dəlini dəli eləyən var,
Dəlidən doğru xəbər alınca
Qaçmaq istəyirsən
dünyanın bu başından o başına
ayağı yalınca…
Gəzmək istəyirsən
diyar-diyar, ölkə-ölkə…
Dəlini ağıllandırsa,
bir dəli sevda
ağıllandıra bəlkə?

**14.07.2017**

**MƏNİM SEVDİYİM İNSAN**

Mən məni qoyub gedənə
mane olan deyiləm!
Mən sevgidə aza
qane olan deyiləm!
Mənim sevdiyim insan
həsrətimə qənim olmalıdı.
Mənim sevdiyim insan
təpədən dırnağacan
mənim olmalıdı...

**11.11.2018**

***

Başıma min oyun açıb,
bu sevgi macərası...
Ləçək dodaqlarından
doyarmı
həsrətimin ac arısı?

**11.11.2018**

***

Bəsdi dikbaş gəzdiyin,
Sevgi önündə əyil!
Ürəyi möhürləmək
Bəndənin işi deyil...

**2018**

## UTANCAQ SƏTİRLƏR

Mənə bir məktub yazdın,
silkələdi içimi!
Hər kəlmənin, hər sözün
ayrı idi biçimi...
Qayıtdı ürəyimə
abır-həya yenidən.
Utancaq sətirlərin
utandırdı məni də...

**11.11.2018**

## SÖNMÜŞ OCAĞIMIN KÖZÜ QAYITDI

Bizə mane oldu konül saflığın,
Sevda bulağından içməyə qorxduq.
Döndü sıldırıma utancaqlığın,
Üstündən adlayıb keçməyə qorxduq.

Hələ gül dərməmiş sevgi bağından
Həsrət cin atına mindirdi məni.
Bircə təbəssümün vüqar dağından,
Sevgi dərəsinə endirdi məni...

İsitdi qəlbimi bu od, bu ataş,
Bir azca səngitdi eşq əzabımı...
Həsrət buludundan sıyrılan günəş,
Şəfəq tellərilə döydü qapımı!

Neçə dağ aşaram həvəsin ilə,
Perikən nəğməmin sözü qayıtdı...
Sənin yaz qoxulu nəfəsin ilə
Sönmüş ocağımın közü qayıtdı...

**01.01.2019**

***

Laciverd səmalar quşa halaldı,
Təmizlik, bəyazlıq qışa halaldı...
Mənim sözlərimlə böyüyən gözəl,
Mənim sevgim ilə yaşa, halaldı!

**2018**

## AĞ ATLI OĞLANIN OLA BİLMƏDİM

Solan çiçəklərin üzü gülmədi,
Heç kəs zorla yağış yağdıra bilməz.
"Əlvida" bircə söz, bircə kəlmədi,
Amma qarşısında dağ dura bilməz!

Eşq çəkər hər qəlbin haqq-hesabını,
Hərə özünə yar seçər, – bilirsən!
Tapa bilməyirsə bablı babını
Günü ah-vay ilə keçər, – bilirsən!

Məndən umduğunu ala bilmədin,
Budur ürəyini yoxsa üşüdən?
Ağ atlı oğlanın ola bilmədim,
Axı nə umurdun ağsaç kişidən?!

Qış ilə dostluğu tutmaz baharın,
Sevdalı ürəyin qaynar ocaqdır...
Gələcək nə vaxtsa sevgi qatarın
Səni çəmənlərə aparacaqdır...

Ürək məhəbbətsiz çətin keçinə!
Nur olub ömrünə töküləcəyəm.
Sonra da qoşulub qışın köçünə
Uca zirvələrə çəkiləcəyəm...

**24.02.2019**

## BİLMİRƏM SƏN HARDAN YUXUMA GƏLDİN

Sevgi güllərimi vurmuşdu sazaq,
Tək-tənha qalmışdım bu yer üzündə.
Yuxu da gözümdən düşmüşdü qaçaq,
Qəlbim sızlayırdı həsrət közündə...

Dünyada sananda tənha özümü,
Bilirsən heç nələr ağlıma gəldi?!
Bilmirəm heç necə yumdum gözümü,
Bilmirəm sən hardan yuxuma gəldin?!

Üzün közərmişdi həsrət odundan,
Səs verdik sevginin qadir səsinə!
Dərənin dibindən, qaya altından
Sən məni qaldırdın həzz zirvəsinə!

Uşaq tək ağlayan qəlbim kiridi,
Səninlə göz-gözə xoşbəxtəm necə!
Ağır dərdlərimi gün tək əridib,
Uğur mələyimə döndün o gecə!

İşıqlı qamətin dönmüşdü saca,
Unutmaq mümkünmü od saçan gözü?
"Tanrı sevdalıyam" dedin astaca,
Bizi qovuşdurdu Tanrının özü...

**06.04.2019**

## NURA BƏLƏNMİŞ SAZAQ

Yol çəkən qəmli gözlərin
Niyə dikilib uzağa?!
Ən qənirsiz gözəli də
Həsrət döndərir yazığa...

Ürəyini sazaq kəsir,
Sevgiyə olmusan əsir,
Tənhalıqdan qəlbin əsir,
Elə mən də yalquzağam...

Həsrət çağlayır qanımda,
Sırsıralar var canımda,
Ancaq qəlbimin yanında
Ömrüm boyu üzü ağam!

Yatmamısan bütün gecə,
Sevgidə gücə bax, gücə!
Mən sənin içindən keçən
Nura bələnmiş sazağam!

**16.12.2018**

## SƏN MƏNİM TURACIMSAN

Sən mənim turacımsan,
Mənsə sənin ovçunam!
Sevgi ulduzum olub,
Düşdün mənim ovcuma!

**14.01.2019**

## BAŞIMDA EŞQ HAVASI VAR

Ömür əyirən dünyanın
Cəhrəsi var, həvəsi var.
İnsanın hər an sevməyə,
Sevilməyə həvəsi var!

Qəlb dinirsə həzin-həzin,
Dinləyin, söhbəti kəsin!
Sevməyi bacaran kəsin
İçində yaz nəfəsi var...

Çiçək gülür, əsir budaq,
Yamacda çağlayır bulaq,
Nə yaxşı ki, işıq, torpaq,
Nə yaxşı ki, hava, su var!

Üzümdə zamanın zehi,
Bəbəyimdə həsrət şehi,
İçimdə dağların mehi,
Başımda eşq havası var!

**13.01.2019**

## XALLI ÇİÇƏK

Ürəyimə xal salmısan,
Ay sinəsi xallı çiçək!
Dadını hər naşı duymaz,
Ay ləçəyi ballı çıçək!

Naümid qaytarma geri
Yanına gələn arını...
Qoyma özgə çəmənzara
Dərdindən ölən arını...

Gözümüz açılan kimi
Ayrılıq yelləri əsir...
Bizim qısa ömürümüzü
Bir az da əzablar kəsir...

Yalnız sevda məlhəmiylə
Ağrını azaltmaq olar...
Bu qısa ömrü, ilahi
Sevgiylə uzatmaq olar...

**04.02.2019**

## AYRILIQ SAZAĞINDA

Ayrılıq sazağında
Qəlbim dönmüşdü buza...
Göz yaşların çevrildi
Yaramın üstdə duza.

Yazan yazıb əmrimi,
Eşq yoğurub xəmrimi,
Qışa gedən ömrümü,
Sevgin döndərdi yaza...

Can qoymadın canımda,
Bal qalmadı şanımda,
Sevgi kəhkəşanımda
Döndün təzə ulduza.

Əzablara dözmüşəm,
Üzülmüşəm, üzmüşəm,
Yaşamaqdan bezmişəm
Özümü qısa-qısa...

Çox gözəldi yaşamaq,
Qəlbdə həsrət daşımaq,
Sevgiyə bax, yaşa bax! –
Arzu çox, ömür qısa...

Tir-tir əsir ürəyim,
Tanrı olsun köməyim,
Necə "can" söyləməyim,
Mənə "can" deyən qıza?!

**12.02.2019**

## DƏLİDİ

Dilsiz durmağına baxma,
Bu dağ, bu dərə dəlidi...
Naz eləyir ceyran, cüyür,
Bu bənd, bu bərə dəlidi...

Ləçəyə qonan şehə bax,
Gün köksündə çatıb ocaq,
Bilmir onu qurudacaq? –
Bələnib zərə, dəlidi!

Xiffət azaldıb gücümü,
Çəkirəm ömür köçümü,
Yandırıb yaxır içimi,
Bu saz, bu cürə dəlidi...

Həsrətin qəlbimi deşər,
Sevgisiz qəlb adiləşər,
Mən çılgın, sən dəymədüşər,
Hərə bir cürə dəlidi...

**09.03.2019**

## QƏRİB ÜZÜK

Həsrət günəşi od saçır,
Biz qar üstdə izik, – qərib!
Yazdığım sevgi məktubu
Olub əzik-üzük, – qərib!

Öləziyib eşqin qoru,
Küləklərdən onu qoru!
Bəbəyimdə sevgi nuru,
Gözlərimdə gözlük qərib...

Yatma namərd kölgəsində,
Alçalarsan el gözündə!
Bu məhəbbət ölkəsində
Sənsən qərib, bizik qərib?

Xəyanət etsələr anda,
Tufan qopar bircə anda!
Qəlbdə sevgi olmayanda
Barmaqdakı üzük qərib...

**15.03.2019**

## URALANMIŞ SEVGİ BAĞI

Güvənib doğma sandığım
Qurd kimi yedi qəlbimi...
O, öz gizli istəyinə
Qurbanmı dedi qəlbimi?

Hikkəmi udub, susuram,
Hər şeyi səbir düzəldər.
Ancaq yaxşı bilirəm ki,
Qozbeli qəbir düzəldər...

Açıb ağartmaq da olmur,
Kiminlə bölüm bu dərdi?
Becərdiyim çiçəkləri
"Hazıra nazirlər" dərdi...

Onu qəlbimə buraxdım,
Viranə qoydu içimi...
Uralanmış eşq bağından
Çəkib gedirəm köçümü...

**30.03.2019**

## SƏN VARSAN DEYƏ

Gör göylər necə
töküb qaşqabaq?!
Alov püskürən
buludlara bax!

Yaşamağın da
mənası itib,
Bəbəklərimdə
tikanlar bitib...

Baxdım gözünə
kefim düzəldi,
Sən varsan deyə
dünya gözəldi...

**15.11.2018**

## "SƏN" – "SİZ"

Ağlım hey danlasa da,
Ürəyim baxmır sözə.
Geriyə yol qalmayıb,
"Sən"dən qayıtma "Siz"ə!

Bu doğmalıqdan sonra
"Sən" "Siz" olmur, – bilirsən!
Mənsiz yaşamaq olur,
Sənsiz olmur, – bilirsən!

**01.01.2019**

***

Mənə bu gecə
üstünə qar yağan
çiçəkli ağac şəkli
göndərdin!
Elə bil ömrümü
gülüstana döndərdin!
Qol-boyun olmuşdu
qış ilə bahar!
Sanki qəlbimi
isitdi o soyuq qar...
Elə bildim ki,
o çiçəkli budaq sənsən,
o bəmbəyaz qar mən...
Ağrılar seli ötdü
suyu çoxdan quruyan
sinəmdən!
Qədəri yazan yazır,
kim boyun əyməyib ki,
taleyin əmrinə?

O qar güllərini
soldura da bilər,
günəş təbəssümünlə əriyib,
hopa da bilər
çiçəkli ömrünə!
Kim istəyər ki,
min bir arzuyla
günəşə boylanan
çiçəklər solsun? –
Ancaq o qarı
o çiçəklərin üstünə yağdıran
Tanrıya şükürlər olsun!

**20.04.2019**

## NƏ HƏDDİ VAR

Sevgi dünyamın qapısını
incə barmaqlarınla
gizlicə döyürsən!
"Yeni il təbinizi, ilhamınızı
bulaq kimi coşduran
xoş hadisələr,
uğurlar gətirsin
həyatınıza", – deyirsən!
Sevgiylə yoğrulub
mesajının hər sözü,
hər kəlməsi!
Sən özün ömrümə gəlsən,
ilhamın nə həddi var ki,
gəlməsin!

**01.01.2019**

*******

Mən səni suyu tərtəmiz
bulaq sanırdım,
yamacları çiçəkli
dağ sanırdım...
Sən isə adicə
kül təpəciyi imişsən! –
Bircə xəfif meh
göyə sovurdu külünü...
Vəfasızlıq afatı vurdu
təzəcə qönçələyən
sevgi gülünü!
Ömrüm boyu
insanlardan umacağım
sevgi, sədaqət olub,
var-dövlətə, vəzifəyə
salmamışam meyil...
...İndi mənim yamacda
gül dərən vaxtımdı,
küllükdə küllənən
vaxtım deyi...

**11.07.2019**

***

İnsanı el arasında
mərdliyi tanıda bilər!
Özgələrə qan udduran
özü də qan uda bilər!
Sevgimlə, sədaqətimlə
qəlblərdə yuva qurmuşam,
Yalnız özünü unudan
məni də unuda bilər...

**2018**

***

Bəyazdı, yaraşmır leyləyə sarı,
Həmişə can atır ley leyə sarı...
Bircə yol gəzsəydi Məcnun Bakıda,
Bir daha baxmazdı Leyliyə sarı...

**24.02.2019**

***

Dolan həsrət buludu
yol gəlir ağır-ağır,
Ayrılığın əlindən
hara qaçım mən fağır?
Gözlərimin önündə
şümşürüklər oynayır,
Yağış pəncərəmə yox,
indi  içimə yağır...

**31.05.2019**

***

Elədiklərin
ürəyimi ağrıdır,
içimi göyüm-göyüm
göynədir, –
Əməllərini
alqışlaya bilmirəm!
Sənə istədiyini
bağışlaya bilmədim,
Səni də
bağışlaya bilmirəm...

**03.04.2019**

***

Ağrı – uf olub yaşayır.
İnsan – ruh olub yaşayır...

***

Bu dünyada görüş, amma
O dünyada görüş umma!

***

Gözlər payız buludu,
içində yaş qaynayır,
Damlalar iri-iri,
getdiyim yola damır...
Zirvənin o üzündə
ildırımlar oynayır,
Bir sehrli maqnit tək
hey çəkir yol adamı...

Qətrələr bəbəyimdə
olub mirvari, inci,
Sel yuyub üzümdəki
qorxaq, qərib sevinci...
Yolçu yolunda gərək,
nə məndən küs, nə inci, –
Sən bir dayanacaqsan,
mən isə yol adamı...

Ağlama, yola damır,
Dinc qoymur yol adamı.
Sən bir dayanacaqsan,
Mən isə yol adamı...

**08.08.2019**

# TƏMSİLLƏR VƏ SATİRİK ŞEİRLƏR

## VİCDANLAR PAS TUTANDA

Vicdanlar pas tutanda
Zibil dönər altuna.
Dəmir layiq görülər
Qızıl mükafatına…

**04.04.2017**

## ÖN SÖZ

Sənət çəmənzarını
Alaq otları basıb.
Qarğanın kitabına
Sağsağan ön söz yazıb…

## İMZA GÜNÜ

Hamı şair olubdur,
Düşüb yaman bəhsabəhs.
İmza günü keçirir,
İmzası olmayan kəs...

## QURBAĞA HAVADARLIĞI

Qarıldayan Qarğaya
Quruldayan Qurbağa
Yamanca  qahmar durdu:
–Mənim qurultu səsim,

Sənin qarıltı səsin
Bülbül səsindən gurdu…
İkimiz də doğmayıq,
Sən “qar”san, mən də “qur”am.
Bülbülün tənqidindən
İncimə bircə qram…
Sənin mahnın hamının
Mahnısından gözəldi. –
Qarıldadı, Qarğanın
Kefi bir az düzəldi…
–Can, ay Qurbağa qardaş,
Dərdim qalmadı daha…
Gedək qarıldamağa,
Gedək quruldamağa…
“Qar” qədrini “qur” bilər,
“Qur” qədrini “qar” bilər…

**2017**

## TƏQDİMAT MƏRASİMİ

Bülbülü çağırıblar
Qarğanı tərifləsin!
Desin əvəzi yoxdu
Bu nəfəsin, bu səsin…

## ƏXLAQ DƏRSİ

Hey əxlaqdan dəm vurur
Hamının əvəzinə. –
Eşşək düşübdür ata
Dərs vermək həvəsinə!

## EŞŞƏK NƏVƏSİ

Ceyran güllü çəməndə
Rast gəldi bir Qoduğa…
Onu hey təriflədi,
Güc verdi dil-dodağa…

Dedi: – Sən nə qəşəngsən,
Söylə kimsən, nəçisən?
Bəlkə balaca atsan,
Bəlkə bala keçisən?

Qoduq forslandı: –Yox-yox,
Ayrıdır soyum, əslim.
Yaxşıca ad çıxardıb,
Mənim əcdadım, nəslim…

Sonra da o, anqırdı,
Ceyran qorxdu səsindən.
Gülüb dedi: –Tanıdım,
Eşşəyin nəvəsisən…

**03.06.2017**

## DUZSUZ DUZ

Yamacda quzu yoxdu,
Bərəkət-ruzi yoxdu.
Hər şeyin dadı qaçıb,
Duzun da duzu yoxdu...

***

Ağzına gələni deyir,
Siz Allah, bu səyə baxın!
Ay aman, daşın halına
Ağlayan kəsəyə baxın!

***

O, öz ömrünü çürütdü
Uyub qızıla, altuna.
Torpaq üstündə dalaşıb,
Getdi torpağın altına...

***

Ən qiymətli nə varsa,
Daşınıbdır ofşora!
Yağ ceyran belindədi,
Şükür olsun, of, şora!

***

Ən gözəl guşələrdə
Ərəblər qurub çadır.
Ölkənin ceyranları
Yalnız onlara çatır...

**26.01.2019**

## BU NƏ BİÇİM ADAMDI

Piyadalar yanında,
Kişiləndi, "atlandı"...
Vəzifəli görəndə,
Baş endirdi, qatlandı.

Yalandan hıqqıldadı,
Zarıdı, zıqqıldadı,
Dişləri şaqqıldadı,
Bu nə biçim adamdı?

Oğurluq meyvə dərdi,
"Novruz dərdiymiş" dərdi,
Bir körpə cüyür gördü,
Baxşından od damdı...

...Leş qənimləri artır,
Hərə bir yana dartır,
Çaqqal var gödən yırtır,
Qurdun adı beddamdı...

**26.10.2018**

***

Adam var beş quruşa
dəyməz gödəni,
Kişi eləmək
mümkün deyil gədəni.
Yana-yana qayıtmaq gözləyir
Yandıq verə-verə gedəni...

***

Özünü dartan adam,
Heç bilirsən nə qədər
kiçiksən?! –
Tayların hürə-hürə it oldu,
Sən hələ də küçüksən!

**2018**

***

Namus  məşəqqət çəkər,
namus sızlar,
Namusdan dəm vuranda
namussuzlar…

**2017**

***

Danışanda vicdansızlar,
Qəlb ağrıyar, vicdan sızlar…

***

Yalan olub ilanlar,
Zəhərlidi klanlar!
Pula həris kalanlar
Nə ofsun, nə dil anlar!

***

Mən halalam, sən haram,
Xoşuna gəlmir haram?

**2017**

***

Əzəldən səninki
belə gətirib,
Əzabla, ağrıyla
yoğrulan şəhər…
Zavod tüstüsündən
canı qurtarıb,
Kabab tüstüsündə
boğulan şəhər…

**2017**

***

Gecəni bəyənən yoxdu,
hamı san atır səhərə,
Bu torpağa məhəbbətin
bünövrəsi pis qoyulub,
Zığın-palçığın əlindən
kəndlilər qaçıb şəhərə,
Əkən-biçən də qalmayıb,
hamı "qorodskoy" olub…

**27.01.2017**

***

Par-par alışan almanı kəsdim, zədə çıxdı,
Vay, vay, bu iblis də gəlib, məbədə çıxdı!
Zəndim yenə aldatdı məni, qəlbim üzüldü,
Səd heyf, kişi sandığım oğlan gədə çıxdı...

**2018**

# ŞİRİNLİK

Ay qaqaş, adamların bilmirsənmi dilini?
Ağıllıya döndərir para xalis dəlini!
Pul əl çirkidir, oğul, gətir yuyum əlini! –
Bəsdi yalvardın göyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

Nə dilbilməz adamsan, yoxdurmu abır-həyan?
Bu rüşvət deyil, bala, danışma hərzə-hədyan!
Adamsız adamları varmı bir adam sayan? –
Gəl çıxım sənə yiyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

Anlamırsan heç nəyi, gədəsən ki, gədəsən!
İstəmirəm ki, burdan sən əliboş gedəsən!
Əlini sal cibinə,  simic olma, gədə, sən
Dönmək istəsən bəyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

Sən uğurun sirrini dərk elə bala-bala!
Şirin dildən nə fayda, özünü yorma, bala!
Şirinliklə ən acı zəqqutum dönər bala,
Bunu qanmırsan niyə, şirinlik ver, şirinlik!
İşin düzəlsin deyə, şirinlik ver, şirinlik!

***

Həyasız-həyasız şirinlik istəmək,
Sağalmaz bir şakər olub...
O qədər şirinlik alıblar ki,
Hamısı şəkər olib!!!

**20.06.2018**

# "Zəfər dastanı" kitabından

## MİN ŞÜKÜR, HAQQA DOĞRU GEDİR ÖMÜR KARVANIM

### ALLAHIM

Könül bağladığım neçə insanı,
Dostlar cərgəsindən pozdum, Allahım!
Sənin göndərdiyin işarətləri,
Yüz yerə, min yerə yozdum, Allahım!

Məndən əsirgəmə mehri, ülfəti,
Göstərdiyin yoldan dönmərəm qəti,
Axır ki, dərk etdim bu həqiqəti:
Düşmənim özüməm, dostum Allahım...

**14.09.2019**

### YA RƏBB, ÜMİDİMİZ TƏK SƏNƏ QALIB

Qalıb gözümüzdə arzu-kamımız,
Bayquş səsi gəlir ulu torpaqdan.
Qəflət yuxusuna getdik hamımız,
Seçə də bilmirik qaranı ağdan...

Hamı öz işində, öz dərd-sərində,
Öküzün gümanı alafa qalıb...
Göylərə baş çəkən evlər yerində
Üfunət qoxulu kalafa qalıb...

Bir söz var dilimdə, desəm qan olar,
Biçmədi, həmişə ölçdü babalar.
Qəlbində yurd dərdi öldü analar,
Qəlbində yurd dağı köçdü babalar...

Ruhların haqqı var bizi qınaya,
Alova dönmədi, söndü cavanlar.
Uşaqlar çevrildi ata-anaya,
Babaya, nənəyə döndü cavanlar.

Sozalır son ümid işıqları da,
Bir qoca didərgin xəyala dalıb:
“Qınaya bilmirik uşaqları da,
Hərə öz başının hayına qalıb.”

Axı hardan gəldi, bu dərd, bu bəla?
Niyə gün görmədik, sazağa düşdük?
Zaman öz atını çapdı dördnala,
Hər il doğma yurddan uzağa düşdük...

Ayrılıq həsrəti bağrımı dəldi,
Ürəkdə səngimir bu yurd göynəyi...
Bu Lazım it oğlu nə özü gəldi,
Nə də şiltik-şiltik qanlı köynəyi...

Təşnə ümidlərim tamarzı qalıb,
Bizə gəl-gəl deyən xeyli bulaq var.
Dərd bizi Məcnun tək çöllərə salıb,
Ah çəkir, hönkürür Leyli bulaqlar...

Ayağa durmaqla yoxdur bir işi, –
Nadanı bizləyə-bizləyə qalaq?!
“Sahibül zamanmı” bu Lazım kişi,
Yolunu gözləyə-gözləyə qalaq?...

Niyə həqiqəti duya bilmirik?
Tutmuruq tarixin daş yaxasından?
Qəflət yuxusundan doya bilmirik,
Ya Rəbb, oyat bizi div yuxusundan...

Ağ gün arzumuzu kəfən etdilər,
Ya Rəbb, qoyma sola ümidlərimiz.
Yurd dərdli insanlar ölüb getdilər,
Qoyma şəhid ola ümidlərimiz...

**16.04.2020**

## ÇOX ŞÜKÜR Kİ, DÜNYAYA İNSAN KİMİ GƏLMİŞİK

Lal oluruq dayandıqca
ulduzlarla göz-gözə,
Ay nur saçır,
qızıl günəş – kainatın altunu...
Bu dünyanı dərk eləmək
nəsib olmaz hər kəsə, –
Yaradan var ərşi-kürşü,
göyün yeddi qatını!

İnsan oğlu gərək bilə
hər anının qədrini,
Qoxla hər gün ətir saçan
çiçəklərin ətrini,
Halalıqla yoğur, şair,
şeirinin hər sətrini, –
Adam gərək unutmaya
öz əslini, zatını...

Yer yerində dinc durur ki,
fırım-fırım fırlanır,
Gah o üzü, gah bu üzü
şəfəqlərdən nurlanır,
Sevir deyə köksüm altda
ürəyim qürurlanır,
Həyatıma min rəng qatır
həyatımın qadını...

Arzulardı soyumayan
ocağımız, közümüz,
Sevgi ilə yoğrulubdur
söhbətimiz, sözümüz,
Gözəlliyin qarşısında
şəfəqlənib gözümüz,
Tanımışıq insanların
doğmasını, yadını.

Sirli dünya öz sirrini
verərmi heç acizə? –
Bu kainat başdan-başa
möcüzədir, möcüzə!
Şımşək çaxır, yağış yağır,
çaylar axır dənizə,
Dünya dünya olan gündən
zaman çapır atını...

Əriyirik gilə-gilə
arzuların odunda,
Biz qalmağa çalışırıq
doğmaların yadında,
Həyat eşqi çağlamasa
köksümüzün altında,
Kim sağalda bilərdi ki,
qəlbimizin çatını?

Bir günəşin işığını
milyon yerə bölmüşük,
Dərd çəkmişik, sevinmişik,
ağlamışıq, gülmüşük,
Çox şükür ki, bu dünyaya
insan kimi gəlmişik,
Çox şükür ki, biz bilirik
yaşamağın dadını!

**07.01.2021**

## HAQQA DOĞRU

Aşıb keçdim nə qədər
sədd çıxsa da önümə,
Ulu yaradan yazıb
mənim alın yazımı.
Min şükür, ağrılardan
sıyrılan bu günümə! –
Bənövşəsi açılıb
yetmişinci yazımın...

Həmdəmim, dostum oldu
bütün qəlbi sınıqlar,
Öz yolumdan azmadım, –
sevgi idi sarvanım!
Min şükür, sındırmadı
məni ağır sınaqlar,
Min şükür, haqqa doğru
gedir ömür karvanım...

**07.03.2020**

## GƏRƏK YER KÜRƏSİ VƏTƏNƏ DÖNƏ

Köksündə ürəyi çevrilib daşa,
İnsan olduğunu insan unudub.
Qənim kəsilibdir qardaş qardaşa,
Bizə Yaradanın qəzəbi tutub...

Havaya buraxdıq hisi, pasağı,
Ayın da üzündə ləkə çoxalıb.
Günəşin önünü kəsib hasarlar,
Ana yurdumuzda kölgə çoxalıb....

Suya zəhər qatdıq,  göylərə tüstü,
Yerdə insan üçün hava, su çatmır.
Küləyin önündə bəndlər qurmuşuq,
Anamız torpağın havası çatmır...

Bütün canlılara Yer vətən olsa,
Görərik dünyanın əvəzi yoxdu.
Elə yüklənib ki, bu yer kürəsi,
Daha fırlanmağa həvəsi yoxdu....

Sevgidir qoruyan bəşəriyyəti,
Vicdandır, ağıldır hər dərdə dəva.
İnsan olduğunu dərk etsə insan,
Gülşənə çevrilər torpaq, su, hava...

Didərgin salmışıq onu ürəkdən, –
Gərək ilahi ruh bədənə dönə!
İnsanı kiçildər kiçik vətənlər,
Gərək Yer kürəsi vətənə dönə...

**04.04.2020**

## ZAMANIN YANAN KÖRPÜLƏRİ VƏ HƏSRƏT SELLƏRİ

İşı çalxanmaqdı qədim nehrənin,
Ürəkdən gələn yaş gözü göynədir.
Geriyə yol yoxdu, zaman nəhrinin
Yanan körpüləri bizi göynədir …

Könlüm viranədir, dağılıb huşum,
Nələr qazanmışam mən yetmiş ilə?
Şəkilə çevrilib əllim, altmışım,
Nəfəs-nəfəsəyəm mən yetmiş ilə…

Dadmışıq taleyin ömür payından,
Arzular beşiyi olub qəlbimiz.
Adlayıb zamanın neçə çayından
Üzü gələcəyə can atmışiq biz…

İçimdə bir körpə uşaq ağlayır, –
İnsanın xoş günü keçmişindədi.
Zamanın çayları, coşur çağlayır,
Ömür dəyirmanı öz işindədi…

Həsrət ayazında bir sazaq idim,
Bu da son, indidən dərd məni alıb…
Əllidən, altmışdan yüz uzaq idi,
Yetmişdən üç addım məsafə qalıb…

Geriyə dönərmi ömrün axarı,
Meydan oxusaq da biz dağa, daşa?
Onsuz da dünyanın yoxdu axırı,
İstər əlli yaşa, istər yüz yaşa!

Dərd abıra salıb neçə arsızı,
Xoşbəxt günlərimiz arxada qalıb.
Anamın gözündə qalan arzusu
Qəlbimi ağrıda-ağrıda qalıb…

Vətənsiz bir ömür ömür-gün deyil,
Zaman arzumuzu verdi yellərə…
Dönmək istəsək də, bu mümkün deyil
Atalı, analı xoşbəxt illərə…

Özüm tək qaçqındı könül dincliyim,
Hələ də ürəyim dərd közündədi…
Dəcəl uşaqlığım, qaynar gəncliyim
Yanan körpülərin o üzündədi…

Ağrı elə ağrı, dərd elə dərddi,
Onun qocamanı, körpəsi yoxdu.
Zamanın dəyişməz qanunu sərtdi,
Həsrət sellərinin körpüsü yoxdu…

**27.12.2019**

## AÇILAN SƏHƏRLƏR, PARLAQ ULDUZLAR

"Bu nəhəng şair, dəyərli alimimizlə mən hər görüşəndə ondan nəsə öyrənirəm. O, açılan səhərlər, parlayan ulduzlar kimi həmişə təzədir. Allah möhkəm can sağlığı versin. Həmişə yazıb yaratsın"...

**Əşrəf Veysəlli**

Əgər düşüncələr gəlirsə haqdan,
Sözün ləngərindən dərə tərpənir...
Dağın sinəsinə çəkilən dağdan
Axı nə xəbəri dərə-təpənin?

Nələr görməmişik gözü böyüdən? –
Yurdsuzluq qəlbimi ağrıdır, qardaş...
Şairi böyüdən, sözü böyüdən
İçindəki dərddir, ağrıdır, qardaş...

Deşir qulağımı bayağı səslər,
Hamı kül üfürür xalqın gözünə.
Adının önündə "xalq" olan kəslər
Necə çıxacaqlar xalqın üzünə?!

Həsrət selləriylə dərd yumalıyıq,
Hikmət göylərində uçan nə gəzir?!
Hərəmiz bir nəhəng dərd yumağıyıq,
Onu çözələyib açan nə gəzir...

Yarasa gözlülər inləyir dərddən,
Qaranlıq bəbəklər qığılcım udur...
Bərq vuran ulduzlar dərd qaynaq edən
Şair qələminin qığılcımıdır...

Zaman da üyütmür bu namərdləri,
Yatan ürəkləri döyündürürük.
Təzə sözümüzü köhnə dərdlərin
Yalın ayağına geyindiririk...

Gəlmişik ağrını söz eləməyə,
Ciyər para-para, qəlb cadar-cadar.
Bizim ömrümüzü təzələməyə
Təkcə Yaradanın qüdrəti çatar...

Haqq nuru məlhəmdi şair sözünə,
Yaradan göylərdən izləyir bizi...
Ay qardaş, nə vaxtsa haqqın üzünə
Açılan səhərlər gözləyir bizi...

**20.12.2019**

# EL YADDAN ÇIXARMAZ ŞAİR OĞLUNU

"Dünyada ən bahalı xalça Təbriz xalçalarıdır. Bu xalçada rənglərin al-əlvanlığı ilə yanaşı, ilmələrin zərifliyi və həddindən artıq çoxluğu adamı heyrətləndirir. Mən Sizin hər şeirinizi oxuyanda eynən zərif ilməli al-əlvan Təbriz xalçaları gözüm önünə gəlir, bir də ingilis şərqşünası Gibbin böyük Füzuli haqqında dediyi: "Füzuli Şərqin ən səmimi və ən həssas şairidir" sözlərini xatırlayıram. Bu hiss məndə Sizin hər şeirinizi oxuyanda yaranır."

**Ali Hakim**

Sənət meydanında bəhsabəhs düşüb,
Hamının yazmağa gəlib həvəsi.
İlham pərisinə könül bağlayıb,
Bunun nəticəsi, onun nəvəsi...

Şeir göylərini tutub duman, çən,
Bir müdrik sənətkar baxıb güzgüdən,
Deyir: – Pay ummasın gərək özgədən,
Şair qəlbindəki nura güvənsin!

Alma ağacında heyva, nar olmaz,
Söyüd budağında əsla bar olmaz,
Hər şeir yazandan sənətkar olmaz,
İlahi sevgidi sözün nüvəsi...

Vecinə də almır dünya malını,
O, ağrıdan çəkib şeir balını,
Sözdən toxuduğu əlvan xalını,
Didikləyə bilməz xəbis güvəsi...

Hələ köksündədir namərd qurşunu,
Keçib ürəyindən sevgi qoşunu,
Hikmət zirvəsinə hər söz qoşanın
Onunla qalxmağa çatmaz nəfəsi...

Verib körpələrə sözün noğulunu,
Sevdalı qızların alıb ağlını,
El yaddan çıxartmaz şair oğlunu, –
Dünyaya tək gəlib, yoxdu əvəzi...

**19.04.2020**

## HƏYAT EŞQİ

Gözəlliyə, sədaqətə baş əyən
İnsan oğlu sevə bilməz riyanı.
Qəlbimizə iman nuru düşəndən
Çin elədik necə şirin röyanı!

Sinəsində çiçək bitən daşa bax,
Ürəkdəki sevgiyə bax, yaşa bax!
Haqqımızdı insan kimi yaşamaq,
Kim görüb ki, bu həyatdan doyanı?

Həsrət odu sinəmizi dağlayır,
Ümid bizi bu dünyaya bağlayır,
Ay çıxanda sevgi seli çağlayır,
Gün çıxanda ürək nura boyanır.

Könlümüzü gözəlliyə verəndə,
Təbəssümü çiçək kimi dərəndə,
Qönçələyən budaqları görəndə
Qəlbimizdə həyat eşqi oyanır.

Yusifoğlu, gördün ağı, qaranı,
Ürəyində hikmət nuru yaranıb,
Bu dünyada qədrini bil hər anın,
O dünyada vaxt onsuz da dayanır…

**27.02.2020**

## DÖNDƏRİR

Təmiz saxlayasan gərək ağzını,
Küləyə nə atsan, üzə döndərir...
Həyat bir sehrli bumeranq kimi
Kimə nə vermişik, bizə döndərir.

Gəzdim yamacları, yaşıl düzləri,
Düşübdür hər yana ömrün izləri,
Dağlar lalələri, tər nərgizləri
Yoluma dikilən gözə döndərir...

Güllər ətir qatır əsən küləyə,
Günəşdir dünyanı zərə bələyən,
Ən uca dağları dərə eləyən
Nəhəng kötükləri közə döndərir...

Elə ki, adlayır ömür yarıdan,
Ürək zillət çəkir köhnə yaradan,
Şairi öldürmür Ulu Yaradan,
Ömrünü nağıla, sözə döndərir...

**16.04.2020**

## KİM BAŞ AÇA BİLİB

Kim baş aça bilib sirli dünyadan?
Bu qədər məkrli, kirli dünyadan?

Əlini boş qoyur, kim ki əl açır,
Verdiyi dərdlərin yoxdur əlacı…

Yazda gəl-gəl deyib, bizi çağırır,
Payızda saralır, qışda ağarır…

Onu duyan mənəm, anlayan mənəm,
Elə yandırıb ki, çətin ki, sönəm,
Üzü üzlər görüb, gözü cəhənnəm,
Elə bilməyin ki, naşıdır dünya.

Vurğundur ağ üzə, açıq alına,
Axı o neyləsin gönü qalına?
Cahili qul edir dünya malına,
Müdriki gözü tox yaşadır dünya...

Halallıq olanda şoru bal dadır,
Nadanın başında iti baltadır,
Gələnə "xoş gəldin" – deyib aldadır,
Gedənin dalınca daş atır dünya…

Məni məftun edən yeri, göyüdür,
İmanı olanı müdrik böyüdür,
Axırda hamını dən tək üyüdür,
Sehrli dəyirman daşıdır dünya…

**31.12.2020**

# VAXTIM OLMAYIB

"Heç qocalmamısınız" deyən bir gözələ

Titrək ayaqlarım yer tutan gündən
Gəzib dolanmışam bu yer üzünü...
Mənə də pay düşüb toydan, düyündən,
Duymuşam həsrətin qaynar közünü…

Yolumu salmışam neçə gülşəndən,
Göz yaşım şeh olub çiçək gözündə.
Qəlbimə ilk sevgi nuru düşəndən,
Sərgərdan qalmışam bu yer üzündə...

Zirvəyə qalxanda durub sübh çağı,
Görmüşəm yamacda xeyli bulaq var.
Məcnun tək gəzmişəm səhranı, dağı,
Mənə gəl-gəl deyib Leyli bulaqlar...

Gecələr gözümə getməyib çimir,
Gözəl mənzərələr durub qarşımda.
Görəndə dənizdə ay necə çimir,
Sevgi şimşəkləri çaxıb başımda...

Heyrətlə baxmışam qövsi-qüzehə,
Məni əfsunlayıb neçə mənzərə...
Çiçəyin gözündə bərq vuran şehə
Baxanda ürəyim bələnib zərə...

Yad əldə dinməyib qəlbimin simi,
Daşı da sevgiylə dindirmişəm mən.
Sevgi əzabını ac arı kimi
Şirin nəğmələrə döndərmişəm mən.

Nanə yarpağına dönübdür ürək,
Dincliyim dumana bürünüb, itib.
Hər yağış yağanda çöldə gül-çiçək,
Qəlbimdə təptəzə sevgilər bitib...

Könlümdən keçib ki, gələndə bahar
Güllərin ovcunda şəbnəm içim mən.
Məni xoşbəxt edib şirin əzablar,
Sevgi qoşunları keçib içimdən...

Məcnun tək sevmişəm payızı, qışı,
Vəzifəm olmayıb, taxtım olmayıb.
Sevib-sevilməyə qarışıb başım,
Mənim qocalmağa vaxtım olmayıb...

**02.02.2020**

## YAĞIŞ VƏ GÜNƏŞ

“Yağış yağır, gün qurudur”...

**Ramiz Rövşən**

Yağışı qurutmaq istəmir günəş,
Havada döndərir qövsi-qüzehə.
Çiçəkli çəmənlər, düzlər yaradır
Şəfəq fırçasını batırıb şehə...

Nəfəsə çevrilir hava axını,
Şəfəqlə rahatlıq tapır təbiət.
İşığı torpaqla, suyla yoğurub,
Gözəl mənzərələr yapır təbiət...

Damlanı bələyib gün şüasına
İlahi gözəllik yaradır Allah. –
Səni dərk etməyə yetməz gücümüz,
Yanında üzümüz qaradır, Allah!

Sən quran dünyanın dörd sütunudu,
Günəş şəfəqləri, torpaq, hava, su...
Ay Allah, bu dünya necə gözəldi!–
Kükrəyir içimdə sevgi havası...

**30.03.2020**

## ARXA PLANDAKI QARLI DAĞ

Bu səhər oğlum mənə Amerikadan bir şəkil göndərib. Altında isə bu sözləri yazıb: "Arxa plana baxsan, qar görəcəksən… Bizim küçə…"

Küçəniz uzanır zirvəyə sarı, –
Şəkili böyüdüb dağlara baxdım…
Düşüb aramıza hicran hasarı,
Sinəmə çəkilən dağlara baxdım...

Mənim xəyalımdan nələr keçmədi? –
Sanki başı qarlı Kəpəzə qalxdım.
Elə bil gözlərim bir cüt çeşmədi,
İçindən Bərgüşad, Həkəri axdı…

Ayrılıq əzabı çəkir dağ mənə,
Həsrət şehə dönüb ləçəyə düşür…
Arxa plandakı qarlı dağ mənəm,
Şəfəqi sizin də küçəyə düşür…

**28.12.2019**

## TALEYİN SAHİBİ ALLAH ÖZÜDÜR

“İçin- için qovruluram hər gecə,
Uzandığım yorğan - döşək odlanır.
Bu dünyada qalan ömrüm beləcə
Cavan ölən dostlarımdan utanır.”

**Əşrəf Veysəlli**

Sən elə dayaq dur şair ruhunla,
Düşmənləri bizə güldürmə, yaşa!
Ölən ölüb gedib, öz ah-ufunla
Qalan dostları da öldürmə, yaşa!

Qıyma həsrət qalsın dəyirman una,
Nə cavab verərik elə, ulusa?
Su tökmə ölümün dəyirmanına,
Çox şükür, hələ ki canı sulusan!

Uyma Əzrayılın şirin sözünə,
Sən getsən, başını salıb aşağı –
Açarı tək səndə olan xəzinə
Üzünə bağlanmaz oğul-uşağın?!

Xalqa əmanətdi ömrün qalanı,
Ay kişi, sən kimə uyub gedirsən?
Salbayla vururdun göydə ilanı,
Yurdunda ilanlar qoyub gedirsən?

Oğulsuz sönməzmi yurdun çırağı?
Gorgahımız var ki, gora qaçırsan?
Yaxşı kişilərin azalan çağı
Başını götürüb hara qaçırsan?

İçimi göynədən həsrət közüdür,
Mən də sən dərddəyəm, soruşma, qardaş!
Taleyin sahibi Allah özüdür,
Sən onun işinə qarışma, qardaş!

**29.12.2019**

## PAYIZ YAĞIŞLARI

Yad əllər eşqimin barını dərdi,
Şairə nə gəlsə, sözündən gəlir…
Dünyanın bir illık ağrısı, dərdi
Payzın saralmış gözündən gəlir…

Yağışın altında əsir budaqlar,
Meşə xiffət çəkir, gedib özündən...
Dəymə-düşər olub qızıl yarpaqlar, –
Yel əscək, ağacın düşür gözündən...

Damlalar bərq vurur kolun üstündə,
Zəif mehdən belə titrəyir budaq.
Yağışdan islanan yolun üstündə
Həsrət möhürünə dönür hər yarpaq...

Ağaclar az qalır od tutub yana,
Həsrət buzlarını əritmək olmur.
Ağaclar bir yana, kollar bir yana,
Hönkürən qəlbi də kiritmək olmur...

**04.12.2019**

## SÜRÜŞMƏ

Xiffət çəkən dinclik, sevinc taparmı?
Xəbərin var ürəyimin çatından?
Çapıb məni haralara aparmır? –
Düşəmmirəm qəmin köhlən atından...

İnanmıram hər yetənə yar uya,
Yarımadıq, ömür çatdı yarıya,
Ürəyimə düşən dərin yaraya
Fayda varmı cəvahirdən, altundan?!

Duymursanmı bu nə qar, nə yağışdır? –
Hikmət nuru  taleyə bir naxışdır,
Acgöz insan, bir özünü yıgışdır! –
Səda gəlir göyün yeddi qatından!

Sel kükrəyir, dağ sürüşür, nəfəs dər!
Alnımıza yazılıbmış bu qədər!
Günahımız gör böyükmüş nə qədər, –
Yer də qaçır ayağımız altından...

**05.12.2019**

## DALĞA VƏ İNSAN

Yellənə-yellənə, dartına-dartına,
Nə qədər qalxsa da, dənizin sırtına, –
Yenidən qayıdır əslinə-kökünə,
Yenidən ən adi su olur fırtına...

Küləklər onlara dil verib şişirdir,
Sonra da ucalıq taxtından düşürdür...

Dənizin çiynində dönsə də bir dağa,
Dartınıb özünü versə də qabağa,
Axırda dərk edir, tanıyır özünü,
Duyur ki, su imiş ən nəhənğ dalğa da...

İnsan da belədir, ucalır, ucalır,
Çiynində durduğu bir eldən güc alır.
Elə ki, unudur əslini, kökünü,
Camaat tanıyır hiyləgər tülkünü...

Təkəbbür taxtından el onu devirir,
Yenidən adi bir adama çevirir....

Coşanda, uyanda küləyin felinə,
Dalğanın əlindən yel çəkər əlini.
Elə ki, xor baxır öz doğma elinə,
Lovğanın əlindən el çəkər əlini...

**19.04.2020**

## GƏLİR

Öyrənmişik baş yeməyə yamanca,
Səhər-səhər qarşımıza xaş gəlir.
Yeyib-içmək ömrümüzün mənası,
Axşam üstü kabab gəlir, aş gəlir.

Gecə-gündüz işindədi çənələr,
De, nə qədər dağlı qalsın sinələr?
Bir-birini əvəz edir sənələr,
Yay tükənir, payız gedir, qış gəlir.

Qəlbimizdə əzizlədik qəmi biz,
Doğma yurda üzür xəyal gəmimiz,
Biz qocaldıq, cavan qaldı qəmimiz,
Dərd üstə dərd, yaş üstünə yaş gəlir...

Qulağımız uydu xaric səslərə,
Biz inandıq yalan dolu sözlərə,
Həqiqətdən ayrı düşən kəslərə
Nağıllara qulaq asmaq xoş gəlir...

Hamı kefə getmək üçün bəzənir,
Yaddan çıxıb Ağa çayı, Çayzəmi,
Bu gələn sel ayrı selə bənzəmir, –
Üstümüzə qaya gəlir, daş gəlir...

Hücum edir qəlbə həsrət alayı,
Hər gün yaram zoqquldayır, qanayır,
Babaların ruhu bizi qınayır,
Ürək hər gün söz oxuna tuş gəlir...

Öz nurunu itiribdir səhər də,
Dilim də söz tutmur daha qəhərdən,
Biz çal-çağır eləyəndə şəhərdə,
Qarabağın gözlərindən yaş gəlir...

**17.05.2020**

## XİFFƏT

Payız, qış tanımır həsrət gülləri,
Şirin xatirələr bizi isidir.
Xiffət – nastalgiya ötən günlərin
İçimizdə qalan ayaq izidi...

Zənginə döndərir bizi əzablar,
Baxırıq nisgilli təbəssüm ilə…
Xiffətin içində sevgi, əzab var,
Doğma dərdimizlə xoşbəxtik hələ…

Həsrətin əlində qalıbdır yaxam,
Xiffət acı-acı gülümsəməkdi.
Xiffət bir dəfəlik əlindən çıxan
Gözəl günlər üçün qəribsəməkdi…

Bəzən xoşbəxt olur xəyala dalan,
Xiffət sanki ümid piyaləsidi…
Xiffət bir qəribin gözündə qalan
Vətən həsrətinin son şöləsidi…

Həsrətdir közərdən sevgi odunu,
Xiffət qarı deşən çiçək kimidir.
Xiffət içimizdə qəm buludunu
Yağışa döndərən şimşək kimidir.

O, zülməti yaran işıq səsidir,
Bizi tənha qoymur qarda, sazaqda.
Xiffət xatirələr xəzinəsidir,
Açarı bizdədir, özü uzaqda…

Başıma zamanın qarı ələnmiş,
Arxadan doğmalar səsləyir bizi…
Xiffət diyarında qəmə bələnmiş
Sevdalı bir mələk gözləyir bizi…

Ümid zəmisini döyür qar, dolu,
Özü yox olanlar qəlbimə köçür…
Keçmişə uzanan xiffətin yolu
Ağrılar körpüsü üstündən keçir…

Xiffət ürəyimi qəmə bələyir,
Ona nə əl çatır, nə də ün yetir…
Xiffət haray çəkir, aman diləyir,
İlan ağzındakı quş kimi ötür…

Yaralı bir nəğmə dinləyirəm mən,
Xiffət qəm sazının sarı simidir…
Xiffət uca dağlar ardına enən
Qürub günəşinin təbəssümüdür…

**02.02.2021**

## KƏDƏR REKLAMI

Dünən ev dustağı görkəmində özümdən xəbərsiz çəkilən şəkillərimi paylaşıb yazmışdım: “Bu gün təyyarədə olmalı idim, indi isə”... Dostların təskinlikverici rəyləri sırasında tanımadığım adamın "Nə qədər reklam olar" yazısı mənə qəribə gəldi...

Öz könül tarımın sarı simiyəm,
Əbədi hicrandan yaman qorxuram.
Qanadı qırlan durna kimiyəm, –
Boylana-boylana göyə baxıram...

Qara  gözlərində kədər sayrışan
Bir topa buluda bənzəyirəm mən...
Qərib görkəmimlə sonsuz həsrətin
Uca taxt-tacını bəzəyirəm mən...

Məni duymaq üçün ən azı gərək
Həsrətin oduna qızınasan sən.
Ağrının, əzabın reklamı olmur
Onu sərgiləyib qazanasan sən...

Yuvası dağılan bir quş kimiyəm,
Üstümə ayrılıq yelləri əsib...
Dalğalar qoynunda qalan gəmiyəm,
Nəhəng aysberqlər yolumu kəsib...

Görmürsən gözümdən həsrət boylanır?
Çatmırmı bu dilsiz harayım sənə?
Dərdə sahib çıxan varmı dünyada,
Onu reklam edib sırıyım sənə?!

**30.07.2020**

## SEVDALAR YOLÇUSU

İncimə bədxah əldə yanan hisli çıraqdan,
Deyilən haqsız sözü sən uda bilməsən də...
Vəfa, sədaqət umma heç vaxt zatıqırıqdan,
Yaxşılığı, pisliyi unuda bilməsən də...

İlhamı halalıqla yoğrulmayıbsa əgər,
Yaz da dirildə bilməz qoxusu itən gülü...
Nurunu azaldarmı sevgiylə yanan ülkər? –
Qoyarsanmı üşüyə köksündə bitən gülü?!

Heç vaxt inanmamısan zövqsüzlərin zövqünə,
Çöpə gülən gırdının közü də xırdalanar.
Öz halal ilhamınla qalx bədxahlar fövqünə,
Xırdalara baş qoşan özü də xırdalanar...

Sevdalar yolçusunun işi uzundur, uzun,
Ümidlər qönçə tutur onun yaz nəfəsindən...
Sənət kəhkəşanında işıq saçan ulduzun
Nə qorxusu olacaq köpəklərin səsindən?!

**20.01.2021**

***

Məni alovlara çatsanız belə,
Yolumu kəsməyə yetməz gücünüz, –
Qəlbimi murada yetirəcəyəm.
Yazan əllərimdən tutsanız belə,
Xəzana dönəcək yenə içiniz, –
Qayada çiçəklər bitirəcəyəm...
Məni canavara atsanız belə,
Mütləq qayıdacam,
Ancaq dalımca
Canavar sürüsü gətirəcəyəm...
Şeir dünyasından, sənət mülkündən
Sizi ilim-ilim itirəcəyəm...

**07.04.2020**

## FƏXRİ ADIM, MÜKAFATIM

Qəlbimi nurla dolduran
Yurdumun dağı, düzüdü.
Dünyanı gözəl göstərən
Hikmət, bəsirət gözüdü…

Adi daşdı bil, altun da!
İlanlar var gül altında,
Mənim qəlbim kül altında
İşaran həsrət közüdü…

Şahə qalxıb ilham atım,
Gərək zirvələrə çatım!
Fəxri adım, mükafatım
Azərbaycanın özüdü…

**22.11.2019**

## GÖZƏL,
## YAŞAMAQ GÖZƏL

Gözəl,
yaşamaq – gözəl!
Gözəl yaşamaq, –
gözəl!

Ən böyük mükafatı
Tanrı veribdir bizə. –
Sevgi bəzəkdir qəlbə,
İşıq bəzəkdir gözə…

Hərdən gedirsən huşa,
Ömür getməyib boşa,
Bu dünya başdan-başa
Möcüzədir, möcüzə!

Bacar, dünyadan bac al!
Hər an ol ruhu uca! –
Göylərdə uça-uça
Dənizdə üzə-üzə! –

Şükür, yaşa dolmusan,
Bulud kimi dolmusan,
Dünyagörmüş olmusan
Dünyanı gəzə-gəzə…

Xoşbəxtsən öz elində,
Eşq kükrəyir könlündə,
Qərq olsan qəm selində,
Sənə uzanar yüz əl!

İşin sübhlə – danladı,
Dünyanı tam anladın,
Yetmişi tamamladın, –
Daha nə qaldı yüzə?!

Gözəl,
yaşamaq – gözəl!
Gözəl yaşamaq, –
gözəl!

**02.01.2020**

## DƏYİŞMƏYİB DÜNYA MƏNİ

Mən dünyanı dərk eləyən
Uşaq qəlbli bir qocayam.
Təriflərdən çox ucayam,
Təltiflərdən çox ucayam…

Nə versən gözü doymayan
Çox çətin ki, duya məni…
Dünya malında gözüm yox,
Dəyişməyib dünya məni…

Qəlbimdə sevgi kükrəyir,
Yoxdu həyatda bənzərim!
Həmişə üstümdə olub,
Ulu Tanrının nəzəri!

Ömrüm boyu dost olmuşam
Çəmənlə, güllə, çiçəklə!
Allah məni  təltif edib
Duyan, sevən, bir ürəklə!

O adamlar bədbəxtdi ki,
Gözündə sevgi sayrışmır…
Allahın sevdiyi kəsə
Bəndə təltifi yaraşmır…

**01.12.2019**

## DAVAM EDİR ÖMÜR HƏLƏ

Körük təzə fısıldayır,
Közərməyib kömür hələ...
Döyməyin mənası yoxdu, –
İsinməyib dəmir hələ...

Seçilmir baharım, qışım,
İnləyir torpağım, daşım,
Başını itirən başım
Qəlb deyəni demir hələ...

Tüstülənib sönsə ocaq,
Ürək tufan qoparacaq,
Nə qədər su aparacaq
Görəsən bu xəmir hələ?!

Ürək dözər hər gün aha?
Könül vermə hər günaha...
Yenə min şükür Allaha,
Davam edir ömür hələ...

**14.07.2020**

## HƏR ŞEYİN TEZİ, GECİ VAR

Adamlar cürbəcür olur,
Ağıllısı var, gici var.
Yüz yağışdan quru çıxan
Fırıldağı var, bici var…

Sevgi mum edər dəmiri,
Həsrət köz edər kömürü,
Yalanın qırx gündü ömrü,
Həqiqətin fil gücü var…

Bahar gələndə qış gedər,
Sevgi gələndə huş gedər,
Neçə dəyirman işlədər, –
Göz yaşında sel gücü var…

Bitmir fələyin oyunu,
Tanıdıq qurdu, qoyunu,
Vüsalın qıl kimi boynu,
Ayrılığın ülgücü var…

Bir təmizcə ad bəsimdi,
Ürəyim qırılmış simdi,
Hamı biləcək kim kimdi, –
Hər şeyin tezi, geci var…

**23.11.2019**

***

Ötən günlər geri dönməz,
Kaman dartılıb, ox gedib…
Quyu su tökməklə dolmaz,
Varmı olacaq "yox" gedib?

Lovğalanma bizə gülüb,
Özün sağsan, ruhun ölüb…
Sənin kimilər çox gəlib,
Sənin kimilər çox gedib…

Sevgidir dərdimə əlac,
Gəl-gəl deyir meşə, yamac…
Mənim kimilər ruhu ac,
Gözü həmişə tox gedib…

**22.11.2019**

## HARDASAN

Könül yuvamdan perikən,
Didərgin arzum, hardasan?
Əlacsız qalan dərdimi
Mən kimə yazım, hardasan?

Hicran qatarı ləngimir,
Dost, aldadırsan sən kimi?
Həsrət çovğunu səngimir,
Baharım, yazım, hardasan?

Daha gözüm də pis görür,
Sinəmdən vulkan püsgürür,
Bu ağrını, bu nisgili
Car çəkən sazım, hardasan?

Kimdi bağlayan qolunu?
Görmürsən qarı, dolunu?
Hamı gözləyir yolunu,
Ölmüsən, Lazım, hardasan?

**20.03.2020**

## GÜMANIM SƏKSƏNƏ QALDI

Dərd xəncəri didərginin
Saplanıb köksünə qaldı.
Bizi yurda qaytar, Allah,
Ümidlər tək sənə qaldı...

Yox yurdumdan xəbər-ətər,
Niyə gəlmir bir şad xəbər?
Qırx üçdən yetmişə qədər
Səksənə-səksənə qaldım...

Vüsal şimşəyi çaxmadı,
Sevinc selləri axmadı,
Yetmişdən bir şey çıxmadı,
Gümanım səksənə qaldı...

**22.12.2019**

## BİZ OLMAYAN YERLƏR

"Gedək biz olmayan yerə"...

**Ramiz Rövşən**

Bizi bezdirib yamanca
Əhdi düz olmayan yerlər.
Ümid yeri, pənah yeri
Çörək, duz olmayan yerlər!

Qaçıb ağzımızın dadı,
Sönüb qəlbimizin odu,
Bizi çəkir dedi-qodu
Söhbət, söz olmayan yerlər...

Kədər gerçək, sevinc yalan,
Yurdum, yuvam olub talan,
Bəxtəvərmi bizsiz qalan
Ocaq, köz olmayan yerlər?

Nə qədər olar dərd, fikir?
Gözümüzə zülmət çökür,
Bizi maqnit kimi çəkir
Təzə iz olmayan yerlər.

Qısa bir ömrü zay etdik,
Yurdu yağıya pay etdik,
Biz olan yeri bay etdik,
Qaldı biz olmayan yerlər...

**01.04.2020**

## SABAHLA NƏFƏS-NƏFƏSƏ

"Rafiq müəllim, var olun ki, bizim gələcəyimiz olan uşaqlarla bir yerdəsiniz həmişə…"

**Kamran Qarayev**

Doğrudan da,
çox xoşbəxtəm
Uşaqların arasında…
Ona görə öz yerim var
Təmizlərin sırasında…

Keçmişim keçmişdə qaldı,
Ümidim gələcəyədi…
Üzüm solan yarpağa yox,
Qönçələyən çiçəyədi…

Saf uşaqlar arasında
Düşürəm təzə həvəsə.
Bəxtəvərəm, gələcəklə
Durmuşam nəfəs-nəfəsə…

**23.12.2019**

## ÇIXIRIQ

Meyvə kimi hər baharda
Çiçəkdən, güldən çıxırıq...
Ot kökü üstündə bitər, –
Obadan, eldən çıxırıq...

Sellər kimi daşa-daşa,
Çırpılırıq  dağa, daşa,
Zaman xətt çəkir yaddaşa,
Gözdən, könüldən çıxırıq.

Həyat dərya, biz gəmiyik,
Dodaqlarda söz kimiyik,
Öləziyən köz kimiyik,
Sıyrılıb küldən çıxırıq...

Əzrayıla uyan kimi,
Yaşamaqdan doyan kimi,
İlan qabıq qoyan kimi
Biz də şəkildən çıxırıq...

**14.02.2020**

***

Libasını dəyişsə də,
Riya həminki riyadı.
Kölgəsində itlər yatan
Qaya həminki qayadı…

Açılan gül solasıdı,
Deyilən söz qalasıdı,
Dünya sirlər qalasıdı,
Həyat bir şirin röyadı…

Qarışqaya bax, filə bax,
Körpülər yuyan selə bax,
Qayada bitən gülə bax,
Üzü günəşə boy atıb…

Hamı susur qorxusundan,
Çəkinir qan qoxusundan,
Bizi qəflət yuxusundan
İndiyəcən kim oyadıb?

Ötən günlər düşür yada,
Doğmalar çevrilib yada,
Kim qalıb ki, bu dünyada?
O dünyadan kim qayıdıb?

**20.02.2020**

## BAXMIR

Mayası haram olanlar
Ələ baxır, üzə baxmır...
Keçilməyən sıldırımda
Saldığın ilk izə baxmır...

“Ustad”a çevrilib naşı,
Tərifdən ayılmır başı,
Dövrə vuran şahlıq quşu
Ona baxır, bizə baxmır...

Al qumaş sayır bezini,
Sırıyır ucuz sözünü,
Qorxur ki, görə özünü,
Yerə baxır, gözə baxmır...

Ancaq hər şeyi el görür,
Görməli işi yel görür, –
Nadan bozaran kül görür,
İşıldayan közə baxmır...

Qaralıb topağım, göyüm,
Göynəyirəm göyüm-göyüm,
İstəyirəm nəsə deyim,
Söz də küsüb, sözə baxmır...

**06.04.2020**

## PAYIZIN VİDA NƏĞMƏSİ

Yağır payiz yağışları,
Ağaclar, kollar islanıb.
Saralıb, solan yarpaqlar
Nəmişlikdənmi “paslanıb”?!

Kirpiyə bənzər budaqdan
Soyuq damlalar asılıb.
Sanki payızın əliylə
Vida nəğməsi yazılıb...

Dözə bilmir ayrılığa
Kövrəlibdir yerim, göyüm…
Xəzəl közlər ocağında
Göynəyirəm göyüm-göyüm…

Titrəyən sarı yarpağın
Bənzəri var sarı simə…
Yenə yol çəkir gözlərim,
Ürəyim düşüb tilsimə…

Uçuşan yarpaq ümidlər
Düşüb yellərin cənginə…
Təbiət də qəlbim kimi
Boyanıb həsrət rənginə…

**14.11.2019**

***

Başlanıb yarpaq tökmü,
İndi neyləyim mən fağır?
İçimə də, çölümə də
Payız yağışları yağır…

Qopub tökülür üstümə, –
Xəzəllər həsrət alayı...
Yaz yağışı ayrı şeydi,
Payız yağışı “alayı”…

**21.11.2019**

## GÖZÜ GÖTÜRMƏYƏNLƏR

İnsan gərək qəlbində
Sevgi nuru bəsləyə! –
Gözəl işləri heç vaxt
Vurmaya görməzliyə...

Özgənin sevincindən
Pay götürə özünə.
Gözəllikdən zövq ala,
İşıq gələ gözünə...

Heç xəbəri də olmur,
Üzə sonradan çıxır! –
Gözü götürməyənin
Gözü sıradan çıxır...

Çünki bəbəklərinə
Enir xəbislik toru...
Göz yaxşını görəndə
Artır işığı, nuru...

**22.04.2020**

## SAFLIQ

Heç özüm də bilmirəm
Nə imiş qəbahətim?
Heç zaman taleyimdən
Olmayıb şıkayətim.

Kimi dindirirəmsə,
Mənə deyir:
– Çox safsan...
Xəbislərin əlinə
Düşən hazırca ovsan...

Hə olsun coşqun çaysan,
Nə olsun qaynar odsan. –
Saflardan qaçaq düşür
Fəxri ad,
orden,
ad-san...

Lap təpəmdən çıxardır
Kinayələr tüstümü.
Vallah, çaşıb qalmışam,
Məgər saflıq pisdimi?

– Ay qardaş, hər şeyim var,
Sən niyə nainsafsan?
Gülür:
– Ta sözüm yoxdu,
Safsan e, qardaş,
safsan!

Necə canım qurtarsın
Adamların dilindən?
Bilmirəm hara qaçım
Bu saflığın əlindən?!

**23.04.2020**

## QALIR

Xoşbəxtsən, hələ qəlbində
İnam qalır, güvən qalır...
Nəyin var, nə itirəsən? –
Atın qalır, dəvən qalır?!

İncimə gönü qalından,
Nələr keçir xəyalından?
İnsana dünya malından
Qismət olsa, kəfən qalır...

Ocağın boş qalmayacaq,
Əkdiklərin solmayacaq,
Fəxarətlə arxaya bax,
Oğlun, qızın, nəvən qalır.

Quşu vurmusan gözündən,
Ocaq çatıblar közündən,
Narazı qalma özündən, –
Xalqa azmı töhfən qalır?

Yusifoğlu, uyma yada,
Hər an düşəcəksən yada,
Qəm eləmə, bu dünyada
Səni çoxlu sevən qalır...

**18.08.2020**

# MƏN MƏHƏBBƏT SELİYƏM

Məni dillərə salan
Dinc durmayan dilimdi…
Gözlərimi göynədən
Öz qorum, öz külümdü…

Söz salarmı fikrə dən?
Pay umular fitrədən?
Ürəkləri titrədən
Mənim bəmim, zilimdi…

Yenə sərvət, yenə var?
Ulağa çul, ya navar?! –
Alim olmağa nə var,
Adam olmaq zülümdü…

Gedər küləklə gələn,
Özünə gülsün gülən,
Mənim qədrimi bilən
Öz obam, öz elimdi.

Düşsə əgər gülə nəm,
Kəsb etmirmi gül önəm?
Mən sonuncu gülənəm, –
Qəhqəhə yaz selimdi…

Divanəyəm, dəliyəm,
Əsən sevgi yeliyəm,
Mən məhəbbət seliyəm,
Ürəklər mənzilimdi…

**19.01.2021**

***

Əlimizdən nə iş gəlir ki,
gümanımız kinayəli sözədi...
Xalqın dilində danışa,
Xalqın dilində yaza,
Xalqın dərdinə
şərik ola bilməyən
Xalq şairlərimiz,
Xalq yazıçılarımız,
Xalq artistlərimiz,
Xalq elçilərimiz, –
Xalqın "gümanı" sizədi...

**21.12.2019**

## NAĞIL

İnsan xoş günündə
dini-imanı unudur,
İnsan dar məqamda
üzünü Allaha tutur...
İnsan bir şirinin xətrinə
yüz acını udur...
Hansı yaşda olsa belə,
uşaq kimi nağıllara inanır, –
əslində insanı yaşadan da
elə budur...

**19.04.2020**

***

Qubadlı da yoxdu ki,
nə vaxtsa
heykəlimi qoyalar
evimizin qənşərindəki
dağın üstündə…

Bilmirəm nə qədər
qəm heykəli olub
qalmalıyam
sinəmdəki
dağın üstündə?!

**25.10.2019**

***

Məni kim qaldıra bilər? –
Elə bil ki, duz yüküyəm.
Ruhum orda, özüm burda,
Qəlbim bölünüb ikiyə...
Tənhalıq, qəriblik dərdi
Dilimi qısa eləyib,
Bənövşələr ulu yurdda,
Mən burda boynu büküyəm...

**12.03.2020**

## GÜN İŞIĞI VƏ QAYÇI

Su ilə söndürmək olmaz
yanan həsrət ocağını,
Marten necə əvəz edər
isti ana qucağını?

Mənim yurda olan sevgim
bənzəyir gün işığına,
Qayçıyla kəsmək olarmı
günəşin zər saçağını?

**20.03.2020**

***

Canının istisi
azalır torpağın,
Təzə yaz gəlincə
o, çətin oyana!
Budaqda titrəyən
saralmış yarpağın
Yolu yox
payızdan o yana!

**01.01.2020**

***

Köksümü ötürüb,
yaralı xatirələrimi götürüb,
xəyalların səyyar qanadına
minmək istədim.
Ancaq nə illah elədimsə,
yatmış duyğuları
yuxudan oyada bilmədim…
Yetmiş yaşımı və
bəlalar çəkmiş
başımı götürüb,
uşaqlığıma
dönmək istədiim,
ancaq zamanın
yanmış körpüləri
yolumu elə kəsdi ki,
heç 50-yə, 60-a da
qayıda bilmədim…

**04.01.2020**

## ŞƏKİL ÇƏKDİRMƏK İSTƏYİ

Uşaqlığımız, gəncliyimiz
bizi tərk eləyib gedir
göz açıb yumunca…
Elə buna görə də
çəkdirdiyimiz şəkillər
bizi özünə çəkir yamanca…
Ayrılığından qorxduğumuz
sevimli insanları həmişəlik
özümüzə bağlamaq istəyirik…
Bir də geri dönməyəcək
anlarımızı, dəqiqələrimizi
kağızın üstündə dondurub
saxlamaq istəyirik…
Şəkillərimiz olsa da,
biz görkəmdə,
biz biçimdə,
Əslində biz yoxuq
onların heç birinin içində…
İlan qabıq qoyub
çıxdığı kimi
biz də şəkillərimizdən
sıyrılb çıxırıq,
o məqamdan,
o andan
ayrılıb çıxırıq…
Şəkil çəkdiririk
gah bu ağacın dibində,
gah o dənizin,
bu gölün sahılində,
illərin hər bir fəslində…

Özündən başqa hər şeyi,
hamını görən insanın
şəkil çəkdirmək həvəsi
özünə kənardan baxmaq
istəyidi əslində…

**28.10.2019**

## QOCALMAQ SƏADƏTİ

İnsan gərək söz deməmiş
bir az düşünə.
İnsan gərək qarışmaya
Yaradanın işinə. –
Bilmirəm bəzi cavanları
kim hazırlayıb,
yaşlılara qarşı
"səlib yürüşü"nə?
Onlara "mane olan" qocaları
yollarının üstündən
kənara atmaq istəyirlər.
Maneəsiz, kəsə yollarla gedib,
arzularına tez çatmaq istəyirlər.
Elə danışırlar ki,
guya qocalmaq günahdı,
Ömrün müdriklik zirvəsinə
ucalmaq günahdı...
Unudurlar ki,
Ağsaqqal məsləhətinə
qulaq asanın başı ağrımaz.
Unudurlar ki,
böyük üzünə ağ olanın
üzü həmişə qara olar,
saçları isə ağarmaz...

Qocalar alnıaçıq,
üzüağ çıxıblar
min sınaqdan, çətindən.
Qocalara lağ eləyəni
Allah məhrum eləməzmi
qocalmaq səadətindən?!

**05.03.2020**

## MÜKAFAT VƏ İSTEDAD

Əkib-becərməklə
işləri olmasa da,
ən yaxşı meyvələri
onlar dərir. –
Bu acgöz adamlara
nə versən,
deyirlər ki, azdı…
Yaxşı ki, istedadı
məmurlar yox,
Allah verir –
Yoxsa bizə onun
bircə zərrəsi də
çatmazdı…

**27.02.2020**

## MƏNİM UĞURLARIM

Uzun illərdən bəridir ki,
öz işlərimi görürəm
başımı salıb aşağı.
Məni heç zaman
azmağa qoymur

qəlbimin iman nuruyla
yoğrulan işığı...
Nə yaxşı ki,
vaxtım da qalmır
dedi-qoduya...
İçimdəki təmiz niyyət
qalib gəlmək gücündədır
xəbisliklə silahlanan orduya!
Ancaq mənim bu xasiyyətim
bəzi adamların hikkə ocağına
benzin əndərir. –
Mənim uğurlarım
mənim bədxahımdı,
“dostlarımı” da
düşmənə döndərir...

**11.03.2020**

## ZAMANIN GERİYƏ YOLU YOXDU

İndi ata-ana olan övladlarımın
uşaqlıq şəkillərinə baxıram...
O ötən xoşbəxt günlər üçün
burnumun ucu göynəyir;
o uşaqlar üçün
yamanca darıxıram...
Zaman –
Tanrının yayından
qopan yel qanadlı oxdu,
Zamanın üzü gələcəyədi,
zamanın geriyə yolu yoxdu...
Üzü günəşə gedirəm
Məni geriyə səsləsə də
xatirələr ölkəsi. –

Üzümdə
gələcəyin işığı,
Arxamda
keçmişin kölgəsi...

**04.08.2020**

***

Alatoranda üzürəm
qızaran üfüqlərə sarı. –
İndicə dənizdən boylanan
Günəşin şəfəqləri olacaq
qızılı, sarı…
Yurd salsa da içimdə
həsrət sazağı,
saçlarlımda illərin qarı,
Yenə də sevdalı könlüm
unuda bilmir
ömrümü əbədi tərk eləyən
baharı…
Yapışıb günəşin
alpinist kəndirinə bənzəyən
zər saçaqlarından,
ömrün qaranlıq hücrəsindən
qalxmaq istəyirəm
işıqlı zirvələrə sarı…
Qocalıq olsa da,
qarşımda ucalan
gözəgörünməz barı,
həyat eşqi qəlbimi
heç zaman
tərk eləməyəydi barı!...

**13.08.2020**

***

Yenə şimşək kimi çaxa,
yağış kimi yağa bilsəm də,
Daha qönçə dodaqlardan
ətirli söz dərə bilmirəm.
Gəncliyimə bu günün gözüylə
baxa bilsəm də,
bu günümü gəncliyimə
göstərə bilmirəm...

**26.05.2020**

## XİFFƏT BURULĞANI

Bir ayağı burda,
bir ayağı görda olan qocaları
gələcək yamanca üşüdür,
yamanca qorxudur…
Ötən günlər isə
onlar üçün əlçatmaz, ünyetməz,
şirin bir yuxudur…
Yaxamızı vermişik
içimizi güvə kimi yeyən
xiffətin əlinə,
itirdiyimiz doğmaların, əzizlərin
yanına qayıtmaq üçün
arabir özümüzü vurmaq istəyirik
xatirələr selinə…
Zamanın isə
geriyə yolu yoxdu;
qalmışıq həsrət burulğanında
devikə-devikə,
yana-yana,
alışa-alışa…

Keçmişin nə ayağı var
yanımıza gələ,
nə qulağı var bizi eşidə,
nə dili var danışa…
Xəyallar dünyası
qocalar üçün
şipşirindi,
şəkərdi, baldı…
Ah çəkə-çəkə deyirlər ki,
nə qaldı keçmişdə qaldı…
Keçmişin isə
ayaqları şikəst,
qulaqları kar,
gözləri kor,
dili laldı…

**27.12.2020**

## DƏNİZ MƏNİM DOSTUMDUR

Dəniz mənim
ən sadiq dostumdur;
Bircə o, ləyaqətlə çıxıb
zamanın sınağından...
Hər səhər görüşünə gedəndə
Qorxmuram havanın
küləyindən, soyuğundan,
Çəkinmirəm heç kəsin
tənəsindən, qınağından...
Çox şükür
bu dolanbac ömür yollarında
adım hələ də təmiz qalıb. –

Mehribanlıq görəndə kövrəlir,
Kobudluq görəndə
sərtləşirəm...
Əlli illik dostlarımdan
bircə dəniz qalb, –
Ona görə hər gün yanına gedib,
onunla dərdləşirəm...

**28.12.2020**

## İLİN İLK SÖHBƏTİ

– Salam, Xəzər!
Çox şükür ki,
bu il də təzələndi
aramızdakı köhnə
sevgi nağılı!
– Ən sadiq, ən etibarlı
sevgili sən imişsən,
Xoş gördük,
Rafiq Yusifoğlu!

**01.01.2021**

## ÜMİD GÜNƏŞİ

İtirə-itirə gəlsək də,
ruhdan düşmə, –
hər gün keçmişi xatırlayıb,
bu qədər dolmasın gözün...
Daim irəliyə bax, irəliyə,
Geridə qalmasın gözün...

Zaman daim öz işindədi;
bir an da,
bir saniyə də
dayanmır...
Bədbəxtdi
kimin ki, qəlbindən
hər səhər ümid günəşi
boylanmır...
Ümidini keçmişə bağlasa,
Sabaha deməyə
nə sözü olardı insanın?
Daim geri baxmaq
lazım olsa idi,
Arxada da
gözü olardı insanın...

**06.06.2020**

## ŞAİRLƏR GÜNÜ

Bu gün
şairlər günüdür
deyirlər, –
Şairlik əzablı,
şairlik məşəqqətli,
şairlik çətin...
Şairlər ağrıyan
vicdanıdı bəşəriyyətin,
Şairlər döyünən
ürəyidi millətin...
Kim şairlər qədər
dueldə öldürülüb,
Kim şairlər qədər
sürgün olub ki?

Bu gün şairlər günüdür
deyirlər –
Nə vaxt şairlərin günü
bir gün olub ki?!

**05.06.2020**

***

Sinəmizdə həsrət, ağrı,
Söz – qəlbin ağlar gözüdü...
Göynədir, yandırır bizi,
Söz – yanan qəlbin közüdü…

***

Dərd qəlbimdə yuva salıb,
Sevinc ilim-ilim itib...
Elə bil ki, gözlərimdə
Qəm meyvəli ağac bitib.

Dərdim bir az utancaqdı,
Lütmü çıxsın el içinə?
Çılpaq dərdlərin əyninə
Mən sözdən libas biçənəm...

**2020**

***

Bəbəklərimə baxanda
Gələcəyimi görüblər,
Verilən ilk xeyir-dua
Mənə hər an gərək olub...
İlk şəklimi çəkdirəndə
əlimə yarpaq veriblər,
Elə o zamandan qəlbim
yarpaq kimi titrək olub...

**2020**

***

Görmüşəm dağı, dənizi
Görmüşəm qarı, yağışı.
Gözüm dünyadan böyükdür, –
İçinə dünya sığışır…

**08.08.2020**

***

Yüz il ömür arzulayan
Dostlarıma salam olsun!
Kaş bu sənət dünyasında
Öz bürcüm, öz qalam olsun!

Əbədi mürgüyə gedən
Çətin ki, bir də oyana!
Tutaq ki, yüz il yaşadım, –
Yol varmı yüzdən o yana?

**02.01.2021**

***

Dünyanın
ən ağıllı adamı
öz əkdiyi
ağacın meyvəsini
dərmək istəyəndi...
Dünyanın
ən ağılsız adamı
hamını özü kimi
görmək istəyəndi...

**05.04.2020**

# CƏNNƏT PLANETİ

Tale bizə yar olanda
Elə bil ki, bal dadırıq.
"Zənginik", "xoşbəxtik", – deyə
Özümüzü aldadırıq...

Kim qurtula bilib, söylə
Əcəlin sərt dişlərindən?
Kim baş aça bilib axı
Kainatın işlərindən?

Bəndə düşüb əcəb bəndə, –
Ümid zərdə, altundamı?
Cənnət yerin üstündəmi,
Cənnət yerin altındamı?

Adəmi verib güdaza, –
Bu dünya qəza yeridi...
Sən yerdə cənnət arama,
Yer üzü cəza yeridi...

Bəşəri sınağa çəkmək
Bir əsrarlı plan idi...
Allahdan başqa kim bilər
Varmı Cənnət planeti,
Yoxmu Cənnət planeti?!

**20.09.2020**

## SÜBH ÇAĞI

Sübh çağı göy üzündə
Gör nə qədər bulud var!
Səma sanki dənizdir,
Dalğaları buludlar…

Günəşin şüasıyla
İşıqlanır üfüqlər.
Göy üzünü saraldıb,
Sarı-sarı şəfəqlər…

Karvan-karvan buludlar,
Elə bil ki, paslanıb…
Yağış yağıb, küləyin
Qanadları islanıb…

O, daha uça bilmir,
Sakitcə qonur yerə…
Qəlbimi ovsunlayır
Bu ilahi mənzərə…

**23.08.2020**

## ZİRVƏDƏ YOL BİTİR

İnsan ömrü boyu
Özünə zülm edir.
Düşüb arzuların
Arxasınca gedir.

Uca zirvələrə
Zilləyib gözünü,
Oda-közə vurur
Həmişə özünü...

Axır ki, zülümlə
İstəyinə yetir.
İndi hara getsin? –
Zirvədə yol bitir...

Dərindən ah çəkir,
Dönüb sola, sağa...
Keçdiyi yollara
Qalır baxa-baxa...

Düşüncə başında
Qara bulud olur.
Dünyanı dərk edən
Bəbəkləri dolur.

Ah çəkir dərindən,
Sanki şimşək çaxır...
Qara gözlərindən
Sellər, sular axır...

Çevrilib yumağa
Ən qüdrətli düha.
Yollar bitdi daha...
Ömür bitdi daha...

**01.05.2020**

## ETİBARLI DOST

Vəfasızların
Dərdini çəkmə!
Qəm dəryasının
Dibinə çökmə!

Günahkar sayma
Heç vaxt özünü.
Buludlar kimi
Sıxma gözünü...

Öz taleindən
İncimə, küsmə!
Sel kimi axma,
Yel kimi əsmə!

Onsuz da hər şey
Gəldi-gedərdi.
Etibarlı dost
Təkcə kədərdi...

**01.05.2020**

***

Budaqlarda giləlwənən
yağış damlaları
illərin şehə dönən qəmidi…
Ağaclar narkoz altında
yatırdılan xəstələr kimidi…

**2020**

***

Şirindir, sehrlidir
Bu dünya nağıl kimi...
Müqəddəs bir yer varmı
Vətən torpağı kimi?

Mən hər gülü dərmədim,
Yada könül vermədim,
Gözəl bir yer görmədim
Nəbi oylağı kimi…

Həmişə həvəsliyik,
Ömrün bahar fəsliyik,
Biz Koroğlu nəsliyik,
Qorxudur yağı kimi?

Çözülməyib hələ sirr,
Zaman uçur, tələsir…
Ürəyim tir-tir əsir
Nanə yarpağı kimi…

***

Doğma Vətən torpağının
Havasını uddum, uddum…
İnsan kimi yaşamağın
Ləzzətini daddım, daddım…
Ruhdan düşmə, namərd görüb,
Davam elə öz yoluna, –
Paxıllıq edənin varsa,
Sən öndəsən neçə addım…

**16.03.2021**

## QARATOYUQ NƏĞMƏLƏRİ

Sübh gəzintisi zamanı qaratoyuq nəğməsi eşidib çox duyğulandım...

Uşaq vaxtı deyərdim ki,
Sanki batıb qıra toyuq.
Cücə boydadı, biz ona
Niyə deyək qaratoyuq?

Dimdikləri də sarıdı
Cücənin dimdiyi kimi! –
Nədən unuda bilmirəm
O günü indiyə kimi?!

Tutumuzun budağında
Yenə yuva qura toyuq.
Yerdə səkə, çəmənlikdə
Eşələnə qaratoyuq...

Qıqqıldayıb hey hoppana
Ora toyuq, bura toyuq.
Qış gələndə yem axtara,
Dimdik vura qara toyuq, –
Qaratoyuq.

Çəkib dimdik qılıncını,
Cücüləri qıra toyuq...
Özü kömür rəngindədi,
Məni salıb qora toyuq. –
Qaratoyuq...

***

Oxudun, ürəyim əsdi,
Səsin nə gözəl, incədi!
Qartoyuq, qaratoyuq,
Söylə, işlərin necədi?

Bir zaman sənin dalınca
Qaçmadığım dağ yox idi...
Mənim qapqara saçımda,
Bircə dənə ağ yox idi...

Ürəyim qurtara bilmir
Xatirələrin cəngindən.
Gözümdə qalan arzular
Rəng alıb sənin rəngindən...

Həzin-həzin oxuyursan,
Qara bulud tək dolmuşam.
Ya sənin səsin dəyişib,
Ya da mən kövrək olmuşam...

Ümid körpülərim uçub,
Çağlayan həsrət selindən.
Sən də qaçqınsan elə bil
Oxuyursan dərd əlindən...

**28-30.04.2020**

*******

Təmizlik hava, su kimi
Gərəkdir bu yer üzünə.
Natəmizlərin əlindən
Yer də tapmır Yer özünə...

Közü sönüb ocağın da,
Yanırıq dərd qucağında,
Qışın bu oğlan çağında
Biz həsrətik qar üzünə...

Dərdləri çoxdu dünyanın,
Gözləri toxdu dünyanın,
Etibar yoxdu dünyanın
Hurisinə, pərisinə...

Tükənmək bilmir oyunlar,
Neyləyim nazik boyunla?
Dostluq edir qurd qoyunla,
Girib quzu dərisinə...

Dərd könlümdə yuva qurdu,
Kimə tapşırım bu yurdu? –
Tanıda bilmirəm qurdu
Mən bu qoyun sürüsünə...

Qəlbim bir quşdur cələdə,
Köməyim yoxdur hələ də,
Onsuz da yaxşı bələdəm
Bu dünyanın hər üzünə...

**11.01.2021**

***

İtib çörəyimin duzu,
Yox qəhvənin, çayın dadı.
Niyə bizə şirin gəlir
Özgə verən payın dadı?

Baş kəsir insan qərəzi,
Kim sağaltsın bu mərəzi?
Pozulub mizan-tərəzi,
Qaçıb yazın, yayın dadı...

Yenə hiylə işə keçir,
Yağlı tikə şişə keçir,
Əvvəl-axır dişə keçir, –
Günah qurdda, qoyundadı?

Möhtacıq yek verən zərə,
Könül yaxır bu mənzərə...
Qınamıram, indi hərə
Öz başının hayındadı...

**11.01.2021**

***

İtirəndə yaddaşı,
Doğmalar da yadlaşır…
Dost kəsək tullamasa,
Neyləyəcək yad daşı?

**07.03.2020**

***

Bəzən qınaqlardan
qorxduğumuz üçün
Mil çəkirik
içimizdəki qönçə
arzuların gözünə!
Bizə kənarda düşmən
lazım deyil,
özümüz su ələyirik
öz ocağımazın közünə...

**07.03.2020**

## ƏL ÇƏK DA YAXAMDAN

Qapıdan qovuram,
Bacadan gəlirsən…
Aşağı atıram,
Ucadan gəlirsən…

Canıma hopursan,
Qanıma hopursan…
Qəlbimi at kimi
Minirsən, çapırsan!

Sənindi varım da,
Sənindi yoxum da…
Ay kədər, nə olar
Əl çək da yaxamdan!

**05.12.2019**

***

Gileylənmə, bu ağrılar, əzablar,
Gülüm, kimin yaxasından əl çəkib?
Bu vaxtacan olubmu bir möcüzə? –
Ölüm kimin yaxasından əl çəkib?

**2019**

## QARDAŞIM OQTAYIN XATİRƏSİNƏ

Gəlişinlə azaltsan da,
Bu dünyanın əzabını,
Ölüm, sənə ölüm olsun,
Döydün bizim də qapını!...

Qardaş, sən niyə aldandın
Əcəlin şirin dilinə?
Niyə qovuşmamış getdin
Öz yurduna, öz elinə?

Qəlbimizdə Qubadlının
Ağrısı, azarı qalıb...
Yollarımıza göz dikən
Bir ata məzarı qalıb...

Sən bizdən hünərli çıxdın,
Sən bizdə ürək qoymadın!
Burda, qərib qəbristanda
Anamızı tək qoymadın...

**07.12.2019**

## BU YAĞIŞ

Selin suyun altında
bilmirəm neyləyim
mən fağır.
Bu yağış
tək məni islatmır,
Bu yağış
ötən ayların,
illərin üstünə yağır...
Bilmirəm ömrün
payızıdır,
yoxsa qışıdır?
Bilmirəm yer nədir,
Bilmirəm göy nədir?
Bu yağış elə bil
əbədi ayrılıq,
həsrət yağışıdır,
Bu yağış içimi
göyüm-göyüm
göynədir...

**09.12.2019**

## İYNƏ VƏ BIÇAQ

İynəyə oturdublar
gələcəyimizı,
İynəyə...
Çölümüzün dərdini çəkirik,
İçimiz göynəyə-göynəyə...
"Gələcəyimiz"
üstümüzə gəlir,

Bir əlində şpris,
Bir əlində bıçaq...
Rahatlığımız,
Dincliyimiz
düşüb qaçaq...
Bilmirəm hara köçək,
Bilmirəm hara qaçaq?
Bu qaqaşın
gözünü qan tutub,
Bu qaqaşın
heç nə görünmür gözünə...
Bıçağı bizə sancır,
İynəni özünə...

**11.02.2020**

## QANLI KÖYNƏK

**Qardaşım Bəxtiyarın əziz xatirəsinə**

Şəkildə gülümsəyirsən,
Qəlbimi çat-çat edirsən.
Bəlkə bu ölüm yalandır,
Bəlkə zarafat edirsən?

Axı kimə güvənəsən? –
Zərbələr arxadan gəlir...
Sənin ipisti yarandan,
Mənim gözümdən qan gəlir…

Uydun saxta təbəssümə,
İnandın üzə gülənə…
Bu qanlı köynək oxşamır
Nağıldan çıxıb gələnə…

Səndən yaman nigarandır,
Tez xəbər gətir anama.
Qanlı köynəyindən əvvəl
Özünü yetir anama…

**14.02.2020**

***

Torpağını yumşaldıbmı
Mənim çağlayan
göz yaşım?
Daha sənə bıcaq batmaz,
Rahat yat,
mərmər qardaşım...

***

Dünyanın bu pis vaxtı
Bizi saldın çətinə –
Alın yazın mübarək!
Əkdiyin bənövşələr
Gəlib ziyarətinə,
Qardaş, yazın mübarək!

**14.03.2020**

## HAMI ÖLÜR

Tamarzıyıq dağ suyuna,
Ağzımızin tamı ölür...
Yurdunda bayquş ulayan
Elin arzu-kamı ölür.

Baş tutdu düşmən kələyi,
Səngimir həsrət küləyi,
Perikib uğur mələyi,
Şairin ilhamı ölür...

Qazıb atdılar kökümü,
Kim çəkər kədər yükümü?
Başlanıb yarpaq tökümü, –
Hamı ölür, hamı ölür...

**05.08.2020**

***

Təpədən dırnağa yanıb,
Kül olmuşam, közüm yoxdu.
Mənim dünyanın malında
Zərrə qədər gözüm yoxdu.

Hamı zəli, hamı gənə! –
Bu nəfs çətin ki, tükənə!
Dənizə hasar çəkənə
Daha mənim sözüm yoxdu.

Azdım dumanda, çiskində,
Meynələr qalıb pis gündə,
Bağda tənəyin üstündə
Bircə salxım üzüm yoxdu...

Gələ bilmir meh köməyə,
Kimi çəkim məhkəməyə?!
Üzünə üz söykəməyə
Daha mənim üzüm yoxdu...

**07.06.2020**

## HAQQIN GÜCÜ

Adam var öz kefindədi,
Bu dünya deyil vecinə.
Qulağına pambıq basıb,
Səsini salıb içinə...

Adam da var qəlbi şüşə,
Hər gün saçına dən düşər,
Xəyalən dönər keçmişə,
Qoşulub həsrət köçünə...

Nə yatar, nə gecələyər,
Fironları heç eləyər,
Gec etsə də, güc eləyər,
Güc çatar haqqın gücünə?

**05.12.2020**

## "QA", "QU"

Hər gün təzə nağıllarla
Aldadırıq başımızı.
Hər gün yıxıb sürüyürük
"Aciz", "qorxaq" qonşumuzu...

Xəyyaların qanadında
Hər gecə kəndə dönürük.
Zülmətdən işğa çıxan
Məlikməmmədə dönürük.

Simurq quşu, sən hardasan?
Nə istəsən, mən verərəm.
"Qu" söyləsən su verərəm,
"Qa" söyləsən dən verərərəm.

Təki məni qanadında
Doğma yurdumuza apar! –
Əlindən bir iş gəlməyən
Nağılla təsəlli tapar...

**07.06.2020**

# TƏRSLİK QANUNU

Həmişə şaxtadan,
çovğundan bezənlər
Günəşli hava,
bahar gözləyir.
Qar üzünə illər boyu
həsrət qalanlar isə
ümidlə qar gözləyir…
Nəyi çox arzulayırsansa,
O, səndən uzaq düşür.
Ürəyindən
çiçək dərmək keçəndə
Çəmənə qırov, sazaq düşür…
Elə bil hansısa
gözəgörünməz qüvvə
xəyallar sultanından
acıq çıxır.
İmanı, iradəsi
güclü olanlar isə
həyatın sınaqlarından
həmişə üzü ağ,
alnı açıq çıxır...

**20.01.2021**

***

Ürəkdəki
həsrət buzlarını
əridə bilmir
hər isti,
İnsan
ilıq bir təbəssümə,
utancaq bir sevgiyə
hərisdi...

**20.01.2021**

# TƏSKİNLİK DÜŞÜNCƏLƏRİ

Bizi yüz yerə aparır
Sahilsiz fikir, düşüncə...
Həyat düşməsin gözündən,
Yadına ölüm düşüncə...

Dünyadan bəndə baş açmaz,
Bu qədər eləmə fikir.
Öz sevdalı ürəyinin
Bir sözünü etmə iki...

Çəkinmə sözdən-həkətdən,
Qəlbin istəyən tək yaşa!
Öz əlinlə arzuların
Kuzəsini vurma daşa.

Yüz fikir bir borc ödəməz,
Bir belə üzmə özünü...
Ömür boyu biz görmüşük
Bu dünyanın hər üzünü...

O heç özü də baş açmır
Gəlirindən, çıxarından...
Kim saxlaya bilib axı
Zamanı öz axarından?

Hər çiyin tab edə bilmir, –
Zindandı ayrılıq yükü.
Bu dünyada kim qalıb ki?!
Bu dünya kimə qalıb ki?

**21.01.2021**

## ƏZABLI GECƏLƏR

Həsrət tufanından köksüm qabarar,
Gecə harayıma ulduz, ay gələr...
Az qalar dünyanı sel-su apara,
Bulud gözlərimdən bulaq, çay gələr...

Ağrısız olmayıb bircə anım da,
Naləm səda verib göylərə çatır.
Mənim əlyazmalar poliqonumda
Nə qədər yaralı fikirlər yatır...

İşıqla yarılar zülmətin bağrı,
Ulduzlar nurunu çilər dünyaya...
Gecələr içimi göynədən ağrı
Səhər nəğmə olub gələr dünyaya...

Əlimdə yellənən şimşək qamçılar,
Təşnə ürəkləri kama yetirər...
Mənim gözlərimdən düşən damcılar
Kağızın üstündə çiçək bitirər...

**14.01.2021**

## NAR KİMİ SIXDIĞIM ÜRƏK

Səni inandırım nəyə əl basıb? –
Sərgərdan ruhumun bədəni yoxdu.
Divanə könlümü şax-şəvəl basıb,
Nə vaxtdı gələni, gedəni yoxdu...

Can candan ayrıdı, bədən bədəndən,
Hərə öz başının hayında qalıb.

Yoxdur umacağım çıxıb gedəndən,
Eşq ömrün o biri tayında qalıb...

Meydan oxuyardım aya, günəşə,
İndi şairin də o canı yoxdu.
Sevdalı günlərçün qəribsəmişəm,
Daha qəlb qapımın açanı yoxdu.

Hər gün pörşələyir söz ürəyimi,
Bülbül tək çırpınır qəlbim qəfəsdə...
Mən şeir yazmıram, öz ürəyimi
Nar kimi sıxıram vərəqlər üstə...

**09.02.2021**

## HƏSRƏT TƏNDİRİ

Dərd qayçısı uzanır
ömrümün kəndirinə,
Ürəyimi boşaldıb
bir az dinclik tapıram...
Gecə-gündüz közərən
bu həsrət təndirinə,
Ağrılarla yoğrulan
söz kökəsi yapıram...

**09.02.2021**

## GƏRƏK TƏMİZLƏYƏK DÜŞÜNCƏMİZİ

***

Nə vaxtdır ürəkdən gülmürük, Allah!
Yaxşı ki, ölənlə ölmürük, Allah!
Hamını, hamını bağışlasaq da,
Heç nəyi unuda bilmirik, Allah!

***

Sevən ürəklərə qəm eləyən var,
Sevdalı gözləri nəm eləyən var...
Məzlumun qisası zalımda qalmaz,
Fili qarışqaya yem eləyən var...

**22.04.2020**

## TANRI QƏZƏBİMİ TUTUB BƏŞƏRİ

Bizim dünyamızda nə çox cihaz var?
Qorxunc sıldırımın ucundayıq biz.
Düşmür əlimizdən mobil cihazlar,
Bilmirik kimlərin ovcundayıq biz...

Günahsız fağırın gözü dağlanıb,
Səsimiz çıxmayıb, daşa dönmüşük.
Biz də ayağına cihaz bağlanıb,
Göyə buraxlan quşa dönmüşük...

Peşmansan kiməsə salam verəsən,
Bilirlər getdiyin küçəni belə.
Çətin ki, gizlicə çiçək dərəsən,
Görürlər qəlbinin içini belə...

Bizi izləyirlər qarabaqara,
Düzlükdən dəm vurub, basırlar gopa.
Qorxmurlar dənizlər coşa, qabara?
Qorxmurlar dünyada qiyamət qopa?

Odlara tullayıb yazıq həkimi,
Müdir “Qalanvaqen”, “Cip” hayındadır.
İnsanlar qırılır qarışqa kimi,
Bu acgöz harınlar cib hayındadır...

Biz necə barışaq bu ömür ilə?
Doğma ola-ola yada dönmüşük.
Çox su aparacaq bu xəmir hələ,
Hamımız hörüklü ata dönmüşük...

Qalıbdır kasıbın unu tabaqda,
Harınlar ləzzətlə izləyir bizi...
Bir Allah bilir ki, hələ qabaqda
Daha nələr, nələr gözləyir bizi?!

Deyəsən yaxındır dünyanın sonu,
Yer-göy üsyan edir, qalxıb ayağa...
Bəşər maskalanıb, qorxur ki, onun
Üzünə göylərdən tüpürcək yağa...

Aldandıq tamahın “bal nəfəsi”nə,
Yaxşıca alınıb köpümüz indi...
Biz qulaq asmadıq Haqqın səsinə,
Şeytan əlindədir ipimiz indi...

Vallah yaxındadır məhşər, yaxında,
Qarışıq salmışıq xeyiri, şəri.
Hamımız yatmışıq fil qulağında,
Tanrının qəzəbi tutub bəşəri...

Dünyada nə qədər qəlbi sınıq var,
Düşüb zalımların birə kürkünə.
Hələ qarışdadır ağır sınaqlar,
Şükür edəsiyik hələ bu günə...

**14.04.2020**

***

Miri  getdi,
Piri gəldi,
nə dəyişdi ki?!
Biri getdi,
biri gəldi,
nə dəyişdi ki?!

**2020**

## SABUN VƏ QİYAMƏT ELÇİSİ

"Ay baba, Yer kürəsini sabunlayıb yumaq olsaydı, canımız qurtarardı tez-tez əllərimizi sabunlayıb yumaqdan…"

**Nəvəmin sözlərindən**

Heyrətdən çiçək də dönüb daş olar, –
Başına min oyun açıblar Yerin.
Bu acgöz, qaniçən, cəllad naşılar
Dünyanı nə hala salıblar görün?

Dəliyik, qanmazıq ya biz, ya bunlar! –
Maska taxanlara baxıb qımışdım…
Əlimi yusam da, bu gün sabunla,
Dünyadan əlimi çoxdan yumuşdum…

Bəs biz harda idik bu çağa kimi?
Bir şey duymurduqmu seldən, doludan?
Qına çəkilməklə tısbağa kimi
Qorunmaq mümkünmü gələn bəladan?

Vəlvələ yaradıb qorxu canında,
Yazıqdı, bədbəxtdi bu el, bu ulus…
Acgöz insanların nəfsi yanında
Toya getməlidir koronavirus…

Gəlir üstümüzə bir qorxunc bəla,
Onun səbəbini duyasan gərək.
Əlləri yumaqla iş bitmir, bala,
Dünyanın özünü yuyasan gərək…

Əsl üz görünər boya itəndə,
Haqqın öz meyarı, ölçüsü gələr…
Abır olmayanda, həya itəndə
Yerə qiyamətin  elçisi gələr…

Səhraya çevrilib nə qədər gülşən,
Çiçək açılmasa, bülbül ötərmi?
Natəmiz əllərlə bu günə düşən
Dünyanı yumağa sabun yetərmi?!…

**15.03.2020**

## BİLMİRDİK AXIRI BELƏ OLACAQ

Natəmiz əlləri saldıqca işə,
Bizi dalanlara  dirədi virus.
Nankor insanların kürkünə düşən
Bir qəddar, amansız birədi virus....

Daha fayda vermir fəğanlar, ahlar,
Boğulub kor oldum mən öz tüstümə,
Bir vaxt etdiyimiz gizli günahlar
İndi virus olub gəlir üstümə...

Küçəyə çıxmaq da olubdur yasaq,
Axır ki, başımız dəydi toxmağa.
Bir vaxt pis işləri maskalamasaq,
Məcbur  olardıqmı maska taxmağa?

İllərlə özümüz seçdik bu yolu,
Yada quyu qazan özü də düşər.
Həkim boğazından kəsilən pulu
Koronavirusa xərcləyir bəşər...

İndi yuxumuz da çəkilib ərşə,
Qaynar köksümüzdə sönüb od, ocaq.
Biz asi olanda aya, günəşə
Bilmirdik axırı belə olacaq?!

**23.03.2020**

## TƏMİZ ƏLLƏR

Qəlbdən keçənləri əzrayıl duyub,
Virusla qorxudur ellərimizi...
Hər gün neçə dəfə sabunla yuyub,
Spirtlə silirik əllərimizi...

Düşmənin əmrinə olub müntəzir,
Çox daşlar atmışıq biz dost dağına...
İndi küçələrdə viruslar gəzir,
Hamımız dönmüşük ev dustağına...

Çıxmağa qorxuruq el arasına,
Elə bil dönübdür ölkə yumağa,
Gedə də bilmirik dostun yasına,
Hər əl qadirdimi ləkə yumağa?

Təmiz arzuları apardı sellər,
Təbəssüm itəndə, qəm üzə çıxar...
Rüşvət virusuna yoluxan əllər
Çətin ki, sabunla təmizə çıxa...

Özümüz salmışıq borca dünyanı,
Daha insanlara hava, su çatmır.
Yarası qan verir qoca dünyanın,
Elə bil onun da havası çatmır...

Yağış əlac etmir solan güllərə,
Qəlbimdə nə qədər ağrı, acı var.
Bu çirkli dünyanın təmiz əllərə
Bilirsən nə qədər ehtiyacı var?!

**25.03.2020**

## TACLI VİRUS VƏ TƏMİZ HAVA

Təmizlik yaradır koronavirus,
Anlaya bilmirik onu biz amma.
Gəlib ki, məhv edə natəmizləri,
Gəlib ki, dünyanı sala nizama...

O, nə "mən öl" bilir, nə də ki "sən öl",
Düşübdür hamının kürkünə birə.
Gəlib hasarları söküb dağıda,
Azman cibgirlərin cibinə girə...

Vaxtı yox kimisə əzizləməyə,
Bu balaca varlıq əsir hirsindən.
Gəlib bu dünyanı təmizləməyə
Barıt tüstüsündən, zavod hisindən...

İnsanı səsləyir insan olmağa,
Deyir ki, öyünmə pul-para ilə.
Deyir ki, pis günə qoyduğun Yeri
Necə təmizləyim mən para ilə?!

Deyir: – Pis işlərin bədəlini sən
İndi öz taxtınla-tacınla ödə!
Bəlkə də gəlib ki, bu taclı virus
Bütün tiranları tacından edə....

O, təmiz olmağı, insan olmağı
Sağalmaz dərdlərə dəva gətirib.
Hava təmizlənib o gələn gündən, –
Özüylə bir təzə hava gətirib...

Yaxşının öz yeri, pisin öz yeri,
Dünyada hər şeyin öz qiyməti var.
Allahın işinə qarışanların
Qiyamət günündə qiyaməti var...

**30.03.2020**

## GƏRƏK TƏMİZLƏYƏK DÜŞÜNCƏMİZİ

İnsan tək yaşamaq çıxıb yadından
Bu bəşər övladı lap ağ eləyir...
Biri yarasaya, biri siçana
Biri də ilana barmaq eləyir...

Hamı yadırğayıb əkib-biçməyi,
Hamı top düzəldir, bomba düzəldir...
Biri hara gəldi soxur burnunu,
Biri döş qabardır, omba düzəldir...

Deyirəm bəlkə də bu bir sınaqdı,
Bu virus məlhəmdi yaramız üçün?
Axı nə şeydi ki, iman dəyişmək,
Cinsini dəyişən yaramaz üçün?

Göydən daş yağmazmı dolu yerinə
Meydan oxuyanda bəndə göylərə?
Əgər belə getsə, robot gəlinlər
Ərə veriləcək robot bəylərə...

Calaq olunubdur yaxşı yamana,
Öküzü kəl edər gönü dəyişmək?!
Həsrətik meyvənin ləziz tamına,
İndi dəbə minib geni dəyişmək...

Qutab bişirən də kitab çıxardır,
Ucuz tamadalar məclisdə coşur.
Alim də, çoban da, qarpızsatan da
İndi şeir yazır, nəğmələr qoşur...

Hamı şan-şöhrətə salıbdır meyil,
Bu ana təbiət lap cana doyub...
Dünyanı bu günə viruslar deyil,
Dünyanı bu günə adamlar qoyub...

Qiyamət gözləyir bizi qabaqda,
Toya getməlidir bu virus hələ...
Allahın işinə qarışanları
Tanrı girinc edib bir virus ilə...

Gəl, koronavirus, dönüm gözünə,
Etdin lovğaların dilini gödək...
Bəlkə indi gələ ağlı başına,
Hərə öz işinin dalınca gedə...

Bizi bu günlərə salan nə olub? –
Edilən günahı düşünməliyik.
Evdə qalmaq ilə iş bitmir hələ,
Biz evdə sabahı düşünməliyik...

Qayıdıb bu yolu təzədən keçək?
Bizə dərs olmadı Nuhun gəmisi?

Təkcə bu çirklənmiş dünyamızı yox,
Gərək təmizləyək düşüncəmizi! –
Bəlkə xilas edə düşüncə bizi...

**03.04.2020**

## ÖLÜMƏ MƏHKUMDUR HƏKİMSİZ ÖLKƏ

Onun geyimi tək üzü də ağdır,
Tərtəmiz, ağ xalat götürmür ləkə.
Həkim el güvənən bir uca dağdır, –
Ölümə məhkumdur həkimsiz ölkə...

Bir vaxt qu quşuna qaz deyənlərin,
Külək fəryadını ərşə daşıyır.
"Mənə ucuz dərman yaz" deyənlərin,
Ucuz cəmdəyini "Porşe" daşıyır...

Mərdlərə çatarmı namərdin ərki?
Ləkə vurarlarmı qəlbin pakına?
Elə bilirlər ki, bu yazıq həkim
Borcluymuş bunların zati-pakına...

Susubdur bir yekəqarın yanında,
Üzünə çökübdür xəfif bir kədər.
Pula pul deməyən harın yanında
Olub hörməti də maaşı qədər...

Axırı belədir ağ edənlərin,
Yetmir köməyinə mülkü, sarayı...
Bir vaxt həkimlərə  lağ edənlərin
Gözündən boylanır imdad harayı!

Həkim virusları almır eyninə,
Hamı evdə qalıb, o, işə gedir.
Elə bil kəfəni geyib əyninə,
Qorxunc əzrayılla döyüşə gedir...

Tərləyib eynəyi, göynəyir içi,
Görünməz eləyib duman işığı...
Xəstə cəmiyyəti sağaltmaq üçün
Hələ bəs eləmir iman işığı...

**05.04.2020**

## QOCALARIN GİLEYİ

Rəhmət olsun Cəlilə, rəhmət olsun Sabirə!
Nə deyim ürəkdəki bu dözümə, səbirə?
Çölə çıxmaq qadağa olunan ahılları
Elə bil yavaş-yavaş öyrədirlər qəbirə...

Haqqı var hər bir kəsin yaşamaqdan doymursa,
Elə ölsə yaxşıdı kim həyatı duymursa.
Biz niyə fərq qoyuruq adamlara görəsən,
Əgər virus qocaya, cavana fərq qoymursa?

Pəncərədən gileylə bizə baxdı yarımız,
Gözəllik diyarıdı indi bax, diyarımız...
Dəniz,  dağ bizsiz qalıb, yanlarına getməyə,
Ömrün ixtiyar çağı yoxdur ixtiyarımız...

**15.05.2020**

## QƏFƏS BÜLBÜLÜ

Həmişə gələrdi ev dar kişiyə –
O dağdan, bu dağdan gələrdi səsim...
İndi çevrilmişəm "evdar kişi"yə,
Ürəyim darıxır, çatmır nəfəsim...

Qələm də şairin baxmır sözünə,
Nəğməkar eləyir həvəs bülbülü...
Hamımız həsrətik çəmən üzünə,
Hamımız olmuşuq qəfəs bülbülü...

**06.01.2021**

## YAŞI ALTMIŞ BEŞDƏN YUXARI OLANLAR

Küçəyə buraxmırlar
yaşı 65-dən yuxarı olanları. –
Qorxurlar ki, amansız virus
yapışa onların yaxasından...
Yaşı 65-dən yuxarı olanlar
evdə oturublar,
həm canlarının, həm də
ciblərinin qorxusundan...
Bir zaman
mənəmlik xəstəliyinə
tutulanların hamısı
indi əlacsız bəndəyə dönüb. –
İndi bu yazıqlar
pəncərədən küçəyə baxırlar
qorxa-qorxa, devikə-devikə.

Yaş –
onların  ayaqlarında
kündəyə dönüb,
Qocalıq –
boyunlarında
ağır bir yükə...

**11.04.2020**

## KORONAVİRUS ZARAFATLARI

Həyat eşqini
sönməyə qoymur
bir-birindən məzəli
koronavirus zarfatları. –
Bir boş qalan küçələr
rahatlıq tapıb,
bir də
65 yaşdan yuxuarı olan
kişilərin arvadları...

**11.04.2020**

## DİRİLƏN İNSANLIQ

Ünsiyyət, get-gəl azalsa da,
təmizlik günbəgün
çoxalır elə bil.
Dünyanın puçluğunu dərk edən
kobud adamların da
ürəyi yuxalır elə bil...
Balaca, gözəgörünməz bir
virusun əlində
əsir-yesir qalan insan

günahlarını dərk edib,
için-için ağlayır...
Elə bil bir-biri ilə cismən
görüşə bilməmək
adamları mənən bir-birlərinə
daha çox bağlayır....
İndən belə
düşüncələr saflaşsa əgər,
Çox işlər görüləcək.
“Mənəm-mənəmlik” ölsə,
“Mənim-mənimlik” ölsə,
İnsanlıq diriləcək...

**12.04.2020**

## NİQAB VƏ MASKA

Niqaba lağ edənlər,
Hicabı pisləyənlər
İndi maska taxırlar.
Xırdaca, bapbalaca
Virusdanmı qorxurlar?

Bildilərmi boş yerə
Deyilmiş niqab, yaşmaq?
İnsana çox yaraşır
Təmiz adla yaşamaq,
Ləyaqətlə yaşamaq.

Niqab çox ucadaymış
Kinayəli sözlərdən. –
Qadını qoruyurmuş
Virus dolu gözlərdən...

**03.04.2020**

## YARASA VİRUSU

Dünyanı zülmətə
qərq etmək istəyir
Yarasa virusu...
Yarasa xislətlilərdən
Bizi Allah qorusun!

**05.04.2020**

## SÜKUT SƏSİ

Ayın görünməyən üzü
Yeri hey çəkir özünə.
Həsrətdən rəngi saralıb,
Yuxu da getmir gözünə...

Milyon illərdi fırlanır,
Ehtiyacı var dinc ələ.
Susun, bir az  mürgüləyib,
Yer bəlkə bir az dincələ!

Bomboş küçəyə baxıram,
Gözlərim dönüb buluda.
Hay-küyündən yer-göy əsən
Şəhər bələnib sükuta...

Qu desən qulaq tutular,
Hənirim daş, şəhər şüşə...
Bu müdhiş sükutun səsi,
Az qalır ki, qulaq deşə!

**05.04.2020**

***

Yenə də qoca dərviş
Dağıdacaq Parisi.
İndi koronovirus
Olub ilham pərisi...

**2020**

## BULUD, DURNA VƏ DRON

Nəhəng arılara bax,
Vızıltıyla uçurlar...
İnsanların başına
Min bir oyun açırlar.

Onu bircə yol görən
Çox çətin ki, unuda.
Bu nəhəng arıların
Bənzəri var buluda.

Hansı tərəfə əsir
Görən əcəl küləyi?
O bulud yağış deyil,
Göydən mərmi ələyir.

İbrət olmayıb, yenə
At oynadır fironlar.
Durnalar gözə dəymir,
Göydə uçur dronlar...

**13.04.2020**

***

Bizimki yaşamaq deyil,
Bizimki gün keçirməkdi...
Ömrün uzun təsbehinə
Muncuq tək gün keçirməkdi...

Pəncərədən baxmaq ilə
Yanğını soyutmaq olmur.
Kaman tək inləyən qəlbi
Heç nəylə ovutmaq olmur.

Həsrətəm meşəyə, dağa,
Gün keçir, günüm gün deyil.
Dörd divarın arasında
Xoşbəxt olmaq mümkün deyil.

**13.06.2020**

## YERİN SÖZÜ

Öz yerimi bilirəm,
Yerəm,
Yerəm,
Yerəm mən.
Verilən suallara
Gərək cavab
verəm mən…

İnsan danışan zaman
Gərək bir az düşünə…
“Mən qadirəm”, – söyləyib,
Çox döyməyə döşünə.

Yerlə Göy arasında
Sən özünü azca öy…
Kainat çox böyükdür:
Zəmin –Yer,
Asiman – Göy…

Mən də Göy övladıyam,
Sözlərim deyil hədər…
Fərqimiz böyüksə də,
Zəmin – Asiman qədər…

“Göy boşluqdur” deyənin
Mat qalmışam sözünə.
Gündüz Günəş, gecə Ay
Görünmürmü gözünə?

Kİm bilir şəfəq saçan
Ulduzların sayını?
Kimdir nizama düzən
Kometlər alayını?

Sonsuzluq məkanına
Gərək səma, göy deyəm!
Adım Yer olsa belə,
Mən özüm də göydəyəm…

İnsanlara bəxşişdi
Bu dünyanın hər günü…
Yalnız Yaradan bilər
Yerin, Göyün fərqini…

**26.01.2021**

## YALANLAR

Atalar deyirdi dünya dağılsa,
Yalan ayaq tutar, yeriyə bilməz...
Dağa dağ çəkilər küllük dağ olsa,
Hönkürən ürəyim kiriyə bilməz...

Qəlbim də yurdum tək viranə qalıb,
İçimdə arzular qızıl qan qusur...
Yalan Qarabağda yurd-yuva salıb,
Yurdundan didərgin həqiqət susur...

İnləyən qəlbimiz qırıq kamança,
Dağlar gözümüzə olub göz dağı.
Həqiqət gözünü açıb-yumunca,
Yalan alovunda çıxar cızdağı...

Kimə uzadasan axı əlini? –
Adam heç kəsə bel bağlaya bilmir.
Kükrəyib çağlayan yalan selini
Həqiqət bəndləri saxlaya bilmir...

Yalanlar pis günə qoyar dünyanı,
Xəzinədar olub ilanlar yenə.
Həqiqət yağışı yuyar dünyanı,
Sudan quru çıxar yalanlar yenə...

**15.12.2019**

## KİMİN KİMLİYİNİ İT YAXŞI BİLİR

Adam var gözləmə insanlıq ondan,
Qorxaq hey dəm vurur igidliyindən.
İnsan tez-tez çıxır insanlığından,
Min ildi çıxmayıb it itliyindən...

Bəşər tamahına hələ də quldur,
Zəngin utanmırmı lütü görəndə?
Adamlar yanında şax gəzən quldur,
Yumaq tək büzüşür iti görəndə...

Qazanca döndərib mənim itkimi,
Malımı aparıb, üzümə gülür.
Oğrular qorxurlar itdən it kimi, –
Kimin kimliyini it yaxşı bilir...

Çarəsiz polislər köks ötürürlər
İtirib kələfin bəzən ucunu...
Çətinə düşəndə it gətirirlər
Tapmaqçın oğrunu, qaçaqmalçını...

Hamı çölə çıxır maska üzündə,
Ayrı görkəm alıb indi xeyir, şər...
Ağlının, huşunun bu vədəsində
İtin umuduna qalıbdır bəşər...

**17.08.2020**

# ANONİM KİŞİ

Üzün yoxmu öz adınla üzə çıxmağa?
Maska altda gizləyərmi kişi üzünü?
Kişi qəfil büdrəyəni qoyarmı lağa?
Kişi kimi deməlidir kişi sözünü...

Özgələrin kölgəsində baş qatanları,
Əvvəl-axır tanıyacaq bu el naşı tək.
Gizli-gizli bostanıma daş atanları
Zaman özü tullayacaq sapand daşı tək.

Quyruğunu ələ verdin, keçib iş-işdən,
Harayına səsləyirsən indi hamını.
Sən almaqmı istəyirsən nurlu günəşdən
Öz kölgəli həyatının intiqamını?

Maskalanıb gizlənməsin kişilər gərək,
Kişi quyruq bulayarmı axı yadlara?
Başqa adlar arxasında kölgələnərək,
Kölgə salmaq istəyirsən nurlu adlara?!

Mən getsəm də, çıxmayacam elin yadından,
Çox olacaq xatırlayıb ananım, kişi.
Sənin qəlbin qovrulacaq hikkə odunda,
Halın niyə pərişandı, "Anonim kişi"?

Qabaq-qənşər döyüşlərdə batmaz div ona,
Öz nəfsinə heç olarmı əsir kişilər?
Namərdləri açıq-aşkar çəkər divana,
Yaxşılığı gizli edər əsil kişilər...

**07.04.2020**

***

Nağıllar qapısında mat
qoyub "sim-sim" səni,
Vicdan məhkəməsindən
xilas edər kim səni?
Sümük dimdikləyənlar
cinayətkar sayılır,
Gödən dağıdanlarla
işi yoxdu kimsənin...

**2020**

## NAMUS MEYARI

Ay "feminist" xanımlar, bir özünüz düşünün:
Ulu Burlaxatunu, Nigarı salın  yada!
Namus meyarıdırsa, əgər qadın kişinin,
Deməк qadından uca məxluq yoxdur dünyada...

Niyə qara yaxdınız azadlığın rənginə?
Namus uca deyilmi mirvaridən, altundan?
Gör "azadlıq" istəyi sizi salıb nə günə! –
Az qalır ki, yer qaça ayağımız altından!

El qoyan qaydalara baxmaq mümkünmü gendən?
Qadına yaraşarmı hər məclis, hər ziyafət?
Əsil kişilər üçün dünya yaranan gündən
Əxlaq meyarı olub qeyrət, namus, ləyaqət...

Kim quruda bilər ki, çağlayan göz yaşını?
Zatı qırıq olanlar bunları duya bilməz.
Namus uca eləyər ərənlərin başını,
Ləyaqət ləkəsini Kür, Araz yuya bilməz...

Olmaqmı istəyirsən yol ötənin "qonağı"?
Baxmaqmı istəyirsən hər "nemətin" dadına?
Qanunlardan ucada durur elin qınağı, –
Kim haq verər sənin tək "azad" qıza-qadına?

Namuslu anaların yer titrəyir ahından,
Bu elin, bu obanın ayaqlarına döşən!
Yalvar, tövbə et, bəlkə keçdilər günahından,
Ayağa qalxa bilməz elin gözündən düşən...

Qadın sədaqətiylə  bizi ucaldar göyə,
O, bizə arxa olar elin ən dar günündə.
Baş əyin, ərənlərin başı dik olsun deyə
Özünü fəda edən anaların önündə,
Özünü fəda edən bacıların önündə...

**24.03.2020**

## DÖRDLÜKLƏR

Kirpiklər işıq saçan gözün üstünü örtür,
İkibaşlı kəlmələr sözün üstünü örtür.
Günəşin qarşısına pərdə tutur buludlar,
Kül də sönmüş ocaqda közün üstünü örtür...

***

Ağac bərk gileylidir tikanlı sarmaşıqdan,
Saz qurtulmaq istəyir köksü yanan aşıqdan.
İnsan kölgə axtarır gündən daldalanmağa,
Hər şey qorxur işıqdan, hamı qorxur işıqdan...

***

Bu virus rəhm eləmir nə arığa, nə kökə...
Azadlıq həsrətidir məni salan bu kökə.
Ocağın nə vecinə biz ölürük  acından, –
Heç bişənə oxşamır təndirdəki bu kökə...

**13.04. 2020**

***

Gözümüzdə şimşək çaxır, ay haray!
Təpəmizdən tüstü qalxır, ay haray!
Ömür boyu Kür Xəzərə axırdı,
İndi Xəzər Kürə axır, ay haray!

***

Yaman günlər yaxşını da pis edir,
Ürəyimiz təhlükəni hiss edir...
Çöldə günəş yandıq verir elə bil,
Evdə ümid çırağımız his edir...

**07.06.2020**

***

Gördüyün işlərdən usan, a yağı!
İnsan da olarmı insana yağı?
Qəlbimin qırxıncı sirr otağına
Hələ dəyməyibdir insan ayağı...

**18.07.2020**

## ACI HƏQİQƏT

Əgər insansa,
həmişə haqq,
ədalət uğrunda
döyüşməlisən...
Ancaq dünyanı
dəyişə bilmirsənsə,
başqa yolun qalmır –
Özün dəyişməlisən!

**2020**

# QƏLƏBƏYƏ GEDƏN YOL

## ŞƏHİD NƏĞMƏSİ

Biz əbədi ruh oluruq, quşa dönürük,
Sevənlərin gözlərində yaşa dönürük.
Əbəs yerə ölmürük ki, Vətən yolunda, –
Müstəqillik sarayında daşa dönürük!

Qələbəyə sonsuz ümid bəsləyirik biz,
Sizdən zəfər xəbərini gözləyirik biz.
Dönüb vətən göylərində qövsi-qüzehə,
Yurdumuzu gələcəyə səsləyirik biz...

El yolunda qan veririk, qanlar tökürük,
Təkcə bayraq qarşısında biz diz çökürük.
Ağlamayın, sızlamayın, – şəhidlər ölmür,
Biz ruh olub yurdumuza keşik çəkirik...

Dar məqamda kaman kimi gərilirik biz,
Ana yurdun qədəminə sərilirik biz.
Qanımızla elə yeni həyat veririk,
Xalqın xoşbəxt günlərində dirilirik biz...

**15.07.2020**

## QEYRƏT DƏYİRMANI

Qəlbimdəki ağrılar dinclik tapmır bir hovur,
Arzum gözümdə qalıb, içimdə şimşək çaxır...
Məmurlar kresloda əyləşib milçək qovur, –
Dəyirman işindədir, kimdir sayan çax-çaxı?

Heç bitənə oxşamır, bu haqsızlıq, bu savaş,
Yerdə qoymaq olarmı igidlərin qanını?
Şəhid övladlarının gözlərindən axan yaş
Nə vaxt işə salacaq qeyrət dəyirmanını?...

**30.07.2020**

## DOĞULMAYAN UŞAQLARIN RUHU

Düşüncələr mənə
rahatlıq vermir,
Pis gündəyəm,
pis gündə…
Doğulmayan uşaqların
ruhu uçuşur
Şəhid məzarlarının
üstündə…

**2020**

## KASIBIN VƏTƏN NƏĞMƏSİ

Ay Vətən, sənin yolunda
Alovdan, közdən keçərik.
Varlı bir kirpikdən keçməz,
Biz iki gözdən keçərik…

Baxıb dünya gərdişinə,
İnsan gərəkdir düşünə!
Zənginlər döyər döşünə, –
Biz sözü sözdən seçərik.

O kef çəksin, sən əzab çək? –
Vətən, özün haqq-hesab çək!
Yolunda incəlib sap tək
Kiçik ulduzdan keçırik…

Xoşbəxtdir uğrunda ölən,
Dərdini səninlə bölən,
Ömrümüzə təzə gələn
Çiçəkli yazdan keçərik.

Yolunda girərik oda,
Namərdlərə düşsün qadan! –
Onlar keçməz kreslodan,
Biz canımızdan keçərik…

**22.08.2020**

## ZƏFƏR DASTANI

Şükür sənə, İlahi,
Nələr gəldi ağlıma? –
Qələbə məlhəmi qoy
Mənim könül ağrıma!

Bizi lala döndərib
Sanki otuz il susmaq.
Qismət elə sən mənə
Zəfər dastanı yazmaq!

Xalqım şərəflə çıxsın
Tarixin sınağından.
Axır ki, babaların
Qurtaraq qınağından...

***

Otuz illik mürgüdən
Yaralı şir oyandı...
Hər qayanın dibindən
Bir qəhrəman boylandı...

Boz ata süvar olub,
Nəbi Həcərlə gəldi...
Sultan bəy belindəki
İti xəncərlə gəldi...

Elə bil kişnəyirdi
Əfsanəvi qır atlar...
Koroğlu nərəsimi
Şaqqıldayan qradlar?

Hirslənən igidlərin
Gözlərinə qan gəldi.
Qarlı dağlar aşaraq
Ağ atlı oğlan gəldi...

Köksümüzdəki vulkan
Od püskürdü, qaynadı.
Qarabağ səmasında
İldırımlar oynadı...

Göylərdən xeyir-dua,
Yer altdan səda gəldi.
Çox şükür, qeyrətlənib,
Lazım baba da gəldi...

Baxmadı nə çovğuna,
Baxmadı nə qırova!
Azərbaycan əsgəri
Bayraq sancdı Murova...

Büzüşən zirvələrin
Açıldı qırışığı.
Nur saçdı Qarabağa
Bayrağımın işığı...

Bizdən küskün Kəlbəcər
Sevincindən uçunur...
Muştuluqla Şuşanı,
Muştuluqla Laçını...

Füzulidə səslənsin
Füzulinin qəzəli...

Döndər yaşıl yarpağa
Vaxtsız solan xəzəli...

İgidlərim inadlı,
Arzularım qanadlı...
Gözün aydın, Cəbrayıl,
Gözün aydın, Qubadlı!

Zəngilan, çinar meşən
Qırılıb, nə gündədir?
Ağdam, fikir eləmə,
Ağ günlərin öndədir...

Ay Bərgüşad, Həkəri,
Araz, gözlərin aydın!
Çiməcəyəm suyunda
Bu yaz, gözlərin aydın!

Dalğalanır Murovda
Azərbaycan bayrağı...
Şölələnir qəlbimdə
Sönən ümid çırağı...

Azərbaycan əsgəri
Səni Allah qorusun!
Yağıların başına
Yağdır hiddət dolusu...

Ayağın dəyən yerdə
Bitəcəkdir gül-çiçək...
Öz doğma yurdumuza
Dönəcəyik sevincək...

Qış çəkilib getməsə,
Bahar, yaz ola bilməz.
Mənim zəfər dastanım
Sənsiz yazıla bilməz...

**01.10.2020**

## MUROVUN ZİRVƏSİNDƏ

Murovun zirvəsində
üçrəngli bayrağım yellənir, –
Qarabağım təzəcə ayılıb,
illər boyu gördüyü
qara-qura yuxudan...
Murovun zirvəsində
üçrəngli bayrağım
yellənir, –
bizim qəlbimiz
sevincdən əsir,
düşmənlərin ürəyi
qorxudan...

**01.10.2020**

## AY AZƏRBAYCAN ƏSGƏRİ

Ay Azərbaycan əsgəri,
Səndədir zəfər sənədi...
Evimdən ayrı düşdüyüm
Bilirsən neçə sənədi?

Otuz ildir ürəyimdən
Qara-qara qanlar axır,
Yağıları qov yurdumdan,
Təkcə gümanım sənədi...

**01.10.2020**

## AZƏRBAYCAN DRONU

Sanki simurq quşudur,
Azərbaycan dronu...
Qanadlanıb uçanda
Hünərin var vur onu!

O "quş" komandirlərin
Hər əmrini dinləyir...
Düşmənin tanklarını
Çəyirtkə tək dənləyir...

**02.10.2020**

## QƏLƏBƏ SEVİNCİ

Dindi alovlu mərmilər,
Bir möhtəşəm ocaq çatdım.
Lərzəyə gəldi dağ-dərə,
Aləmi bir yerə qatdım.
Dırmandım üzü yuxarı
Qədəm-qədəm, addım-addım.
Gözün aydın, Murov dağı,
Axır ki, zirvənə çatdım...

Sərilib dığa-mığalar
ordumuzun ayağına,
Yurdumuzun oğulları
dönüb elin dayağına,
Zirvələrdə dalğalanan
Azərbaycan bayrağına,
Düşmən baxır
yana-yana,
qorxa-qorxa,
maddım-maddım...

Qoyardımmı talasınlar
Vətənin bol sərvətini?
Zəfərlərin sevincini
qələbənin şərbətini
Mən ləzzətlə
daddım, daddım,
Min ləzzətlə
daddım, daddım!

Şükürlər sənə İlahi,
Axır ki, murada yetdim,
Axır ki, arzuma çatdım...
Sönmüş ocağın yerində
Bir möhtəşəm tonqal çatdım!

**02.10.2020**

## HİDDƏT SELİ

Yurd sevgisindən coşan
Mərdlər haray qopardı.
Fırtına at oynatdı,
Sular coşdu, qabardı...
Düşməni çör-çöp kimi,
Hiddət seli apardı...

**02.10.2020**

## İSTİ YAĞIŞLAR

İçimi silkələdi ordumuzun zəfəri,
Qəlbimin dağlarında ildırımlar oynadı...
Məni xoşbəxt elədi bu qələbə xəbəri,
Uçum-uçum uçundum,
gözümdən yaş qaynadı...

Xirtdəyimə söykənən həsrət dönub qılınca,
Ömrün bu qış çağında qismətim bahar imiş...
Durub qaçmaq istədim ayaqları yalınca,
İlahi, gözlərimdə nə qədər yaş var imiş!

Cavan idim bir zaman, indi qoca kişiyəm,
Bax qəlbimdə sızlayan çata, məni, bağışla.
Doğma yurdum, viranə qalan evim-eşiyim,
Qəbri uçan, ot basan ata, məni bağışla!

Heç bilirsən qınından qılınc kimi sıyrılan
İnsanları görəndə nələr gəlir ağlıma?
Göz yaşıma qarışıb doğma bulağın suyu,
Yeni bir ahəng qatır qəlbimin fəryadına...

Yaralı xatirələr mənə verməyir macal,
Çırmanıb uşaq vaxtı bu çaydan çox keçmişəm...
Çaylaqdakı hər qaya çevrilir addamaca,
Ayaq basıb üstünə adlayıram keçmişə...

Ən ağır məqamlarda yetə bilir dost dada,
Burda hər yol, hər cığır mənə doğma, tanışdı...
Elə bil Ballı qaya dilə gəlib astadan
Mənimçün şirin-şirin xatirələr danışdı...

Sönən ocaq közərir korun-korun, gizlicə,
Bura yenidən dönmək taleyin fürsətidi...
Xarabaya dönsə də, kəndim gözəlmiş necə!
Onu gözəlləşdirən sonsuz yurd həsrətidi...

...Ötür gözüm önündən ömrün ötən çağları,
Bəxtim ayaq üstəymiş, durdum o ucalıqda.
Fövqündə dayanmışam sinəmdəki dağların, –
Nə gözəl görünürmüş yurdum o ucalıqdan...

**09.02.2021**

## ŞƏHİDLƏRİN QANIYLA YOĞRULAN ANA TORPAQ

Payımıza göz dikib yenə azğın fironlar,
Qovuşsaq da biz həsrət qaldığımız torpağa.
Ömür boyu zəli tək qanımızı soranlar
İndi də göz dikiblər aldığımız torpağa...

Sonsuz yurd sevgisinə necə olum mən asi? –
Cənnətə döndərən var möminlərin könlünü.
Qadir Allah, partlayıb qorxunc tamah minası
Niyə göyə sovurmur acgözlərin külünü?

Bəbəkləri önündə ildırım şaqqıldayır
Hərisliklə torpağı vərəvurd edənlərin...
Qəhrəman qazilərin yarası zoqquldayır, –
Yoxdur bir təmənnası yurdu yurd edənlərin...

“Hazıra nazir”lərsə dayanıblar marıqda,
Haqsızlıq görən könül çox çətin ki, ovuna.
Torpağı xilas edən pələng qalıb qıraqda,
Kaftarkoslar göz dikib onun halal ovuna...

Köksümüzdən boylanan azadlıq günəşidir,
Sevgi seli gərəkdir fırlanan çarxlar üçün...
Torpağın hər qarışı namus, şərəf işidir,
Yurdu xilas etmədik biz oliqarxlar üçün...

Həqiqət ayrı şeydir, inanma nağıllara,
Tamahkarın üzünü niyə yumur mürdəşir?
Torpağı xilas edən cəngavər oğullara
Bu torpağın üstündə bir qəbirlik yer düşür...

Xoşbəxtlik insanların üzünə güləcəkmi? –
Halal nəfəs duymasa çətin oyana torpaq...
Zəlilər sürüsündən qoruna biləcəkmi,
Şəhidlərin qanıyla yoğrulan ana torpaq?!

**12.02.2021**

## QAYITMIŞIQ GÜLƏBİRDƏ

Qartalımız həsrət qoyub,
Biryolluq sarı, işığa.
Həkərinin halal suyu
Çevrilib sarı işığa...
Gözünüz aydın söyləyin
Yaxşıya, Sarı Aşığa!

Məhv elədik yamanları,
Bizdən torpaq umanları.
Laçın dağları üstündən
Qovduq qara dumanları.

İgid oğullar qoyarmı
Düşmən bizə gülə bir də?
Sən dön bir sarı bülbülə,
Yaxşı dönsün gülə bir də...
Oyan, oyan, Sarı Aşıq,
Qayıtmışıq Güləbirdə...

**15.02.2021**

# DOĞMA YURD ÖGEY OLMAZ

– Qar yağıb Qaf dağına,
Dünyanın saf dağına.
Doğma yurd necə dözsün
Düşmənin tapdağına?

– Uca dağmı Qaf, ana?
Bənzəyirmi Qafana?
– Bu yurd yeri bizimdi,
Həkk elə öz qafana…

Leysandı, qısıl daşa!
Dönübdür qızıl daşa!
Kaş qayıda biləydim,
Qafana, Qızıldaşa…

Çırtlayıb qan ucaya,
Bax suya qanlı çaya.
Sahib çıx Salvartıya,
Sahib çıx Qanlıcaya!

Hər qamışdan ney olmaz,
Ay, ulduzsuz göy ölmaz.
Yüz il özgə yaşasa,
Doğma yurd ögey olmaz…

**17.02.2021**

## BİZƏ ÇOX GÖRMƏYİN XARABA YURDU

Nigaran gözlərə qaranlıq çökür,
Elə sanırdıq ki, ağ nura düşdük.
Bizsiz ata yurdu müsibət çəkir,
Yağışdan qurtarıb, yağmura düşdük...

Hamının vicvicə düşüb canına,
Utancaq arzular boy ata bilmir...
Ürəyim dönsə də Aşıq Cününa,
Səsim Koroğlunu oyada bilmir...

Yaman nigaranam, itib dincliyim,
Sağalmır qəlbimə vurulan zədə.
Dəcəl uşaqlığım, qaynar gəncliyim
Məni tapacaqmı təzə binədə?!

Divanə könlümün deyil o çağı,
Bizə sitəm edib qaragüruhlar...
Əlimlə yanmasa ata ocağı,
Ora qayıdarmı pərvanə ruhlar?

Kəndim – xatirəylə  dolu xəzinə,
Burda yol gözləyən xeyli bulaq var.
Dönüb baxacaqmı Qeysin üzünə,
Bu Məcnun sevdalı Leyli bulaqlar?

Ciyəri hicrandan ələyə dönən
Bəlkə şəfa tapa nağıllı kənddə...
Doğma yurd dərdindən dəliyə dönən
Xoşbəxt olacaqmı "Ağıllı kənd"də?

Bu da bir sınaqdı, nə küs, nə inci,
El gözündən düşən boy ata bilmir...
Nə günə qalmışıq, zəfər sevinci
Qara bəxtimizi oyada bilmir...

Nuru azalsa da, göz o göz deyil; –
Halal yurd yerimiz sonalanıbdır.
Təkcə həyətimiz, evimiz deyil
İndi səbrimiz də minalanıbdır...

Divanə Məcnun tək mən də dəliyəm,
Öz doğma Leylimi könlüm haraylar...
Hələ görməmişəm xoşbəxt eləyə
Qəlbi viranəni abad saraylar...

Onu cəlb etmədi nurlu səhərlər, –
Həmişə könlümdə qəm yuva qurdu...
Cavanlara qalsın abad şəhərlər,
Bizə çox görməyin xaraba yurdu...

**20.02.2021**

## ƏN BÖYÜK QƏHRƏMAN

Torpaq uğrunda döyüşən
igidlərimizin heç birı
orden, medal
təmənnasında olmayıb.
Ancaq döyüşlərdə
şücaət göstərən
bircə nəfər də
ordensiz,
medalsız qalmayıb...

Qəhrəmanlıq –
insanların içində
babalardan yadigar qalan
qeyrət közüdü, –
Qəhrəımanlıq –
bu xalqın taleyinə yazılıb...
Ən böyük qəhrəman isə
Vətən torpağının özüdü, –
Sinəsindən ən dəyərli
ordenlər, medallar kimi
şəhid məzarları asılıb...

**04.03.2021**

## O DAĞLAR, DƏRƏLƏR GÖZLƏYİR MƏNİ

Şirin xatirələr mənə əl edir,
Uzaqda qalmışam tənha ada tək.
Bizim Daşlıdərə uzanıb gedir
Əyinin altından Bərgüşadadək...

Bir vaxt bu dərənin hər yamacında
Bostan yerlərimiz sıralanardı...
Hərə öz işində, öz amacında,
Xatirə bostanı uralanardı...

Kimi qınayıram, axı mən kimi?
Günahkar özüməm, yurd unudulub.
Gözümüz üstündən çəkilən kimi
Pəyhan bulağının gözü tutulub...

Qarağac bulağı qalıb pis gündə,
Vida söyləyibdir öz həyatına.
Doğma üz görməyib yerin üstündə,
Qayıdıb gedibdir yerin altına...

Mənimçün darıxıb Qısraq bulağı
Gözümü yuman tək girir yuxuma...
Gecə səhərəcən çağlayır, axır,
Sərinlik gətirir təşnə ruhuma!

Çıxıb bağlığından dərədəki bağ,
Daha mal-davar da mağala gəlmir.
Ağsuyun köksünə çəkilibdi dağ,
Bu nə müsibətdi? –
Ağıla gəlmir...

Bulağa çevrilir gözlərimdə yaş,
Qısraqdan su içən köksüm dənizdir.
Bu doğma məkanda hər qaya, hər daş
Ruhumu titrədir, mənə əzizdir...

Hicran alovunda oda qalandım,
Yara var, köksümdə yaralar kimi?
Dünyada çox yeri gəzib dolandım,
Gözəl yer tapmadım buralar kimi...

Ötən xatirələr səsləyir məni,
Zaman işindədir, gəlib vaxt-vədə...
O dağlar, dərələr gözləyir məni, –
Yollar əvvəl-axır dönür məbədə...

**05.03.2021**

# SEVGİ NƏĞMƏLƏRİ

***

Allah nazil eləyibdir bizim üçün “Quran”ı,
Xoşbəxt olsun qəlbimizdə sevgi taxtı quranı!

Saçlarıma ağ düşsə də, içim çiçəkli yazdır,
Əsər etməz ürəyimə qışın qarı-boranı…

Qaranlıqda qalan ürək axı necə unutsun
Bir ay kimi şəfəq saçıb başı üstə duranı?!

Ömrümüzə bəzək olsun, vəfa, ilqar, sədaqət,
İncitməyək qəlbi hər an qəlbimizlə vuranı...

İman nuru məlhəm olar ən sağalmaz yaraya,
Sevgimizlə abad edək ruhu, qəlbi viranı...

Biz qonağıq bu dünyada unutmayaq heç zaman,
Qoymayaq ki, hədər getsin ömrümüzün bir anı...

**05.12.2019**

***

Sənsizəm, ayrılığından ürəyim qana dönüb,
Soyuyub isti ocaq, ev yenə zindana dönüb...

Gözlərindən oxudum sevgini, əsdi ürəyim,
Yetmişi haqlayan aşiq cavan oğlana dönüb?!

Kül sənin başına, Vahid, nə günə qaldı sənət,
Bir qəzəl yox oxuyum, ölkə qəzəlxana dönüb...

Duz kimi düz sözünü qəlbi sınıqlar sevməz,
Sevgidən parçalanıb, öz ürəyim qana dönüb...

Sözlərindən üşüyən gül qısılıb kol dibinə,
Xətrinə dəydiyinin boynu yenə yana dönüb...

Tək onun xətrinə sevdim qəzəli, çarəm yox,
Yusifoğlu deyəsən, ayrı bir insana dönüb...

**01.12.2019**

***

Möhtacam yaxşı bilirsən ki, özün mən köməyə,
Yanıma üzmək üçün tez yüyürüb min gəmiyə…

Həsrətin çarmıxa çəkmiş məni, sənsiz ölürəm,
Kaş ki, sevda qatarın yolda durub, ləngiməyə…

Belə tünd eşq şərabı bil, bizi rüsvay edəcək,
Bu qədər mübtəlasan, aludəsən sən ki, meyə…

Dəli könlüm arabir köksümə meydan oxuyur,
Çırpınır quş kimi hərdən uçacaq  canki göyə…

Baxışından canıma fasiləsiz qor ələnir,
Qoyma sevda odunu zərrə qədər səngiməyə.

Şairin dərmanını özgə ilə göndərmə,
Qovrulur həsrət odunda gəl özün sən köməyə!

**28.08.2020**

***

Sevgilim, mən nə qədər səndən əgər olsam uzaq,
Qəlbinə eşq odu düşsə, itəcək qüssə-sazaq…

Eşqimin güllərini soldura bilməz şaxta,
Gecə qəlbim kimi köz-köz alışan göylərə bax!

Zülməti qoymayacaq bir daha gəlsin yaxına,
Dəli sevda həmişə qəlbimizə nur saçacaq…

Bilirəm qorxudur hərdən səni həsrət sazağı,
Saçımın rənginə baxma, ürəyim – qaynar ocaq…

Külün altında qalan söz közə dönmüş elə bil,
Bilmirəm sevdalı könlün nə zaman dil açacaq?

Sevgidən qönçə tutub, bir himə bənddir baxışın,
Yusifoğlu sənə baxsa, ürəyin gül açacaq…

**2020**

***

Ayrılıq körpüləri uçub sevgi selindən,
Hava yenə coşdurub şairin ilhamını,
Nə yaxşı ki, kükrəyən dənizin sahilindən
Dalğa qovub hamını, külək qovub hamını…

Mənə qanad veribdir əsən həsrət küləyi,
Elə bil ki, dənizin üstündə uçan quşam…
Şükür sənə, İlahi, qəlbimdə eşq kükrəyir,
Xəzərin sahilində mən də dalğa olmuşam …

Sanmayın ki, tənhayam içimdə qasırğa var,
Səhər-səhər köksümdən boylanır eşq günəşi.
Adam yoxdu, qəlbimdə kükrəyən qasırğalar
Xəzərin qoynundakı dalğalarla sevişir…

**07.09.2020**

***

Nəfəsinlə həyat verdin
öləziyən közümə,
Möcüzədir,
çiçək bitir
sinəsində daşın da...
Gözlərimin qapısını
bağlasam da üzünə,
Gülüm,
keçib əyləşmisən
ürəyimin başında…

**02.12.2019**

***

Dilində "sevirəm" sözünə dönüm,
Yanar ocağının közünə dönüm!
Təbəssüm şəfəqi səpir üstümə,
Sənin gözlərinin gözünə dönüm!

**22.04.2020**

## ÜRƏYİM MÖHTACDI YAZ HAVASINA

Sən mənə baxanda ürəyim gülür,
Məhəbbət közərdir qara gözünü...
Sən soyuq olanda eşq günəşinin
Həsrət buludları örtür üzünü...

Sən soyuq olanda kirpiklərində
Qaynar göz yaşları buza çevrilir.
Titrək dodaqlardan qopan "yox" sözü,
Yarama səpilən duza çevrilir...

Sən soyuq olanda qızmar yay günü
Elə bil qış gəlir, soyuqlar düşür.
Sən soyuq olanda sevgi gülümün
Zərif ləçəyinə soyuq qar düşür...

Sevdalı ürəyin bülbülə dönsün,
Qoşulsun qəlbimin xoş avazına...
Gəl, qarssın üzümü qaynar nəfəsin,
Ürəyim möhtacdı yaz havasına...

**26.03.2020**

## YAZ ELÇİ GÖNDƏRİB MƏNİM QIŞIMA

Ürəyin işinə heç vaxt qarışma,
Qoy özü boşalsın, qoy özü dolsun!
Yaşın bu çağında səni qarşıma
Çıxaran Tanrıya şükürlər olsun!

Nə qədər mən qalım qulağı səsdə?
Nə qədər həsrətlə döyünsün ürək?
Qəlbim köklənsə də, muğamat üstə,
Onu oyatmağa zəngulə gərək!

Sarı yarpağımı döndər yaşıla,
Günəşi qıymırsan, ay göndər ona!
Sevgi buludumu qoyma boşala,
Həsrət buxarından pay göndər ona!

Dönüb qığılcıma şair nəzəri,
Sənin də gözündə şimşəklər çaxır.
Nəfəsim dəydikcə, üzün közərir,
Bircə himə bənddir sevgi ocağı...

Ay Allah, bu nəydi gəldi başıma? –
Saçlar bozaranda ocaq külü tək,
Yaz elçi göndərib mənim qışıma,
Həsrətim qar deşir novruzgülü tək...

**10.05.2020**

## SEVGİ YAĞIŞLARI GƏRƏKDİR BİZƏ

“Sevgi fəslinin yağışı” şeirimi oxuyan bir xanım belə yazıb: “Bu sevgi yağışınızı hər fəsildə yağdırın”...

Dediyin sözləri necə unudum? –
Sevgisiz taleyə bəxt deməərəm mən.
Gözlərin bir topa həsrət buludu,
Eşqinlə xoşbəxtəm, bəxtəvərəm mən...

Başımın üstündən bu vaxta qədər
Həsrət buludları əskik olmayıb...
Tanrı bəxşişidi bu bəxt, bu qədər,
Heç zaman qəlbimin gülü solmayıb.

Mizraba dönməsə həsrət yelləri,
Buluddan bir damla yağdıra bilməz...
Köksümdə çağlayan sevgi selləri
Kükrəsə, önündə dağ dura bilməz.

Sənin könül sazın gərək köklənə,
Yağışdan nəf gəlsə, təşnəyə gələr...
Çağırsan, çevrilib dəli köhlənə,
Həsrətim kişnəyə-kişnəyə gələr...

Qəlbindən nə keçir utanma, istə,
Qıymaram ələnə ürəyinə çən.
Yağışa çevrilsəm sinənin üstdə,
Hoparam köksündən iliyinəcən...

Sevinc yaşlarıyla ömrümü bəzə, –
Axıb şərab olsun eşq badəsində...
Sevgi yağışları gərəkdir bizə
Ömrün hər fəslində, hər vədəsində...

**25.04.2020**

## QIŞDA YAZ NƏĞMƏSİ

Aldanma səraba, öndə qış durub,
Qovur bir-birini saatlar, anlar...
Yazıq quşları da hava çaşdırıb,
Qışda yaz nəğməsi oxuyur onlar...

Yaşıl libasını geyir yamaclar,
Günəş öz yolundan qışı saxlayıb.
Ağ qarın üzünə həsrət ağaclar
Bəyaz çiçəklərdən örpək bağlayıb...

Bir gözəl süslənir mənim qarışımda,
Sevdalı köksümdə eşq yuvası var...
Qışı hiss etmirəm ömrün qışında,
Mənim də içimdə yaz havası var...

Öpüb qoxlayıram ağ çiçəkləri,
Yaz meydan oxuyur fağır qəlbimə.
Başımda oynayır eşq şimşəkləri,
Sevgi yağışları yağır qəlbimə...

**22.02.2020**

## SEVGİ YAĞIŞINDAN MƏNİ QORUMA

Hər gəldi-gedərə könlünü vermə,
Bir eşq ocağı çat mənim qoruma!
Titrək qanadını üstümə gərmə,
Sevgi yağışından məni qoruma!

Tutmaram heç nəyə tay camalını,
Görəndə utanır Ay camalını,
Gözlərim gəzəndə ay camalını,
Həsrət buludları girir arama…

Yanında solğundur gül-çiçək sənin,
Bu əllər sənindir, bu ürək sənin.
Qədrini kim bilər mənim tək sənin? –
Özünə ayrı bir simsar arama…

Bir gün mən də gələm "dərsinə" gərək,
Divanə şairə tər sinə gərək...
Mən tək divanəyə dərzi nə gərək? –
Dərd özü don biçir könül yarama…

Təmiz ad heç zaman götürməz yamaq,
Bədxahlar qarşımda olublar yumaq,
Bu yaşda kimdənsə sədəqə ummaq
Harama yaraşır, mənim harama?

Qədrimi dərdimdən ölənlər bilir,
Məni ziyarətə gələnlər bilir,
Nələrə qadirəm, bilənlər bilir,
Qoymaram qarışsın halal harama!

**28.04.2020**

## SEVGİ ÇİÇƏKLƏRİ

Dünyada nə var ki, sevgi gücündə?
Onun sayəsində boy ata bildim!
Uzaqdan-uzağa sənin içində
Sevgi həyəcanı oyada bildim...

Axır ki, tanıdın xalisi, qəlpi,
Qara gözlərində yaş muncuqladı.
Sevgi nəsimiylə titrədi qəlbin,
İçində arzular tumurcuqladı...

İçib arzularla dolu badəni,
Gəldin həsrətimə qənim olmağa...
Elə bil hazırmış ruhun, bədənin
Təpədən dırnağa mənim olmağa...

Bir anda çevrildin xoşbəxt qadına,
Ümidin gecikmiş sevginə imiş...
Tamarzı qalmışdın eşqin dadına,
İlk dəfə duydun ki, sevgi nə imiş...

Həsrətlə açıldı şümşad qolların,
Səni tilsimləyən şirin söz oldu...
Kömürə bənzəyən qara xalların
Qaynar nəfəsimlə qızıl köz oldu...

Haraya çağırdın sən ulduzları
Göylər də baş əydi eşqin önündə...
İçində əridi həsrət buzları,
Sevgi çiçəkləri açdı sinəndə...

**17.12.2019**

## RÜBAİ ÇƏLƏNGİ

***

İkimiz necə bır araya gəldik?
Sən demiş, gör hardan haraya gəldik!
Mürgülü duyğular üsyan elədi,
Biz nalə eşidib, haraya gəldik...

***

Qəlbini yaxmazmı həsrət atəşi?
Söndürə bilərmi yağış günəşi?
Ruhunu qızdıra biləcəyəmmi? –
Sən küskün bənövşə, mən qış günəşi...

***

Sevgilər qəlbimi edib xaraba,
Aldanma ilğıma, uyma səraba!
Sənin sevilməli vaxtındı hələ,
Mənimsə günəşim enir qüruba...

***

Sevgi baxmasa da, qoca-cavana,
Könül vermək olmur ruhu yavana...
Gözümdən axsa da həsrət selləri,
Necə su ələyim isti yuvana?

***

Adamın sözünə baxmır ki, ürək,
Məni əsir etdin, ay qəlbi kövrək!
Qurduqsa bir gizli sevgi yuvası,
Onu bədnəzərdən qoruyaq gərək!

***

Dodağım çatarmı o bal dodağa?
Sevdalı ürəyim sənə sadağa!
Qəlbimiz sevgiylə döyünsə əgər,
Bizə neyləyəcək qoruq-qadağa?

***

Baxma qanlı-qanlı sən öz ovçuna,
Kim nə deyir desin, deyil borcuma!
Ürəyim bir sarı yarpaqmış sanki,
Nəfəsin dəyən tək düşdü ovcuna...

**15.12.2019**

***

Olmadın həsrətə qənim, sən, gülüm!
Pozdun dincliyimi mənim sən, gülüm.
Söylə, aramızdan nə külək əsdi? –
Bir zaman deyirdin mənimsən, gülüm!

## SƏNİNDİ

Təzə bir gül açıb sevgi bağında,
Gülən göz mənimdi, buta sənindi.
Taleyin əlləri əsir yaxanda,
Qıyma sən onları yada, sənindi.

Təslim olarammı hər qilü-qala? –
Mənim pak ürəyim alınmaz qala!
Qıyma ki, uzanıb havada qala, –
O əl ya özgənin, ya da sənindi...

Elə düşünmə ki, şair qocalıb,
Sevib-sevilməyə yoxdu macalı.
Dəryanın qoynunda bir dağ ucalıb,
Dalğalar mənimdi, ada sənindı.

Buludlar örtməsin günəş üzünü,
Yağışla doldurma qara gözünü,
Seçim qarşısında qoyma özünü,
Onlar da sənindi, bu da sənindi...

Gah bumbuz olursan, gah da istisən,
Dili dualısan, namaz üstəsən,
İstəsən çırpı at,
söndür istəsən,
Ocaq da sənindi,
su da sənindi...

**12.05.2020**

## İKİ OD ARASINDA

"Əlvida" deməyə çətin dil dönə,
İnsan qədərindən mümkünmü qaça?!
Qorxmursanmı şeytan sevgi cildinə
Girib başımıza oyunlar aça?!

Qalmısan sən iki od arasında,
Ağlına gəlməyən başına gəlir...
Soyuq kül altında od arasan da,
Qəlbi kövrəkliyin xoşuma gəlir...

Ayrılıq qorxusu hopub qanıma,
Əzəldən şərikəm sənin ağrına.
Coşub çağlayanda məni qınama, –
Eşq seli sığışmır dostluq arxına...

Kimə eləyəsən axı gileyi? –
Çəkilib getsə də bir gün o duman,
Həsrət tüstüləri tutacaq göyü
Ürəyin alışsa mənim oduma...

Sətəlcəm istəyin sınıb quluncu,
Bu sevgi yaraşır mənim harama?
Aramıza düşən vicdan qılıncı
Qoyarmı qarışsın halal harama?

Həsrətin əlinə keçibdir yaxam,
Nə qədər gizlicə göynəyim, Allah?
"Dostluq" buzlarının altında axan
Sevgi çaylarıyla neyləyim, Allah?!

**12.05.2020**

***

Qürur kündə olub ayaqlarında,
Sən qoyub qaçmışdın tələdə məni.
Geri qayıtmağa üzün yoxsa da,
Unuda bilmirsən hələ də məni...

Hicran iynə olub qəlbimi deşdi,
Sən Əsli, həsrətin qara keşişdi,
Özüm də bilmirəm bu necə işdi,
Sevir ağıllı da, dəli də məni!

Sevdalı köksümdə bir ocaq çatdın,
Arzular kösövdü, ümid çat-çatdı.
Şehli çiçəkləri üstümə atdın,
İndi qısqanırsan günə də məni...

İtirdim tacımı, şahlıq taxtımı,
Ağac etmək olmaz quru taxtanı,
Sevgində elə bir güc nə axtarır,
Yetim quzu kimi mələdə məni?!

Yapışma qolumdan, yolumdan çəkil,
Qəddimi əyibdir ayrılıq yükü,
Qəlbim eşq oduna elə yanıb ki,
Çətin ki, həsrətin kül edə məni...

**09.04.2020**

# AZ OXU SƏN MƏNİM ŞEİRLƏRİMİ

Dünən yazdığınız şeir məni çox düşündürdü. Cox gözəl, çox məntiqli, incə ruhlu bir seirdir. Bəyənmişəm... Qəlbinizin və ruhunuzun nə qədər gözəl, incə olduğunu bir daha duydum. Fikrinizi, nə demək istədiyinizi bildim... Sizi bir dost kimi çox istəyirəm. Seirdə yazdığınız kimi sizi qarşıma cıxaran Tanrıya şükür edirəm...

**Bir məktubdan**

Bu qədər əzaba mən necə dözüm? –
Min şükür Tanrının verdiyi paya!
Nə gecəm gecədir, nə də gündüzüm,
Qəlbim əsir olub günəşə, aya...

Ürəyim od alıb həsrət közündən,
Nədən qorxuramsa, başıma gəlir.
Çəmən çiçəyinin nəmli gözündən
Diz çöküb şeh öpmək xoşuma gəlir.

Havada uçuşan xəzəl görəndə,
İçimə sehrli yağışlar yağır.
Gözlərim nur saçır gözəl görəndə,
Dumanlı başımda şimşəklər çaxır...

Ağaran yelkənim möhtacdı yelə,
Sevda dənizində üzən gəmiyəm...
Məcnun tək vurğunam səhraya, çölə,
Eşq odunda yanan Kərəm kimiyəm...

Xilas et bu qorxunc yaradan məni,
Sənsiz ürəyimə qaranlıq çökür.
Kim bilir bəlkə də Yaradan məni
Sevgi əzabıyla sınağa çəkir?

Ani təbəssümlə həsrət ərimir,
Mənim sevənlərə ərzi-halım var.
Az oxu sən mənim şeirlərimi,
Sevgiyə yoluxmaq ehtimalın var...

**14.05.2020**

## HƏSRƏT CƏZİRƏSİNDƏ

Sevda okeanında
qərq oluram, ay haray,
Dadıma çatan yoxdu
bulud kimi dolmuşam…

Vurub eşq dalğaları
məni atıbdır bura, –
Həsrət cəzirəsində
indi tənha qalmışam…

**28.08.2020**

***

Xiffət qəlb göynədir, könül dağıdır,
Dərdini, ağrını duyana danış!
Sahib olmadığın könül dağıdır,
Sahib olduğunu sevməyə çalış!

**2020**

## SEVGİ DƏNİZİMİN TƏZƏ DALĞASI

Görən nəsə varmı sevgi gücündə? –
Deyəsən batacam yenə günaha.
Fırtına oyatdın yenə içimdə,
Mən heç nə düşünə bilmirəm daha...

Gözlərin nə yaman həsrətlə baxır?
Yenə də toxundun sən sarı simə...
Başımın üstündə şimşəklər çaxır,
Sevgi yağışları yağır qəlbimə...

Həsrətəm saçının gözəl iyinə,
Mənim içimdədir bu dəniz indi...
Gözəllik qatmısan gözəlliyinə, –
Ayrı biçimdədir bu dəniz indi...

Könlümün hökmünə olmaram asi,
Demə şair qəlbi sanki qayadır.
Sevgi dənizimin təzə dalğası
Sinəmin üstünə gəlib, qayıdır...

Zərifdir, qonçədir bu sevgi hələ,
O gözəl gəlməsin gözə, İlahi.
Qəlbimə saldığın bu sevgi ilə,
Xaraba könlümü bəzə, İlahi!

**16.07.2020**

## KİM NƏDƏN QORXURSA

Onsuz da düz çıxır qəlbimə daman,
Utanıb, istəmə  üzr, sən, gülüm!
Görmürəm sahildə gəzdiyin zaman
Sevgi dənizində üzürsən, gülüm?!

Yanağın rəng alıb həsrət odundan,
Uzaq üfüqlərə baxır gözlərin.
Otən arzuların külü altından
Arabir işarır sevgi közləri...

Layiq olana ver eşqin tacını!
Qəlbi alışana nə demək olar?
Ürəyin məhəbbət ehtiyacını
Özün de, nə ilə ödəmək olar?

Sevgisiz həyatın ləzzəti hanı? –
Sən niyə hər şeyi dərd eləyirsən?
İçindən boylanan dəli sevdanı
"Dostluq" kəlməsiylə pərdələyirsən...

İmdad diləyirsən əsən küləkdən,
Təmiz dağ havası xoşuna gəlir...
Yamanca qorxursan məni sevməkdən, –
Kim nədən qorxursa başına gəlir!

**11.08.2020**

## QƏM NURUNU ƏSİRGƏMƏ

Uçuşur qara buludlar,
sanki göydə əsir qəmər,
Həsrət gözlərim yol çəkir,
qəlbin olub əsir qəmə...
Təbəssümün biçməsə də,
həsrətimin buludunu,
Məndən sevgi əzabını,
qəm nurunu əsirgəmə!

**22.04.2020**

***

Yerimizi verən yoxdu –
əvəzimiz gedib, gəlir.
Arabir düşsək də ruhdan,
həvəsimiz gedib, gəlir...
Nə qədər qoca olsaq da,
biz dəyərik min cavana,
Şükür, hələ yaşayırıq,
nəfəsimiz gedib-gəlir...

**13.05.2020**

***

Bax qəlbimə düşən çata,
Eşq qəlbimdə ocaq çatar.
Sənin o ay yanağına,
Dodaqlarım çətin çata!

## QORU,
## SAFLIĞINI QORU

**Nəzmiyyə üçün**

Haqsızlıq görüb hıçqırma, –
dünya dəyməz göz yaşına!
İçində yaz havası get
ömrün boranlı qışına!
Onsuz da öz işindədi
it xılı, çaqqal sürüsü, –
Hər hürənə bir daş atsan,
çatmazsan mənzil başına!

Zülmətləri əridəcək
qəlbindəki iman nuru!
Qoyma zərrəcə azala
ömür ocağının qoru!
Ən zərif çiçəklər belə
ən sərt qayaları deşir,
İçin duru, çölün duru,
qoru, saflığını qoru!

**04.03.2021**

## YOL VƏ CIĞIR

Yüz yerə əyilsəm də,
Yenə yola çıxıram...
Sən yolsan,
Mən çığıram...

## SEVGİ KÖRPÜSÜ VƏ HƏSRƏT SELLƏRİ

Bir zamanlar sanırdım ki,
sel gücü var sevgimizdə,
Bir zamanlar deyirdin ki,
gələcəyəm, çağır məni!
Bir "yaxası dar köynək"də
xoşbəxt idik ikimiz də,
İndi təkəm, bu gen dünya
məngənə tək sıxır məni...

Zirvələr yolun sonuymuş,
niyə qalxdıq uca dağa? –
Dünyanı dərk eləyəndə
ürəyim fəğan qopardı.
Həyat bizi məhkum etdi
bir əbədi ayrılığa,
Bizim sevgi körpümüzü
həsrət selləri apardı...

**26.05.2020**

***

Baxışlar danışanda
söyləməyə söz qalmır.
Kim deyir ki, ürəkdə
hər sevgidən iz qalmır?
Gələcək taleyimiz
alnımıza yazılıb,
Heç nə səbəbsiz deyil,
heç nə əvəzsiz qalmır…

***

Sevda dolu gözlərində
Mən həmişə təzə-tərəm,
Əlim də çatmır çəmənə,
Sənə layiq çiçək dərəm...
İllər, aylar atıb məni
Zamanın köhlən döşünə,
Qayğılar hey qovur məni,
İmkan vermir nəfəs dərəm...

**13.03.2020**

## QƏLBİMDƏ EŞQ TAXTI QURANLAR

– Necəsən, əzizim?
– Soranlar sağ olsun!
Qəlbimdə eşq taxtı
Quranlar sağ olsun!

Bu həyat yolunda
nə qədər sınaq var,
Çox gözəl bilir ki,
ürəyi sınıqlar
Yaxşını yamandan
ayırır sınaqlar, –
Həmişə yanımda
duranlar sağ olsun!

Çox zaman bədgüman
olsam da özümdən,
Neçə qəlb od alıb
işaran közümdən,

Bənövşə baxışlar
qaçarmı gözümdən? –
Həsrətdən boynunu
buranlar sağ olsun...

Çox düşdüm həyatda
yoxuşa, yenişə,
Ürəyim can atır
ulduza, günəşə,
Ovxarlı saxlayıb
ruhumu həmişə, –
Tufanlar sağ olsun,
boranlar sağ olsun!

...Yenə də sahildən
əl-ayaq yığışıb,
Vecimə almıram
küləyi, yağışı,..
Elə bil soruşur
sevdalı baxışın:
– Necəsən, əzizim?
– Soranlar sağ olsun!
Qəlbimdə eşq taxtı
Quranlar sağ olsun!

**07.11.2019**

## HƏSRƏT ODU

Həsrət küləyi içimdə
Közərdir qara kömürü...
Xiffət sevdalı ürəyi,
Pas məhv eləyir dəmiri.

Sən bilməsən də, el bilir
Mənim kökümü – əslimi.
Dönmüşəm Yanıq Kərəmə,
Odum göynədir Əslimi.

Baş götürüb həyatımdan
Sən getməkmi istəyirsən?
İçimdəki eşq odunu
Səngitməkmi istəyirsən?

Hicran yeli külümüzü
Havalara sovuracaq...
Harda olsaq, içimizi
Həsrət odu qovuracaq...

**18.07.2020**

***

Aldı deyəsən ayrılıq
Əfsanəmi məndən,
Mənmi soyudum,
bilmirəm,
Əfsanəmi məndən?

**2020**

## HƏSRƏT CIĞIRLARI

– Neçə yol eşq oduna
Alışmışıq, sönmüşük.
Görüşə də bilmirik,
Aya, günə dönmüşük.

– Bəbəklərin od saçır,
Bəbəklərim od saçır...
Həsrət cığırlarıyla
Baxşılar gizli qaçır...

– Sanki qıl körpüsüdür
Vüsala gedən o yol...
Qaynar qır qazanında
Qovrulmağa hazır ol.

– Göynədir içimizi
Onsuz da eşq əzabı...
Sevənləri qorxutmaz
Tanrının haqq-hesabı...

– Həsrətin qəm yükünü
Təkcə daşımaq olmur.
Ayrı göynəmək olur,
Ayrı yaşımaq olmur...

**30.04.2020**

## İLHAM PƏRİSİ

Köksümdə ulduz yanır,
Bir aləmdi bu gecə!
Yenə ilham pərisi
Qonaq gəlib gizlicə...

O, mənə İlahinin
Göndərdiyi mələkdi...
Nəfəsi eşq dağından
Əsən sərin küləkdi...

Qələmimin ucunda
Sözlər puçur-puçurdu...
Şairi xoşbəxt edib,
Bir ilahi pıçıltı...

**24.04.2020**

## "ÖZÜNƏ BAX" DEYƏN GÖZƏL

Tez-tez mənə yazırsan ki,
Sən yaxşı bax, özünə!
Necə əməl eləməyim
Axı sənin sözünə?

"Özünə bax" deyən gözəl,
Dərdimdən çox üzülmə.
Əzab çəkmək yaraşarmı
Mənim qara gözlümə?

Nə vaxtdandır baxışlarım
Tamarzıdı üzünə!
Sən yoxsansa, kim su səpsin
Həsrətimin közünə?

Yanıma gəl, gözlərini
Həsrət qoyma gözümə!
Mən onların aynasında
Hər gün baxım özümə...

**17.04.2020**

## ŞAİR VƏ HEYKƏL QIZ

Şair, çoxdandır mənə
“Sevginamə” yazırsan. –
Ayağımın altını
Qələminlə qazırsan.

Elə bil yavaş-yavaş
Dizlərimə hey gəlir.
Belə getsə, uçacaq
Mənim vüqar heykəlim...

Əlim gəlmir su səpəm
Bu sevgi ocağına...
Qollarını geniş aç,
Gəlirəm qucağına...

**22.04.2020**

***

Xəyanət hörən divarı,
Məhəbbət çətin suvaya...
Yalvarış, axan göz yaşı
Dönməz dərmana – davaya.

Oxşamır tilsim sınana,
Yad mizraba sim inanar?
Daha sənə kim inanar
Sözü sovursan havaya?...

Quruyan çiçək boy atmır,
Güvənsiz həyat həyatmı?
Quş quşdu, o da qayıtmır
Yad nəfəs dəyən yuvaya...

**13.06.2020**

***

Heç özümüz də bilmirik,
Öndə bizi nə gözləyir..
Elə söz var adam onu
Özü özündən gizləyir...

Həqiqətdən qorxan üçün
Həyatda hər şey rəmzidi...
Ağ gül dostluq, sarı həsrət,
Qırmızı sevgi rəmzidi...

Ürək daim şəfəq saçır,
Nərgiz solur, lalə solur.
Mənə ağ gül göndərənin,
Yanaqları lalə olur...

**14.06.2020**

## ZAMANIN YANAN KÖRPÜLƏRİ

Bir zaman
natəmiz adamlar
təmiz sevgimizı
gözə gətirdi…
İllərin, ayların
ayrılığından sonra
tale yenə də bizi
üz-üzə,
göz-gözə gətirdi…
İkimiz də yaxşı bilirik ki,
sevdiyin adamdan
ayrı yaşamaq
ömür-gün deyil…

Ancaq istəsək də,
istəməsək də,
o illərə yenidən dönmək
mümkün deyil…
Sənin yeniyetməliyin,
mənim gəncliyim
Zamanın yanan körpülərinin
o üzündə qalıb…
Ancaq o günlərin,
o illərin arxasında
qürub edən sevgimizin
son şəfəqləri
hələ də sənin üzündə,
gözündə qalıb…

**17.11.2019**

## MÜDRİK GÖZƏLLİK

Ömrün də
çiçəklənən bağı var,
Onun ən dadlı
meyvələrini isə
yalnız bəsirət gözü
açıq olanlar dərə bilər.
Gözəlliyin də kamillik,
müdriklik çağı var,
onu yalnız
müdrik gözlər
görə bilər…

**05.05.2020**

***

Sevgi tutmur xəbisliklə,
Düşüncəsi naqisliklə!
Alnınıza yazılıbdır
sevgisizlik! –
Vallah deyil,
Billah deyil
sevgi sizlik!

**03.01.2020**

## SƏN, MƏN, SAHİL VƏ SÜBH GÜNƏŞİ

Sübh çağı
ləpədöyəndə gəzirsən,
Elə bilirsən ki,
hər şeyə,
hər şeyə qadirsən...
Kölgən səndən
qabağa düşüb,
onun arxasınca
harasa gedirsən...
Baxanda aydınca
görünür ki,
sevgi əzabları sənə
dağ çəkib...
Sən həsrətindən
yanan günəşə
arxa çevirdiyindən,
üzünə həsrət kölgəsi çöküb...
Mən sənə baxa-baxa
xəyali sevgi gərdəyimizi
bəzəyirəm...

Mən səni
şəfəq qollarımla
arxadan qucaqlayan
günəşə bənzəyirəm...

**11.08.2020**

***

Qatarından ayrı düşən
durna kimi uçuram
həsrət buludlarını
yara-yara,
İçimdəki qəm karvanını
gecikmiş təbəssüm alayı da
ləngidə bilmir…
O qədər dərindi ki,
qəlbimə vurduğun yara, –
bütün dərdlərin dərmanı
zaman belə
ağrılarımı
səngidə bilmir...

**01.03.2020**

***

Üç-dörd aydan sonra
yadına düşmüşəm,
mənə yazırsan ki,
günaydın!
Eşq günəşi
Həsrət buludunun
arxasında
görünməz olubsa,
necə olsun
gün aydın?!

**07.04.2020**

***

Hələ əlim
əlinə çatmasa da,
Bilirəm ki,
çox yaxındasan.
Qəlbinin nəyə
ehtiyacı olduğunu
indi daha yaxşı bilirsən, –
Sən öz gözəlliyinin
müdriklık çağındasan...

**12.05.2020**

***

Sən dönməz idin,
sevgi yolundan
niyə döndün?
Həsrət sazağında üşüyən
nanəyə döndün...
Tanrı yaradan sevginin
əfsanəsi bitməz,
Əfsanə sanıb eşqimi,
əfsanəyə döndün?!

**13.06.2020**

***

Sevgi nəğməsi
çalmaq istəyirsənsə,
Özünə simsar
bil simi...
Elə et ki,
heç zaman qırılmasın
sevginin  tilsimi...

Yoxsa adicə bir
dəmirə dönər
əlindəki açar...
Sehrli bir qəlbin  kilidini
çətin açar...

**26.06.2020**

***

Heç kəs
gözəgörünməz düşmənlə
döyüşə bilmir...
Heç kəs öz xislətini
dəyişə bilmir;
Yaxşı yaxşılığını eləyir,
Yaman yamanlığını...
Göz ovsundu deyirlər, –
Gözlərimi görən
ilanlar belə
unudur ilanlığını...

**06.08.2020**

***

Qəlbimi duyan
tənha insanın
Yarı mənəm!
Yalnız ikimizin
gözünə görünən
Həsrət dağlarının
qarı mənəm.
Sirrin etibarlı əldədir,
Narahat olma, -
Xatirələr səltənətinin
xəzinədarı mənəm...

**31.12.2020**

# BU GÖZƏL DÜNYANI GÖR KİMLƏRƏ MİRAS ELƏDİK?

*******

Bəsləyib biz nə qədər yarpağı atlas elədik,
Ağacı rəndələyib tar elədik, saz elədik.

Elə ki, dəydi tazanə qopuzun simlərinə,
Titrəyən telləri biz sehrli avaz elədik.

Sığınıb köksümüzə saz dilə gəldi, oxudu,
Dinləyən dərdlilərin əhvalını saz elədik.

Biz ilahi kəlamın sehrinə düşdük, böyüdük,
Neçə dilbilməz əlindən sözü xilas elədik…

İndi söz gülşəninə bir sürü quzğun dadanıb,
Dili söz tutmayanı, tərif edib "as" elədik…

Turp əkirlər sənətin başına, bizsə susaraq
Neçə şairciyəzin keyfini taraz elədik…

Əfv edərmi görəsən dahilərin ruhu bizi? –
Bu sənət mülkünü gör kimlərə miras elədik?

**09.09.2020**

*******

Görəsən mən nə zaman bülbülə mehman olacam?
Qarğa-quzğun səsinə gündəmi qalxan olacam?

Yanıram odsuz, alovsuz tez olun, çarə tapın,
Nə qədər tüstü olub göylərə qalxan olacam?

Qanına qəltan ediblər qəzəli, şeiri, sözü, –
Kükrəyib əvvəl-axır bir qana yüz qan alacam.

Nə qədər baltalayırsan, yenidən pöhrələnir,
Çevrilib əzrayıla mən nə qədər can alacam?

Qanı rəiyyət qanıdı, yepyekədi iddəası
Söyləyir ki, bu sənət dünyasına xan olacam.

Düşmüşəm lap acığa, qafiyə toqquşdururam,
Deyəsən əvvəl-axır mən də “qəzəlxan” olacam…

**07.09.2020**

***

Nə yazı yaz oldu, nə qışdır qışı,
Ay Allah, gör kimə umud olmuşuq…
Dünyanın özünə qarışıb başı,
Hamımız, hamımız unudulmuşuq...

**2020**

## ƏLİM QALIB ÜZÜMDƏ

Bülbüllər qəfəsdədi, qəribsəyib çöl-bayır,
Parklarda, meşələrdə  qarğalar qarıldayır...

Oğrular doğrulara tələ toru toxuyur,
Əxlaqsızlar əxlaqdan mühazirə oxuyur...

Baxanda sanırsan ki, çox mədəni adamdır,
"Çaqqal var gödən yırtır, qurdun adı beddamdır".

Cəmdək şaqqalayanlar sudan quru çıxırlar,
Sümük dimdikləyənlər tutulmaqdan qorxurlar.

Qanımızı içirlər bu gənələr, zəlilər,
Döndərmək istəyirlər bu milləti zəlilə...

Ölkənin var-yoxunu talasa da tiranlar,
Kasıbların gözündə axtarırlar tir onlar...

Kül üfürə-üfürə özgələrin gözünə,
Özləri qızınırlar gur ocağın közünə...

Biz hara gediriksə qarşımızda dururlar,
Bütün əliəyrilər düzlükdən dəm vururlar...

Saza nifrət edənlər aşıqdan danışırlar,
Kölgəni yaradanlar işıqdan danışırlar...

Mat-məəttəl qalmışam, heç deyiləm özümdə,
Matım-qutum quruyub, əlim qalıb üzümdə...

**26.05.2020**

## TƏRİF YAĞMURU

Bəzən istedadlı qələm sahiblərinin uğurlarını görməzliyə vuranlar elə cızma-qaraları tərifləyirlər ki, adamın lap matı-qutu quruyur… Hələ bu azmış kimi, istəyirlər ki, sən də onların tərif həmkarına çevriləsən...

Nəyinsə xətrinə xoş söz söyləmək
Həmişə gəlibdir arıma, qağa.
Tərif yağmuruna tutub nadanı,
Gör kimlər duz səpir yarama, qağa?!

Saray adlandırıb uçuq hinləri,
Sevdirmək istəyir bədbəxt kimləri?
Dəmir hövsələmin sarı simləri,
Çəkilib yamanca tarıma, qağa.

Qanqala gül deyib o, ömrü boyu,
Tükənib, qalmayıb üzünün suyu,
Axı su tökməklə dolarmı quyu?
Gör kim mizrab vurur tarıma, qağa?!

Deyirəm: – Biz susaq, gop elə sən də,
Qatmanı sarıyıb top eləsən də,
Dolmaz, yırtıq şarı ha püləsən də,
Bizi barmağına sarıma, qağa…

Gör kimdi nırx qoyan qara bazara?
İpəkçi çıxarar xara bazara!
Keşikçi nə gərək xarabazara? –
Dəyərsiz şeyləri qoruma, qağa.

Sən özün seçmisən bu güzəranı,
Yaxşıca bilirəm dərd-azarını,
Dəllalı olmusan söz bazarının,
Bu qədər ah çəkib, zarıma, qağa…

Sənət yollarında keçmişəm oddan,
Mənə söz atma ha, sən altdan-altdan,
Çırtmayla salaram “atlını” atdan,
Sən yaxşı bələdsən zoruma, qağa!

Oyunçu neyləsin, verə zər gərək,
Xalis üzük üçün xalis zər gərək,
Paslı dəmirləri qoca zərgərə
Təmiz qızıl kimi sırıma, qağa…

İlhamım dönübdür Kürə, Araza,
Xəbisi sözümün alovu qarsar.
İşığı çətin ki, sevə yarasa,
Pərvanələr gəlsin nuruma, qağa…

Sən sözdən abidə yapa bilməzsən,
Sənət köhlənini çapa bilməzsən,
Gündüz çıraqla da tapa bilməzsən,
Mənim kimisini arama, qağa!

**26.04.2020**

## TƏRİF ÇİÇƏKLƏRİ, SƏNƏT GÜLLƏRİ

Cındırı xara tək bizə sırıyır, –
O özü nədi ki, zövqü nə ola?!
Tərif çox olanda ilham quruyur, –
Sənətkar tariflər fövqündə olar!

Təzə şitil əkir köhnə bostana,
Nə qədər adamı o, dəng eləyir…
Çəkisi çox yüngül olan dostuna
Ucuz tərifini pərsəng eləyir…

Cıqqılı başını kola soxanın
Çöldə bədənindən yoxdu xəbəri…
Öz sözü olarmı "sözəbaxan"ın?
Çən örtə bilərmi nurlu səhəri?

Şirdən üstün tutur oğru çaqqalı,
Xəzəli tariflə süsləmək olmur.
Gözə kül üfürür, yanar saqqalı,
Cidanı çuvalda gizləmək olmur…

Hay-haray qaldırmaq işə yaramır,
Leysanın qədrini sel yaxşı bilir…
Halal tək soxsa da, gözə haramı,
Kimin kimliyini el yaxşı bilir…

Şeir-sənət yükü çox ağır olur,
Dağı öz yerindən qaldırmaq olmur.
"Tərif çiçəkləri" saralır, solur,
Sənət güllərini soldurmaq olmur…

**26.01.2021**

***

Nə özünə, nə bizə
vermə bu qədər əzab,
Səndən sənətkar olmaz,
get özünə sənət tap!
Ütülü kəlmələrin
yox zərrəcə kəsəri,
İynə deşib keçməsə,
ardınca gedərmi sap?!

Qulp qoymağa çalışma
mənim neştər sözümə,
İçin-için yanıram,
su ələmə közümə…
Xalq kimin kimliyini
yaxşı bilir, unutma,
Küllükdə ağna, ancaq
kül üfürmə gözümə!

**03.11.2019**

## DUYĞULAR MUZEYİ VƏ "ƏDƏBİ TƏNQİD"

Təzə nırx qoyanlar var
Köhnə söz bazarına.
Bu bədbəxt tutulubdur
Dərs vermək azarına...

Dildə işlənməsə də,
"Ədəbi tərif" sözü.
Onu əvəz eləyir
"Ədəbi tənqid" özü..

Bu sözlər dünyagörmüş
Şairin gileydi.
Hər əsər elə bil ki,
Duyğular muzeydi...

Bu muzeydə işləyən
Səriştəli gid yoxdu.
Ədəbi təhlil yoxsa,
Ədəbi tənqid yoxdu...

Bu hərif istəyir ki,
Bizi də hərifləyə. –
Nə tənqid edə bilir,
Nə də ki, tərifləyə...

**21.12.2019**

## DƏYƏR VERİN YAXŞILARA

Zövqlərinə güvəndiyim, yaxşı nəsə yazacaqlarına ümid bəslədiyim qələm adamları "uşaq ədəbiyyatı" ilə bağlı bir cızmaqaranı o qədər müzakirə, tənqid elədilər ki, ürəyimdən bir ağrı qopdu. Acı-acı gülümsünüb düşündüm ki, əzizlərim, bunun səbəbkarı elə siz deyilsinizmi? Yaxşıya həmişə laqeyd olmasaydınız, dəyərli, gərəkli poetik nümunələri bilərəkdənmi, bilməyərəkdənmi görməzliyə vurmasaydınız beləlari meydanı "boş görüb" "at oynatmaq" eşqinə düşərdilərmi?!

Veriblər ağız-ağıza,
Xor yaradıb cılız səslər. –
Yaxşıdan danışan yoxdu,
Dildə dastan olub pislər…

Şeir-sənət gülşənini
Başdan-başa basıb çayır…

Pisdən danışdığın vaxtdan
Bir az da yaxşıya ayır…

İnsan peyğəmbər deyil ki,
O, məhkumdu səhv etməyə.
Dəyərmi heç zir-zibilə
Bu qədər vaxt sərf etməyə?

Qızıl buğda çöldə qalıb,
Həsrətdi dəyirman una.
Biz isə hey su tökürük
Pislərin dəyirmanına…

Gözəl sözə göz yumuruq,
Eybəcər sözdən danışıb.
Özümüz  də pisləşirik
Bu qədər pisdən danışıb…

Niyə həmişə laqeydik
Sevgi dolu baxışlara?
Pisi yıxıb sürüyüncə,
Dəyər verək yaxşılara!

Həssas qəlb korluq çəkməzmi
Bir kəlmə xoş söz sarıdan? –
Versək onun dəyərini,
Pis özü çıxar sıradan…

Həsrət qəmli gözlərimdə
Dönüb kədər buluduna.
Boş qalan sənət meydanı
Qalar pisin umuduna…

**23.08.2020**

***

Sənət gülşənini çayırlar alıb,
Naşılar gözündə axı kiməm mən?
İlahi, gör sənət nə günə qalıb? –
Paslı məftil deyir: – Sarı siməm mən…

**04.03.2021**

***

Uğurlarıımı görüb düşürlər haldan-hala,
Üzümə gülə-gülə mənə quyu qazırlar...
Zəhərə əl vururam, dönür şəkərə, bala,
Hara bir mıx vururam, ora papaq asırlar...

**17.09.2020**

## DANIŞIR

Bu həpənd tısbağa tək arxası üstə atılıb,
Hönkürür, ah-vay edir yerdə zülümdən danışır.
Gecə-gündüz hamının tor toxuyardı başına,
İndi o, özgələrin fitnə-felindən danışır…

Dəyişib məzhəbini bir sığala, bir tumara,
Vurulan iynə ilə yad qan axıbdır damara,
Ölkənin sərvətini qurban edibdir qumara,
İndi fəryad eləyir, Göyçə gölündən danışır.

Daşımın, torpağımın ehtiyacı var ağıya,
Millət uysun deyə meydan verilib lağlağıya,
Belə dostu olanın ehtiyacı yox yağıya,
Yurdunu yağmalayıb, indi elindən danışır…

İş düşəndə çətinə imdad umurlar xalqdan,
Elə arxa çevirən devriləcəkdir taxtdan,
Haqqı tapdaq eləyənlər söz açırlar haqdan,
Hamını dərdə salan dərdin əlindən danışır.

Çıxarıb başımıza ermənisoy külfətini,
Yadlara qurban edib öz elini, millətini,
Axıdıb "ofşor"a o, ölkəmizin sərvətini,
Söndürübdür ocağı, indi külündən danışır…

Millətin var-yoxunu həzm eləyib, doymurlar,
Kasıba, kimsəsizə bir çöpü də qıymırlar,
Quyruğu keçsə ələ, əfi olur məmurlar,
Hamısı bir-birinin zir-zibilindən danışır…

**12.09.2020**

***

Tülkü tülkülüyünü
Sübut eləyənəcən,
Dərisini soyurlar,
O, bu dünyadan köçür.
Oğru elə bağırır,
Doğru özündən gedir,
Həqiqətlər yalanın
Doğanağından keçir...

**20.02.2020**

***

Doğru doğruluğunu
sübut eləyənəcən,
Oğru onun qanını
sorur iliyinəcən…

**2020**

## CANAVAR QAYDALARI

İnsanlar bir-birlərini
əvvəlki kimi sevə,
oxşaya bilmirlər,
bir-birlərini
didib-parçalamağa da
hazırdılar hətta...
İnsanlar daha insan kimi
yaşaya bilmirlər
Canavar qaydaları
hökm sürən həyatda...

**13.04.2020**

## DİLBİLMƏZ

Üyüdüb tökürsən,
doymursan.
Heç nəyi, heç nəyi
duymursan.
Öyünüb deyirsən:
– Neçə dil bilirəm!
Qəlbdəki mənanı
dil bilməz!
Görmürsən
sözün alt qatını,
Ay çoxlu dil bilən
dilbilməz!

**17.05.2020**

***

Bitib tükənmir iştahı,
Az qalır ki, adam uda!
Hər sözü tikanlı oxdu.
Bu bədbəxt oğlu bədbəxtin
Pulu da var, adamı da,
Bircə adamlığı yoxdu...

**13.03.2020**

***

Hücum çəkir üstümüzə
Acgöz bir məmur alayı.
Xımır-xımır bu ölkəni
Yeyir, dağıdır talayır...
Bu harınlıq qəlbimizdə
Nifrət ocağı qalayır...
Paxır gec-tez üzə çıxır,
Nə faydası var qalayın?

**2020**

***

Zəbt etmisən dağı, düzü,
Qarışıb halal harama…
Canına vicvicə düşüb,
Kürkünə darışıb birə...
Nahaqdan yorma özünü,
dərdinə çarə arama, –
Göylərə baş çəkən saray,
Villa yerləşməz qəbirə...

**22.08.2020**

***

Ən mötəbər adamların
Sözünə də inanmıram.
Deyirəm məni aldadır, –
Gözümə də inanmıram.
Öldürüblər inamımı,
Özümə də inanmıram...

**14.06.2020**

***

Qaydadır, meymunlar
güzgünü sevməz,
Özünü sevməyən
özgəni sevməz…
Adam dərk eləsə
insanlığını,
Göylərə ucaldar
insanlıq onu!

**2020**

***

Qananlar həmişə
məhkumdu
Qanmazların
yükünü daşımağa.
Adamlar adam olsa,
Nə var ki,
insan kimi
yaşamağa...

**15.06.2020**

***

Bu istedadsız adamlar
Hardaydı bu günə kimi?
Niyə sənətin canına
Darışıblar gənə kimi?!

Olubdur bizə yar asi,
Təşnədi, verin yara su!
Çatan yoxdu harayına,
Qan verir sözün yarası...

Düşmüşük çənə, çiskinə.
Bizi qoyublar pis günə.
Çəyirtkə sürüsü gəlir
Şeir gülzarı üstünə...

Daha yetmir sənət kara,
Dəfn olunub sənət gora...
Sözü urvatdan salanlar
Çevriliblər "sənətkar"a...

Ağacın özü bir yana,
Saldığı kölgə yoluxub.
Şeir-sənət virusuna
Bir kənd yox, ölkə yoluxub...

Niyə pis günə qoyursan
O varağı?
Utanmasan, oynamağa
Nə var axı?!

**14.06.2020**

# BƏNDLƏR, BEYTLƏR

***

Şahlıq quşu qonubdur
oğruların başına!
Corab hörür oğrular
doğruların başına...

***

Haqmı tələb edir
“yolaverən” xalq?
Onun harayını
eşidərmi Haqq?

***

Bir gülər üz görəndə
Ağlayanlar var imiş…
Xəbisin əlləri yox,
Vicdanı qabar imiş…

***

Bizi qorumursunuz,
Bizdən qorunursunuz.
Müdrik düşüncələrdən,
Gözdən qorunursunuz.

***

Darışıb xalqın çanına
Çapovulçular sürüsü...
Ədalətli bir əl gərək
Bunları yıxıb sürüsün...

***

Bəşər oğlu öz nəfsinə
quldur indi.
Ağsaqqal da, ağbirçək də
puldur indi...

***

Göz diksən haram paya,
Başına dəyər paya!

***

“Qaytarım, qaytarmayım” –
Bəsdi etdin götür-qoy,
Oğurladıqlarını
Öz yerinə gətir qoy!

***

Bəlağətlə deyirsən:
Humanistəm, humanist.
Fikrət Sadıq demişkən:
Qərarında “hüma nist”...

***

Bir namərdlə qardaş idim,
Bircə çimdik duz vermədi...
Yayda ona qar daşıdım,
Qışda mənə buz vermədi...

***

Kimsə yoluxmur məni,
Ağrıdan göynəyirəm.
Sayı çox, sanbalı yox
Dostları neyləyirəm?

***

Yava-yava danışma,
Sərsəmin biri sərsəm!
Günahlar özündədi
Mən səni yerə sərsəm…

**2020**

***

Aşbaz olsa istedadsız,
Bişirdiyi olar dadsız…

***

Dərdinə yoxdu əlac,
Özgələrə az əl aç!

***

Dünyanın ələyi,
Hamını ələyir…

## HƏ FAYDASI

Axtarıb bu mövzuda
Bir şey tapmadım deyə,
Yaman gileylənirsən
Sinənə döyə-döyə...

Qara qəpik də düşmür,
Çəkdiyin o "əməyə".
Ay alimciyəz qardaş,
Söz tapmıram deməyə...

Meşədə su gəzirsən,
Dənizdə çiçək, yarpaq. –
Sənin "araşdırma"nın
Nə faydası olacaq?

**01.10.2020**

***

Ağzı açılıb kaha tək,
Saya salmır bir adamı.
Yeddi başlı əjdaha tək
Qayğılar udur adamı…

O köntöy, mən qəlbi yuxa,
Heç bilmirəm varam, yoxam,
Nadan əlindədir yaxam
Ağrıdan budur adamı…

O, acgözdür, mən gözü tox,
Hər sözü bir zəhərli ox,
İt dəftərində adı yox,
İt kimi tutur adamı…

**04.03.2021**

## CIZMAQARACILARA

Qələminə qələm çəkim! –
Gərək yaza qələm haqqı!
Bu müqəddəs qələm haqqı,
Sənə düşmür qələmhaqqı…

**07.09.2020**

***

Hünərin var
bu çəməndən lalə dər, –
Bu gözəllik
bülbülü də lal edər...

## HƏ QORXUSU

Dediyin söz ürəyimi yandırar,
Ay Ələsgər, öz dərdi var hərənin.
"El bir olsa, zərbi kərən sındırar" –
Zərrə qədər qorxusu yox "kərən"in...

**19.05.2020**

***

Hər yazan
şair olmadığı kimi,
hər şəkil çəkən də
rəssam deyil...
Kobud sözüylə
kövrək insanın
qəlbinə dəyən
boynuna qalstuk taxsa da,
canlıdı, insan deyıl.
Zatı qırıq olanın
mədəni olması
Asan deyil...

***

Boş ümidlər bəsləmə,
Bir yuxudan oyan da!
Can atırsan zirvəyə,
Nə var axı o yanda?

# TƏMSİLLƏR

## İŞ ELANI

Möhtac olanlar varsa
Yalın isti dadına,
Təzə işçi gərəkdi
Yaltaqlıq ştatına…

**20.02.2020**

## QARĞA VƏ BÜLBÜL

Meşə artistidi Qarğa,
Bülbülü qoydu lağa:
– Tək cəh-cəh vurmaq ilə
Ad almaq olmur, qağa!
Bülbül güldü: – Neyləyim,
Bacardığım cəh-cəhdi.
Mənim də fəxri adım,
Mükafatım bəh-bəhdi!

**24.05.2020**

## TÜLKÜ VƏ XORUZ

Tülkü dedi Xoruza
Sizin bağa gəlmişəm.
Eşitdim xəstəsiniz,
Yoluxmağa gəlmişəm.

Xoruz əsdi qorxudan
Bilmədi heç neyləsin.
Bu hiyləgər Tülküyə
Nə desin, nə söyləsin.

– Ağzının suyu axır,
Hindən uzaq durasan.
Yoluxmağa lüzum yox,
Bizi yoluxdurarsan...

**04.12.2022**

## MÖHTƏŞƏM YUMURTA

Nə olub bu toyuğa,
Elə hey qaqqıldayır?!
Sanki leysan qabağı
İldırm şaqqıldayır...

Səsi tutub dörd yanı,
Dimdiyini yummur ta!
Nədi, nədi dünyaya
“Gətirib” bir yumurta...

Gözaydınlığı verdi
Yığılıb qonum-qonşu...
Hamı təbrik elədi
Özündən razı quşu...

Belə bir təklif verdi
Beçə çıxıb ortaya:
– Təqdimat mərasimi
Keçirək yumurtaya!

Dostun şah əsərinə
Durub baxmayaq gendən! –
Bütün toyuq-cücəni
Çağıraq qonşu hindən.

Özgə yumurtasında
Sanmayın ki, gözüm var.
İclasda danışacam,
Mənim xeyli sözüm var.

Xoruz keçdi qabağa
Özünü darta-darta:
– Siz harda görmüsünüz
Belə gözəl yumurta?

Sevinir toyuq-cücə,
Fərə-beçə fəxr edir.
Deyirlər ku, bu toyuq
Hinimizin fəxridir...

Növbə ilə danışır,
Cavan, qoca toyuqlar:
– Harda belə yumurta,
Harda belə toyuq var?

Təriflər yağdırırdı
Məclisi süzə-süzə:
Toyuğun sevgilisi
Kül üfürürdü gözə...

Dünyagörmüş Qızıl qaz
Elə bil ki, üşəndi. –

Doğrudanmı yumurta
Bu qədər möhtəşəmdi?

Şaqqıdadıb dişini,
Əsnəyəndə Qu quşu,
Hamı narahat oldu –
Kim çağırlb bu quşu?

Dindi iclasın sədri:
– Yoldaşlar, belə olmaz.
Bir azca sakit olun,
Söz istəyir Qızıl qaz.

Tərif deyən toyuqlar,
Üşəndilər, qorxdular.
Onun əyri boynuna,
Əyri-əyri baxdılar...

–Gedəndə ləngər vurur,
Elə bil sərxoşdu bu...
–Boynu necə uzundu,
Nə əcayib quşdu bu?!

Flaminqo dözmədi,
Od götürdü, alışdı.
Hamını yuyub sərdi,
Odlu-odlu danışdı:

– Boynum əyri olsa da,
Düz danışmaq peşəmdi.
Bu adi yumurtanın
Harası möhtəşəmdi?!

Biri bir az böyükdü,
Biri bir az xırdadı, –
Elə bir fərq görmürəm,
Yumurta yumurtadı...

Bu bir az ağdı, ancaq
Siz də ağ eləməyin!
Yumurtanı şişirdib,
Qarlı dağ eləməyin...

Həqiqət bir üzlüdü,
Baxmır yada, doğmaya.
Ya qismət hələ bundan
Cücə çıxa, çıxmaya?!

...Yaman qalmaqal düşdü,
Xoruzlandı xoruzlar.
Bir toyuğun yanında
Gör nə qədər xoruz var?

Hamısı banlayırdı
Özünü yırta-yırta...
Ayaqların altında
Qalıb sındı yumurta...

Mat-məəttəl qalmışdı
Qonaqların çoxusu. –
Bürümüşdü hər yanı
Lax yumurta qoxusu...

**20.01.2021**

# 2021-2022-ci ilin şerləri

## ŞÜKÜR BİZİ QOVUŞDURAN ALLAHA

### ZƏFƏR BAYRAĞINA DÖNÜB LALƏLƏR

Yurdu azad edib müzəffər ordu,
Qələbə arzusu dönüb gerçəyə.
Bu il yaz tələsir, xaraba yurdu
Bələmək istəyir gülə, çiçəyə...

İçimə od salır qızıl lalələr,
Yerin də köksündə həsrət közərmiş...
Şehlə silələnib nur piyalələr,
İlahi, bu yerlər necə gözəlmiş...

Nisgil var bu sevgi macərasında,
Az qalır ayrıla huşum başımdan.
Yox imiş dünyanın heç harasında
Mənim torpağımdan, mənim daşımdan...

Yaxşı ki, xalqımın başı üstündən
Əskik olmayıbmış Tanrı nəzəri...
Çiçəyi boylanır daşı üstündən, –
İlahi, bu yurdun yoxmuş bənzəri...

Gördük yurd yazını ömrün qışında,
Səbrli olanlar murada çatır,
Ancaq ulu yurdun hər qarışında
Təhlükə uyuyur, qan-qada yatır...

Ev qədri bilərmi səfil olanlar? –
Xəyalən tikilən saraylar uçub...
Yurdumdan qovulan əfi ilanlar
Mina yumurtalar basdırıb, qaçıb...

Düşmənlər düşməyib qisas atından,
Bizi izləyən var durub qıraqda.
Təhlükə boylanır yerin altından,
Mürgülü minalar durub marıqda...

Ancaq işə keçmir hərzə-mərzələr,
Daha kül üfürə bilmirlər gözə.
Qıvrıla-qıvrıla qalan gürzələr
İndi dil çıxardıb yalmanır bizə...

Gülür çəmənimiz, gülür çölümüz,
Min lənət yağının zati-pakına.
Hələ göz görürsə də, çatmır əlimiz,
Qovuşa bilmirik doğma məkana...

Yığmışıq yağının əl-ayağını,
Çarəmi tapılar sağalmaz dərdə?
Arzusu gözündə qalan yağının,
İzi qalmayacaq bu doğma yerdə...

Quş quşu səsləyir, böcək böcəyi,
Ətirli küləklər dərdə məlhəmdi,
Gül-gülü çağırır, çiçək-çiçəyi,
Bülbülün nəğməsi ayrı aləmdi...

Qəlbi qovrulursa həsrət közündə
Bir igid qisası qoşundan alır.
Yaz bir tablo çəkib Yazı düzündə
Görənin huşunu başından alır.

Gədiklər, yamaclar bələnib zərə,
Çiçəkli dağların köksü qabarmış...
Alın yazımızda bu doğma yerə
Yenidən qayıtmaq qisməti varmış...

Doğma Qubadlıda, doğma Laçında,
Ümid çırağına dönüb lalələr.
İndi Qarabağın hər yamacında
Zəfər bayrağına dönüb lalələr...

**18.04.2021**

## MƏNİM ZƏNGƏZURUM

Zaman çevrilibdir bir qara yelə,
Elin arzuları yaralanıbdır.
Namərdin xəyanət qayçısı ilə
Mənim Zəngəzurum paralanıbdır…

Tikanlar boy atıb, çiçəklər solub,
Qartallar yurdunu qarğa, sar alıb.
Kolların dibində gül şehlə dolub,
Yolların gözünün kökü saralıb…

Bir vaxt Zəngəzurun kefi çağ idi,
Gör kimə inandıq, kimə güvəndik?
Xəyanət qurbanı oldu Ağudi,
Dəstəyird, Sofulu, Urut, Nüvədi...

Nə qədər dogma kənd döndü yad elə. –
Çayların, göllərin gözləri doldu…
Düşüdü Qafan, Gorus, Sisyan yad ələ,
Mehri kaftarkoslar diyarı oldu…

Oldu başımıza dünya niyə dar?-
Haqsızlıq səbrimi yaman daşdırır.
Bir yanda Ağbulaq, Şamsız, Niyədar
Bir yanda Qaragöl, Qızıldaş durur…

Üzü də qaradır əhdi qaranın,
Üstümə ağrılar alayı gəlir.
Qafandan yüzbaşı Mehdiqaranın,
Gorusdan Nəbinin harayı gəlir…

Dönüb sahibinə Topağac, Səngər, –
Zəngilan, Kəlbəcər qeyrət hasarı…
Özgə kölgəsində yatan köpəklər
Hürür Qubadlıya, Laçına sarı…

Namərd xəyallara saplanıb xəncər,
Düşmənlər bükülüb, yumağa dönüb.
Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər,
Çəbrayl bir dəmir yumruğa dönüb.

Ulu yurd yerləri halalca paydı,
Sonuncu fərmana zaman qol çəkir. –
Şərqi Zəngəzurun gözləri aydın,
Qərbi Zəngəzurun gözü yol çəkir…

**11.07.2021**

# QALIB

Mənim uşaqlığım, mənim saflığım
Qısraq bulağının suyunda qalıb.
Qaynar cavanlığım, gücüm, qüvvətim
Həkəri, Bərgüşad çayında qalb.

Dilimin ucunda əsir sözlərim,
Kül alta işarır qaynar közlərim,
Heyrətlə açılan qara gözlərim
Uca palıdların boyunda qalıb...

Kim idi qarğıyan bizim ellləri?
Kükrədi zamanın qorxunc selləri...
Atalı, analı xoşbəxt illərim
Ömrümün cavanlıq tayında qalıb.

Yad nəfəs dəyməyən yuva gəzirəm,
İllərdi başımda hava gəzirəm,
Sağalmaz dərdimə dəva gəzirəm,
Dərmanım taleyin payında qalıb.

Köhnə döşəyinin çıxıb mitili,
Bu həyat yolları deyil ütülü,
Meşələr yandıqca canı ütülür,
Dünya öz başının hayında qalıb...

Var etmək mümkünmü təzədən yoxu?
Nələr çəkdiyimi gözümdən oxu!
Ömür yollarımın sonuncu oxu
Zamanın dartılan yayında qalıb...

**03.09.2021**

## YUXU VƏ AÇAR

Bu gecə yuxumda atamı gördüm,
Mənə ən gərəkli adamı gördüm...

Nəsə soruşurdu, mənsə kiridim,
Zamanın bəndini yara bilmədim.
Bir top açar verdi, ancaq kilidin
Harda olduğunu sora bilmədim.

Doğmalar içində dönmüşəm yada,
Dünyanın işindən qafil gəzirəm...
Düşmüşəm yollara payi-piyada,
Açar əlimdədi, qıfıl gəzirəm...

Həsrət qarışqaya döndərir divi,
Nigaran bir ruh var izləyir məni.
Qapısı olmayan atamın evi
Nə vaxtdır yolumu gözləyir mənim...

Sərgərdan qalmışdım həsrət dağında –
Ayıldım yuxudan, yox idi atam...
Yatır övladları fil qulağında,
Qırx səkkiz ildi ki,
yuxudu atam...

**29.09.2021**

## SƏNİN AYRILIĞININ ÖMRÜ HƏR GÜN UZANIR

Doğma yurd, neçə ildir yuxu getmir gözümə,
Hicran məşəqqətinin hər üzünə bələdəm.
Yanına gedən yollar açılmayıb üzümə,
Bir ildi sən azadsan, mən dustağam hələ də...

Xəbərim yox Yazıdan, Çayzəmidən, Gəyəndən,
Oyatmır yatanları "Heyratı"lar, "Cəngi"lər.
Sənin ayrılığında bir ömür xərcləyəndən
Xərclik umur yolunu kəsən Ərəbzəngilər...

Leysanla da yuyulmaz içimdəki bu kədər,
İldırım şaqqıldasın, bəs hanı dəli gürşad?
Həkəri nigarandı, Ağa çayı mükəddər,
Doğma adamlar üçün qəribsəyib Bərgüşad...

Həsrət yaxır qəlbimi, başımı duman alıb,
Haqqın dili tutulub, danışa, dinə bilmir...
Uçuq ata evimin gözü yollarda qalıb,
Çat-çat oğul ürəyi məlhəmə dönə bilmir.

Doğma yurd, məskəniydin bir zaman ərənlərin,
Soyuyub babaların əliylə yanan ocaq.
Azadlıq xəbərinə canını verənlərin
Qismətində yox imiş qoynunda dəfn olunmaq.

Yollar hələ bağlıdır, işim düşüb çətinə,
Ayrılıq zəqqum qatır xəyyalların balına.
Bir kimsə gedə bilmir qəbir ziyarətinə,
Ölülər ağlayırlar dirilərin halına...

Səndən ayrılan cavan olub bir kövrək qoca,
Kim geri qaytaracaq həyatımın yazını?
Tüstü çıxır təpəmdən, öz ömrüm qısaldıqca
Sənin ayrılığının ömrü hər gün uzanır...

Doğma yurd, neçə ildir yuxu getmir gözümə,
Hicran məşəqqətinin hər üzünə bələdəm.
Yanına gedən yollar açılmayıb üzümə,
Bir ildi sən azadsan, mən dustağam hələ də...

**25.09.2021**

## ULU YURDUM

Vaxtında yetə bilmədik harayına, imdadına,
Ulu yurd, bağışla məni, yanında dilim gödəkdi...
Yanıb ayrılıq oduna, baxdıq həsrətin dadına,
Heç bilirsən sənsiz qalan övladların nələr çəkdi? –

Hamımızı aldatdılar, bizi saldılar duzağa,
Xəyanət görən başını bulaya-bulaya qalar.
Ulu yurddan ayrı düşən dönər tənha yalquzağa,
Gecə-gündüz nalə çəkər, ulaya-ulaya qalar...

Üzümüzə üz bağlayıb yenə yanına gəlirik,
Ay Allah, necə titrəyir, ayaqlar sözümə baxmır...
Qəlbimizə dağ çəkilib, gündə yüz dəfə ölürük,
Ya unudub, ya da küsüb, evimiz üzümə baxmır...

Burda keçirdiyim illər, aylar mənə biganədi,
Çaylaqda təzə ağaclar düzülüb səfə, – görürəm.
Çimdiyim, balıq tutduğum çaylar mənə biganədi,
Elə mən də Bərgüşadı sanki ilk dəfə görürəm...

Açılır gözüm önündə qəlb göynədən mənzərələr,
Xatirələr işığında nələr, nələr düşür yada?!
Elə bil ki, ögeyləşib bu doğma dağlar, dərələr,
Elə bil ki, bu yerlərə mən də ögey, mən də yadam...

Kol-kos basan həyətlərə durub həsrətlə baxıram,
Ay aman, məni tanımır doğma torpağım, daşım da.
Ötənləri, keçənləri yada salmağa qorxuram,
Xatirələr minalanıb elə bil ki, yaddaşımda....

Atamın nigaran ruhu bizi yamanca qınadı,
Yəqin sınaq günlərində tanıyib xalisi, qəlpi...
Nə mən yurdumu tanıdım, nə yurdum məni tanıdı, –
Onun özü viranədi, mənim çat-çat olan qəlbim...

**15-16.10.2021**

## QƏM HEYKƏLİ

Hava qarsır üzümü, nə olub mən fağıra?
Hər yan həsrət oduyla qızdırılıb elə bil.
Həyətimizə gedən kol-kos basmış cığıra
İllər də mina kimi basdırılb elə bil...

Bir zaman xoşbəxt idik, xatırladım o çağı.
Bomboş həyət-bacada yer tapmıram özümə...
Dili söz tutmur nəsə deyə ata ocağı
Dayanıb küskün-küskün baxır mənim üzümə...

Nələr, nələr söyləmir mənə qəmli baxşılar?
Üz sürtmək istəyirəm torpağına, daşına.
Qara buludlar dolub, yağan narın yağışlar
Elə bil ki, züy tutur gözlərimin yaşına...

Köksümdə əsən ürək alovlanır, alışır,
Doluxsunmuş gözlərim olub qəm piyaləsi,
Uçuq-sökük divarlar elə bil ki, danışır, –
Ürəyimi titrədir onun dilsiz naləsi...

Bilmirəm heç neyləyim, pis gündəyəm, pis gündə, –
Tənhalıq güc gələrmiş qocaman dağ kəlinə...
Dağılmış evimizin xərabəsi üstündə
İndi mən çevrilmişəm uca qəm heykəlinə...

**25.10.2021**
**Qubadlı**

## BİR OVUC TORPAQ

Ümidlə baxsam belə hər açılan səhərə,
Ağrıların əlindən qurtara bilmədim mən.
Səni mən gətirmişdim, əziz ana, şəhərə,
Bağışla ki, geriyə qaytara bilmədim mən...

Qaçqınların ahından gələrdi Vətən ətri,
Səbirlər diləyərdik sizə,
hər gün səbirlər.
Hamı qəribsəmişdi doğma evindən ötrü,
Qərib adam görmüşdük, –
bu da qərib qəbirlər...

İllər görüb işini, qəlbimin odu sönüb,
Daha əlimdən gəlmir sel tək coşub çağlamaq.
Qismətimdə var imiş yenidən geri dönüb,
Xarabazar yurdumda için-için ağlamaq.

Qaldım öz evimizə uzaqdan baxa-baxa,
Baxışlarımla öpdüm daşını, divarını...
Üz də sürtə bilmədim o müqəddəs torbağa,
Aşıb keçə bilmədim illərin hasarını...

Nə qədər baxasıyıq evimizə uzaqdan?
Daha insanların da güvə düşüb səbrinə.
Əlimdən nə gəlir ki, doğulduğun torpaqdan
Bircə ovuc gətirib cəpdim sənin qəbrinə...

İndən belə çətin ki, tale sizə yar ola?
Ayrılıq ayazında baş daşın buz kimidi...
O bir ovuc torpaqla sağalarmı yaralar? –
O torpaq yox, yaraya səpilən duz kimidi...

**27.12.2021**

## QUBADLIYA YAĞIŞ YAĞIR

Bədənimə sanki düşüb vicvicə
Gözüm dağda çəni görüb kövrəlib.
Qubadlıya yağış yağır gör necə! –
Sanki yurdum məni görüb kövrəlib,
Saçımdakı dəni görüb kövrəlib...

Bir gözəllik sərgisi var qarşımda,
Dağ öpəcək bizi dartıb elə bil.
Qaçqınların gözlərinin yaşından
Bərgüşadın suyu artıb elə bil...

Solmuş gülə həyat verir baxışım,
Payız ömrüm sanki dönüb yaz olıb.
İçimdəki otuz ilin yağışı
Buludların kirpiyindən asılıb...

Çox şükür ki, vüsal düşdü payıma,
Həyəcandan məcnun köksüm qabarır.
Qubadlıya yağış yağır, ay aman,
Sellər məni keçmişimə aparır...

Öz yurduna qovuşanın qəmi yox,
Narahatam, bəlkə bu da yuxudur?!
Məni yerdə basdırılan mərmi yox,
Minalanmış xatirələr qorxudur...

Bu yerlərin payızını, qışını
Xatırlayıb bulud kimi dolmuşam.
Hücum çəkir xatirələr qoşunu,
Qarşısında əliyalın qalmışam...

Görən nədir bizdən göyün tələbi?
Nələr deyir ildırımın çaxışı?
Ruhlar dönüb pərvanəyə elə bil
Sevincimin işığına axışır...

Bədənimə sanki düşüb vicvicə
Gözüm dağda çəni görüb kövrəlib.
Qubadlıya yağış yağır gör necə! –
Sanki yurdum məni görüb kövrəlib,
Saçımdakı dəni görüb kövrəlib...

**21.10.2021**

***

Yurda dönürəm, göz yaşım
Gözümdən qabaqda gedir.
Ürəyim quş kimi uçur,
Özümdən qabaqda gedir...

**25.10.2021**

## DOĞMA YURDA QƏDƏM BASDIM BU SƏHƏR

Təşnə üçün bir udum su bəs edər,
Bu taleydən umacağım yox daha!
Doğma yurda qədəm basdım bu səhər,
Şükür bizi qovuşduran Allaha!

Sanki həsrət məlhəmidir hava, su.
Qismət məni bir də bura göndərdi.
Ciyərimə doldu vətən havası,
Bəxtim məni bəxtəvərə döndərdi.

Necə tapım  dədə-baba evini?
Dərd göyərib ürəyimin çatında.
Elə bil ki, gəlişimə sevinir,
Torpaq gülür ayağımın altında...

Abad yurdu gör qoyublar nə günə?
Qu söyləsən burda qulaq tutular...
Yağıların birə düşüb kürkünə,
Oğulları haraylayır atalar...

Doğmaları, əzizlər ara bir!
Dözə bilmir ürək həsrət közünə.
Gözümüzü gizləyirik arabir,
Utanırıq baxaq yurdun üzünə...

Bu evdən o evi seçə bilmədim,
Sanki tüstü qalxdı mənim başımdan.
Qubadlıda su da içə bilmədim,
O, su içdi gözlərimin yaşından...

Nə umursan  qəlbi, ruhu sınıqdan?
Bəxş edən var belə gözəl günləri.
Ulu yurdum, çıxdın ağır sınaqdan,
Qarşıdadır hələ gözəl günlərin...

Göynərtini yumaq olmur yağışla,
Dözmək olmur nakamların ahına!
Ulu yurdum, qalanları bağışla,
Həsrətindən ölənlərin ruhuna!

Çətin kəsə bu intizar yağışı? –
Göyüm-göyüm göynəyirdi bu torpaq.
Qayıdanda ayağımdan yapışıb,
Sanki "getmə" söyləyirdi bu torpaq...

Təşnə üçün bir udum su bəs edər,
Bu taleydən umacağım yox daha!
Doğma yurda qədəm basdım bu səhər,
Şükür bizi qovuşduran Allaha!

**30.10.2021**

## DAĞLARA QAR YAĞIR

Gəldim bu yerlərə, şükür bu günə,
Həsrət göylərində solğun ayam mən.
Dursam da zirvəylə çiyin-çiyinə,
Ötən günlərimin yanındayam mən...

İçimi yurd edib həsrət qoşunu,
Yolları, izləri örtüb qalın qar.
Xatirə dünyama gedən maşının
Önündə sehrli şlaqbaum var...

Dağların həsrəti dağlayıb məni,
Heç kim ürəyimi kiridə bilmir.
Yaddaşım sırsıra bağlayıb mənim,
Günəş o buzları əridə bilmir.

Mənim könlümdəki səssiz harayı
Kaman bilməsə də, kamança bilər.
Qalıb qar altında həsrət sarayı,
Onun qapısını kim aça bilər?

Div yuxulu tarix  çətin oyana,
Baxın bu yerlərə mənim gözümlə.
Qatar, maşın getməz burdan o yana,
Apara bilmirəm sizi özümlə...

Rəngi avazıyıb nədən günlərin?
Sıldırım gülünü kim dərə bilər?
Rəngini, ruhunu ötən günlərin
Axı məndən başqa kim görə bilər?

Dağlara qar yağır, itib dincliyim,
Qəlbim nə özündə, nə sözündədi...
Mənim uşaqlığım, mənim gəncliyim
Bu bəyaz örtüyün o üzündədi.

Xəyalım göylərin yeddi qatında,
Həsrətin qəlb yaxan həzin səsi var...
Kəfənə bənzəyən qarın altında
Gizli xatirələr xəzinəsi var...

Çox şükür, bu yerdən qovduq yağını,
Günəş də həsrəti əridə bilmir.
Dağlara qar yağır, könül dağının
Heyf ki, üstünü qar örtə bilmir...

**26.01.2022**

## HƏR GECƏ YUXUMA DAĞ ÖZÜ GƏLİR

Mənim doğma yurdsuz günüm olmayıb,
Həsrət mizrab olub könül tarıma.
Duyur ki, dizimdə təpər qalmayıb,
Dağlar özü gəlir yuxularıma...

Bənd vurmaq mümkünmü həsrət selinə? –
Bilmirəm onunla necə davranım?
Minib təpələrin dəvə belinə
Hər gecə yol gedir ömür karvanım...

Çarə yox bəsirət gözü bağlıya, –
Təpələr önündə dağlar mat olub?!
Bizim dalımızca hər gün ağlayan
Doğma bulaqların gözü tutulub...

Kəsilib bu yurdun səsi-səmiri,
Həvəsi qalmayıb danışa bizlə...
Ocaq yerimizdə qalan kömürü
Gərək köz eləyək nəfəsimizlə...

Dağların başından çəkilir duman,
Xəyallar dərdimə bir əlac olur.
Doğma bulaqlardan su içən zaman
İlham bulağımın gözü açılır...

Viranə qəlbimi gərək bəzəyə
Geriyə döndərə illər yazımı. –
Dağların köksündə saza bənzəyən
Şəlalə kökləyər könül sazımı...

Vüsal arzusuyla göynəyir içim,
Qızaran gözümdə dan üzü gülür...
Könül dağlarımı sağaltmaq üçün
Hər gecə yuxuma dağ özü gəlir...

**26.03.2022**

## QUBADLIM

Qubadlım,
sənsizliyə dözməyib
dünyalarını dəyişdilər
sənin doğmaların,
ciyərparaların...
Ölümün pəncəsindən
qurtulsan da,
sağalmayıb hələ
sənin yaraların...
İllərdən bəridi ki,
ilan-çayan yuvasına
dönmüsən,
Minalar qurd-quş kimi
darışıb canına...
Reanimasiyada yatan
xəstə kimisən, –
Həsrətini çəkən
doğmalarını da
buraxmırlar yanına...

**31.08.2021**

## TALEYİN İZTEHZASI

Otuz ildi ki,
yurd həsrəti çəkənlər
əlləri qoyunlarında qalıblar.
Taleyinə qaçqınlıq-köçkünlük
payı düşənlər
qərib durnalara oxşayırlar...
Qubadlıda doğulanlar
Sumqayıtda
qəbristanlıq şəhərciyi salıblar,
Sumqayıtda doğulanlar
Qubadlıya dönmək
arzusuyla yaşayırlar...

**31.08.2021**

## TƏNHA PALID

Mən Çardaxlı yamacında
Tənha qalan bir palıdam.
Durub baxıram yollara,
Gözlərim dönüb buluda...

Düz otuz il bundan əvvəl
Əkilmişdim bu yamaca.
Bir şivərək pöhrə idim,
İndi yekə bir ağacam...

Bu yerdə palıd nə gəzir
Mən görkəmdə, mən biçimdə?
Böyüdükcə, boy atdıqca
Həsrət böyüyüb içimdə...

Elə mən də yaşlanmışam,
Gövdəm olub çopur-çopur...
Doğmalar yadıma düşcək,
İçimdə fırtına qopur...

Otuz ildi gözləyirəm,
Ümidim ölməyib hələ.
Yollara dikilib gözüm,
Kaş dostum qayıdıb gələ...

Bilmirəm əziz adamlar
Hə üçün yurddan gen düşüb?
Yəqin məni əkən gəncin
İndi saçına dən düşüb...

O, indi qoca olsa da,
Əlinə alsa da əsa,
Mənim uca budağımdan
Kaş dönüb yelləncək asa...

Hey təkan vurub sicimə
Yenə uşaq tək yellənə...
Onun nəmli gözlərindən
Dibimə həsrət sellənə...

Duyarıq bir-birimizi
Üz-üzə dursaq ikimiz.
Səssiz-sözsüz dərdləşərik,
Azalar həsrət yükümüz...

Hər yarpağım yelpik olar
Duysam onun nəfəsini.
Biz çıxarıq yavaş-yavaş
Ayrılığın əvəzini...

**22.08.2021**

*******

Xaraba qalan evimə
Hey baxıram maddım-maddım.
Keçmişimə can atıram
Qədəm-qədəm, addım-addım.

Uçmuş divarın dilində
Göynəyir bir dilsiz kəlmə:
– Qoyma ocağımız sönsün,
Amandır, yaxına gəlmə! –

Evimiz qayğıma qalır, –
Məni bu "şəfqət" öldürür.
Getsəm, mina öldürəcək,
Getməsəm, həsrət öldürür...

**30.10.2021**

## ÜŞÜYÜR

Başında qış bardaş quran
Upuca dağlar üşüyür.
Ləçək bələklər nazikdir,
Budaqlarda bar üşüyür...

Dərd sinədə saza dönüb,
Göz yaşımız duza dönüb,
Əllərimiz buza dönüb,
Ovcumuzda qar üşüyür...

Güvə düşübdür səbirə,
Arzular köçüb Sibirə.
Evlər çevrilub qəbirə,
Qəbirdə ruhlar üşüyür...

Ayrılıq könül dağlayır,
Həsrət selləri çağlayır,
Nəfəs sırsıra bağlayır,
Dodaqda ahlar üşüyür...

Namərdlər sürü-sürüdür,
Torpaq dəmiri çürüdür,
Günəş zülməti əridir,
Gizli günahlar üşüyür...

Rəhmin olsun bircə gilə,
Həyat bəxş et bircə gülə!
Gözlərinə mil çəkilən
Nurlu sabahlar üşüyür...

**06.11.2021**

***

Bu qədər ki, dərdə dözdüm,
Dağam, mənə adam demə!
Əsən yellərin dilində
Aham, mənə adam demə!
Yavaş-yavaş yanaşıram
Viran qalan evimizə –
Bu xərabə küçələrdə
Ruham, mənə adam demə!...

**19.11.2021**

## DAĞLAR XƏBƏRSİZDİMİ

Sirdaşım olan dağlar
Nə soruşdum, kiridi.
Necə açım onların
Dilindəki  kilidi?!

Bilmirəm heç nə deyim,
Söz də sözümə baxmır.
Mən ona yad olmuşam,
Yurdum üzümə baxmır.

Çaxdı həsrət şimşəyi,
Qəfil yağış başladı.
Yuxudan ayılmayıb
Dağlar hələ huşdadı...

Bilmirmi günahsızam,
Onlar məndən küsdümü?
Sinəmdəki dağlardan
Dağlar xəbərsizdimi?

**19.11.2021**

## QURUYAN BULAQLAR

Bulağa gedən yolu
Şax-şəvəl, yarpaq örtüb.
Saf sulu çeşmələrin
Gözünü torpaq örtüb.

Bizim kövşənimizdə
Gör nə qədər donuz var.
Dupduru bulaqları
Bulandırıb donuzlar.

Halal torpaq özünü
Yad nəfəsdən qoruyub.
Düşmən içməsin deyə
Bulaqlar da quruyub...

**18.11.2021**

## QARA QAYA

Qara qaya, Qara qaya,
Boylanırsan hara, qaya?
Ayrılığından olubdur
Qəlbim para-para, qaya!

Qaçan-qaçıb, köçən-köçüb,
Ötən günlər röya olub.
Göyə baş çəkən evlər də
Yanında daş - qaya olub...

Gözlərinin qabağında
Dəyişib illər, fəsillər.
Bir-birini əvəz edib
Dünyaya gələn nəsillər...

İndi başının üstündə
Yellənir üçrəngli bayraq.
Nə çaylardan su tükənər,
Nə obadan oğul-uşaq...

Nəvələr dönüb gələcək,
Ümid gülü solmayacaq...
Fikir eləmə, bu yerlər
Heç zaman boş qalmayacaq...

**20.11.2021**

***

Bu da tale qismətidi,
Viranə yurda dönmüşəm.
Baxıb xaraba evimə
Ulayan qurda dönmüşəm...

Səsim kədər buludundan
Don biçən şimşəyə dönür...
Ürək göynədən ağrılar
Gözlərimdə şehə dönür...

**26.03.2022**

***

Yenə yol çəkir bizsiz qalan
dağların, düzlərin gözü;
Yenə nəğməkar bulaqlar
dilinə paslı qıfıl vurulan
lal sükutumuzu
danışdırmaq, dindirmək istəyir...
Düşüncə ocağının külü altında
İllər boyu mürgüləyən közü
Qəlbimizdə işaran ümidlər
Yenidən təzə ocağa
döndərmək istəyir...

**05.06.2022**

# YURDA QAYIDIŞ İLİ

Xoş gəlmisən, təzə il,
Vətənimə, yurduma.
Min kərə alqış olsun
Mənim şanlı orduma! –

Yağını Qarabağdan
İtirdi ilim-ilim.
İndi qəddim düzəlib,
İndi uzundur dilim.

Ayağımız altında
Doğma torpaq sevinir.
Səsimizi eşidib,
Neçə bulaq sevinir.

Yaralı torpağımın
Açılıb qırışığı.
Çevrilibdir məlhəmə
Bayrağımın işığı.

Bərgüşad Həkəriyə
Qoşulub axır, axır.
Haqq-ədalət yurduma
Qayıtdı əvvəl-axır.

Pozuldu bu torpaqdan
Azğın düşmənin rəddi.
Elə bil dağların da
Düzəlib əyri qəddi...

Məhv elədik yağını,
Yurdun qışı yaz oldu.
Zəfər ilini görmək
Alnımıza yazıldı.

Doğma yerlər səsləyir
Yenə obanı, eli.
Ay təzə il, sən də ol
Yurda qayıdış ili...

**15.11.2021**

## ARAZ BOYU

Uzanır Araz boyu
Şərqi Zəngəzur yolu...
Həyəcanla, ağrıyla
Süzürəm sağı, solu.

Namərdlərin əlindən
Torpaq gəlibdir zara.
Gülşənimi döndərib
Düşmən xarabazara...

Dağıdılıb körpülər,
Murdarlanıb məbədlər...
Viranəyə çevrilib,
Abad şəhərlər, kəndlər.

Dəli nərə çəkirik,
Haray qoparırıq biz.
Ocağı sönən yurda
İşıq aparırıq biz...

Həvirləşən köpəklər
Qıcamasın diş mənə.
Dağlarda şəhər salıb,
Dağ çəkəcəm düşmənə!

Nəfəsimiz dəyəndə
Doğma torpaq güləcək.
Viranə qalan yurda
Təzə həyat gələcək....

Durub keşiyimizdə
Bizim qadir ordumuz.
Cənnətə dönəcəkdir
Yenə doğma yurdumuz.

**15.11.2021**

## AĞILLI KƏND

Biz yol azan düşmənin,
Kül ələdik başına.
Ağıllı kəndi görsə,
Ağlı gələr başına...

Bilər nəyə qadirik,
Tikənik, quranıq biz.
Verdiyimiz hər sözün
Üstündə duranıq biz.

Özünüz ölçüb-biçin,
Bu daş, bu da tərəzi...
Ağıllı kənd hazırdı,
Ağıllılar, tələsin!

Təzə həyat aparın
Siz Ağalı düzünə...
Doğma yurda dönənin
Nur gələcək gözünə...

Zamanın dəyirmanı
Dərdləri üyüdəcək.
Ağıllı kənd ağıllı
Övladlar böyüdəcək...

**15.11.2021**

*******

Qəlbimin zülmətini əridir
Ayın ziyası,
ötən günlərin işığı...
Ancaq heç birinə
əlim çatmır:
Nə uşaqlığım yaxın gəlir,
Nə ay düşür aşağı...

**05.05.2021**

*******

Xaraba komaya
Kur saçan aya bax:
Göylərdən səs gəlir:
– Kim yatmış, kim oyaq?

**2021**

# RUHLAR SƏLTƏNƏTİ

## ZƏFƏR YOLU

Alpinist kəndiri tək
Dərədən dağa çıxır.
Şəhidlərin qanıyla
Yoğrulubdur bu cığır.

Bizi doğma Qarabağ,
Bizi Şuşa çağırır.
Dönüb zəfər yoluna
İndi zəfər cığırı...

Naxələf düşmənlərin
Çöküb gözünə sarı.
Maşınımız şütüyür
Cıdır düzünə sarı.

Sıldırımdan adlayıb,
Zirvəyə qalxdı bu yol.
Düşmənin ürəyinə
Sancılan oxdu bu yol...

Qorxutmur bizi yağış,
Qorxutmur bizi dolu.
Xalqımı zirvələrə
Aparır zəfər yolu...

**15.11.2021**

## NİGARAN RUHLAR

Qələbə ilə
öyünməyə haqlıdır,
böyük bir xalq,
kiçik bir ölkə.
Heç kəs zəfərimizə
sala bilməz zərrə qədər kölgə...
Ancaq qəlbimiz
həsrətdən elə göynəyir ki,
bilmirik yer nədir,
bilmirik göy nədir?
Təkcə igidlərimiz deyil,
şəhid olan kəndlərimiz,
şəhərlərimiz,
şəhid olan vətənli günlərimiz,
aylarımız, illərimiz də
içimizi göyüm-göyüm göynədir...
Torpaqlarımızı
xilas eləsək də yağılardan,
ürəklərimiz xilas olmayıb hələ
əzablardan, ağırlardan...
Otuz ildi ki,
mürgüləməyə çalışsaq da,
gözümüzə getməyib
bir çimir yuxu...
Yalnız ata ocaqlarının
işıqları yananda
rahatlıq, dinclik tapa biləcək
Ata- anaların, nənə-babaların
nigaran ruhu...

**26.06.2022**

## ŞAİRLƏR ŞUŞADA
## ŞEİR OXUYUR

Mat-məəttəl qalıb qala qapısı,
Şuşanın təbəssüm donub üzündə.
Naşı şairlərin ilham yabısı
Axsayır, büdrəyir Cıdır düzündə...

İnsan söz deməmiş gərək düşünə,
Onsuz da bu yurda olan olubdur...
Meydanda gör kimlər döyür döşünə? –
Şəhidlər, qazilər yalan olubdur...

Vətən vətən olur qəhrəmanıyla,
Alayın üstünə tək gedənlər var.
Zəfər nəğməsini qızıl qanıyla,
Qayalar üstünə həkk edənlər var.

Ağrılar şəhərin çöküb içinə,
Hələ burda hava barıt qoxuyur.
Dərələr səsini çəkib içinə,
Şairlər Şuşada şeir oxuyur...

Hisslər his qoxulu, düçüncə yavan,
Kəsib nəğməsini sarı bülbüllər.
Görən nə düşünür Vaqif, Natəvan?
Başını bulayır xarıbülbüllər...

**18.07.2022**

***

Hər pəncərənin öz şüşəsi var,
Hər bir insanın öz Şuşası var...

## ŞƏHİDLƏRİN TƏŞNƏ RUHU

Laqeydlik, biganəlik
doğmaları da
yad eləyir;
Gör kimlər kimləri
yad eləyir? –
İsa bulağından bir qurtum
su içə bilməyən
şəhidlərin təşnə ruhu
İsa bulağında su yox,
araq içənləri görüb
fəryad eləyir....

**27.07.2022**

## DÖYÜŞLƏRDƏN SALAMAT ÇIXAN ƏSGƏRİN DÜŞÜNCƏLƏRİ

Hər kəsin bir taleyi var, –
Öz qismətinin meyvəsini dərir hərə;
Bizi qınamayın ölmədiyimizə,
yaralanmadığımıza görə...
Gündə yüz dəfə öldürür adamı
Kinayəli baxışlar, atmacalı sözlər...
Biz eşitdiyimizi  eşitməsin qulaqlar,
Biz gördüyümüzü görməsin gözlər...
Nələr çəkdiyimizi bir Allah bilir
qələbə anına qədər...

Unutmayın ki,
biz də  ləyaqətlə vuruşmuşuq,
Müharibənin əvvəlindən
sonuna qədər...
Düşmən gülləsinə
tuş gəlməsək də,
Ara-sıra söz gülləsi
yağır üstümüzə...
Gecə-gündüz boğuluruq,
Özümüz öz qəhər tüstümüzə...
Heç zaman Vətənin taleyinə
biganə qalmamışıq,
düşmənin anasını ağladıb,
dostu güldürmüşük!
Günahımız nədi ki,
şəhid olmamışıq,
qazi olmamışıq, –
Biz  Vətən uğrunda
yaralanmasaq da,
ölməsək də,
Vətən uğrunda
öldürmüşək...

**15.07.2022**

## FƏXRİ XİYABAN

Torpağı üstlərində
qara pərdəyə döndəririk,
Kimin ki, ömür günəşi
qürub etdi.
Doğmalarından

ayrı düşənlər üçün
əbədi vətənə dönən
qəbristanlıq belə qürbətdi…
Heçliyini bilə-bilə
var-dövlətdən,
şan-şöhrətdən doymuruq.
Torpağın üstündə
fərqli olanları belə
Torpağın altında
bir olmağa qoymuruq…
Nə illah eləsən də,
dəyişə bilməzsən;
Yer yerdi,
Göy göydü…
Doğma qəbırlərdən
ayrı düşənlər üçün
Fəxri xiyaban
Fəxri dustaqxana kimi
bir şeydi…

**09.05.2021**

## ŞƏHİD BULAQLARI

Hey təskinlik versək də,
Ananın üzü gülmür,
Bulaqlar düzəltsək də
Şəhidlərin adına, –
Onlardan çağlayan su
Sərinlik verə bilmir
Şəhid analarının
Yanğısına, oduna...

**19.11.2021**

## ŞƏHİD SEVGİLİSİNİN HƏĞMƏSİ

Gecələr səhərə kimi
Gözümlə qor götürürəm.
Bu da mənim taleyimmiş, –
Hey köksümü ötürürəm...

Əriyib gözümün yağı, –
Yağı necə qansız imiş...
Çeçələ barmağım boyda
Güllə nə amansız imiş!

Göylər də bir himə bənddi,
Buludların gözü dolub.
Sən yoxsan, səninlə birgə
Xoşbəxtliyim şəhid olub...

Məzarına çiçək səpib,
Suvarıram göz yaşımla.
Güllər sevgilimi olub,
Mənim ömür yoldaşımla?!

Necə baş qoyum köksünə? –
Sellənir gözümün yaşı...
Əvəz eləyə bilərmi
Heç sinəni sinə daşı?

Sənsiz tab eləmək olmur
Bu qədər qara, soyuğa.
Məzarın gül dənizində
Dönüb bir qara qayığa...

Həsrətəm gün işığına,
Gözlərimə zülmət çöküb.
Namərd güllə aramıza
Keçilməz bir hasar çəkib...

Köksündə açan gülləri
Xəzan da soldura bilmir.
Güllə açan yaraları
Güllər də doldura bilmir...

Mənə bircə xoş söz söylə,
Nə olar, gəl insafa, yar!
Aramızda bir xırdaca
Güllə boyda məsafə var...

Xoşbəxt anlar, dəqiqələr
Yanımızdan gəlib keçib...
Ölüm güllə libasında
Üzüyümü dəlib keçib...

**09.12.2021**

## ANIM GÜNÜ

Bu gün Anım günüdür,
Siz bizi anın, anın!
Zaman öz işindədir,
Öz hökmü var hər anın!

Yel gücü, sel gücü var
Hər igid harayında.
Hərəmiz bir kərpicik
Qələbə sarayında…

Vətən sizə əmanət, –
Onu qoruyun yaddan!
Qədirbilən el bizi
Heç vaxt çıxarmaz yaddan…

Başımız çox ucadır
Savalan dağı kimi.
Ruhumuz göylərdədir
Vətən bayrağı kimi…

**27.09.2021**

## ZƏFƏR GÜNÜ

Zəfər günü, zəfər günü,
Yurda dönüş, səfər günü...
Alqışlayaq ordumuzu! –
Tarixinə yurdumuzun
Səkkiz noyabr yazıldı,
Qışımız dönüb yaz oldu...
Sinəmizi verib önə,
Qalib gəldik 44 günə...
Azad etdik Qarabağı,
Yağı oldu qarabağır...
Düşmənləri qırıb-çatdıq,
Axır ki, Şuşaya çatdıq...
Doğma torpaq azad oldu,
Babamın ruhu şad oldu...
Elə ki, zurna dil açdı,
Xarıbülbülər gül açdı.
Dağa, daşa düşdü haray,
İgidlər vurdular halay...

Yada düşdü ötən çağlar,
“Yallı”ya qoşuldu dağlar...
Görüb bir cüt türk bayrağı,
İlan tək yalmandı yağı...
Çiçəklərin dolub gözü,
Kövrəlibdir Cıdır düzü.
Yellənir üçrəngli bayraq,
Üstündə ay, ulduza bax:
Şəfəq saçır onlar qoşa,
Necə bəxtəvərdi Şuşa...
Məlhəm olub elə zəfər,
Kim görmüşdü belə zəfər?!

**16.07.2021**

***

Yağışdan sonra yaranır,
Qovsi-qüzeh – göyqurşağı.
Vətənə qurban doğulur
Mərd insanların uşağı...

***

Gözəgörünməz ordu,
Xilas etdi bu yurdu...

***

Mizrabı sim unudar?
Şəhidi kim unudar?

**2021**

# ÖMRÜN QARLI AŞIRIMI

## HƏLƏ AYAQ ÜSTDƏYİK

Böyüdükcə qəlbimiz dərdimiz də böyüdü,
Bələd olduq dünyanın biz çikinə-bikinə...
Nə qalıb ki, çatmağa axı mənzil başına? –
Zaman çapır atını bizi alıb tərkinə...

Arabir lil qarışıb mənim ömür çayıma,
Kimdi axı hay verən harayıma, hayıma?
Ömür qum saatı tək axıb gedir, ay aman!
Yaşlandıqca adamın birə düşür kürkünə...

Müdrik ağsaqqal edir zaman körpə uşağı,
Su işıqla öpüşür yaranır göy qurşağı,
Sünbüllər dən tutanda başı enir aşağı,
Hamı dönür əslinə, hamı dönür kökünə...

Keçi dinc dayanmasa, başı dəyər çomağa,
Vaxtımız çatacaqmı bizim günah yumağa?
Dünyanı dərk edəndə çevrilirik yumağa,
Ayaqlar tab eləmir qocalığın yükünə...

Yolumuzun üstündə uca barı, çəpər var,
Hasarın o üzündə kəkotu, qantəpər var,
Qəlbimizdə eşq nuru, dizimizdə təpər var,
Hələ ayaq üstəyik şükür olsun bu günə!

**21.09.2021**

## QIFILSIZ XƏZİNƏ

Elə bil itirmişəm mən ağzımın tamını,
Hamı məni unudub, elə mən də hamını...

Bilmirəm doğmalardan niyə uzaq olmuşam?
Gözünü xəzəl tutan gizli bulaq olmuşam...

Bir vaxt at oynadardım, fağıra dönmüşəm mən,
İçini kol-kos basan cığıra dönmüşəm mən...

Budaqların ucunda əsən yarpaq olmuşam,
Xəzələ ovuc açan qara torpaq olmuşam...

Yuvası dağıdılan tənha quşa dönmüşəm,
Üstündə mamır bitən soyuq daşa dönmüşəm...

Bir ünvansız, sərsəri dəli külək kimiyəm,
Dənizlərin dibinə çökən köhnə gəmiyəm...

Hərdən çat-çat qəlbimə ayrılıq güc eləyir,
Boş qalan kayutamda balıqlar gecələyir...

Umacağı olmasa axtaracaq kim səni?
İçim zərlə doludu xəbəri yox kimsənin!

Sahibini gözləyir bir qıfılsız xəzinə, –
O, həmişə bağlıdır nadanların üzünə...

Baxışlarım mizrabdı, hər yarpaq sarı simdi,
Payız nəğmə oxuyur onu dinləyən kimdi?

Yandıran olacaqmı sönən ümid şamını?
Hamı bizi unudub, elə biz də hamını...

**13.09.2021**

***

Vəzifən yoxsa əgər kimdi salan saya səni?
Özü kölgəndə yatanlardı sanan sayə səni.

Tutulubdur çoxunun qəlbi xəbislik pasına,
Elə  saymazca baxır ki, tanımır guya səni...

Zərrəcə yox gileyin dünyada övlad sarıdan,
Taleyin qismət edibdir bu şirin paya səni...

Özünə zülm eləmə, ruhuna hakimsə könül,
Doğru yoldan çıxara bilməz axı röya səni!

Qəlbi sevgiylə əsənlər dolanır hey başına,
Dəli sevda deyəsən döndərəcək aya səni...

Ruhunu Haqq işığıyla yoğurubdur Yaradan,
Taleyin möhtac edibdir ulu sevdaya səni.

Ömrünə hey gecə-gündüz ələnən eşq yağışı,
Döndəribdir elə bil  bol sulu bir çaya səni...

Sinənin üstə bitən lalələri görməyəcək
Gözünü zülmət öpənlər sanacaq qaya səni...

Haqqa qamar çıxana Haqq özü qahmar çıxacaq,
Göylərə qaldıracaqdır bu amal, qayə səni...

Yusifoğlu, ürəyin safdı sənin büllur tək,
Yaradan bir də gətirməz qoca dünyaya səni...

**23.09.2021**

***

Köksündə sevgi cücərdi, daşlığını qaya dandı,
Çiçək də, gül də bitirir, sanma qəlbim qayadandır...

Nəfəsinlə kömür közərt, su ələmə köz üstünə,
Etdiyin yaxşılıq pislik, öz üstünə qayıdandır.

Özün gedib, ürəyimdə həsrət toxumu səpmisən
Qəlbim qüssə hərisidir, orda dərd tez boy atandır.

Hicran yağmurundan sonra şəfəq saçır təbəssümün,
Qəlbindəki göyqurşağı Tanrı verən boyadandır...

Getmə qəflət uygusuna, Yusifoğlu,  qəm eləmə,
İçindəki iman nuru qara bəxti oyadandır...

**09.08.2022**

## HƏLƏ Kİ

Başımın üstündə şimşəklər çaxır,
Xoş ətir gətirir səhər yelləri.
Çat-çat ürəyimə yağışlar yağır,
Köksümdə çağlayır sevgi selləri…

Könlü göydə olan baxmaz aşağı,
Zamanın selləri axıb, durular.
Gözümdə bərq vurur iman işığı,
Hələ ki, qəlbimdə sevgi nuru var…

Bir eşq ocağıyam, çətin sönəm mən,
Sanma ki, dünyanı tərk eləyirəm.
Ulu Yaradanın sevgisini mən
Hər gün zərrə-zərə dərk eləyirəm…

Ömrümə nur saçan eşq günəşim var,
Zərrəsi əvəzdi zərə, altuna!
Hələ yer üzündə xeyli işim var,
Köçmək istəmirəm yerin altına…

Hələ ki, his etmir sevgi çırağım,
Nə yerdən, nə göydən doya bilirəm.
Çox şükür, hələ ki, insan olmağın
Şirin ləzzətini duya bilirəm.

Özümü nahaqdan öyə bilmərəm,
Qəlbimdə yer yoxdu fəğana, aha! –
Sabah nə olacaq, deyə bilmərəm,
Bu gün bəxtəvərəm, şükür Allaha!

**20.07.2021**

## SIRA NƏFƏRİ

Yolumun üstündə qazdılar quyu,
Təxirə salmadım bircə səfəri…
Zirvəyə can atdım həyatım boyu,
Olmaq istəmədim sıra nəfəri…

Mənə qanad verdi gizli təkanlar,
Şeir güllərindən çələng toxudum.
Yolumun üstündə bitən tikanlar
Yalın ayğıma meydan oxudu…

Köksümdə ürəyim üsyana qalxdı,
O da sahibi tək inaddı, tərsdi…
Başımın üstündə şimşəklər çaxdı,
Azmı dəli sellər yolumu kəsdi?

Azalda bilsə də duman işığı,
Sazağa düşsə də, çiçəkli yazım,
Qəlbimdən boylanan iman işığı
Məni qaranlıqda qoymadı azım…

Yağan qar qorxutmaz qocaman dağı,
Gün çıxsa, şaxtanın sınar quluncu…
Əgər olmasaydı dost badalağı,
Mənə neyləyərdi düşmən qılıncı?

Yaz tək qarşıladım ömrün qışını,
Nahaqqı çaşdırdı Haqqın zəfəri…
Sıraya dursa da bədxah qoşunu,
Çox şükür, olmadım sıra nəfəri…

**05.04.2021**

## DÜŞÜNCƏ SELLƏRİ

Bir yağış gəldi ki, tufan gücündə, –
Səngərdən yan ötüb, Kəpəzi tutdu…
Yoxsa qərq olardıq sel-su içində,
Bizi bu leysanın şəpəsi tutdu…

Gövdəsi mamırlı qoca palıddan
Quru budaqları ayırdı gəldi…
Görünməz bir qüvvə qara buluddan
Şimşək qılıncını sıyırdı gəldi…

İldırım çevrildi qorxunc fişəngə,
Leysan ot tapdayır, çiçək əzirdi.
Buludlar dönmüşdü topa, tüfəngə
Gurultu səsindən yer, göy əsirdi…

Güllə yağışıydı elə bil dolu,
Hara dəyirdisə, yaralayırdı…
Quşlar, kəpənəklər  dibində kolun
Başını soxmağa yer arayırdı…

Qara buludlardan üzülən yağış,
Qarışqa boydaydı, filə dönürdü…
Dağın dabanından süzülən yağış
Dərənin qoynunda selə dönürdü…

Bir-birinə dəyib axırdı daşlar,
Hücuma keçmişdi leysan qoşunu…
Susurdu qanadı islanan quşlar,
İnsan düşünürdü tutub başını…

Özü tənzimləyir dünya balansı,
Perikən durnalar gölə dönərmiş.
Buluddan ayrılıb damla olan su
Yerlərdə birləşib selə dönərmiş.

Gözlər boylansa da  ulduza, aya,
Yaralı quş kimi ürək ağlayır.
Güman buludları dönüb damlaya,
Düşüncə selləri coşub çağlayır…

**06.07.2021**

***

Hər gün gözəllikdən xərac alsam da,
Ağrının, əzabın son ucu mənəm...
Sənətdə çoxundan öndə olsam da,
Növbədə hamıdan sonuncu mənəm...

**03.05.2022**

## DUSTAQ MƏNZƏRƏLƏR

Baxışa həsrətdi dustaq mənzərə,
Ədalət yoxdusa, uğur da yoxdu.
Hər yer hasarlanıb, dogma Xəzərə
Getməyə yol nədi,  cığır da yoxdu…

Ağrıdan, həsrətdən göynəyir içim,
Qəfəsdə quş kimi çırpınır ürək…
Doğma sahillərdə dincəlmək üçün
Üzüb Aşqabaddan gələsən gərək…

Suya həsrət qalıb körpə fidanlar,
Acgöz işığı da gözə çox görür.
Haram tikələri lüm-lüm udanlar,
Bir udum havanı bizə çox görür…

Qışda da qıymazlar dağın qarını,
Kimdi qulaq asan elin sözünə?
Xalqın sərvətinin qapılarını
Harınlar bağlayıb xalqın üzünə…

Kimin həddi nədi sözə baxmaya,
Bağlanıb dənizin bəndi, bərəsi.
Şəhərə qurbansız su buraxmayan
Qırxbaşlı əjdaha olub hərəsi…

Düyünlü ağaca neyləsin rəndə?
Abrına qısılan el fağır olur…
Bəndə nəfs ucundan düşəndə bəndə,
Allahın cəzası çox ağır olur…

**10.07.2021**

## EL ARXA SIRADA ADAM AXTARIR

İnsanmı yerini bilməyən insan?
Niyə duz səpirsən köhə yaraya?
Layiq olmadığın yerdə durursan,
Özünü dürtürsən ən ön sıraya...

Daldan atılan daş dəyər topuğa,
Yolunu azanda arx,
ada qalır.
Görünmək istəyən keçir qabağa,
Görmək istəyənlar
arxada qalır...

Ümid çiçəkləri saralıb solmur,
Cahilər sürüsü eli qorxudur.
Önə dürtülənə güvənmək olmur,
Arxada duranlar elə arxadır...

Yenə əl qatmısan özün özünə,
Tutub çəkən yoxmu sənin noxtanı?
Heç baxan da yoxdu sırtıq üzünə,
El arxa sırada adam axtarır...

**20.01.2022**

## SELFİ

Dərdi dərd çəkənə verir bu dünya,
Verir kef çəkənə kefi çəkməyi...
Bu cavan yamanca ütük cavandı,
Yamanca xoşlayır selfi çəkməyi...

Ona yaxınlaşır, bunu yanlayır,
Şan-şöhrət axtarır gözü həmişə.
Ağsaqqal, ağbirçək qalır arxada
Durur ön planda özü həmişə...

Guya vunderkinddi, guya dahidi
Həmişə hazırdı qisas almağa.
Özü xoşlasa da gözə girməyi,
Çalışır özgəni gözdən salmağa...

Düşüb ürəyinə paxıllıq çatı,
Bu qədər ağrıya necə dözür o?
Özündən yüz addım öndə olanın
Özünə, sözünə ağız büzür o...

Heç kəsi bəynmir, keçir qabağa,
Gözünə işıq yox, kölgə görünür.
Özü cılız olan, dəyərsiz olan
Şəkildə hamıdan yekə görünür...

**17.08.2022**

***

Ömrümüzü şəfəqlərə qərq edən
İman nuru, istiqlal günəşidir...
Mərmilərin, güllələrin önündə
Sipər olan igidlərin döşüdür.

El yolunda hər əzaba dözəcək,
Düşmənlərin xirtdəyini üzəcək,
Alnıaçıq, başı uca gəzəcək
Hər kimin ki,  imanlı yar eşidir.

Sinə gərdik çox əzaba, ağrıya,
Halal nemət qismət olmaz oğruya,
Nə yaxşı ki, zaval yoxdu doğruya,
Duamızı Ulu Tarı eşidir...

Qəlbim dönüb bir sevdalı ozana,
Bələnməyib kin-küdurət tozuna,
Şükür olsun bu taleyi yazana, –
Giley-güzar acizlərin işidir...

Pisliklərə yox zərrəcə macalı,
Bəbəklərdən sevgi nuru bac alır,
Yamanlığa yaxşılığı bacarır,
Yusifoğlu kişi oğlu kişidir...

**16.07.2022**

***

Bu dünyanın hər işi bir müəmma,
Nədir belə ürəyimi titrədən?
Gərək olsun ayaqların təpəri,
Eniş deyil köhlənləri büdrədən...

Ac qalmazsan, qəm almasın üzünü,
Allah özü yetirəcək ruzini,
Özün qazan çörəyini, duzunu,
Gözünü çək ianədən, fitrədən...

At atdısa, ehtiyac yox şallağa,
Nə dəyişir, ha köhlən de ulağa,
Su tökməklə quyu dönməz bulağa,
Gərək şair doğulasan fitrətən...

**04.09.2022**

# HAQQ ŞAİRİ

Dünyanın xoş üzü, sərt üzü burda,
Sevinc üzü burda, dərd üzü burda.
Haqq şairi Rafiq Yusifoglunun
Bərq vurur brilyant, dürr sözü burda...

**Hafiz Rüstəm**

Rafiq Yusifoğlu şəxsiyyəti, yaradıcılığı ilə könüllərdə taxt-tac qurmuş görkəmli şairimizdir. Belə yaradıcı insanlarımız indi tək-təkdi...

**Zülfüqar Şahsevənli**

Mənə Haqq şairi deyən şairlərə salam olsun!
Qəlbimizi nurlandıran bir ilahi kəlam olsun!
Gəlsin xəbislər ordusu qorxumuz yox zərrə qədər,
İman nuru söz mülkündə topdağıtmaz qalam olsun!

Özgə cibə göz dikənlər hər an  umur xalqdan gəlir,
Onlar bunu unudur ki, bütün çaylar dağdan gəlir.
Halal ilham mayasını götürür ilahi nurdan, –
Gözəl sözlər ucalıqdan, gözəl sözlər Haqqdan gəlir...

Qovrulub həsrət odunda de, nə qədər göynəyim mən?
Özgələrin ağrısını keçirdim ki, köynəyimdən
Mənim əzizim, xələfim, mənim doğma balam olsun...

Sevgidi dərdlərə məlhəm, sevgidi ürəyə açar,
Xalqın dılini bilməyən “xalq şairi” xalqdan qaçar, –
Mənə Haqq şairi deyən şairlərə salam olsun!

**12.12.2021**

## QÜRUB GÜNƏŞİ

Bir az soyuq olur qürub günəşi,
Qarlı zirvələri isidə bilmir.
Günbəgün azalır odu, atəşi,
Hara getdiyini özü də bilmir...

Ümidlər, arzular dönür səraba,
Həyatın işləri nə qəribədi!
Hamımız gedirik üzü qüruba,
Günəşin də yönü üzü Qərbədi...

Anidir insanın deyib-gülməsi,
Ağrılar, acılar qəlbimə köçüb...
Ömür xalımızın əcəl ilməsi
Hardasa, kiminsə əlinə keçib...

"Qürub" çox bənzəyir "qürbət" sözünə, –
Qəribi qürbətdə isitmir Günəş...
Qəlbimiz yansa da həsrət közünə,
Xoşbəxt yaşamağa bəs etmir Günəş.

Aldandıq ilğıma, uyduq səraba,
Ömür ipımizi gizli əl sökür...
Hər axşam enəndə günəş qüruba,
Nurlu dünyamıza qaranlıq çökür...

Qırmızı görürük biz üfüqləri,
Çalır qan rənginə qızılı atəş...
Üzümüzə düşən son şəfəqləri
Götürüb özüylə aparır Günəş...

Dünyanın işini dərd etmə, kişi,
Bu dünyadan köçən təkcə bizikmi?
Gecələr də yanır sevgi günəşi,
Sevən ürəklərə zülmət üzükmür...

Zaman müdrik edir körpə uşağı,
İnsan Haqq nurunu tapıb, yaşayır.
Təmiz qəlbimizin nuru, işığı
Sevgi nəğməmizə hopub yaşayır...

Şikayət etməyək biz qocalıqdan,
Dağlara qar düşüb, zirvə soyuqdu...
Aşağı enməyək o ucalıqdan, –
Sevgi günəşinin qürubu yoxdu...

Sevib-sevilməkdi insanın işi,
Ürək sevgi ilə coşur, qabarır...
Yerin bu üzünün qürub günəşi,
Yerin o üzünə səhər aparır....

**03.01.2022**

***

Ay aman, cahillər də alim sanır özünü,
Seçə bilmir ocağın kösövünü, közünü.
Dayazda üzə bilmir, dərinlikdən dəm vurur,
Hey əzbərdən desə də, müdriklərin sözünü...

Zatıqırıqdır, onun dirisi,  ölüsü nə?
Hər gün döyür döşünə, kim görüb "belə sinə"?
Xoruzlanır, banlayır, küllükdə eşələnir,
"Boyuna xam ip tutum", – deyir  el beləsinə...

Kəlamlar düşməsə də dilindən, dodağından,
Bir qətrə su içəmyib o, hikmət bulağından,
Xəbərsizdi bu bədbəxt dünyanın işlərindən,
Filosofuma baxın, yatıb fil qulağında...

Tanımaq asan deyil mələk donlu iblisi,
Ruhunu kor eləyib onun xəbislik hisi.
Mütləq həqiqət tapmaq çətindi yer üzündə,
Hərə öz arşınıyla ölçür yaxşını, pisi...

**04.08.2022**

## İSTƏYİR

Haqsızlıq görəndə daima susan
İndi hansı üzlə dinmək istəyir?
Oğru da, quldur da, cələkəsən də
Ulu Yaradandan kömək istəyir.

Alovlar canını yandırıb yaxır,
Hamı laqeyd-laqeyd kənardan baxır,
Köz külə dönməkdən yamanca qorxur,
Kömürə çevrilib, sönmək istəyir...

Hara tələsirdik biz qaça-qaça?
Niyə dincəlməyə tapmadıq macal?
Əlindən ayrı iş gəlməyən qoca
Xəyal köhləninə minmək istəyir.

Çırpdıq özümüzü hey dağa, daşa,
Daha gücümüz yox kükrəyək, daşaq,
Bir vaxt böyüməyə can atan uşaq
İndi uşaqlığa dönmək istəyir...

**14.03.2022**

## YANĞIN

Xain əllər od vurub
Dilsiz ota, ağaca...
Əsən yelə qoşulub,
Alov qalxır yamaca...

Yanır dilsiz-ağızsız
Cücü-mücü, heyvanlar.
Külə dönür bir anda
Gül-çiçəkli eyvanlar...

Fəğan edir, vurnuxur,
Alov çathaçatdadı.
Ana quşun ürəyi
Vahimədən çatladı...

Yuvaların içində
Körpəcə quşlar yanır...
İstidən tək meşə yox,
Qayalar, daşlar yanır...

Qapqara tüstü ilə
Örtülüb göyün üzü.
Alova su səpməyə
Gücü çatmır dənizin....

Yanır yaşıl ormanlar,
Tüstü dirənib ərşə.
Ləkə vurmaq istəyir
Yarasalar günəşə...

Yer-yurd od tutub yanır,
Haray haraya çatar...
Tanrıdan başqa kimsə
Çətin haraya çata...

Meşələrə od vuran
Namərd əllər qurusun...
Haqq-ədalət carçısı
Türkü Allah qorusun!

**31.07.2021**

## ELƏ BİLMƏYİN Kİ, YANĞINLAR SÖNÜB

Xəyanət görəndə ürəyim donar,
Yandırmaq asandı, söndürmək çətin.
Oğru maskalanıb, girər min dona,
Doğrunu  yolundan döndərmək çətin.

Kədər dənizində ağrılar üzür,
Dəryalar qoynunda insan dağ imiş.
Sönənin kömür tək qaradır üzü,
Yanmağın axırı kül olmaq imiş...

Mərdin uğuruna həsədlə baxar,
Ümüdi qalmayıb aydın sabaha. –
Kol-kosu yandırıb aradan çıxar,
Namərdin əlindən nə gəlir daha?

Göyə bülənd olan odlar içində
Günahsız oğlaqlar, quzular yanar.
Ürəyimə düşən çatlar içində
Yanır, çırthaçırtla arzular yanar...

Atəşböcəkləri boz külə dönüb,
Körpə quşcığazlar qara kömürə...
Elə bilməyin ki, yanğınlar sönüb,
Düyünlü yumruqlar dönüb dəmirə...

Haqqın bir sözünü etmədik iki,
Verdik könlümüzü imana, dinə...
Bu namərd yanğınlar qəlbimizdəki
İntiqam odunu qoyarmı sönə?

Bu gündən güc alır nurlu səhərlər,
Sanma türk döyüşdən yan duracaqdır.
Zəfərlər dalınca gələn zəfərlər
Hələ düşməni çox yandıracaqdır...

**31.07.2021**

## DÜNYA OD TUTUB YANIR

Qara-qara buludlar pərdə çəkib günəşə,
Ağaclar kömür olub, göynəyir yerim, göyüm...
Dünya od tutub yanır, tüstü dirənib ərşə,
Anamız Yer kürəsi göynəyir göyüm-göyüm...

Burnundan o tərəfi görə bilməyən xəbis
Cəhənnəmə döndərib bizim Yer kürəsini...
Dünyaya, insanlığa qənim kəsilən iblis
Yamyaşıl ormanların qaraldıb nəfəsini...

Qırx gün də bəs eləmir bəzən heç qudurana,
Külək kimi dörd yana əsənə nə deyəsən?
Su içdiyi çeşmənin gözünü batırana,
Oturduğu budağı kəsənə nə deyəsən?

Yer bezib nadanların fitnəsindən, felindən,
Yanğınlar bu yazığın qaçırıb yuxusunu...
Qoynunda yer verdiyi naxələflər əlindən
Bilmir ki, necə çəkib qurtarsın yaxasını?

Arzular zoqquldayır könlümün yarasında,
Dost sandım düşmənimi, günahkaram, nə danım?
Öz evi kül olmazmı alovlar arasında
Özgənin komasına kibrit çəkən nadanın?

Köksüm od tutub yanır, ürəyim qaynar ocaq,
Dincliyim olmayacaq alov sönənə qədər...
Deyəsən bu iblislər rahatlıq tapmayacaq
Anamız yer kürəsi külə dönənə qədər...

Günəş cazibəsində qolları bağlı dünya,
Qırıb zəncirlərini uçmağa məqam gəzir.
Naxələf insanların əlindən dağlı dünya
Öz başını götürüb qaçmağa məqam gəzir...

Vicdanlar su içində mürgüləyir rahatca,
Niyə qənim kəsilib bu nadanlar bəşərə?
Cəhənnəm alovundan künahkar çətin qaça,
Dünya od tutub yanır...
Nə qaldı ki, məhşərə?

**03.08.2021**

***

Çox haqsızlıq görmüşük tarixin varağında,
Çox arzu şəhid olub azadlıq sorağında.
Yetimə can deyənlər dar ayaqda mısıdıb,
Quzunu tənha qoyub ayının qabağında...

Nə vaxt son qoyulacaq bu sonsuz rəzalətə?
Zavallı xalq nə qədər dözəcəkdir zillətə?
Oğrular doğru çıxıb, doğrular tənha qalıb,
Gücə boyun əyənlər kəm baxar ədalətə...

Zatı qırıq olandan sədaqətli yar çıxar? –
İlan yumurtasından zəhərli şahmar çıxar.
"Mənəm-mənəm" deyənlər öz başının hayında,
Zalıma baş əyənlər məzluma qahmar çıxar?

**25.02.2022**

## HAQQA DOĞRU

Yalanlar, iftiralar
Şeytana yaraşır,
Bəzəkdir, yaraşıqdır
Haqqa doğru...
Otlar, çiçəklər
işığa can atır,
Qəlbində iman nuru olanlar
haqqa doğru...
Dünya gül-çiçəkli bir çəmən,
Ehtiyaclar – ac arıdır.
Şübhələr – həqiqətin,
Dualar – uğurların açarıdır...

**01.01.2022**

## YUMRUQ

Barmaqlar yumulsa da,
Haqsızlığa göz yumma...
Öz el-obana güvən,
Düşməndən dostluq umma.
Barmaqlar yumulanda
Güclü yumruğa dönür.
Dəmir yumruq önündə
Düşmən yumağa dönür.
Xalqı qalib görəndə,
Ürəyim dağa dönür...

**21.04.2022**

## MƏNİM ŞEİRLƏRİM

Heç vaxt öz yolumdan dayanmamışam,
Ocaq qalamışam mən öz közümə.
Özgə ilhamından pay ummamışam,
Haram qatmamışam halal sözümə...

Doğma əzablardan ayrılmaq çətin,
Həsrət alovuyla göynəyib ürək.
Sizə hopdurmuşam dərdin, həsrətin
Halal şirəsini son qətrəyədək.

Mənim aydan arı təmiz adıma
Can atan olsa da kölgə salmağa,
İmkan verməmişəm bircə adama
Sözün namusuna ləkə salmağa...

Qıra bilməsəm də həsrət buzunu,
Qızaran dan yeri köçüb gözümə.
İpəkqurdu kimi ömrüm uzunu
Kəfən toxumuşam özüm özümə...

Başımın üstünü duman alanda
Sizə söyləmişəm ürək sözümü...
Mənim şeirlərim, mənsiz qalanda
Qara eləməyin mənim üzümü...

**26.03.2022**

## ÖMÜR MÖHLƏTİ

Nə qədər ki, ömür möhləti var
şən yaşa, xoşbəxt yaşa!
Sevgi ilə baxmağa çalış,
Xəzanlı payıza, qarlı qışa…
Neçə ki, ömür karvanın yoldadı,
Neçə ki,  yaşamağa var macal,
gözəllikdən zövq,
sevgidən həzz almağı bacar…
Günəşin nurunu gözlərinə,
Çiçəklərin ətrini sinənə çək…
Onsuz da əvvəl-axır
ömür ocağın sönəcək…
Unutma ki,
yaşamaq hər şeydən gözəldi,
Giley-güzar gəlməsin dilinə!
Yaxanı dərdin əlindən qurtarıb,
Verməyə çalış sevincin əlinə…
Dünyasını dəyişən
doğmalarını xatırlayıb,
bu qədər göz yaşı tökmə,

bu qədər köksünü ötürmə…
Bu dünyanın sevincini
o dünyaya apara bilməzsən;
O dünyanın kədərini də
Bu dünyaya gətirmə!

**28.05.2021**

## XİFFƏT

"Neçə ki canın suludu,
özünə bir gün ağla", – demişdilər.
"Cavanlıqdan qocalığa da
bir şey saxla", – demişdilər.
Doğmalarımı itirə-itirə gəlmişəm,
Köksümü ötürə-ötürə gəlmişəm.
Yağışın altında qalan soyuq bir
daşa dönmüşəm...
Yuvası dağılan bir
quşa dönmüşəm.
Ürəyim ömür ağacımda
titrəyən sarı yarpağa bənzəyir.
Cavabını bilmədiyim suallar
ümid zəmisini biçən orağa bənzəyir…
Elə bilmə ki,
cavanlıqda özümə bir gün
ağlaya bilməmişəm.
Ancaq bu günümə
təmiz adımdan,
sevdalı ürəyimdən,
bir də ötən günlərin
xiffətindən başqa
heç nə saxlaya bilməmişəm...

**29.09.2021**

***

Mən yeri gələndə
ildırım kimi şaqqıldayan,
yeri gələndə susanam.
Mən sənin kimi robot deyiləm,
canlı insanam...
Sən özündən böyüklərin
əmrinə müntəzirsən.
Mən isə həmişə olmuşam
səmimi, kövrək, qəlbi yuxa.
Sən xaraba yurdda
gülümsəyə-gülümsəyə gəzirsən,
mən isə ürəyimdən
qara qanlar axa-axa...
Mən ağrılardan belə
bal çəkməyi bacaran arıyam,
sən isə bənzəyirsən
leş üstündə vızıldayan çibinə.
Mən güvəndiyim adamın
qoluna girirəm,
Sən isə cibinə...

**01.10.2021**

## VƏTƏN SEVGİSİ

Ey kürsülərdə sinə döyən
mandatlı canavarlar,
Mənim vətən sevgim
sizin vətən sevginizə oxşamaz. –
Vətəni sevən
onun var-dövlətini talayıb,
ayrı-ayrı ölkələrə daşımaz...

Vətən mənim üçün
nəfəsdi, candı.
Vətən gözlərimdə işıq,
damarlarımda axan qandı...
Nə vəzifə arzulamışam,
nə axar-baxarlı torpaq
umacağım var...
Nəyim də olmasa,
gözütoxluğum,
ədəb-ərkanım,
qanacağım var...
Siz isə tamah dənizində üzən
köhnə gəmisiniz...
Vətənin cəmdəyini uf demədən
şaqqalayan qəssab kimisiniz! –
Göylərə baş çəkən uca hasarlar
Vətən mülkünü bəzəməz...
Mənim vətən sevgim
sizin vətən sevginizə
bənzəməz...

**06.01.2022**

## QƏHRƏMAN QATİLLƏR

Niyə özünüzə qəsd elədiniz
ömrünüzün bahar fəslində? –
Qatil Mayakovski,
Qatil Yesenin,
Qatil Fadeyev! –
Siz qəhrəmansınız əslində...
Təzyiqlərdən cana doydunuz,
“Alın a,
yana-yana qalın a!” –

deyə-deyə
özünüzə qıydınız, –
Sizə güvənən ölkəni
yana-yana qoydunuz....

**06.01.2022**

***

Doğrunu danışanda
Aralıqda söz olur.
Misralarda, bəndlərdə
Məna, hikmət sozalır.
Şeir yazan artdıqca,
Oxucular azalır...

**03.08.2022**
**Nabran**

***

Mənim sözüm onadı,
Mənim sözüm sənədi.
Hamı yazıçı olub,
Cibində var sənədi....
Mayakovski demiş:
“Əgər belə adamlar
sənətkar adlanırsa,
Allah vursun sənəti”...

**03.08.2022**
**Nabran**

## SÖZ SNAYPERİ

**“Yaradıcılıqda qayda-qanuna riayət eləməyə ehtiac yoxdur” – deyənlərə**

Yazanda heç baxmırsan
Sən ağına, bozuna.
Gözləri kor eləmə
Sözlərinin tozuna...

Hər işin cövhərində
Olur mizan, tərəzi...
Zərgər dəqiqliyinin
Söylə, varmı əvəzi?

Ünvansız külək kimi
Hayana gəldi əsmə.
Həmişə yüz ölç, bir biç,
Söz deməyə tələsmə.

Nə qədər xatırladım
Mən bunları hər dəfə:
Dəqiq nişan almasan
Güllə dəyməz hədəfə...

İnsana ilham verən
Bir ilahi pəridi.
Unutma ki, şair də
Sözün snayperidi...

**12.04.2022**

## SÖZ DƏYİRMANI

Ay şair, ruhdan düşmək
Yaraşarmı heç sənə?
Haqq ocağı yanırsa,
Soyuyarmı heç sinə?!

İman nuru bəsindi,
Dərd eləmə, heç nəyi...
Buludları biçəcək
Həmişə eşq şimşəyi!

Ağrılar pərvanə tək
İşığına yığışıb.
Həsrət buludlarının
Tükənərmi yağışı?

Hər dərdi dərd eləmə,
Şairi dərd böyüdür.
Sənin söz dəyirmanın
Sübhəcən dərd üyüdür...

**15.05.2022**

***

Mənim kədər dəyirmanım
Gecə-gündüz dərd üyüdür...
Ağrılar ilham pərisi, –
Şairləri dərd böyüdür...

***

Xiffət – dincliyimi
cəhənnəmə göndərir.
Həsrət yelləri ürəyimi
payız yarpağına döndərir...

**2021**

## SÜKUT

Dillərə qıfıl vururam
Çox vaxt dəlillə, sübutla.
Uğurlarımı həmişə
Qarşılayırlar sükutla...

Bircə xoş söz deyən yoxdu,
Xəbislərdən bac alıram...
Danışdıra bilməsəm də,
Susdurmağı bacarıram...

**21.04.2022**

## DAHA

Ciyərlər su ilə dolub,
Can xirtdəyə qalxıb daha.
Xəbərdarlıq şimşəkləri
Guruldayıb, çaxıb daha…

Kül üfürürlər gözünə,
Kim baxır şair sözünə?
Yerdə yer tapmır özünə
İlham qaçıb çıxıb dağa…

Dərd böyük, davası çatmır,
Hamıya hava, su çatmır,
Çiçəyin havası çatmır,
Çayır dizə qalxıb daha…

Küsüb Göyçə gölü bizdən,
Qovulmuşuq elimizdən,
Bir şey gəlmir əlimizdən
Cin şüşədən çıxıb daha…

**27.06.2021**

## VAR

Nə ürəyimin dincliyi,
Nə gözümün yuxusu var.
Sarı yarpağın içində
Yaşıllanmaq duyğusu var.

Sızlamaq könül işidir,
Harayımı kim eşidir?
Həsrət sazağı üşüdür, –
Hər yaşın öz qayğısı var...

Çiçəklər bitib izimdə,
Eşqin nuru var səsimdə,
Qışda belə nəfəsimdə
Tər bənövşə qoxusu var...

Bulaq kimi çağlayanın,
Quşu göydə saxlayanın,
Haqqa könül bağlayanın
Nahaqdan nə qorxusu var?!

**27.07.2021**

## DARIXMAQ AZARI

Körpəlikdən yoluxmuşam
Mən darıxmaq azarına.
Təzə nırx qoymaq mümkünmü
Bu get-gəllər bazırına?

Hara getsəm darıxıram,
Harda olsam darıxıram...
Ömür gəmimi taleyin
Ümidinə buraxıram...

Uzaq yollara baxmaqdan
Saralır gözümün kökü.
Sən demə elə "dar" imiş
Darıxmaq sözünün kökü...

Arzular qönçə tutanda
Çovğuna, qara düşürük.
Dünya gözümüzdən düşür
Elə ki, dara düşürük...

Gəzmədiyim, görmədiyim
Yerlər çoxdu yer üzündə. –
O da mənim tək darıxır,
Sanki deyil Yer özündə...

Düşüncələr girdabında
Gecə-gündüz qovruluram...
Heç nə ürəyimcə deyil,
Darıxıram, darılıram...

Bu dünya mənə dar gəlir,
Həsrət göynədir gözümü...
Nədir könül umacağım? –
Duya bilmirəm özümü...

Əvvəl-axır soyuyacaq
Köksümdəki qaynar ocaq.
Gen dünyada darıxana
Dar qəbir genmi olacaq?!

**19.06.2022**

**TƏNHALIQ QƏSRİ**

Sürünün önündə gedən
Təkdi deyə, olub təkə...
Elə mələyir ki, guya
Borcu var arığın kökə.

Çaqqal geyib bəbir donu,
Düzəldərmi qəbir onu?
Mən namərdin abırını
Gərək ətəyinə bükəm.

Yalan olubdur ilanlar,
Qıvrılır gürzə yalanlar,
Özləri cılız olanlar
Danışırlar yekə-yekə...

Dəyərmi köks ötürməyə,
Yaddan minnət götürməyə?
İnsan gərək gətirməyə
İnsanlıq adına ləkə...

Bir günüm olmur əzabsız,
İş düzələr haqq-hesabsız?
Yanımda saysız-hesabsız
"Dost" olanda belə təkəm...

Yuxu da getmir gözümə,
Qovruluram öz közümə,
Gərək mən özüm-özümə
Bir tənhalıq qəsri tikəm...

**03.05.2022**

## BƏLKƏLƏR

Kim baş aça bilib axı
Qoca dünyanın işindən?
Bəlkə biz də süd əmmişik
Burla Xatunun döşündən?

Ağrımız uzaqdan gəlir,
Dağmı dözər ahımıza?
Bəlkə elə qopuz səsi
Cila verib ruhumuza?

Sədası yanğılı sazın
Nə pərdəsi, nə simiyik!
Bəlkə biz yaddaşı itən
Füzuliyik, Nəsimiyik?!

Kim nə bilir, bəlkə elə
Üzü üzlər görən üzük...
Tüstüsü ərşə dirənən
Sabir, Cəlil bəlkə bizik?

Nə vaxt cavab tapasıyıq
İntəhasız bəlkələrə?
Ağrı bizi çilikləyib,
Səpələyib ölkələrə...

**13.05.2022**

***

Günəş baxıb qımışdı,
Bəbəklərim qamaşdı...

***

Olmasaydı al günəşin gur işığı,
Açılmazdı təbiətin qırışığı..

## NƏ BİLİM

– Mənə qismət olacaqmı
Gəlinlik donu?
– Nə bilim.
– Nə vaxtsa açılacaqmı
Qəlbinin donu?
– Nə bilim.

– Üstümə göz yaşı çilə,
Bəlkə yenə döndüm gülə,
Nə vaxt bitəcək bu çillə? –
– Mən yazıq onu nə bilim.

– Sənsiz yaşamaq zülümdü,
Bəyaz saçların külümdü,
Həyatın sonu ölümdü,
Ölümün sonu?
– Nə bilim...

**03.09.2022**

## ADAMI OLMAYAN ADAM

Deyirsən: – Adamım yoxdu,
Qapı dalında qalmışam...
Adamlığı olmayanın
Qulu, nökəri olmuşam.

Ev verdilər bəhmənkəsə,
Ad verdilər filankəsə.
Niyə mən qaldım kənarda? –
Oy, nə qədər uman, küsən...

Addımbaşı, qədəmbaşı
Namərd kül üfürür gözə.
Xoşbəxtliyə gedən yollar,
Dolamadır, deyil kəsə....

Adamın olmasa əgər,
Bəxtin gülərmi üzünə? –
Haqsızlığa boyun əyib,
Toxtaqlıq vermə özünə...

Həyatın ah-ufla keçir,
Ağlayırsan, zarıyırsan.
Hərəkət olmayan yerdə
Bərəkətmi arayırsan?

Səni adam sayarlarmı
Namərd önündə əyilsən?
“Adamım yoxdu” söyləmə,
Bəs özün adam deyilsən?

Təzə nırxlamı işləsin
İndən belə köhnə bazar?
Sözümə məhəl qoymursan,
Tükənməyir giley-güzar;

Deyirsən: “Bu haqsızlığı
Göydə olan kişi görmür?” –
Adamı olmayan adam,
Allah bəndə işi görmür...

**17.07.2022**

## TANRI ÖZÜ SEÇİB BİZİ

Elə danışırlar, guya
Karvanımız keçib bizim.
Bu dünyanın gözəlliyi
Ömrümüzə köçüb bizim.
Eynək kömək eləyərmi
Bəsirət gözü bağlıya? –
Seçmirsiniz, heç seçməyin,
Tanrı özü seçib bizi...

**2021**

***

Üşüyən könülləri
Tanrı özü isidər,
Rahat yaşamaq üçün
iman nuru bəs edər...
Dünya necə gözəldi,
ağlım çıxıb başımdan
Çiçəklər pıçıldayır:
– Şair, tez gəl, bizi dər!

**2021**

## FRANSIZ ƏTRİ NƏ GƏRƏK...

Qorxum yoxdu xəbislərdən, –
İçim duru, çölüm duru,
Ürəklərdən keçənləri
Mən gözlərdən oxuyanam.
Dönüb sehrli zirehə
Qəlbimdəki iman nuru, –
Üstümə yay çəkənlərin
Hər an gedib oxu yana...

Heç bilmirəm nə söyləyim
Bədxahların insafına?!
Bulanıq sellər neyləyər
Dünyanın qəlbi safına?
Anamın laylası məni
Döndərib söz sərrafına,
Bu da belə bir taleydi, –
Sözdən xalı toxuyanam...

Dağların saf, təmiz suyu
Axıb qarışıb qanıma,
Şeir - sənət bulağıyam,
Təşnələr gəlir yanıma,
Yamacların çiçək ətri
Gül ətri hopub canıma,
Fransız ətri nə gərək
Yovşan ətri qoxuyana?!

**04.01.2022**

## CAN ATIRAM UCALIĞA

Qoşulmuşam cavanlara
can atıram ucalığa,
Yamaclarda çiçəkləri
gördükcə həvəslənirəm.
Bu da zirvə, heç bilmirəm
nə söyləyim qocalığa, –
Camaat gül-çiçək dərir,
mən isə nəfəs dərirəm...

**04.01.2022**

# MƏN DAĞLAR OĞLUYAM

Dənizi sevsəm də,
Mən dağlar oğluyam.
Əslimlə, kökümlə
Dağlara bağlıyam.

Şimşəyə çevrilib,
Göylərdə çaxıram.
Yağışa çevrilib
Yağıram, yağıram...

Həsrətdən çağlayır
Gözümün qorası.
Məkanım, oylağım
Dağ - dəniz arası.

Daşlara çırpılan
Dəli dağ seliyəm.
Sevgilim dənizin
Dərdindən dəliyəm.

Qoşulub yellərə
Zirvəyə qalxıram.
Qoşulub sellərə
Dənizə axıram...

Mən dəniz sevdalı
Bir dağlar oğluyam.
Əslimlə, kökümlə
Dağlara bağlıyam...

**11.12.2021**

## NABRAN MEŞƏLƏRİ

Nabran meşələrində
Oy, nə qədər ağac var.
Göyə meydan oxuyur
Elə bil ki, ağaclar...

Qosqoca palıdların
Gövdəsi cadar-cadar.
Belinə qol dolanmaz,
Boyuna boymu çatar?

Niyə parçalayıblar
Bu gözəl guşləri?
Hasarlar qayçı kimi
Doğrayıb meşələri...

Beləmi qoruyuruq
Yurdun təbiətini?
Burda axan çaylar da
Dəyişib öz səmtini...

Bu məcra dəyişənlər
Susuz qoyub dərəni...
Hara gedirəm, yolum
Hasarlara dirənir...

Dağa gözəllik verən
Dərələr, yamaclardı.
Meşəni meşə edən
Upuca ağaclardı...

Bu Nabran meşələri
Hamımıza gərəkdi...
Buludlar nəhəng çadır,
Hər palıd bir dirəkdi...

Nəsillər yola salan
Ulas sanma cavandı.
Palıd sanki buluda
Söykənən nərdivandı...

Bu nəhəng ağaclara
Heyranlıqla baxıram.
Gözlərimlə ən ucqar
Budaqlara qalxıram...

Deyirəm bəlkə ordan
Meşəni bütöv görəm...
Kərəm əhlində zər yox,
Zər əhlində yox kərəm...

Gözümə heç nə dəymir
Buludlardan o yana...
Görəsən bu yerlərin
Bəxti nə vaxt oyanar?

**20.08.2021**

## SƏSSİZ HARAY

Zaman quş kimi uçur,
Anlar, saniyələr tələsir...
Ağacların dibində payızdı,
budaqlarında yay...

Aşağı baxan yarpaqlar
qorxudan tir-tir əsir,
yerdəki xəzəlləri görüb
səssiz haray çəkir:
– Payız gəlir, ay haray...

**21.08.2021**

## PAYIZDA GÜL AÇAN AĞAC

Bu nə sevdadı düşmüsən,
Havamı sənə xoş gəlir?!
Payızda gül açan ağac,
Bilmirsən öndən qış gəlir?

Yarpağı saralan bağı
Çiçəklərlə bəzəyirsən.
Söz də tapmıram deməyə,
Sən də mənə bənzəyirsən...

**30.10.2021**

## MEŞƏ İLƏ ÜZ-ÜZƏYƏM

Meşə ilə üz-üzəyəm,
Payız gözlərimə köçür...
Kənardan baxan nə bilsin
Ürəyimdən nələr keçir?

Ağac yanır diri-diri,
Göz yaşları sarı, iri...
Zamanın dəlik xəlbiri
Hər şeyi ələyir, seçir...

Bu yol axirət yoludu,
Yağan yağış, ya doludu?
Elə bil payız buludu
Mənim gözümdən su içir...

Gileyim yox taleyimdən,
Əsən payız küləyindən.
Bir səs gəlir ürəyimdən:
Kim nə əkib, onu biçir...

Xəzəldisə sağım, solum,
Məndəmi saralım, solum?
Üzü qışa gedən yolum
Payızın içindən keçir...

**23.11.2021**

***

Xəzan yeli bir yarpaq da
Saxlamayıb budaqda.
İndiyəcən boş qalmayıb,
Bir yarpağın yeri də.
Köz ürəyi pörşələyir,
Söz titrəyir dodaqda, –
Bəndənin nə qüdrəti var
Öz hökmünü yeridə?!

**2021**

***

Bu gördüyüm mənzərə
gözəldi – qiyamətdi
İçimdəki sakitlik
kükrədi, qiyam etdi...

## QAR NAĞILI

Durub həsrətlə
Qara baxıram.
Bəyaz rəngdədi
Hara baxıram.

Gözlərim gülür,
Qəlbim alışır...
Elə bil göylər
Nağıl danışır.

Beçə veribdir
Sanki ağ arı.
Çöllər ağarır,
Düzlər ağarır...

Baxıram göydə
Uçan noğula.
Dünya çevrilib
Bəyaz nağıla.

Quşbaşı qara
Bir fikir verin.
Həyat bal kimi
Şirindir, şirin...

**20.01.2022**

## PAYIZLA QIŞ ARASINDA

Bahar çox uzaqda qalıb,
Ömrün qızmar yayı keçib...
Gəncliyin qaynar günləri
Xatirə dünyama köçüb...

Payızla vida vaxtıdı,
Əlim əlindən üzülüb...
Sübhün üşüyən şəbnəmi
Bəbəklərimə düzülüb...

Gülümsəyən qış günəşi
Qəlbimi isidə bilmir...
Öndə onu nə gözləyir? –
Heç adam özü də bilmir.

Həsrət kömürü közərir
Gözlərimin qarasında.
Düşüb sərgərdan qalmışam
Payızla qış arasında...

**23.01.2022**

## SÜSƏN VƏ MƏN

Səhərdən axtarıram,
Hayandasan,
Süsən, sən?
Hara getsəm qarşıma
Sən çıxırsan,
Bu sənsən?

Gah çəməndə olursan,
Gah səhrada bitirsən.
Həm gözəl, rəngbərəngsən,
Həm saçırsan ətir sən!

Ona görə arılar
Can atır sənə sarı.
Gah qırmızı olursan,
Gah mavi, gah da sarı.

Qəlbimizin sevinci,
Gözümüzün nurusan.
Ağ libas geyinəndə
Sanki quzey qarısan.

Çəmənlərin, çöllərin
Rəngbərəng işığısan.
Sən hər rəngdə olursan,
Sanki göyqurşağısan.

Bu qədər gözəlliyi
Yardana min əhsən!
Allahın yartdığı
Canlı bir abidəsən.

Kim laqeyd ötə bilər
Axı sənin qarşından?
Səni bir yol görənin
Huşu gedər başından.

Çox sevirsən yağışı,
Həyat verir su sənə.
Günəş öpür üzündən,
Çevrilirsən süsənə...

Qoxlayıram ətrini,
Danışan mən, susan sən.
Niyə cavab vermirsən
Sözlərimə, Süsən, sən?

Gözəllik aşiqiyəm,
Xoş gəlmirmi bu sənə?
Canımı da verərdim
Sənin bircə busənə...

**23.01.2022**

## GÖZƏLLİKLƏR GÖRƏNİNDİ

Yormaz bizi eniş, yoxuş,
Sevgi qəlbə salar naxış,
Zirvələrə yağan yağış
Selə dönsə, dərənindi.

İşığa möhtacdı meşə,
Çiçək can atar günəşə,
Ətir saçan tər bənövşə
Qoxlayanın, dərənindi.

Baxmaq ilə gözmü doyar?
Məni həsrət çəkən duyar,
Bizsiz qalan ulu diyar
Nə düşünür görən indi?

Suyun lal axanından qorx,
Qayıtmaz yaydan çıxan ox,
Gözəlliklər baxanın yox,
Görənindi, görənindi...

**24.09.2022**

***

Gözəllikdən məst olmuşam,
Seyr etməkdən doymuram.
Pilləkəndə çiçək bitib,
Tapdamağa qıymıram...

Tikan olsa, ayaqyalın
Mən qalxardım yuxarı. –
Sən demə belə olurmuş
Ayrılığın axırı...

**02.08.2022**
**Nabran**

## DAMLALAR

Təşnə üçün neyləsin
Bir qətrə –
bir damla su?
Bərəkətdi, ruzidi
Yağışın hər damlası...

Şimşəklər şaxələnib,
Göy üzü damar-damar,
Hönkürər ulu göylər,
Buluddan damcı damar.

Kiçik-kiçik damlalar,
Göl olar dama-dama...
İlahi mənzərələr
Gəl-gəl deyər adama...

Sol gözümdən düşən şeh
Can atar sağ gözümə...
Bəbəklərim təşnədi, –
Buludu sağ gözümə.

Tez gəl, verib baş-başa,
Təslim olaq yağışa...
Həsrətli damcılar tək
Gəl birləşək, qovuşaq...

Damlalar birləşməsə,
Sel olarmı, əzizim?
Adamlar birləşməsə,
El olarmı, əzizim?

**07.06.2022**

## QUYRUQ DOĞANDAN SONRA

Yer Günəş ətrafında
Gecə-gündüz fırlanır.
Gah o üzü nurlanır,
Gah bu üzü nurlanır.

Bu əbədi fırlanış,
Bu əbədı hərəkət,
Ələyir Yer üzünə
Hər an xeyir-bərəkət.

Həmişə Quyruq doğur
Yayın tən yarısında.
Onun da öz yeri var
Ulduzlar sırasında...

Elə ki, "Quyruq doğdu",
Havalar da dəyişir.
Hərarəti azalır
Sanki göydə Günəşin...

Küpələrdə donursa,
Ərimiş quyruq yağı,
Gərək hazırlaşasan
Tərk etməkçün yaylağı.

Quyruqlu ulduza bax,
Şəfəqi sarı-sarı.
Heyvanlar gecə yatır
Üzü arana sarı...

Quyruq doğandan sonra
Çəmənlərə düşür şeh.
Payızdan soraq verir
Ara-sıra əsən meh.

Hər an dəqiq işləyən
Bir mizan-tərəzi var.
Allahın yaratdığı
Dünyanın əvəzi var?

Fəsillər bir-birini
Qovur köhlən at kimi
Kainat gecə-gündüz
İşləyir saat kimi.

Yer hər an asılıdır
Göylərin yağışından,
Günəşin duruşundan,
Ulduzun baxışından...

**15.08.2022**

# ZAMAN HAQDA DÜŞÜNCƏLƏR

***

Bir “ol” sözüylə
hərəkətə gələn Kainat
Öz əbədi-əzəli gərdişindədi...
Yel qandlı zaman
yenə də öz işindədi...
İndi sakit olduğuma baxma,
uşaq vaxtı çox dəcəl,
çox kür idim...
Dağ selləri tək bulanıq,
ancaq gur idim...
Keçdiyim yollar
yadıma düşüncə,
Mənə rahatlıq vermir
fikir, düşüncə...
Açmağa kim qadirdi axı
sirlər xəzinəsinin
ağzına vurulan kilidi?
Hərdən elə sanıram ki,
Dünyanın saatı günəş,
Yer isə onun kəfkiridi...
Yavaş-yavaş
Yaradanın böyüklüyünü
dərk eləyib,
büzüşdüm,
susdum,
kiridim...

**14.03.2022**

## ÖMÜR KİTABININ CİLDİ

İnsan ixtiyar çağında
ömür kitabını
gizlicə-gizlicə
varaqlayır...
Bir zaman
"Beşdaş" oynayan uşaq
İndi o kitabın cıldi üçün
baş daşı soraqlayır...

**2022**

## XATİRƏ KÖRPÜLƏRİ

Qocaların üzünə qırış,
qəlbinə çat salıb
Həyatın zərbələri...
Xoşbəxt günlərini
geri qaytarmaq
istəyirlər onlar
şirin xəyallara dalıb...
Geri dönmək üçün isə
bircə yol var –
Xatirə körpüləri;
O da yaddaşın
ümidinə qalıb...

**06.01.2022**

## YER VƏ GÖY

Taleyimiz bir qüdrətli
Qələm ilə yazılıdı.
Yerlik bir şey yoxdu, bala,
Yer də göydən asılıdı...

**12.01.2022**

## DURNA ÇIRAĞI

Nə olsun ki, uzaqdayam,
Gözdən, könüldən irağam.
Gecə uçan durnalara
Yol göstərən bir çırağam...

**14.03.2022**

***

Özü biləni edirsə,
Neyləyir öyüdü dünya?
Gözə bəxşişmi yaradıb
Salxımlı söyüdü dünya?

Yollarda qoyub gözünü,
Ocaq eləyib közünü,
İki etməz bir sözünü, –
Şairin nəyidi dünya?

Gözəlliyə aşiq idi,
Gözümüzdə işıq idi,
Uşaq vaxtı uşaq idi,
Bizimlə böyüdü dünya...

Ot göyərdir yağış ilə,
Bizi qorxudur qış ilə,
Bir sevdalı baxış ilə
Ağrını keyidir dünya...

Yoxdu çörəyinin duzu,
Hamı tənbəl, hamı mızı,
Dəyirman tək hamımızı
Dən kimi üyüdür dünya...

**6.03.2022**

***

Ömür köhnə cəhrədə
İplik kimi əyrilər.
Təmizlikdən dəm vurar
Bütün əli əyrilər.

Kobud gülər zərifə,
Gül həsrətdi tərifə,
Baxmaz kasıb tərəfə
Bu "hurilər, pərilər".

Paralanıb ürəklər,
Solub arzu-diləklər,
Qönçələyən çiçəklər
Yad əllərlə dərilər.

İlan yalmanıb baxar,
Tez-tez qabıqdan çıxar,
Dişindən zəhər axar,
Dəyişsə də dərilər.

Dərd qəlbi bölüb gedib,
Gör kimlər gəlib-gedib?
Ölənlər ölüb gedib,
Zillət çəkir dirilər.

İşini bilər dünya,
Nadana gülər dünya,
Ölənlə ölər dünya,
Dirilənlə dirilər...

**03.08.2022**
**Nabran**

## AĞLAYIR

Ləçəklərinə şeh düşən
Bir qərib çiçək ağlayır...
Yay gecəsi nalə çəkib,
Elə bil sisəy ağlayır...

Nə istəyirsən, bacar, al,
Qalibə dönür bacaran,
Fürsəti əldən qaçıran
Bu fərsiz, bu səy ağlayır.

Qısa olur ömrü yazın,
Xatirə oduna qızın,
Əhdə dönük olan qızın
Üzündə busə ağlayır...

Kim qalsın qışın dərdinə,
Yuvasız quşun dərdinə?

Ay aman, daşın dərdinə
Tapdanmış kəsək ağlayır...

Ümidim məni qoruyub,
Həsrət qocalıb, qarıyib,
Gözümün yaşı quruyub,
Köksümdə ürək ağlayır....

**24.12.2021**

## QADİR İMİŞ

Şəhəri, kəndi dağıdan
Yellər nəyə qadir imiş!
Bərəni, bəndi dağıdan
Sellər nəyə qadir imiş!

Su axıb dolar çuxura,
Kim baxır gəlir-çıxara?!
Yuvadan ilan çıxaran
Dillər nəyə qadir imiş!

Dünya dönüb çəmənzara,
Çiçəkdi baxırsan hara,
Huşumu başdan aparan
Güllər nəyə qadir imiş!

Kəsəyi daşa döndərən,
Qurunu yaşa döndərən,
Dəmiri quşa döndərən,
Əllər nəyə qadir imiş!

Düz işi haça eləyən,
Alçağı uca eləyən,
Cavanı qoca eləyən
İllər nəyə qadir imiş!

**07.05.2022**

## APARIR

Yol bizi kimin toyuna,
Kimin vayına aparır.
Dar ayaqda tənha qalan
Dostun hayına aparır...

Qərq eləsə sellər bizi,
Qınamazmı ellər bizi?
Bu görünməz illər bizi
Axı hayana aparır?

Ötən günə salma meyil,
Geri dönmək mümkün deyil,
Gələn hər gün, hər ay, hər il
Bizi o yana aparır...

**15.05.2022**

## OLMAZ

Yaz dalınca uçub getsəm,
Heç yerdə vətənim olmaz.
Şeyda bülbül tək ötməsəm,
Suyum olmaz, dənim olmaz.

Dərdi buraxsa yaxına,
Kim dözər qəlbin ahına?!
Dönməsəm sənət dağına
Nə duman, nə çənim olmaz.

Nələr dedik, daşa nələr? –
Gələcəkmiş başa nələr?
Uca-uca kaşanələr
Sənin olar, mənim olmaz?

Yaxşı-yaxşı bax çevrənə,
Astarını çevir önə!
Haqqa arxa çevirənə
Haqqın özü qənim olmaz?!

**05.06.2022**

## VAR

Hər kəsin alın yazısı,
Hər kəsin bir qədəri var...
Bu get-gəllər dünyasının
Qəzası var, qədəri var.

Hər çəməndə gəzmək olmur,
Hər çiçəyi üzmək olmur,
Ağrılara dözmək olmur,
Dərdin də bir qədəri var...

Zaman hamını ələyir,
İşi uzundu fələyin,
Yarpaq tək əsən ürəyin
Sevinci var, kədəri var.

Ruhu olmaz can güdənin,
Köksüm həsrətlər mədəni,
Nə özü gəlir gedənin,
Nə də xəbər-ətəri var...

Öyrəşmişik qəm yükünə,
Ağrıların cəm yükünə,
Şükürlər olsun bu günə,
Hələ bundan betəri var...

Kədər düşübdür izimə,
Dərd qırış salıb üzümə,
Dünyadan əlini üzmə, –
Hər gecənin səhəri var...

**06.06.2022**

## GÜNAH QALIR

Biz köçsək də, yerimizdə
Oğul qalır, uşaq qalır.
Elə sanma ki, dünyada
Kasıblar ölür, şah qalır.

Kamil olan kama yetir,
Köksümüzdə ağrı bitir,
Neçə bizli dünən itir,
Neçə bizsiz sabah qalır.

Yaşa, ləyaqətlə yaşa,
Ölüm baxmır, pula, yaşa,
Gec-tez çatır ömür başa,
Ağrılar keçir, ah qalır.

Doğmaları başına yığ,
Durub baxma yazıq-yazıq,
Şair, nəfsinə sahib çıx,
Hər şey ölür, günah qalır...

**01.09.2022**

## ÖMÜR BİR GÖZ QIRPIMI

Zaman sel kimi axır,
Zaman yel kimi uçur.
Ümid budaqlarında
Arzular puçur-puçur...

Ocaqda yanan ağac
Bilirsən nələr çəkir?
Özü işıq saçsa da,
Gözünə zülmət çökür...

Nəhəng, iri gırdına
Tay eləmə çırpını...
Alovların qoynunda
Çırtıldayır, çırpınır...

Arzular ocağında
Elə biz də yanırıq,
Soyuğun qarşısında
Elə biz dayanırıq.

Özgələri isidib,
Çevrilirik kömürə.
Ancaq çox vəfasızdı,
Nə deyim bu ömürə?

İnsan əcəl torunda
Balıq kimi çırpınır...
Arzular nəhayətsiz,
Ömür bir göz qırpımı...

**25.02.2022**

***

Zaman boz külə döndərir,
Közü qocalda-qocalda.
Dünya hər gün cavanlaşır
Bizi qocalda-qocalda...

**2022**

## DÖVLƏT TÜKÜ

Başımda ilk ağ tük görəndə
“Ürəyini sıxma,
dövlət tüküdü”, – demişdilər...
Qamətim əyiləndə
“Qəddini əyən həsrət
yüküdü”, – demişdilər.
Daha sevgi köhlənini
hara gəldi çapa bilməzsən
Gündən-günə artsa da sərvətin.
İndi saçımda bir qara tük də
tapa bilməzsən,
indi dünyanın
ən zəngin adamıyam, –
qocalıqdı var-dövlətim...

**08.09.2021**

## ÇƏLİK

Bu dünyadan
çox şey umurduq,
Arzularımız,
ona bağlı ümidlərimiz
çilik-çilik oldu...
Qismətimizə düşən qocalıq,
Dayağımıza dönən
çəlik oldu...
Ancaq bu günümüzə görə
Taleyimizə şükür edirik...
Xatirələr də çəlik kimidi, –
Ona söykənib,
gələcəyə gedirik...

**13.05.2022**

## TEZ BÖYÜMƏK İSTƏYƏN UŞAQLARA

Əziz bala, tez böyümək
haqqında düşünmə,
get öz uşaqlığını yaşa!
Get çəməndə kərənək qov,
Get dırman dağa-daşa.
Özünü böyük
göstərməyə çalışma,
böyüklərin işinə qarışma,
yekə-yekə danışma...
Qocalar da oynamaq,
əylənmək istəyirlər,
Onların hər biri elə bil çağadır.
Qocalar yaxşı bilirlər ki,
Uşqlıq ömrün ən gözəl,

ən xoşbəxt çağıdır...
Bir zaman onlar da
tez böyümək arzularını
kəfən eləyiblər uşaqlıq illərinə...
Ömrün ən gözəl günlərini
Veriblər zamanın yellərinə...
Bəsdir tez böyümək arzusuyla
bu qədər xəyyallara daldın sən!
Biz böyüdük ağzımız bala çatdı,
qaldın sən...

**05.12.2021**

***

Bilmirəm kim kimdir,
Bilmirəm nə nədir?
Dünənki uşaqlar
Babadır, nənədir...

***

Bax budaqda titrəyən yarpaqların rənginə,
Vıyıldayan küləklər dönür əcəl zənginə...
Döşünüzə döyməyin, dünya öz işindədir,
Varlı dönür səfilə, səfil dönür zənginə...

***

Hamı süvar olacaq bir gün əcəl atına,
Yer üstündə olanlar köçəcək yer altına.
İnsan gərək heç zaman unutmaya bunları:
Etibar yox dövlətə, vara, pula, altuna...

***

Qönçənin arzusu gül olmaq imiş,
Dumanın niyyəti tül olmaq imiş
Sönməyin kömür tək qaralmağı var,
Yanmağın axırı kül olmaq imiş...

**2021**

***

Hikmətli bir sual var
Kim yatmış,
kim oyaqdı?
Ayaqları titrəyən
ixtiyar qocalara
Xatirələr dayaqdı...

**2022**

***

İllərin arxasında
qoyub gəlmişəm
Yarpaqları
xəzələ dönən
gəncliyimi.
İçimdəki payızla
çölümdəki payız
əl-ələ verib
əlimdən alıb
rahatlığımı,
dincliyimi...

**28.10.2022**

***

Quyu su tökməklə dolmaz,
Qeyrət mərdin içindədi.
Səbr eləyən, duyan üçün
Dərman dərdin içindədi..

**2022**

***

Həsrətə dözməyən ürək
Heç bilirsən nələr çəkdi?
Bu dünyada bir yerdəyik,
O dünyada hamı təkdi...

**2022**

***

Bu dünya xali deyil,
Yer üzündə adam çoxdu:
Ancaq təəssüf ki,
Adam olanın adamı,
Adamı olanın
adamlığı yoxdu...

**2022**

## HƏYAT DAVAM EDİR

Gözlərinə dolan
bir damla nurun qədrini
Dünya işığına
həsrət qalan bilər.
Yaşamağın ləzzətini, dadını
gözəllikdən zövq alan bilər.
İnsan öz zəkası ilə
ən çoşqun çayları belə
ram edir,
Cəhalətin zülmətini
əritsin deyə
ömrünü şam edir...
Həmişə həyatdan
giley-güzarı
aqil yox,
avam edir...

Hələ də çiçəklər açırsa,
Hələ də çəmənlərin üstündə
Arılar, kəpənəklər uçursa,
Göylərdə şimşək çaxırsa,
Yağış yağırsa,
Sellər, sülar axırsa,
Ay Yerin,
Yer günün
başına fırlanırsa,
Dünyamız sehrli şəfəqlərlə
nurlanırsa,
Yovşanlı düzlər
ətir qoxuyursa,
Quşlar göyə,
sevgi ürəyə
meydan oxuyursa,
Çox şükür, deməli,
Həyat davam edir...

**01.08.2022**
**Nabran**

*******

Bu dünyada sevinc var, əzab var,
O dünyada isə haqq-hesab var...

*******

İstedadın yoxsa gendə,
Gərək dayanasan gendə...

*******

Yeyəcəyi olmayanın,
Deyəcəyi çox olur.
Keçmişinə daş atanın,
Gələcəyi yox olur...

**2022**

# HAQSIZLIĞA GÖR QAZIRAM

## SÖZÜN DÜZÜ

Aləm bir-birinə dəyir
Deyəndə sözün düzünü.
Hamı düşmənə çevrilir,
Hamı döndərir üzünü...

**12.01.2022**

***

Haqq-ədalət döyüşünə
Uşaqlıqdan mən hazıram.
Qırx ildi ki, qələmimlə
Haqsızlığa gor qazıram...

***

Duru suyu bulandırar,
Namərd etməz dərdə dəva.
Danışdıqca yava-yava,
Zəhərlənər təmiz hava.

Hər işə bir qulp qoyular?
Hər işdən qazanc güdülər?
Olmasa gədə-güdələr,
Nə eşq, nə ömür gödələr...

**29.10.2021**

***

Bu dünyanın fitnəsindən,
felindən qaça bilməzsən.
Mənə xəyanət eləsən,
əlimdən qaça bilməzsən.
Güvənmə var-dövlətinə,
lovğalanma vəzifənlə,
Hər şeydən qaça bilsən də,
ölümdən qaça bilməzsən...

**12.12.2021**

## QAÇIB

Canavar diş şaqqıldadır,
Hara getsin quzu qaçıb?
Üzdən işıqlı təbəssüm,
Ürəklərdən arzu qaçıb...

Dünya bir tozlu aynadır,
Fələk qurğuşun qaynadır,
Niyə haram at oynadır,
Niyə halal ruzi qaçıb?

Ömür – bir qısa baytı,
Qəlbdə ağrılar boy atır,
Elə bil indi həyatın,
Yaşamağın duzu qaçıb...

**23.12.2021**

***

Bizim halal malımıza
Haramzadə yiyə çıxıb.
Yerdə ona yer qalmayıb,
Haqq-ədalət göyə çıxıb...

**2022**

## KİŞİ KİŞİ OLSA

Kişi kişi olsa,
qadın sevgisizlikdən,
diqqətsizlikdən
çiçək kimi
saralıb solmazdı.
Kişi kişi olsa,
"Qadın hüquqlarını
müdafiə cəmiyyəti"
yaratmağa da
ehtiyac qalmazdı…

**18.07.2021**

***

Həmişə duru suyu
bulandırmağa,
Qatıb-qarışdırmağa çalışır
Zatıqırıq,
"qanıqarışıq" olanlar...
Həmişə saflığa,
duruluğa can atır
Qəlbində işıq olanlar...

**14.10. 2021**

## GÖRDÜNMÜ

Sən bu dünyada
Təmənnalı insanları
Etibarlı gördünmü?
Sən bu dünyada
Dünya malına hərisi

Vüqarlı gördünmü?
Sən bu dünyada
acam deyən yoxsul,
toxam deyən
varlı gördünmü?

**15.05.2022**

***

Kimdi axı
əmin-amanlıq istəyən?
Kimdi axı
dalaşanları barışdıran?
Dünyanın hər yerində
"sülhmərəmlı"
çömçəsi deyilmi
Müharıbə qazanını
qarışdıran?...

**06.01.2022**

***

Görəsən insanlar
nə vaxt sağalacaq
"mənəm-mənəmlik",
"mənim-mənimlik"
azarından?
Görəsən gözəlliyi
xilas edən tapılacaqmı
harın məmurların
hasarından?

**16.07.2022**

***

Dünyanın işı fırıqdı,
Kimsə bilmir niyəsini.
Ehtiyaclar daşa çəkib,
İtiləyir tiyəsini.
Qoca şirlər unudulub,
Çaqqallar meydan sulayır,
Canavarla həvirləşən
İt tanımır yiyəsini...

**24.12.2021**

***

Dünyada namərdlər
meydan sulayır,
Pələng yuvasında
çaqqal ulayır...

**2022**

***

Haqq, ədalət tələb etmə
Hər işdə xeyir güdəndən...
Hamı bilir ki, ayrıdı
Can candan, bədən bədəndən...

Daşın, kəsəyin öz yeri,
Qayanın qaya yeri var.
Haqqıma göz dikənlərin
Başında paya yeri var...

**03.05.2022**

***

Aqillə cahilin arası sərindır,
İlahi kəlamın mənası dərindir.
Özündən, sözündən çıxmağı yığışdır,
Səbr özü çox acı, bəhrəsi şirindir...

**02.02.2022**

***

– Kəsməmişəm nə suyunu, nə dənini?
Kəsilibdir bülbülümün nədən ünü?
– Onun kimi qəfəslərə düşsən əgər,
Bəlkə onda anlayasan "nədən"ini?

**7.03.2022**

## AY CAN. AY CAN

"Düşdü bütün qəzetlər hörmətdən, ay can, ay can!
Xəlqin canı qutardı töhmətdən, ay can, ay can!"

**M.Ə.Sabir**

Hərislik ürəklərdə qurubdur isti yuva,
Namərdə döndərmişik biz mərdi qova-qova,
Kim ağzına nə gəlir danışır yava-yava,
Xalqın başı ayılmır qiybətdən, ay can, ay can!
"Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!"

Haram meydan sulayır indi "Halal" adında,
Yağ deyil yağ dadında, bal deyil bal dadında,
Babəklər, Koroğlular, Nəbilər övladında
Yoxdur əsər-əlamət cürətdən, ay can, ay can!
Kimsəyə pay verilməz qeyrətdən, ay can, ay can!

İşi rahlamaq üçün bir yol axtarır hərə,
Mırıldayan köpəklər qalıbdır hürə-hürə,
Yaxşıca öyrətmişik biz xalqı “dinmə, ver”ə,
Villalar ucaldırıq rüşvətdən, ay can, ay can!
Zərəcə qorxumuz yox millətdən, ay can, ay can!

Zalımlara yalmanır məzlumlar qorxa-qorxa,
Doğru söz deyənlərə hamı çevirir arxa,
Qiymətlərin hamısı vurubdur kəllə-çarxa,
Bircə insanlıq düşüb qiymətdən, ay can, ay can!
Saldıq ziyalıları hörmətdən, ay can, ay can!

Qəzet köşkü çevrilb xırdavat bazarına,
Nə xeyri yazılanın elin dərd-azarına?
Baş əyirəm Sabirin nigaran məzarına:
“Ayılmayın ölüncə lənətdən, ay can, ay can!
Düşdü bütün qəzetlər qiymətdən, ay can, ay can!”

**08.01.2022**

## DOSTLAR ARASINDAYMIŞ

Tolstoyvari

Çətin ki, üzü qışa gedən ömrüm yaz olsun,
Dost kimdi, düşmən kimdi? – Ömür keçib yarıdan...
Allaha yalvardım ki, düşmənlərim azalsın, –
Əziz sandığım dostlar bir-bir çıxdı aradan.

Əsla layiq deyilmiş çoxları məhəbbətə,
Simsar çıxır qəhədə, bəs neyləyim indi mən?
Doğrusu mat qalmışam bu acı həqiqətə, –
Dostlar arasındaymış düşmənlərim sən demə...

**08.08.2022**

## "İLK ÖNCƏ"

Şeirli, nəğməli dilim
Bir zaman çox incə olub.
İndi sözün əvvəli də,
Sonu da "ilk öncə" olub...

Elə bil ki, güvə düşüb,
Sehrli söz xalçamıza...
Alaq otları darışıb,
Bizim sənət bağçamıza.

Yerli-yersiz kəlmələrlə
Qaraltmayaq qanımızı,
Bu "ilk öncə"dən qurtaraq,
Biz, "ilk öncə", canımızı...

**21.04.2022**

***

Döşünə döyənlərin
içi yaman göynəyir,
Yerə çırpıb sındırdıq
biz onların bütünü...
"Kölgəmi qılınclama"
deyənlərə söyləyin:
Qılıncla kim öldürər
axı taxtabitini?

**16.01.2022**

***

Hürə-hürə it olub
Gözümün qabağında.
Utanmır söz söyləyir
Sözümün qabağında...

***

Bu bədbəxt uğuru
nə qəbul edə bilir,
nə dana...
Söz anlatmaq
çətin məsələdi
nadana...

**16.01.2022**

## SANDIQ

İçində heç nə yox imiş,
Ay naxışlı köhnə sandıq...
Açarını tapanacan
Biz səni xəzinə sandıq...

**11.05.2022**

***

Bizi adam saymayan
Harın oğlu harındı...
Bu vətən onlar üçün
Bir cibdi, bir qarındı...

**2022**

***

Bir ayağı burdasan,
Bir ayağı gordasan.
Sözün kəsərdən düşüb,
Elə bil ki, gordasan...

**16.11.2021**

***

Öz qoynunda bəslədiyin
İllər ötür şahmar çıxır.
Doğruları sıxıb küncə,
Oğrulara qahmar çıxır.

**2021**

***

Deyəsən adamların
Başına gəlib hava.
Qəlbi xıltlı olanlar
Danışır yava-yava...

Görən bu ağızlara
Murdar söz hardan dolub?
Ən görkəmli adamlar
Təhqir ünvanı olub...

Axı yanan ocağın
Nə vaxtsa sönməyi var.
Söyüşün bumeranq tək
Geriyə dönməyi var.

Bələd olacaqsınız
Ədalətin zoruna.
Söyün, söyün, söydürün
Nəslinizin goruna...

**17.10.2022**

## QOZBEL VAR, QOZBEL VAR

Aqillər bizə öyrədib:
“Hər işi səbir düzəldər”.
Atalar belə söyləyib:
“Qozbeli qəbir düzəldər”.

Düşməni dosta çevirən
Kəsdiyi duz-çörək olar.
Ancaq qozbel var, qozbel var,
Hərəsi bir cürə olar...

Hərdən insan da yanılır,
Son kəlməni zaman deyir.
Qozbel var qəbir düzəldir,
Qozbel var qəbiri əyir...

**16.01.2022**

*******

Hərənin bir bəhanəsi,
Hərənin bir mahnası var.
Hər ürəyin öz əzabı,
Hər qəlbin öz mahnısı var....

# HƏR YAŞIN ÖZ SEVGİSİ VAR

## BİR SEVGİ DASTANI
## BİTDİMİ YOXSA

Yayın istisində soyuq qar yağıb,
Sevgi cığırını örtdümü yoxsa?
Bağbanı olduğum eşq gülşənindən
Pozmaq istəyirsən rəddimi yoxsa?

Qəlbim istəyənə yetmədi əlim,
Eşqimin yanında qısadır dilim,
Ömür yollarında büküldü belim,
Sevgi düzəldəcək qəddimi yoxsa?

Çətin ki, əriyə həsrətin buzu,
Səpirsən yarama bəmbəyaz duzu,
Mələyə-mələyə qalıb bir quzu,
Günahkar qurddumu, itdimi yoxsa?!

Məcnun tək dolandım quru çölləri,
Soldurdu gülümü xəzan yelləri,
Dərələrdən keçən sevgi selləri
Həsrət səhrasında itdimi yoxsa?

Sanma ki, şairin sözü süngüdü,
Kimi tapacaqsan indi sən gedib,
Qaynar bir ocağın odu səngidi,
Ayrılıq məqamı yetdimi yoxsa?

Həmişə ilk bahar nəfəsli idim,
Havasız qalana nəfəslik idim,
Gül-çiçək əkməyə həvəsli idim,
Qəlbində tikanlar bitdimi yoxsa?

Uydurma saraylar qaldı xaraba,
Sevdalı bir ömür döndü səraba,
Sevgi günəşimiz enir qüruba,
Haraya çağırım cəddimi yoxsa?
Bir sevgi dastanı bitdimi yoxsa?!

**16.06.2021**

## SEVGİ DƏNİZİ

Yanıma sehrli qayıqlar üzür,
Sevgi dənizində adamıyam mən?
Köksümə sıxıram göyü, dənizi
Dünyanın ən xoşbəxt adamıyam mən.

İmanla açmışıq neçə düyünü,
Hifz edib eşq dərddən, yaradan bizi.
Duyuruq dünyanın gözəlliyini,
Xoşbəxt yaradıbdır Yaradan bizi!

Sevgiyə möhtacdı dünyada hamı,
Günəşin başına fırlanır cahan.
Sevgidir dünyanın ləzzəti, tamı,
Sevgi işığıyla nurlanar cahan...

Ürək saf olanda durudur, duru
Hamının yanında üzü ağ olur.
Qəlbinə düşəndə sevginin nuru,
İnsan riyalardan çox uzaq olur.

Sənin bəbəyində mən öz əksimə,
Baxanda gözlərim dolur sevgidən.
Həsrət dalğaları qaya köksümə
Dəyib çilik-çilik olur sevgidən...

Gözəllik önündə titrəyən ürək
Dönüb bir qəvvasa üzər dərinə.
Dənizdə həsrətli sevgililər tək
Dalğalar sarılar biri-birinə...

Hopmaq istəyirəm təşnə canına, –
Qəlbimdən keçəni duyur yağışlar...
Şərikmi qəlbimin həyəcanına? –
Ötən sevgiləri yuyur yağışlar.

Gülür, şəfəq saçır sevgidən üzün,
Səndən əl üzmərəm dünya dağıla!
Coşub kükrədikcə sevgi dənizi,
Dönür həyatımız bəyaz nağıla...

Yanıma sehrli qayıqlar üzür,
Sevgi dənizində adamıyam mən?
Köksümə sıxıram göyü, dənizi
Dünyanın ən xoşbəxt adamıyam mən.

**31.12.2021**

## ADAM SEVMƏYƏNDƏ

Sevgisiz kainat zülmətə dönür,
Sevib-sevilməyin yoxdu əvəzi.
Adam sevməyəndə ulduzlar sönür,
Sanki bərq vurmağa qalmır həvəsi...

Sevgi tez böyüdür körpə uşağı,
Elə bil adamın gözü açılır.
Qəlbə düşən kimi sevgi işığı
Üşüyən qəlbin də buzu açılır...

Dünyada nə var ki, sevgi gücündə?
Nə olsun qar yağır, hava soyuqdu,
Əgər nur saçırsa sevgi içində,
Çöldəki havanın qorxusu yoxdu...

Sevməkdir hamının dərdi-azarı,
Gül solur, harda ki, hava, su çatmır.
Adam sevməyəndə hava bozarır,
Sanki ürəyin də havası çatmır...

**20.01.2022**

## SƏNİ GÖRÜRƏM

Onsuz da heç nəyin yoxdu axırı, –
İnsan öz-özünə niyə zülm edir?
Sənin təbəssümün işığa dönüb,
Əridir içimdə qara zülməti...

Məni göz açmağa qoymur sitəmlər,
Dağların başında çəni görürəm.
Gözümü açanda bomboz dünyanı,
Gözümü yumanda səni görürəm...

**21.04.2022**

*******

Qismətimə bu ömür-gün yazılıb,
İncidən sən, inciyən mən, küsən sən.
Çevrilmisən bir sərsəri küləyə,
Gah o yana, gah bu yana əsən sən.

Zülmət çökər eşq ocağı sönəndə,
Həsrət odu közərmirmi sinəndə?
Eşqin dərin quyusuna enəndə
Ümidimin kəndirini kəsən sən.

Günəş çıxır, bələnibdir dağ zərə,
Göz oxşayır bu ilahi mənzərə,
Gül-çıçəklə süslənibdir dağ, dərə,
Vızıldayan arı mənəm, süsən sən.

Tanrı özü yetişərsə köməyə,
Zaval yoxdu sünbül tutan zəmiyə,
Nə var axı  bir xoş kəlmə deməyə?
Ömrüm boyu danışan mən, susan sən.

Köksündən su paqqıldayır bu dağın,
Bizi hara aparacaq bu axın?
Dur daşı tök ətəyindən, gəl yaxın,
Mən torpağam, eşqimiz nur, susan sən.

Təbəssümün şəfəq saçır üzümə,
Qahmar çıxır sönən sevda közümə,
Ömrüm-günüm, inanmıram gözümə,
Bu sənsənmi, bu sənsənmi, bu sənsən?

**11.10.2022**

***

Şərə qahmar çıxana mən necə dindar deyim?
Bizi yardan edənə indi dönüb yar deyim?

Nəfəsiylə son ümid yarpağımı soldurana,
Tozanaq qaldırana bəs necə  bahar deyim?

Nur alıbdır elə bil ayrılığın rəngindən,
Həsrətimdən saralan heyvalara  nar deyim?

Onu tutcaq alışır, pörşələnir sanki əlim, –
O soyuq əllərə mən söylə necə  qar deyim?

Baxışyla içimi sevgi ilə doldurana,
Məni xoşbəxt eləyən gözlərə xunxar deyim?

Yusifoğlu, küləyəm, mən əsirəm yar bağına,
Gedirəm, sevgilinə ayrı sözün var, deyim?...

**10.10.2021**

***

Cananı qoyub, ayrı yerə can gedə bilməz,
Cananı sevən qorxaq olub can güdə bilməz...

Aludə edib dərdlərə dünya məni, neynim?
Hər qəlbisınıq ağrı ilə cəng edə bilməz...

Leysan ələnir üstümüzə, cumculuq olduq, –
Eşq atəşini adi yağış səngidə bilməz...

Öndə əbədi ayrılığın bayrağı vardır,
Vaxtı, zamanı kimsə tutub ləngidə bilməz...

**22.12.2021**

## ŞƏBİ-YELDA GECƏSİNDƏ

Çox şey umuram sanma, gülüm, mən bu fələkdən
Tənhamı qalım söylə, bu sevda küçəsində?
Bəxtim mənə yar oldu, ürək əsdi fərəhdən,
Oldun qonağım sən şəbi-yelda gecəsində...

Eşq çeşməmizin gör nə zamandan gözü lildir,
Heç sırsıra tutmuş ürəyi şam isidərmi?
Həsrət oduna qovruluram mən neçə ildir,
Təşnə olana bir şəbi-yelda bəs edərmi?

**27.11.2021**

## SEVDALAR DƏNİZİNDƏ

Səsin –
Həsrətdən  çat-çat olan
ürəyimə məlhəmdi;
Sevgi nuru görürəm
mən üzündə...
Nəfəsin –
Sevdalı külək,
Ürəyim –
Yelkənli gəmidi;
Bəxtəvər-bəxtəvər üzürəm
Sevdalar dənizində....

**01.01.2022**

***

Həyəcanını nə qədər
gizləmək istəsən də,
Həyadan
Yanaqların pörtüb…
İntizar külü
Sevgi közlərinin
üstünü örtüb…
O gizlənən ocağın
sehrli açarı
Mənim ciyərimin
içindədi…
Nəfəsim –
külü göyə sovurmaq,
Kösövü közərtmək
gücündədi…

**21.07.2021**

# GÖZƏLLİK

Gözəl görəndə ağlımız
başımızdan çıxır.
Gözəl görəndə
gözlərimiz önündə
şimşəklər çaxır,
İçimizə sevgi yağışları yağır…
Elə ki, sıldırımda bitən
gözəl bir çiçək
bizi yanına səsləyir,
unuduruq ki,
gözəllik libasına bürünən
əzablar, iztirablar
yolumuzu gözləyir…
Gözəllik təşnələri
riyakarcasına
özlərini öyürlər,
Sevgi xəmirini iztirabla,
göz yaşı ilə yoğura-yoğura….
"Dünyanı gözəllik xilas
edəcək", – deyirlər…
Ancaq gözəllik deyilmi
bizi yolumuzdan çıxaran?
Gözəllik deyilmi
bizi rüsvayi-cahan eləyib
dillərə salan?
Gözəllik deyilmi
bizi Məcnuna döndərib
çöllərə salan?

**19.07.2021**

## DƏNİZ HOPUB CANIMA

– Qəlbimdə təpər yoxdu
Təzədən vurulmağa.
Coşqun sellər məhkumdu
Nə vaxtsa durulmağa…
Zarafatla deyirsən:
– Sənin dalğa qolların
Həmişə müntəzirdi
Boynuma sarılmağa…

– Gözəllik dəlisiyəm,
Ay qız, məni qınama!
İçimdə tufan qalxır
Sən gələndə yanıma.
O qədər çimmişəm ki,
mavi sular qoynunda
Dəniz hopub canıma,
Dəniz hopub qanıma…

**27.07.2021**

***

Ayrılıq qılıncı
hələ bir kimsəyə
verməyib aman, –
Dünyanın işi belədi,
üzülmə, yavrum üzülmə!
Səni gündən-günə
gözəlləşdirən zaman
Hər gün yeni qırışlar salır
mənim üzümə...

**2021**

**SEVGİ KÜLƏYİ**

Əsən sevgi küləyi
Gəlib içimdən keçir.
Buza dönən qəlbimi
Dəlib içimdən keçir.

Hey hıçqıran könlümü
Ovundurur, kiridir.
Qoca dağın üstündə
Bəyaz qarı əridir...

Sığalı sinəmdəki
Ağrıları götürür.
Gülü solan qəlbimə
Təzə hava gətirir...

Küskün, yorğun baxışlar
Elə bil ki, dincəlir.
Ləçəyini don vuran
Bəyaz  güllər dirçəlir...

Qar əriyir, çaylara
Təzə bir avaz gəlir.
Əsir sevgi küləyi
Ürəyimə yaz gəlir.

**20.11.2021**

***

Qoyma ki, ürəyi sına,
Sevdiyini bir də sına!

**2022**

## SEVGİLƏR

Qəlbimdə sel kimi çağlayar sevgilər,
Məni bu həyata bağlayar sevgilər.
Ürəyim titrəyən bir mizrab kimidir,
Ruhumu ovxarlı saxlayar sevgilər!

**23.12.2021**

***

Qarabağda bir qız sevdim, adı İncidir,
Mən qocaman bir zərgərəm, o, saf incidir...
Aramıza düşən hər il mina kimidir, –
İntizarı, ayrılığı məni incidir...

**05.11.2021**

***

Dodaqlarının tamı
Hərdən məni aldadır.
Üst dodağın qaymaqlı,
Alt dodağın bal dadır...
Həyəcandan çaşıram,
İtirirəm balansı. –
Qaymaq hansı,
Bal hansı?

**15.03.2022**

***

Hey ödəyir
dikbaşlığın bədəlini,
Bəlkə sevgi
ram eləyə bu dəlini?

**14.03.2022**

***

Bilmirəm
nə qədər yaşayacaqsan
Ayrılığın əlləri yaxanda? –
Həsrətindən rəng alan
Sarı çiçəyin
sapsarı ləçək kirpikləri
niyə yumulur görəsən
Sən ona sarı baxanda?

**24.03.2022**

## ELƏSİN

Əmək biçarə meymunu
Çətin ki, adam eləsin.
Hamının gücü yetirmi
Yarımçığı tam eləsin?

İşarır ocağn közü,
Yol çəkir şairin gözü,
Gecə nur saçan ay üzün
Yuxumu haram eləsin.

Arzular dönür xəzələ,
Tez gəl, ruhumu təzələ,
Nəsib olmaz hər gözələ
Dincliyi edam eləsin!

Qəlbdə həsrət naxışları,
Yağır payız yağışları,
Sevda dolu baxışların
Ürəyimi ram eləsin.

Dinləyim titrək səsini,
Qoxlayım gül nəfəsini,
Aç yaxanın düyməsini,
Gözlərim bayram eləsin...

**17.10.2022**

## MƏHƏBBƏT VƏ NƏĞMƏ

Hara gəldi yel əsir,
Verərlərmi yelə sirr?
Uca dağın köksündə
Düşəcəkmi yel əsir?

Mizrab açır simə sirr,
Həyəcandan sim əsir.
Titrəyən barmaqlara
Düşüb sarı sim əsir...

Güc edir ürəyə sirr,
Sevgidən ürək əsir.
O ilahi gözlərə
Düşübdür ürək əsir...

Sevgidən şirin nə var?
Nəğmə – sərvət,
nəğmə – var.
Titrəməkdə, əsməkdə
Məhəbbət var,
nəğmə var...

**05.06.2022**

*******

Mizanım sənindir,
Ölçüm sənindir.
Çölüm özgənindir,
İçim sənindir...
Ya dilən,
Ya dillən, –
Seçim sənindir...

**2022**

*******

Sanma ələyim ələnib,
Xəlbirim göydə fırlanır.
Bir yol gözümə baxanın
Sevgidən üzü nurlanır...

**2022**

*******

Təmənnan nədir görəsən,
Fırlanırsan hey başıma?
Guya dönmək istəyirsən
Mənim könül sirdaşıma.

Təbəssümə bələdiyin
İynə ilə gor qazırsan...
Qəlbi təmiz olanları
Tora salmağa hazırsan...

Mələk libaslı iblissən,
Könül yaxır işvələrin.
Dostluğu çətin ki, tuta
İşgörənlə işverənin...

**17.07.2022**

# KİTABIN İÇİNDƏKİLƏR

## "Sevdalı ömür yaşadım" kitabından

"Gözlərin dikilibdir" ........................................................3
"Qürbətdə çox darıxmışam" ................................................3
"Təyyarənin qanadı" .........................................................3
Bu boyda dünyada özünə yer tapa bilməyən adam.................4
Dünya elə həmin dünyadı.....................................................5
Qürbət...................................................................................5
Təkrar....................................................................................6
Xatirə ağacının kölgəsi..........................................................7
"Mənə "həmişə istirahətdə" deyənlər"..................................8
"Sakit okeanın" .....................................................................8
"Ayrılıq əzablarına" ..............................................................9
"Qarışqa üçün bir qaşıq su ilə"...............................................9
Yurda bənzər yurd gəzirəm..................................................10
Salam, Mark Tven................................................................10
Sən hardan çıxdın qarşıma...................................................11
Buluddan ayrılan yağış.........................................................12
Çadırdan boylanan nisgilli gözlər.........................................12
Özgə adıyla dostluğuma daxıl olan "dost"lara.......................13
"Əsrlər boyu"........................................................................14
"Macalımız da yoxdu"..........................................................14
Qısa qapanma.......................................................................15
"Adam bu kişiyə baxanda"...................................................16
"Ömrüm boyu".....................................................................16
Tutuquşular..........................................................................17
"Sizi sevənlərin qədrini bilin"...............................................18
Heyvanxanada......................................................................18
Yaxşılıq və pislik..................................................................19
Üzümə bağlı yollar...............................................................19
Bomboş küçələr....................................................................20
Baba və nəvə.........................................................................21
"İstini paylaş"........................................................................22
"Ötən günlərə".......................................................................22

"Neçə ki, ordasan"..........22
"Oxumaq istəyirəm"..........22
"Gedəndə"..........22

## Bodrumda düşüncələr

"Səhra da çəmənzara"..........23
İztirab zəlzələləri..........23
Xəyanət qayıqları..........24
Üzü dənizə sarı..........25
Sıldırımda qəbirlər..........26
"Elə bil bizim kimi"..........27
Qum zanbaqları..........27
"Mən dağlar oğluyam"..........28
"Bu it özgəyə yox"..........29
Şəkil çəkdirəndə..........29
Adi həqiqət..........30
"Mənimki mənə dəyir"..........31
Zamanın ələyi..........31
Sən məni özünçün sev, sevə bilsən..........32

## Sevgi qəfil gələn selə bənzəyir

Göydə Tanrı kəsib nikahımızı..........33
Yaralı durna tək..........34
Sevgi qatarına geciksən əgər..........35
"Bacarsan sev məni, oxşa, əzizlə"..........36
Sevginin əlindən çətin qaçasan..........36
Sevgini ürəkdə gizləmək olmur..........36
Sevgi seli və bəndə hasarı..........38
"Dənizsən, tənhayam sahilində mən"..........38
Əgər sən istəsən..........39
Niyə belə gec gəlmisən dünyaya..........40
Qış yağışı..........42
Bu yaz sabahında..........43
İlk bahar yağmuru, sevgi günəşi..........44
Sevgi göylərimin ayı sən oldun..........45

Bu dünya gözündən düşəcək sənin...........................................46
Həsrət sazağında üşüyən çiçək...............................................46
Köksümdə bitən çiçək.........................................................47
Hərdəmxəyalları sevə bilmədim..............................................47
“Sözlərinə vurulub uydun bir sərsəriyə”...................................48
Sən elə ucasan...................................................................48
Söz adi olsaydı...................................................................49
“Qəlbim nurla dolar baxsan da gendən”...................................49
Sevgi yağışı altında............................................................50
Zərif gülün üstünə payız yelləri əsib........................................50
Etiraf................................................................................51
Düzünü de.........................................................................52
“Nə qədər durub gendən baxım sənin xalına”...........................52
Sən bir sevgi çiçəyisən.......................................................53
“Unutmaq, unudulmaq söylə, kimə xoş gələr”..........................53
Dəniz, dəniz sevdalı şair və dəniz gözlü qısqanc qız................54
Altılıqlar...........................................................................55
Sahibsiz ada......................................................................55
“Sevə bilməz kimsəni”.........................................................56
Dördlüklər.........................................................................56
Sevgi dünyamın laləsi.........................................................57
Dəniz gözlüm....................................................................57
Sən sevgi bağımda təzə fidansan...........................................58
Bəlkə ilham pərimsən..........................................................58
“Qürbət alıb əldən mənim Əfsanəmi yoxsa”............................60
“Eşq bağında yetişən meyvələri - barı sevim”..........................61
“Sevgilim, mən nə qədər səndən əgər olsam uzaq”..................61
“Qısqanclıq atəşi yandırır, yamandır”.....................................62
Sevgim həqiqət oldu...........................................................63
Sevgi çiçəyi.......................................................................64
Sevgi arxımız.....................................................................64
Unutmaq olmur..................................................................65
“Dəniz, sevgilini aldım”.......................................................66
Sevgi məni tək buraxmaz.....................................................66
“Yenəmi üstümüzə”............................................................67
Mən səni çiçək sanırdım.......................................................68
Sarı çiçək və arı..................................................................69
“Solan sevgi gülünü”...........................................................70

"Ötən sevgi əzabıyla"........................................................70
Mənim sevgi günəşim.........................................................70
"Yazırsan ki, əvvəl-axır"....................................................71
"Günəşə don geydirsən".....................................................71
Şəbi-yelda.......................................................................72
Nə yaxşı ki.......................................................................72
İlham pərisinin gileyi........................................................73
"Gözüm qara xalında"........................................................73
Sarı çiçək, arı və sevgi rüzgarı...........................................74
"Niyə səsin kəsildi"...........................................................74
"Sən günəşsən, mən dəniz"................................................74
"Necə onu fəth eləyim".....................................................75
Qocalan sevgi..................................................................75
Qaraya bürünən qadın.......................................................76
"Yurdumun düzlərində".....................................................76
"Danışma ayrılıq haqda"....................................................76
Qürbət buludu..................................................................76
"Bu dünyada taparsan"......................................................77
"Kimin oğlu, qızı yoxdu"...................................................77
Bənövşə ömrü...................................................................77
"Siz"dən "biz"ə..................................................................78
Nə qalıb ki........................................................................78
"Eşqin zülmət gecəsini".....................................................79
"Arzum da, diləyim də sən"...............................................79
Nə deyirlər desinlər..........................................................79
Çəkirəm...........................................................................80
Xallı gözəl........................................................................81
Özünü qoru......................................................................82
Sevgi məlhəmdi................................................................82
"Ən gözəl çiçəklər də".......................................................83
"Qadın – qəlbimizdə işıq"...................................................84
"Sevginin önündə qürur"...................................................84
"Rüsvay gərək həmişə aşiq"................................................84
Dəniz sahilində günəşı seyr edən qız..................................84
Qəlbimi sevinc ilə doldura bilsən.......................................85
Geriyə yol varmı...............................................................86
"Qoyma qalxım mən zilə"..................................................86
"Bu da təzə siyahı"............................................................86

Qaratikan, daş, mən və sən.....87
“Qiymət vermə gözəyarı”.....87
“Mənə könlünü ver, gül”.....87
“Saçlarım bəmbəyazdı indi”.....88
Çalış ki.....88
Dəli bir sevda.....89
Sinəüstü kitablar.....89
“Çox şükür”.....91
“Gör bizi haralara çəkib apardı”.....91
Yəqin bilirsən ki.....91
“Ona sarı can atır”.....92
“Mən bir sevgi ağacıyam”.....92
Utancaq məhəbbət.....93
Qar köynəyin altında üşüyən bənövşə.....94
Bütün həsrətlərə son qoyulsa.....94
“Sevməli o qədər qəşəng”.....95
Sevdalı bəbəklər.....95
Bəyaz nağıl.....95
Eşq şimşəyi.....96
Muzeydə işləyən qız.....97
“Mən xatirələr dünyasının”.....98
Sən məndən şeir istəmişdin.....98
İlham və ilham pəriləri.....99
Dəli və dəli sevda.....100
Mənim sevdiyim insan.....101
“Başıma min oyun açıb”.....101
“Bəsdi dikbaş gəzdiyin”.....101
Utancaq sətirlər.....102
